# YOL NİŞANLARI VƏ HƏRƏKƏTİN TƏHLÜKƏSİZLİYİ

# Mündəricat


1

| | |
|---|---|
| **Mövzu 1** | Yol hərəkətinin təhlükəsizliyi məsələlərinə dair beynəlxalq konvensiyalar<br>Tanışlıq, fənnin məqsəd və mövzularının müəyyənləşdirilməsi |
| **Mövzu 2** | Yol hərəkətinin təhlükəsizliyi haqqında Gürcüstan Qanunu və onda istifadə olunan terminlər |
| **Mövzu 3** | Yol hərəkətinin təhlükəsizliyi sahəsində dövlət siyasəti. Yol hərəkətinin təhlükəsizliyinin təminatı tələbləri |
| **Mövzu 4** | Yol nişanları və onların xarakterizə edilməsi -Xəbərdarlıq nişanları |
| **Mövzu 5** | Yol nişanları və onların xarakterizə edilməsi - Üstünlük nişanları, qadağan nişanları |
| **Mövzu 6** | Yol nişanları və onların xarakterizə edilməsi - Göstərici nişanlar |
| **Mövzu 7** | Yol nişanları və onların xarakterizə edilməsi -Məlumatverici nişanlar |
| **Mövzu 8** | Yol nişanları və onların xarakterizə edilməsi - Servis nişanları, əlavə məlumat nişanları (lövhəciklər) |
| **Mövzu 9** | Yol işarələri - üfüqi (horizontal) işarələr |
| **Mövzu 10** | Yol işarələri - şaquli işarələr |
| **Mövzu 11** | Yol hərəkəti qaydaları - sürücünün ümumi vəzifələri. Nəqliyyat vasitələrinin istismara buraxılması. Vəzifəli şəxslərin öhdəlikləri. Nəqliyyat vasitəsinə bərkidilən tanınma işarələri. |
| **Mövzu 12** | Xüsusi siqnalların istifadəsi. Piyadanın və sərnişinin vəzifələri. |
| **Mövzu 13** | Svetofor və nizamlayıcıların siqnalları. Qəza işıq sinqalı. |
| **Mövzu 14** | Hərəkətə başlama, manevrə etmə. Nəqliyyat vasitələrinin baş yolda nizamlı düzülüşü. Hərəkətin sürəti. |
| **Mövzu 15** | Ötmə, qarşıdan gələni yandan ötmə. Nəqliyyat vasitəsinin dayanması və durması. |
| **Mövzu 16** | Yolayırıcını keçmək. Piyadaların keçidi və marşrut nəqliyyat vasitələrinin dayanması. Dəmiryol keçidlərində hərəkət. Avtomagistralda hərəkət. Yaşayış zonasında hərəkət. Marşrut nəqliyyat vasitələrinin üstünlüyü. |
| **Mövzu 17** | Çöl işıqlandırıcı cihazlardan və səsli siqnallardan faydalanmaq. Yedəyə almaq. Sürmə təlimi. Sərnişinlərin daşınması. Yük daşınması. Velosiped, moped, at arabalarına (kirşələrə) olan tələblər. |
| **Mövzu 18** | Gürcüstanda yol hərəkətinin təhlükəsizliyinin təmin edilməsi haqqında qanun pozuntuları üçün məsuliyyət. Gürcüstan İnzibati Hüquq Pozuntuları Məcəlləsindən Çıxarış – yol hərəkəti qaydalarının pozuntuları. Bu pozuntular üçün Gürcüstan Qanunvericiliyi ilə inzibati məsuliyyət nəzərdə tutulur |

## İntizamın məqsədidir:

- Dinləyici yol hərəkətinin təhlükəsizliyi sahəsində vahid beynəlxalq standartların zərurəti məsələsini dərk etsin;
- Dinləyici beynəlxalq hüquq normaları ilə tanış olsun;
- Dinləyici yol hərəkətinin təhlükəsizliyi sahəsində milli qanunvericiliklə tanış olsun;
- Dinləyici yol hərəkəti qaydalarının pozuntusu halında Gürcüstan qanunvericiliyi ilə nəzərdə tutulmuş inzibati məsuliyyət məsələləri ilə tanış olsun.

# Mövzu # 1

# Yol hərəkətinin təhlükəsiziyi məsələlərinə dair beynəlxalq konvensiyalar

## Yol nişanları və yol hərəkəti qaydalarının yaranma tarixi

Ənənəvi anlamda demək olar ki, yol nişanları insanlar tərəfindən xüsusi yaradılmış və yolun kənarında yerləşdirilmiş əşyalardır. Onunla yoldan istifadə edənlərə onlar üçün lazımi istiqamətlər, yaşayış yerləri, bu yerlərə qədər ehtimal məsafələr haqqında məlumat verirlər, eləcə də digər, səyahət zamanı lazımi və uyğun informasiya verirlər. Əgər bu izahatları nəzərə alsaq, təbii ki, fikir yaranacaqdır ki, yol nişanları avtomobil meydana gəlməzdən çox əvvəlki dövrdə ortaya çıxmışdır. Bu fikir həqiqətdir. Onu tarixi faktlar da təsdiqləyirlər. Bəşəriyyətin inkişafına uyğun olaraq insanlardan ibarət ayrı-ayrı qruplar arasında müəyyən nişanlarla birləşdirilmiş əlaqənin zərurəti lazım gəldi. Bu əlaqələrin sivil təyinatlarından biri qarşılıqlı mübadilə, yəni ticarət məqsədləri ilə həyata keçirilən səyahətlər ola bilərdi, amma səyahətlər başqa-başqa məqsədlərlə ola bilərdi, məsələn, missioner, tanışlıq hərəkətləri və s. Əlaqələrin ilkin mərhələsində səyyahlar quruda hərəkət zamanı nisbətən sadə, təbii maneələrdən azad olan ərazilərdən faydalanırdılar. Amma daha sonralar, dövlətlər formalaşdıqda ictimai əlaqələrin təkmilləşməsi ilə zərurət yarandı ki, səyahət və əlverişli şərait üçün süni düzəldilmiş, təbii maneələrdən təmizlənmiş istiqamətlər yaradılsın, yəni dövlətdaxili və dövlətlərarası yollar. Qeyd edilən yollardan həm piyadalar, eləcə də atla və ya araba ilə hərəkət edənlər faydalanırdılar. Məhz bu proses yol mədəniyyətini inkişaf etdirdi. Uzunmüddətli səyahətə cəlb olunan insanlar üçün istirahət yerlərinin olması zərurəti baş qaldırdı. Müvafiq olaraq informasiya daşıyan əşyalar da yarandı. Bu əşyalar istənilən obyektlərə qədər məsafənin və ya istiqamətin göstəricilərini təqdim edirdilər.

Ən erkən yol nişanları haqqında bizə qədər gəlib çatan məlumat "Nişan ağaclarıdır". Onlardan məsafəni göstərmək və ya informasiya əldə etmək üçün istifadə olunurdu. Roma İmperiyasında daş sütunlar yerləşdirilmişdi, onların üzərində Romaya qədər məsafə qeyd olunurdu. Orta əsrlərdə yolayrıclarında çoxistiqamətlilik göstəriciləri yayılmışdı. Bu göstəricilər şəhər və qəsəbələrin yerləşdiyi istiqamətlər barədə məlumat verirdilər.





İlk müasir yol nişanları geniş şəkildə istifadə üçün hündür və adi velosipedçilər üçün XIX əsrin 70-ci illərinin sonunda və 80-ci illərin əvvəllərində hazırlanmışdı. Həmin dövr üçün velosipedlər kifayət qədər sürətli, səssiz və çətin idarə olunan idilər, bundan əlavə velosipedlərlə tanış olmayan yollarla uzaq məsafələrə səyahət etmək çox yayılmışdı. Belə bir səyahət üçün o dövrün "velosipedçilər təşkilatları" (göründüyü kimi, onlar var idilər) yol nişanlarından istifadə etməyə başladılar. Bu nişanlar velosipedçiləri təkcə təyinat obyektlərinin istiqamətləri və bu obyektlərə olan məsafələr barədə deyil, eləcə də təhlükəli sahələr, xüsusilə sıldırım qayalar haqqında xəbərdar edirdilər. Beləliklə də, hazırda geniş şəkildə yayılmış xəbərdaredici yol nişanlarının tipi həmin dövrdə meydana gəldi.

On doqquzuncu əsrin sonlarında dünyada ilk avtomobillər meydana gəldi, Fransada 1893-cü ildə, İngiltərədə 1896-cı ildə və elə həmin dövrdə də Almaniyada. Bu hadisə yol nişanlarının inkişafına səbəb oldu. Müasir nişanların ilk sistemi İtaliyada turist klubu tərəfindən 1895-ci ildə işlənib hazırlandı. 1900-ci ildə Parisdə Beynəlxalq Turizm Təşkilatı liqasının konqresində yol qaydalarının standartlaşma məsələləri müzakirə olundu. Lakin həmin müddət üçün ölkələr arasında vahid fikir formalaşmamışdı ki, yol hərəkəti hansı tələblərə tabe olsun. Avropanın ayrı-ayrı ölkələrinin və şəhərlərinin "özügedən ekipajların" yaratdıqları təhlükənin keyfiyyəti üzrə öz fikirləri və nəzər nöqtələri var idi. Onlardan hər biri yol hərəkətinin təhlükəsizliyinin fərdi standartlarını işləyib hazırlamağa çalışırdılar.

1903-cü ildə Britaniya Krallığı dörd milli yol nişanını qəbul etdi, amma yol nişanlarının əsas formaları 1908-ci ildə Romada keçirilən beynəlxalq avtomobil konqresində qəbul edildi. Yol hərəkətinin hüquqi standartlarına Almaniyanın xüsusi baxışı var idi.

20-ci əsrin əvvəllərində qanun fəaliyyət göstərirdi, ona əsasən avtomobillərin hərəkətinə yalnız müəyyən günlərdə və yerli idarəçilər tərəfindən müəyyənləşdirilmiş yollarda icazə verilirdi. İsveçrədə "sürətli" hərəkət məcburi idi ki, işlənmiş qaz piyadaları narahat etməsin. Rusiyada avtomobil sürücüləri at faytonlarının hərəkəti ilə marşrutun kəsişdiyi zaman dayanmağa məcbur idilər ki, heyvanları qorxutmasınlar və s.



***Karl Fridrix Benç*** – onun tərəfindən icad edilən patent avtomobilə, benc-1



Dünyada son 100 il ərzində nəqliyyat vasitələrinin sayı və buna uyğun olaraq nəqliyyat hərəkətlərinin artmasına görə, dünyanın bir çox ölkələri şəkilli yol nişanlarını işləyib hazırladı, ya da onları başqa cür sadələşdirdi və bununla da beynəlxalq hərəkət asanlaşdırıldı. Müasir Avropada yol nişanlarını tanımaq üçün dil maneəsi problem yaratmır və bu da öz növbəsində yol hərəkətinin təhlükəsizlik göstəricilərini artırır. Belə bir nişanlarda sözlərin əvəzinə əsasən simvollar və siluetlərdən istifadə olunur. Onlar beynəlxalq protokollarda bərqərar olunmuşlar. Bu tip dövlətlərarası razılıqlar ilk dəfə Avropa məkanında yarandı.

İlk beynəlxalq razılıq Parisdə 1909-cu ilin oktyabrın 11-də qəbul olundu – "Avtomobillərin yerdəyişməsi haqqında" konvensiya. O, 15 maddədən və nəqliyyat vasitələrinə və sürücülərinə qarşı irəli sürülən zəruri tələblərin siyahısından ibarət idi. Bu konvensiya öz məzmunu ilə artıq o zaman avtomobillərin konstruksiyasının problemlərini və onların beynəlxalq hərəkətə buraxılmasını müzakirə edirdi. O zaman üçün mövcud olan dörd dairəvi formalı xəbərdarlıq nişanları vahid şəklə salındı.



a – kələ-kötür yol



b – sərt döngə



c – dəmiryol keçidi



d – yolların kəsişməsi

Həmin konvensiyada beynəlxalq kateqoriyalı sürücülük vəsiqəsinin forması işlənib hazırlandı. Qeyd edilən vəsiqə ilə sürücülərə başqa ölkələrin ərazilərində nəqliyyat vasitələrini idarə etmək hüququ verilirdi.

Bu istiqamətdə növbəti addım yenə də 1926-cı ilin aprelin 24-də Parisdə atıldı. İki yeni konvensiya imzalandı: "Avtomobil hərəkəti haqqında" beynəlxalq konvensiya və "Yol hərəkəti haqqında" beynəlxalq konvensiya. Bu konvensiyaların məqsədi 1909-cu il konvensiyasını dəyişdirmək və onu genişləndirmək idi. Əvvəlki razılaşmadan fərqli olaraq yeni konvensiya beynəlxalq hərəkətdə iştirak edən avtomobillərə qarşı irəli sürülən tələbləri ətraflı şəkildə əhatə edirdi və ən əsası mövcud olan dörd dairəvi formalı xəbərdarlıq nişanlarının formaları dəyişildi və onlara üçbucaq forması və dörd yeni xəbərdarlıq nişanı verildi. Xüsusilə də "dayanmaq məcburidir" və "dəmiryolunun mühafizə olunmayan keçidi".



kələ-kötür yol



sərt döngə



yolların kəsişməsi



dəmiryol keçidi



dəmiryolunun mühafizə olunmayan keçidi



dayanmaq məcburidir

Qeyd etmək lazımdır ki, 1926-cı ildə konvensiya yol nişanları və siqnalları haqqında məsələləri tam şəkildə əhatə etmirdi. Bu problemi aradan qaldırmaq üçün 1931-ci ilin martın 30-da Cenevrədə "Yol siqnallarının vahid şəkli haqqında" konvensiya qəbul edildi. Konvensiyada yol nişanlarının sayı 26-ya qədər artırıldı. İlk dəfə onları qruplara böldülər: xəbərdarlıq, göstərici və məlumatverici nişanlar.

Avropaya paralel olaraq yol hərəkətinin vahid beynəlxalq sistemlərdə işi ikinci yarımkürədə də davam edirdi. 1943-cü ilin dekabrında Vaşinqtona toplaşan Amerika qitəsi dövlətlərinin nümayəndələri pan-Amerika təşəbbüsü ilə "Amerika ölkələri arasında avtomobil hərəkəti qaydaları haqqında" konvensiyanı qəbul etdilər. Bu regional konvensiyada nişanların və siqnalların problemləri müzakirə olunmurdu.

İkinci dünya müharibəsində sonra 1947-ci ildə Birləşmiş Millətlər Təşkilatının Avropa İqtisadi Komissiyası yaradıldı. Komissiyanın əsas məsələsini yol hərəkəti təşkilatının vahid beynəlxalq tələbləri qaydalarının işlənib hazırlanması təşkil edirdi. 1926 və 1931-ci illərin konvensiyalarının köhnəldiyi qeyd edilirdi və Birləşmiş Millətlər Təşkilatının Avropa İqtisadi və Sosial Şurası 1948-ci ilin avqustun 28-də 147 (VII) rezolyusiya əsasında qərar qəbul etdi ki, Cenevrədə Birləşmiş Millətlər Təşkilatının "Yol və avtomobil nəqliyyatı haqqında" konvensiyanın razılaşdırılması üçün konfrans keçirilsin. Bu konfransın işi Birləşmiş Millətlər Təşkilatının Avropa İqtisadi Komissiyasının daxili nəqliyyat komitəsi konvensiyasının layihəsinə və 1943-cü ilin "Amerika ölkələri arasında avtomobil hərəkəti qaydaları haqqında" konvensiyaya əsaslanırdı. Yekunda ikiillik işdən sonra 1949-cu ilin avqustun 23-də Cenevrədə "Yol hərəkəti haqqında" beynəlxalq müqavilə imzalandı və "Yol nişanları və siqnalları haqqında" xüsusi protokol qəbul edildi. Qeyd edilən müqaviləyə Şimali və Cənubi Amerika ölkələri qoşulmadılar. Bunun əsas səbəbi ingilisdilli Amerika ölkələrinin Avropa ölkələrindən fərqli olan yol nişanlarında simvolların əvəzinə yazılardan istifadə etmələri idi.

Sonralar dövlətlərarası əlaqələrin inkişafı öz növbəsində yol hərəkətinin təhlükəsizlik sahəsində beynəlxalq standartların təkmilləşdirilməsi zərurətini yaratdı. 1966-cı ilin iyulunda Birləşmiş Millətlər Təşkilatının Avropa İqtisadi və Sosial Şurası qərar qəbul etdi ki, qeyd edilən mövzu ilə əlaqədar gələcək konfransın işi üçün iki konvensiya layihəsinin işlənilməsi məqsədəuyğundur və bunlar ölkələrə və maraqlanan təşkilatlara göndəriləcəkdi ki, onlar komissiya üçün lazımi təkliflərini və qeydlərini göndərə bilsinlər.

Qeyd edilən işlərin nəticəsində dünya ölkələrinin nümayəndələrinin 1968-ci ilin oktyabrın 7-də konfransı baş tutdu və noyabrın 8-də sona çatdı. Bu toplantı Vyana konfransı adı ilə tanınır. Onun işində 71 ölkə iştirak edirdi. Beş ölkə müşahidəçi statusu ilə əlavə olaraq dəvət edilmişdi. Konfransda iki çoxəhəmiyyətli beynəlxalq müqavilə imzalandı: "Yol hərəkəti haqqında" və "Yol nişanları və siqnalları haqqında" konvensiya.

Vyana konvensiyalarının qəbulundan sonra 1971-ci ildə Avropa razılaşması işlənib hazırlandı və o, konvensiyaları tamamladı və ayrı-ayrı maddələri konkretləşdirdi. Məsələn, xəbərdarlıq nişanlarının üçbucaq (Avropa sistemi) və romb (Amerika sistemi) formalarını müəyyənləşdirdi. 1968-ci il Vyana konvensiyası ilə Qadağan nişanlarına qırmızı rəngdə əyri zolağın daxil edilməsinə icazə verildi, 1971-ci ildə qəbul edilmiş Avropa razılaşması belə bir zolağın daxil edilməsini məcburi hesab etmədi.

1973-cü ildə Birləşmiş Millətlər Təşkilatının Avropa İqtisadi Komissiyası tərəfindən "Yol işarələri haqqında" Avropa Razılaşması Protokolu qəbul edildi. Protokol "Yol nişanları və siqnalları haqqında" Vyana konvensiyasını tamamladı və ayrı-ayrı maddələri konkretləşdirdi. Qeyd edilən razılaşmanı və protokolu nəzərə almaqla "Yol hərəkəti haqqında" Vyana konvensiyası 1977-ci ilin mayın 21-də, "Yol nişanları və siqnalları haqqında" Vyana konvensiyası isə 1978-ci ilin iyunun 6-da hüquqi qüvvəyə mindi.

Gürcüstan bir müstəqil dövlət olaraq qeyd edilən beynəlxalq hüquqi aktlara 20-ci əsrin 90-cı illərində qoşuldu.

Beləliklə, yol hərəkətinin təhlükəsizliyi və təşkili sahəsində əhəmiyyətli beynəlxalq aktları 1968-cil ildə razılaşdırılmış

- **"Yol hərəkəti haqqında" konvensiya;**
- **"Yol nişanları və siqnalları haqqında" konvensiya;**

eləcə də 1971-ci ildə bu konvensiyaların əlavələri haqqında Avropa razılaşması təqdim edir.

Ölkələr tərəfindən qeyd edilən konvensiyalara birləşmək və sonralar onların ratifikasiyasının səbəbi yol hərəkətinin vahid beynəlxalq sisteminin yaradılması idi. Bu sistem imza atan ölkələr arasında beynəlxalq avtomobil daşınmalarının aparılmasını asanlaşdıracaq, yollarda hərəkətin təhlükəsizliyini artıracaqdı. Bu məqsədlə ölkələr qanunvericiliklərini beynəlxalq standartlara uyğunlaşdırmaq öhdəliklərini üzərlərinə götürdülər.

Bütün yuxarıda qeyd edilənləri nəzərə alaraq Gürcüstan Konstitusiyasına uyğun olaraq bu beynəlxalq hüquqi aktlar milli qanunvericiliyin orqan hissəsini təqdim edir. Bundan irəli gələrək yol hərəkətinin təhlükəsizliyi sahəsində çalışan şəxslər üçün onları bilmək məcburidir.

"Yol hərəkəti haqqında" konvensiya altı fəsildən və 56 maddədən ibarətdir və ona yeddi qoşma əlavə olunur. Bu konvensiyaya imza atan bütün ölkələrin "Yol nişanları və siqnalları haqqında" konvensiyasına imza atmadıqları gerçəkliyi nəzərə alaraq onlarda verilən bəzi qaydalar tamamilə və ya cüzi fərqlərlə bir-birinə uyğundur.

Konvensiyanın preambulasında deyilir ki, bir növ hərəkət qaydalarını qəbul etməklə beynəlxalq yol hərəkətini asanlaşdırmaq və yollarda təhlükəsizliyi artırmaq istəyi ilə müqaviləni imzalayan tərəflər əhəmiyyətli qaydalar üzərində razılaşsınlar. Qeyd edilən məsələlər konvensiyada maddələrdə yazılmışdır.

Birinci fəsildə ümumi qaydalar formalaşdırılmışdır:

- Konvensiyada istifadə edilən terminlərin izahatları;
- Konvensiyanın 7 qoşmasının aşağıdakı siyahısı:
  - Qoşma 1. Avtomobil və qoşquların beynəlxalq hərəkətə buraxılma öhdəliyindən kənarlaşması;
  - Qoşma 2. Beynəlxalq hərəkətdə olan avtomobillərin və qoşquların qeydiyyat nömrəsi;
  - Qoşma 3. Beynəlxalq hərəkətdə olan avtomobillərin və qoşquların fərqləndirici işarəsi;
  - Qoşma 4. Beynəlxalq hərəkətdə olan avtomobillərin və qoşquların tanınma nişanları;
  - Qoşma 5. Avtomobillər və qoşqular haqqında texniki şərtlər;
  - Qoşma 6. Sürücünün milli vəsiqəsi;
  - Qoşma 7. Sürücünün beynəlxalq vəsiqəsi;
- Müqaviləni imzalayan tərəflərin öhdəlikləri.

İkinci fəsildə yol hərəkəti qaydaları verilir. İmza atan tərəflər milli qanunvericiliyi bu qaydalara müvafiq olaraq formalaşdırırlar. Aşağıda bəzi qaydaların siyahısı verilir. Bu qaydalardır:

- Yol nişanları və siqnallarının əhəmiyyəti;
- Yol hərəkətini tənzimləyən səlahiyyətli şəxslərin siqnalları;
- Ümumi qaydalar, hansıları yol hərəkətinin hər bir iştirakçısı nəzərə almalıdır;
- Sürücülərin vəzifələri;
- Mal-qaranı ötürənlərə aid tələblər;
- Yolda sıralanma, avtomobillərə, velosipedlərə və s. aid olunur;
- Ötmə və sıralarda hərəkət;
- Qarşıdan gələni yandan ötmək;
- Sürət və məsafə;
- Manevrələrlə əlaqədar ümumi göstərişlər;
- Şəhər nəqliyyatının müntəzəm xətlərində daşınmanı yerinə yetirən nəqliyyat vasitələri ilə əlaqədar xüsusi göstərişlər;
- Hərəkətin istiqamətini dəyişdirmək;
- Yolayrıcları və yol vermə vəzifəsi;
- Piyadalar üçün göstərişlər;
- Dayanma və durma;
- Avtomagistrallar və oxşar növ yollar;
- Velosipedlər və mühərrikli velosipedlərin və motosikllərin sürücüləri ilə əlaqədar xüsusi qaydalar;
- Müvafiq işarə ilə qeyd edilən yaşayış zonalarında istifadə edilən xüsusi qaydalar ;
- Yolda təmir işləri və tikinti işlərini yerinə yetirən şəxslər üçün xüsusi qaydalar;
- Səsli və işıqlı siqnallar;
- Nəqliyyat vasitələrinin yükü;
- Sərnişinlərin daşınması;
- İşıqvermədən istifadə şərtləri və s.

Qeyd edilən tələblər yol hərəkətinin təhlükəsizliyi haqqında Milli qanunvericilikdə əks edilir.

Üçüncü fəsildə avtomobillərin və qoşquların beynəlxalq hərəkətə buraxılma şərtləri müəyyənləşdirilir.

- Qeydiyyat;
- Qeydiyyat nişanı;
- Qeydiyyat edən dövlət fərqləndirici nişanı;
- Tanınma nişan;
- Texniki tələblər, nəqliyyat vasitələrinə baxış və s.

Dördüncü fəsildə söhbət sürücülük vəsiqələrinin verilməsindən, onların etibarlılıq müddətindən və səlahiyyətlərinin dayandırılmasından gedir.

Beşinci fəsildə velosipedlərin və mühərrikli velosipedlərin beynəlxalq hərəkətə buraxılma şərtlərindən gedir.

Sonda, altıncı fəsildə Konvensiyaya birləşmə və onun ratifikasiya şərtləri, imza atan ölkələr ərazisində onun qüvvəyə minməsi, eləcə də onun etibarsız elan olunma şərtləri kimi yekunlaşdırıcı qaydalar formalaşdırılmışdır.

Konvensiyanın son maddəsində deyilir ki, ingilis, ispan, çin, rus və fransız dillərində bir nüsxədə tərtib edilmiş bu konvensiyanın əsli, bununla belə, bütün beş mətnlər eynidirlər və saxlanılmaq üçün Birləşmiş Millətlər Təşkilatının baş katibinə təhvil verilir. Baş katib lazımi şəkildə yoxlanılmış surətləri bu konvensiyada göstərilən hər bir ölkəyə göndərir.

Bunu təsdiq etmək üçün öz ölkələri tərəfindən lazımi şəkildə bunun üçün səlahiyyətli şəxslər bu konvensiyaya imza atırlar.

Konvensiya 1968-ci ilin noyabrın 8-də Vyanada yerinə yetirilmişdir.

Yol hərəkətinin təhlükəsizliyi sahəsində ikinci əhəmiyyətli beynəlxalq akt "Yol nişanları və siqnalları haqqında" konvensiyadır. O, altı fəsildən və 48 maddədən ibarətdir. Konvensiyanın preambulasında deyilir: tanınmışdır ki, eyni növ yol nişanları, siqnallar və yol işarələri beynəlxalq aspektdə beynəlxalq hərəkətin asanlaşdırılması və yollarda hərəkətin təhlükəsizliyinin artırılması üçün zəruridir. Müqaviləni imzalayan tərəflər növbətilər üzrə razılıq əldə etmişlər:

Konvensiyanın birinci fəslində ümumi qaydalar verilir:

- Bu nizamnamədə verilən terminlərin mənaları (yuxarıda qeyd etdiyimiz kimi onlardan bəzilərinin izahatı "Yol hərəkəti haqqında" konvensiyada istifadə edilən terminlərin izahatlarına uyğundur);
- Konvensiyanın üç qoşması. Bu qoşmalar konvensiyanın ayrılmaz hissəsini təşkil edir. Birinci qoşmada alt bəndlər var:
- Qoşma 1. Yol nişanları;
  - ✓ 1-ci hissə: xəbərdarlıq nişanları;
  - ✓ 2-ci hissə: üstünlük nişanları;
  - ✓ 3-cü hissə: qadağa və məhdudiyyət nişanları;
  - ✓ 4-cü hissə: göstərici nişanlar;
  - ✓ 5-ci hissə: xüsusi göstərici nişanlar;
  - ✓ 6-cı hissə: məlumatverici nişanlar, obyektləri bildirən və servis nişanları;
  - ✓ 7-ci hissə: istiqamət bildirən və məlumatverici-göstərici nişanlar;
  - ✓ 8-ci hissə: əlavə nişanlar (lövhəciklər);
  - Qoşma 2. Yolların nişanlanması;
  - Qoşma 3. Siqnal nişanlarının, qeydlərinin və lövhələrinin təsvirləri. Bunlar barədə birinci qoşmada söhbət gedir.
- Müqaviləni imzalayan tərəflərin vəzifələri;
- Müqaviləni imzalayan tərəflərin öhdəlikləri.

Konvensiyanın ikinci fəslində yol nişanları və siqnalları çeşidlənir. Bu konvensiyanın sistemində növbəti kateqoriyalı siqnal nişanlarını ayırırlar:

- Təhlükə haqqında xəbərdarlıq nişanları: bu nişanların məqsədi yoldan istifadə edənləri yollarda mövcud təhlükələr və onların xarakteri haqqında xəbərdar etsin.
- Məcburi göstəriş bildirən nişanlar: bu nişanların məqsədi yoldan istifadə edənləri riayət etməli olduqları öhdəliklərlə, məhdudiyyətlər və xüsusi qadağa ilə tanış etməkdir; onlar bölünürlər:
  - ✓ üstünlük nişanları;
  - ✓ qadağan və məhdudiyyət nişanları;
  - ✓ göstərici nişanlar;
  - ✓ xüsusi göstərici nişanlar;
- göstərici nişanlar: bu nişanların məqsədi yoldan istifadə edənlərə onların hərəkət marşrutları barədə lazımi informasiya və ya başqa faydalı məlumat verməkdir; onlar bölünürlər:
  - ✓ məlumatverici nişanlar, obyektləri bildirən və servis nişanları;
  - ✓ istiqamət bildirən və məlumatverici-göstərici nişanlar;
    - əvvəlcədən istiqaməti göstərən;
    - istiqaməti göstərən;
    - marşrut markaları;
    - yaşayışı göstərən;
    - təsdiqləyici nişanlar;
    - göstərici nişanlar;
  - ✓ Əlavə lövhəciklər.

Əgər ki, qarşıdakı konvensiya bir neçə nişanlar və işarələr arasında seçim imkanını verirsə, o zaman müqaviləni imzalayan tərəflər öz ərazilərində yalnız bir nişan və ya işarədən istifadə etməyi öhdəliklərinə götürürlər. Müqaviləni imzalayan tərəflər regional səviyyədə razılıq əldə etyməlidirlər ki, eyni nişan və ya eyni işarə seçilsin;

Nişanlar elə qoyulur ki, onlar üçün nəzərdə tutulan bu nişanları sürücülər asanlıqla və vaxtında başa düşə bilsinlər. Adətən onları hərəkət istiqamətinin yolun müvafiq tərəfində yerləşdirirlər, amma onlar yolun əsas hissəsinin yuxarısında da yerləşdirilə bilər. Əgər yerli şərtlər bu nişanın nəqliyyat vasitələrinin sürücüləri tərəfindən vaxtında görülməsinə imkan vermirsə, o zaman hər hansı bir nişan hərəkət istiqamətinin müvafiq tərəfində yolun əsas hissəsinin yuxarısında və ya yolun qarşı tərəfində təkrarlanmalıdır.

Yol nişanlarının, xüsusi xəbərdarlıq nişanlarının və məcburi göstərici nişanların, dayanma və ya durmanı müəyyənləşdirən nişanların yaşayış məntəqələrinin işıqlı yollarında yaxşı görünməsi və asanlıqla başa düşülməsi üçün gecə vaxtlarında onların işıqlanması və ya sayrışan material və ya cihazlarla olmaları məqsədəuyğundur, o şərtlə ki, onlar yoldan istifadə edənlərin gözlərini qamaşdırmasınlar.

Bundan sonra konvensiyada yol nişanlarının ayrı-ayrılıqlda hər bir qrupu xarakterizə edilir.

Üçüncü fəsildə yol hərəkəti iştirakçıları üçün yol fənər işıqları, yəni svetoforun siqnalları və hər bir rəngin təyinatı və tələbləri verilir.

Dördüncü fəsildə yol işarələri verilir. Konvensiyaya əsasən əsas hissədə işarələr (yolun işarələnməsi) o hallarda istifadə olunur, nə zaman ki, səlahiyyətli orqanlar hərəkətin tənzimlənməsi məqsədilə yoldan istifadə edənləri xəbərdar etmək və istiqamət üçün bunu

vacib hesab edirlər. Bu işarələr həm müstəqil, eləcə də digər yol-siqnal nişanları ilə birlikdə onların göstəricilərini gücləndirmək və ya dəqiqləşdirmək məqsədilə istifadə oluna bilər.

Beşinci fəsildə söhbət müxtəlif yol nişanları və siqnalları, onların təyinatları və istifadə şərtləri barədədir. Bu siqnallardır:

- Təmir işlərinin siqnalizasiyası;
- Sayrışan cihazla və ya işığın vasitəsilə quraşdırılmış işarə (yolun əsas hissəsindəki nasosların və ya təhlükəsizlik adalarını ağ və ya sarı işıqlarla və ya işıq verən cihazlarla qeyd etmək tövsiyə olunur);
- Dəmiryol keçidi, qatarın yaxınlaşması və ya şlaqbaumun və ya yarımşlaqbaumun gözlənilərək bağlanması haqqında xəbərdarlıq üçün siqnalizasiya və s. quraşdırılır;

Altıncı fəsil yekunlaşdırıcı qaydalara aid edilir. Onda konvensiyaya qoşulma və onun ratifikasiya şərtləri, imza atan ölkələrin ərazisində onun qüvvəyə minməsi, eləcə də ləğv olunması şərtləri və s. müzakirə olunur. Konvensiyada qeyd olunur ki, o, Nyu-Yorkda Birləşmiş Millətlər Təşkilatının mərkəzi müəssisəsində 1969-ci ilin dekabrın 31-ə qədər imza atmaq üçün hər bir ölkə üçün – Birləşmiş Millətlər Təşkilatının üzvləri və ya hər hansı bir xüsusiləşdirilmiş təşkilatın üzvləri üçün və ya atom enerjisinin beynəlxalq agentliyinin üzvləri üçün, yaxud da beynəlxalq məhkəmə statusu olan tərəflər üçün və Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası tərəfindən dəvət olunmuş hər hansı bir dövlət üçün açıq idi ki, bu konvensiyanın tərəfi olsun.

İngilis, ispan, çin, rus və fransız dillərində bir nüsxədə tərtib edilmiş bu konvensiyanın əsli, bununla belə, eyni olan bütün beş mətnlər saxlanılmaq üçün Birləşmiş Millətlər Təşkilatının baş katibinə təhvil verilir. Baş katib lazımi şəkildə yoxlanılmış surətləri bu konvensiyada göstərilən hər bir ölkəyə göndərir.

Vyanada 1968-ci ilin noyabrın 8-də yerinə yetirilmişdir.

# Mövzu # 2
# "Yol hərəkətinin təhlükəsiziyi haqqında" Gürcüstan Qanunu və onda istifadə olunan terminlər

## Yol hərəkətinin təhlkəsizliyinin təminatı məsələləri üçün beynəlxalq müqavilələrdə istifadə olunan bəzi əhəmiyyətli terminlər

1. **„Milli Qanunvericilik" -** bu müqaviləni imzalayan tərəfin ərazisində təsir göstərən milli və ya yerli qanunların və qaydaların toplusunu bildirir.

2. **"Nəqliyyat vasitəsi beynəlxalq hərəkətdə" hesab olunur,** əgər ki:

- Fiziki və ya hüquqi şəxsə aiddirsə, hansı ki, həmin dövlətdə yaşamır;
- Bu dövlətdə qeydiyyatda deyil;
- Bu dövlətdə müvəqqəti yerləşir.

*3.* **„Yol"** *– nəqliyyat vasitələrinin hərəkəti üçün düzəldilmiş torpaq zolağı və ya süni örtülmüş səth. Qeyri-yaşayış məntəqələrində yolun əsas elementləridir:*

*a – yolun hərəkət hissəsi;*
*b – yol çiyini;*
*c – baş yol;*
*ç – yol kənarı;*
*d – küvet*

*Yaşayış məntəqələrində yolun əsas elementləridir:.*

*a – yolun eni;*
*b – baş yol;*
*c – hərəkət zolağı;*
*ç – ayırıcı zolaq;*
*d – səki;*
*e – tramvay xətti.*

4. **„Yola yaxın ərazi"** – yola bitişdirilmiş və nəqliyyat vasitələrinin hərəkəti üçün nəzərdə tutulmayan ərazi (həyət, yaşayış massivi, avtomobil dayanacağı, yanacaqdoldurma stansiyası və s.);

5. **„ Yolayrıcı"** – yolların bir səviyyədə hər hansı kəsişməsi, birləşməsi və ya şaxələnməsi, o cümlədən bunların əmələ gətirdiyi ərazidir.

6. **„Baş yol"** – 2,1 2,3,1 – 2,3,3 və ya 5,1 yol nişanları ilə qeyd edilən yol, hansı ki, yolun kəsişdiyi ikinci dərəcəli yolda hərəkət edən nəqliyyat vasitələri ilə münasibətdə sürücüyə üstünlük verir.

7. **„Avtomobil yolu"** – 5,3 məlumatverici nişanla qeyd edilən yol. O, avto-nəqliyyat vasitələrinin təhlükəsiz hərəkətini təmin edir.

8. **“Avtomagistral” —** nəqliyyat vasitələrinin hərəkəti üçün xüsusi çəkilmiş və nəzərdə tutulmuş yoldur. Onun əks istiqamətlərdə hərəkət istiqamətləri üçün ayrı-ayrı hərəkət hissələri vardır. Dəmiryol, tramvay yolları və başqa yollarla, habelə piyada zolaqları ilə bir səviyyədə kəsişmələri yoxdur.

9. **„Marşrut nəqliyyat vasitəsi”** _ ümumi istifadədə olan nəqliyyat vasitəsi (avtobus, trolleybis, tramvay), təyin edilən marşrutla sərnişin daşıyr

10. **„Nəqliyyat vasitəsinin tərkibi”** _ bir bütövlükdə hərəkət edən nəqliyyat vasitəsi.

11. ”**Avtomobil**” — yollarda adamların və ya yüklərin daşınması, yaxud adam və ya yük daşıyan nəqliyyat vasitələrinin yedəyə alınması üçün istifadə edilən mexaniki nəqliyyat vasitəsidir (bu anlayış trolleybusları, yəni elektrik naqili ilə birləşdirilmiş relssiz nəqliyyat vasitələrini də əhatə edir. Lakin yollarda adamların və yüklərin daşınması və ya bu məqsədlə istifadə edilən nəqliyyat vasitələrinin yedəyə alınması üçün istifadə edilən və yalnız yardımçı funksiya daşıyan kənd təsərrüfatı traktorları kimi nəqliyyat vasitələrini əhatə etmir);

**12. ” Yüngül qoşqu”** — hər hansı bir qoşqu, hansının maksimal icazə verilən kütləsi 750 kq-dan (1650 futdan) artıq deyil;

13. ”**Yarımqoşqu**” — avtomobillərə birləşdirilmək üçün nəzərdə tutulan, bir hissəsi avtomobilə söykənərək özünün və yükün kütləsinin xeyli hissəsini onun üstünə salan hər hansı qoşqudur.

14. „**Sürücü”** — hər hansı növ nəqliyyat vasitəsini idarə edən şəxsdir (sürücülüyü öyrədən avtomobil təlimatçısı da sürücüyə bərabər tutulur);

15. **„mütəşşəkil piyada dəstəsi”** – eyni zamanda eyni istiqamətdə hərəkət edən insan qrupu.

**16. `Piyadaya bərabər tutulan şəxs” –** mühərriksiz əlil arabalarında gedən, velosiped, moped və ya motosiklet aparan, kirşə, əl arabası, uşaq və ya əlil arabası aparan şəxslər .

**17.** ”**Nəqliyyat vasitəsinin dayanması**” - adamların minməsi və ya düşməsi, yaxud yüklərin yığılması və ya boşaldılması üçün zəruri olan vaxt ərzində 5 dəqiqə və ya daha artıq vaxtda nəqliyyat vasitəsinin hərəkətsiz vəziyyətə gətirilməsidir;

18. ”**Məcburi dayanma**” - texniki nasazlıq və ya aparılan yükün, sürücünün (sərnişinin) vəziyyətinin və ya yolda maneə yaranmasının doğurduğu təhlükə üzündən nəqliyyat vasitəsinin hərəkətinin dayandırılmasıdır;

19. ”**Nəqliyyat vasitəsinin durması**” - əgər nəqliyyat vasitəsi digər yol istifadəçisi və ya hər hansı maneə ilə toqquşmanın qarşısını almaq və ya hərəkət qaydalarının göstərişlərini yerinə yetirmək səbəblərindən başqa digər səbəblərə görə hərəkətsiz vəziyyətə gətirilmişdirsə və onun dayanması adamların minməsi və ya düşməsi, yaxud yüklərin yığılması və ya boşaldılması üçün zəruri olan vaxtla məhdudlaşmırsa, nəqliyyat vasitəsi durmuş hesab edilir.

20. **„ Sutkanın qaranlıq vaxtı”** - sutkanın günəş batandan günəş çıxanadək olan müddətidir;.

21. **„İcazə verilən maksimal kütlə”** – zavod-istehsalçı tərəfindən təyin edilən yüklənmə, sürücü və ya sərnişinlə, yüklə maksimal icazə verilən nəqliyyat vasitəsinin kütləsi. Bu kütləyə daxildir: yanacağın, soyuducu mayenin, materialların, sürücünün iş alətlərinin, sürücünün və sərnişinlərin kütləsi.

Nəqliyyat vasitəsinin tərkibinin, yəni bir bütövlükdə hərəkət edən nəqliyyatın icazə verilən kütləsi onun tərkibinə daxil olan nəqliyyat vasitəsi üçün zavod-istehsalçı tərərfindən təyin edilən, maksimal icazə verilən kütlələrin cəmi hesab olunur.

“Yol hərəkətinin təhlükəsizliyi haqqında” Gürcüstan qanunu 1999-cu ilin iyunun 16-dan qüvvədədir. Bu qanun ölkənin Konstitusiyasına müvafiq olaraq Gürcüstan ərazisində yol hərəkətini təhlükəsizliyinin təmin edilməsinin hüquqi əsaslarını tənzimləyir.

Qanun yol hərəkətinin təmin edilmə sahəsində Gürcüstanın icra hakimiyyətinin, yerli özünüidarəetmənin səlahiyyətini, eləcə də nəqliyyat vasitəsinin istismarını həyata keçirən hüquqi şəxslərin və özəl sahibkarların öhdəliklərini, yolların layihələşdirilməsi, tikintisi, yenidən qurulması və təmiri zamanı yol hərəkətinin təhlükəsizliyinin əsas tələblərini, nəqliyyat vasitəsi və onun tərkib hissələrini, əlavə cihazları, tədarük hissələrini və tərkibin qeydiyyatını, sürücülük hüququnun alınmasını, dövlət texniki baxış qaydaları və şərtlərini müəyyənləşdirir.

Onda yol hərəkəti qaydaları birləşmişdir və bu qanunu bilməyərək nəqliyyat vasitəsini təhlükəsiz idarə etmək mümkün deyil və hər bir avtomobil və motosikl sahibi üçün onu bilmək vacibdir. Bununla yanaşı, qaydaların tələblərini dərhal yerinə yetirmək hər bir yol hərəkəti iştirakçısı üçün məcburidir.

Bu qanun ölkənin Konstitusiyasına müvafiq olaraq Gürcüstan ərazisində yol hərəkətini təhlükəsizliyinin təmin edilməsinin hüquqi əsaslarını müəyyənləşdirir.

## Yol hərəkəti haqqında Gürcüstan qanunu
## I fəsil
## Ümumi qaydalar

**Maddə 1. Qanunda istifadə olunan terminlər**

Bu qanunda istifadə olunan terminlərin növbəti mənaları vardır:

**a) avtomagistral** – 5.1 nişanı ilə qeyd edilən yol;

**a**[1] **nəqliyyat vasitəsi** - yolda hərəkət üçün konstruksiya imkanları olan və insan tərəfindən idarə edilən qurğu, habelə onun qoşqusudur; (28.04.2006. N2964)

**b) məhdudiyyətli görünmə** - duman, yağış, qar və başqa şəraitdə, habelə toranlıqda yolun 300 metrdən az məsafədə görünməsidir;

**c) ötmə** - hərəkət etdiyi zolağı dəyişməklə hərəkətdə olan bir və ya bir neçə nəqliyyat vasitəsini ötüb keçməkdir;

**ç) ayırıcı zolaq** - yolun ayrılmış elementi olub, yanaşı yerləşən hərəkət hissələrini bir-birindən ayıran, lakin nəqliyyat vasitələrinin, hərəkəti və ya dayanması, eləcə də piyadaların hərəkəti üçün nəzərdə tutulmayan hissəsidir

d) **„Yol"** – nəqliyyat vasitələrinin hərəkəti üçün düzəldilmiş torpaq zolağı və ya süni örtülmüş səth (yol bir neçə işlək hissədən, eləcə də tramvay yolundan, səkilərdən, yol çiyinlərindən və ayırıcı zolaqlardan (əgər onlar vardırsa) ibarətdir;

**e) yol vermək** (**maneə yaratmamaq**) - sürücünün hərəkəti davam etdirməsi və ya yenidən hərəkətə başlaması, hər hansı manevr etməsi başqa nəqliyyat vasitələrinin sürücülərini qəflətən hərəkət istiqamətini və ya sürəti dəyişdirməyə məcbur edə biləcəyi halda, onun hərəkəti davam etdirməməsi və ya yenidən hərəkətə başlamaması, manevr etməməsidir;

ə) **yaşayış məntəqəsi** - giriş və çıxışları müvafiq olaraq 5.22-5.25 nişanları ilə işarələnmiş, əhalinin yığcam məskunlaşdığı ərazidir.

f) **Nəqliyyat vasitəsinin durması** - əgər nəqliyyat vasitəsi digər yol istifadəçisi və ya hər hansı maneə ilə toqquşmanın qarşısını almaq və ya hərəkət qaydalarının göstərişlərini yerinə yetirmək səbəblərindən başqa digər səbəblərə görə hərəkətsiz vəziyyətə gətirilmişdirsə və onun dayanması adamların minməsi və ya düşməsi, yaxud yüklərin yığılması və ya boşaldılması üçün zəruri olan vaxtla məhdudlaşmırsa, nəqliyyat vasitəsi durmuş hesab edilir.

g) **Sutkanın qaranlıq vaxtı** - sutkanın günəş batandan günəş çıxanadək olan müddətidir;

**ğ) Velosiped** - əlil arabaları istisna olmaqla, idarə edən şəxsin əzələ enerjisi ilə, xüsusən pedalların və ya dəstəklərin köməyi ilə hərəkətə gətirilən hər hansı nəqliyyat vasitəsidir;

**ı) Məcburi dayanma** - texniki nasazlıq və ya aparılan yükün, sürücünün (sərnişinin) vəziyyətinin və ya yolda maneə yaranmasının doğurduğu təhlükə üzündən nəqliyyat vasitəsinin hərəkətinin dayandırılmasıdır;

**i) Nizamlayıcı** – müvafiq şəxsiyyət vəsiqəsi olan və təchiz edilmiş (forma paltarı və ya fərqli nişan – qol sarığı, dəyənək, qırmızı siqnal və ya fənərli disk, qırmızı fənər və ya bayraq) yol polisi, hərbi avtomobil müfəttişliyinin əməkdaşı, yol-istismarı xidmətinin işçisi, dəmiryol, bərə keçidinin növbətçisi;

**l) mexaniki nəqliyyat vasitəsi** - asma mühərrikli velosipedlər və relsli nəqliyyat vasitələri istisna olmaqla, hər hansı özügedən nəqliyyat vasitəsidir;

m) **„Yola yaxın ərazi"** – yola bitişdirilmiş və nəqliyyat vasitələrinin hərəkəti üçün nəzərdə tutulmayan ərazi (həyət, yaşayış massivi, avtomobil dayanacağı, yanacaqdoldurma stansiyası və s.);

n) **qoşqu** - mexaniki nəqliyyat vasitəsi ilə yedəyə alınmaq üçün nəzərdə tutulan hər hansı nəqliyyat vasitəsidir;

**o**[1]**) mobil kommunikasiya vasitəsi** – onun vasitəsilə iki və ya daha artıq fiziki şəxslər arasında ardıcıl telefon söhbətini aparmaq və ya mətnli informasiyanı ötürmək və almaq mümkün olan hər hansı bir cihaz (23.06.2003. N1747)

**ö) moped** –iş həcmi 50 kub santimetrdən çox olmayan mühərriklə hərəkətə gətirilən və maksimum konstruksiya sürəti saatda 50 kilometrdən yüksək olmayan iki və ya üç təkərli nəqliyyat vasitəsidir (asma mühərrikli velosipedlər və oxşar xüsusiyyətli digər nəqliyyat vasitələri də mopedlərə bərabər tutulur);

**p) motosiklet** - mühərriki olan ikitəkərli, arabalı və ya arabasız mexaniki nəqliyyat vasitəsidir (tam ləvazimatlı vəziyyətdə kütləsi 400 kiloqramdan çox olmayan üç və dördtəkərli mexaniki nəqliyyat vasitələri də motosikletlərə bərabər tutulur);

**r) hərəkət zolağı** - yolun hərəkət hissəsinin nişanlama xətti vasitəsilə bölünmüş, eni avtomobillərin bir sırada hərəkəti üçün kifayət edən hər hansı uzununa zolağıdır;

s) **mütəşəkkil nəqliyyat dəstəsi** - qarşıda qırmızı və ya göy sayrışan işıq və xüsusi səs siqnalı ilə təchiz edilmiş operativ nəqliyyat vasitəsinin müşayiəti ilə bir hərəkət zolağında bir-birinin ardınca faraları yandırılmış vəziyyətdə hərəkət edən üç və ya daha artıq mexaniki nəqliyyat vasitəsindən ibarət olan dəstədir;

**t) dəmiryol keçidi -** yolun və dəmiryol keçidlərinin eyni səviyyədə kəsişməsi;

**x) yol hərəkəti** - xüsusi nəzərdə tutulmuş yollarda nəqliyyat vasitələrinin köməyi ilə və ya belə kömək olmadan hərəkət etmək, habelə sərnişin və yük daşınması üzrə fiziki və hüquqi şəxslərin tələbatlarını ödəmək prosesində yaranan ictimai münasibətlərin məcmusudur;;

**h) yol hərəkəti iştirakçısı** - hərəkət prosesində piyada, nəqliyyat vasitəsinin sürücüsü, sərnişin, velosipedçi, mal-qara ötürən qismində iştirak edən, habelə avtomobil yollarından, küçələrdən, dəmiryol keçidlərindən və ya nəqliyyat vasitələri ilə adamların və yüklərin daşınması üçün nəzərdə tutulmuş digər yerlərdən istifadə edən şəxsdir;

**ğ)** yol hərəkətinin təşkili - nəqliyyat vasitələrinin və ya piyadaların təhlükəsizliyini, fasiləsiz və rahat hərəkətini, optimal sürətini təmin etmək məqsədilə küçə-yol şəbəkəsində həyata keçirilən və yol hərəkətinin ayrılmaz hissəsi olan mühəndis və təşkilati tədbirlər sistemidir;

j) **yol hərəkətinin təhlükəsizliyi** - yol hərəkəti iştirakçılarının və cəmiyyətin yol-nəqliyyat hadisələrindən və onların nəticələrindən müdafiə olunma dərəcəsini göstərən yol hərəkəti vəziyyətidir;

**u) yol-nəqliyyat hadisəsi** – yollarda nəqliyyat vasitələrinin hərəkəti prosesində baş verən və adamların ölümünə və ya müxtəlif dərəcəli bədən xəsarəti almasına, heyvanların və ya hərəkətsiz maneənin vurulmasına, nəqliyyat vasitələrinin, yolların, qurğuların zədələnməsinə və ya başqa maddi zərər dəyməsinə səbəb olan hadisədir.

**ü) baş yol –** relssiz nəqliyyat vasitələrinin hərəkəti üçün yolun elementi;

**c)** ) **icazə verilən maksimum kütlə** - istehsalçı müəssisə tərəfindən müəyyən edilmiş, nəqliyyat vasitəsinin sürücü, sərnişin və yüklə birlikdə yol verilən kütləsinin yuxarı həddidir.;

**Z) səki** - yolun hərəkət hissəsinə bitişik olan və ya qazon vasitəsilə ondan ayrılmış, piyadaların hərəkəti üçün nəzərdə tutulan hissəsidir;

**w) üstünlük** - nəzərdə tutulan istiqamətdə digər hərəkət iştirakçılarına nisbətən ilk növbədə hərəkət etmək hüququdur;

**W) piyada** - nəqliyyat vasitələrindən kənarda yol hərəkətində iştirak edən və yolda hər hansı iş görməyən şəxsdir (mühərriksiz əlil arabalarında gedən, velosiped, moped və ya motosiklet aparan, kirşə, əl arabası, uşaq və ya əlil arabası aparan şəxslər də piyadaya bərabər tutulur);

**x) piyada keçidi** – baş yolun bir hissəsi, hansı ki, piyada yolunda keçid üçün nəzərdə tutulub və 5.16.1, 5.16.2 nişanları və ya1.14.1–1.14.3 işarələri ilə qeyd edilib (əgər işarələr yoxdursa, o zaman piyadalar üçün keçidin eni 5.16.1, 5.16.2 işarələri arasında məsafə ilə müəyyənləşdirilir).

**j) qaldırıcı kran** – mühərrikli nəqliyyat vasitəsi. O, yarımqoşqu ilə birlikdə istismara aid edilir (23.06.2006. N3395)

**h) avtoqatar** - bir mexaniki nəqliyyat vasitəsinə qoşularaq birlikdə hərəkət edən bir neçə nəqliyyat vasitəsindən ibarət tərkibdir; (23.06.2006. N3395)

**$h^1$) avto-nəqliyyat vasitəsinin yol üçün yararlı olmasında məcburi mütəmadi testləşmə (imtahan)** (irəlidə yol üçün yararlı olması testləşdirməsi) – texniki əməliyyatlar və prosedurlar məcmusu. Onun vasitəsilə təsis edilmiş mütəmadiliklə nəqliyyat vasitəsinin hərəkətinin təhlükəsizliyinin əsas elementlərinin texniki vəziyyəti və atmosfer havasında yayılan zərərli maddələrin tərkibi təyin olur; (29.12.2006. N4221)

**$h^2$) birləşdirilmiş avtobus** – seksiyalardan ibarət avtobus. Belə bir avtobus seksiyalarında sərnişinlərin məhdudiyyətsiz yerdəyişməsi mümkün olmalıdır.Bu seksiyaların birləşməsi və ayrılması yalnız istehsalçı tərəfindən mümkündür. (23.06.2006. N3395)

**$h^3$) konteyner** – 1972-ci ildə „konteynerlərlə əlaqədar gömrük konvensiyası ilə" nəzərdə tutulan izahat; (25.12.2009 N 2474)

**$h^4$) avtomobil daşıyıcısı** – xüsusi avto-nəqliyyat vasitəsi. O, avtomobillərin və təkərli yüngül traktorların daşınması üçün aid olunur. (25.12.2009 N 2474)

**Maddə 2. Yol hərəkətinin təhlükəsizliyi haqqında Gürcüstan Qanunvericiliyi**

Yol hərəkətinin təhlükəsizliyi haqqında Gürcüstan Qanunvericiliyi Gürcüstan Konstitusiyasından, beynəlxalq müqavilələrdən və razılaşmalardan, bu qanundan və digər normativ aktlardan ibarətdir.

# Mövzu # 3
# Yol hərəkətinin təhlükəsizliyi sahəsində dövlət siyasəti.
## Yol hərəkəti təhlükəsizliyinin təmin edilməsinin tələbləri
### Fəsil II
### Yol hərəkətinin təhlükəsizliyi sahəsində dövlət siyasəti

**Maddə 3. Yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi**

Yol hərəkəti təhlükəsizliyinin təmin edilməsinin vasitələridir:

- Avtomobil, yerüstü şəhər elektrik-nəqliyyatı və yol təsərrüfatı işlərinin tənzimlənməsi;
- Yol hərəkətinin təşkili;
- Yol hərəkətinin təhlükəsizliyi tədbirlərinin maddi və maliyyə təminatı;
- Şəxs tərəfindən yol hərəkəti təhlükəsizliyi qaydalarının və tələblərinin öyrənilməsinin təşkili;
- Yol hərəkəti təhlükəsizliyinin tibbi təminatı tədbirlərinin kompleksinin işlənilməsi;
- "Məhsul və xidmətin sertifikatlaşdırılması haqqında" Gürcüstan Qanunu ilə təyin edilən qayda ilə nəqliyyat vasitəsinin, onunla əlaqədar məhsulların və yol təsərrüfatı işlərinin sertifikatlaşdırılması;
- Yol hərəkəti təhlükəsizliyinin təminatı məsələsi ilə əlaqədar qaydaların, standartların, texniki normaların və digər normativ aktların işlənib hazırlanması və təyin edilən qayda ilə təsdiqlənməsi, habelə onların yerinə yetirilməsi üzrə dövlət nəzarəti və baxışı.

***Qanunun 3-cü maddəsində yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi vasitələri formalaşdırılmışdır. Müxtəlif növ nəqliyyat vasitələrinin hərəkətinin tənzimlənməsi onların hərəkət şərtlərinin müəyyənləşdirilməsini nəzərdə tutur ki, onlar bir-birinə mane olmasınlar. Belə deyək ki, bütün növ sərnişin daşıyan marşrutlar yaşayış məntəqəsinin bir neçə sahəsində toplaşmasınlar ki, avtomobil yolları da yüklənməsin. Yaxud da avtomobil yollarının keçidi aşağı olan, lakin avtomobil hərəkətinin intensivliyi yüksək olan ərazilər. Əgər mümkündürsə,, nəqliyyatın digər vasitələrindən istifadə edərək yolu maksimum boşaltmalıdır, məsələn, metrodan istifadə edərək. Bir çox ölkələrdə bu məqsədlə tramvaydan aktiv istifadə olunur, yol hərəkətinin xüsusi rejimi təsis olunur. Buna misal olaraq Tbilisi şəhərində Dövlət Universiteti, Filarmoniya və Qəhrəmanlar Meydanının təsviri üçbucağında nəqliyyat vasitələrinin bir istiqamətdə hərəkətinin təsis edilməsini göstərə bilərik. Bəzi şəhərlərdə parallel hərəkət sxemlərindən və ya qarşılıqlı hərəkətdən istifadə oluna bilər.***

***Yol hərəkətinin təşkilində yol hərəkətinin nizamlanmasının texniki vasitələrinin effektiv şəkildə seçilməsi və istifadəsi (svetoforlar, yol nişanları və işarələr). Bütün bu tədbirlərə, əlbəttə ki, maliyyə lazımdır. Hərəkətin təşkili və nəzarətin müasir texniki vasitələri bahalı vasitələrə aid edilirlər.***

***Yol hərəkəti iştirakçılarının bilik səviyyələrinin artırılmasının, yol hərəkəti qaydaları biliyinin xüsusi əhəmiyyəti vardır. Bu istiqamətdə dərs proqramlarını həyata keçirmək olar.***

***Qeyd edilən məsələnin tənzimlənməsinin vacib şərti düzgün və effektiv hüquqi təsisatlarının işlənilməsidir. Bu isə yol hərəkəti təhlükəsizliyi sahəsində mövcud statistic göstəricilərin tam analizinə əsaslanmalıdır.***

**Maddə 4. Yol hərəkəti təhlükəsizliyinin təminatı sahəsində Gürcüstanda icra hakimiyyətinin və yerli özünüidarəetmənin və idarəetmə orqanlarının səlahiyyətləri**

Gürcüstanın icra hakimiyyətinin səlahiyyətləridir:

- Gürcüstan ərazisində yol hərəkəti təhlükəsizliyinin təminatı sahəsində vahid dövlət siyasətinin təşkilində iştirak etmək;
- Yol hərəkəti təhlükəsizliyinin təminatının bu qanunla təyin edilən hüquqi əsasının hazırlanması;
- Yol hərəkəti təhlükəsizliyinin təminatı məsələlərində standartların, texniki normaların və digər normativ aktların vahid sisteminin yaradılması;
- Yol hərəkəti təhlükəsizliyinin təminatı sahəsinin işinə nəzarət;
- Yol hərəkəti təhlükəsizliyinin təminatı sahəsində Gürcüstan tərəfindən beynəlxalq müqavilələrin və razılaşmaların həyata keçirilməsi.

Yerli özünüidarəetmə və idarəetmə orqanları, Gürcüstan qanunvericiliyinə uyğun olaraq öz səlahiyyətləri çərçivəsində müstəqil olaraq yol hərəkəti təhlükəsizliyinin təminatı məsələlərini həll edirlər.

***Gürcüstan dövlətdaxili avtomobil yolları yerli özünüidarəetmənin sərəncamı sahəsinə aid edilir və onların inzibati çərçivələrinə daxildir. Məhz bu orqanlar yol hərəkətinin təhlükəsizliyi məsələləri ilə maraqlı digər ərazi inzibati orqanlarla razılıq əldə etməkdə, yol hərəkətinin təşkilinin fərdi şərtlərini işləyib hazırlamaqda səlahiyyətlidirlər.***

**Maddə 5. Yol hərəkəti təhlükəsizliyinin vəziyyətinin əsas göstəricilərinin dövlət qeydiyyatının təşkili**

- Gürcüstan ərazisində yol hərəkəti təhlükəsizliyinin vəziyyətinin əsas göstəricilərinin dövlət qeydiyyatı aparılır. Bunlardır:
  - Yol-nəqliyyat hadisələri və onlarda zərərçəkənlər;
  - nəqliyyat vasitələrinin və sürücülərin sayı;
  - yol hərəkəti qaydalarını pozanlar;
  - yol hərəkətində inzibati hüquq pozuntularının və cinayət xətalarının sayı;

Eləcə də yol hərəkəti təhlükəsizliyi vəziyyətinin və onun təminatı işlərini əks etdirən digər göstəricilər.

- Yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi sahəsində dövlət qeydiyyatı siyasəti və onun gerçəkləşdirilməsi dövlət qeydiyyata alna sisteminə söykənir.

- Yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi sahəsində dövlət qeydiyyatının aparılması, qeydiyyat arayışları ilə faydalanma və hesabat göstəricilərinin yaradılması qaydası Gürcüstan qanunvericiliyi ilə təyin edilir.

***Qanunla müəyyən edilən məsələlərin tammənalı və effektli yerinə yetirilməsi üçün yol hərəkəti təhlükəsizliyi sahəsində mövcud vəziyyətin statistik tədqiqat və onun analizi əsasında effektli fəaliyyət planlarının işlənilməsi və həyata keçirilməsi vacibdir. Bu istiqamətdə müxtəlif hökümət verilişlərarası qruplar yaradılmışdır. Onlar yol hərəkəti təhlükəsizliyi sahəsi ilə maraqlanan bütün ictimai təsisatlarla aktiv əməkdaşlıq edirlər.***

## Fəsil III
## Yol hərəkəti təhlükəsizliyinin təminatı proqramları

**Maddə 6. Yol hərəkəti təhlükəsizliyinin təminatı proqramları**

- Dövlət siyasətinin aparılması məqsədilə yol hərəkəti təhlükəsizliyinin təminatı sahəsində dövlət və yerli proqramları yaradılır. Onlar yol-nəqliyyat hadisələrinin sayını və onlardan yaranan ziyanın azaldılmasını nəzərdə tuturlar.

- yol hərəkəti təhlükəsizliyinin təminatı proqramlarını Gürcüstan Prezidenti və ya Gürcüstan Parlamenti təsdiqləyir.

- yol hərəkəti təhlükəsizliyinin təminatının dövlət və yerli proqramları müvafiq büdcədən maliyyələşdirilir.

**IV fəsil**
**Yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi tələbləri**

**Maddə 7. Yolun layihələşdirilməsi, tikintisi, yenidən qurulması və təmiri zamanı yol hərəkəti təhlükəsizliyinin təmin edilməsinin əsas tələbləri**

- Gürcüstan ərazisində yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi məqsədilə yolun layihələşdirilməsi, tikintisi, yenidən qurulması və təmiri Gürcüstan qanunvericiliyi ilə təyin edilən qaydaya əsasən həyata keçirilir.

- Tikilmiş, yenidən qurulmuş və təmir edilmiş yolun istismarı tikinti normaları və qaydalarına riayət etməklə və Gürcüstan qanunvericiliyi ilə təyin edilən qaydaya əsasən aparılır.

- Yolun tikinitisi, yenidən qurulması və təmiri keyfiyyətində məsuliyyəti sifarişçi daşıyır.

- Tikilmiş, yenidən qurulası olmuş və təmir edilmiş yolun istismara götürülməsindən sonra onun texniki vəziyyəti üzrə məsuliyyəti həmin yolun sahibkarı daşıyır.

**Maddə 8. Yolda nəqliyyat vasitəsinin hərəkətinin məhdudiyyəti və ya dayandırılması**

Yolda nəqliyyat vasitəsinin hərəkətinin məhdudiyyəti və ya müvəqqəti dayandırılması həyata keçirilir:

- avtomobil yolunun nasazlığında və ya məhdudiyyətli görüntü şərtlərində;
- yol hərəkətinin təhlükəsizliyi və insan həyatının, sağlamlığının və əmlakının müdafiəsi məqsədilə
- icra hakimiyyəti və yerli özünüidarəetmə və idarəetmənin müvafiq orqanları tərəfindən, onların səlahiyyətləri çərçivəsində;
- Ayrı-ayrı operativ-axtarış və istintaq işlərinin aparılması məqsədilə Gürcüstan Daxili Işlər nazirinin fərmanı ilə;
- Ehtiyac olduğu halda Gürcüstan Cinayət Prosesi qanunvericiliyi ilə təyin edilən qayda ilə təxirəsalınmaz operativ-istintaq tədbirlərin keçirilməsi zamanı.

Ayrı-ayrı operativ-axtarış və istintaq işləri və təxirəsalınmaz operativ-istintaq tədbirlərin keçirilməsi zamanı nəqliyyat vasitəsinin sürücüsü tələb olunduqda patrul polisinə yoxlanış üçün yalnız şəxsiyyəti təsdiq edən sənədi təqdim etmək məcburiyyətindədir.

***İctimai qayda-qanun və təhlükəsizliyin təmin edilməsi məqsədilə, bəzən avtomobil yollarının ayrı-ayrı sahələrində hərəkəti məhdudlaşdırmaq lazım gəlir. Qanunda bu məhdudiyyəti yerinə yetirən səlahiyyətli orqanlar və məhdudiyyətin əsasları bilavasitə yazılır.***

**Maddə 9. Nəqliyyat vasitəsinin, onun tərkib hissələrinin, əlavə cihazların, ehtiyat hissələrinin və tərkibin qeydiyyatı**

- Gürcüstan ərazisində nəqliyyat vasitəsi, qoşqu, nömrəli aqreqat məcburi qeydiyyata alınmaya aid edilir.

- Qeyd ediləni İctimai Hüquqlu Hüquqi Şəxs – Gürcüstan Daxili İşlər Nazirliyinin Xidmət Agentliyi həyata keçirir.

- Yeni hazırlanmış əldəqayırma və ya dəyişdirilmiş alətlə, yaxud da digər aqreqatlar və qovşaqlarla quraşdırılmış, əlavə cihazlarla yenidən təchiz edilmiş nəqliyyat vasitəsinin qeydiyyatı onun hərəkətinin təminatı tələbləri ilə müvafiqliyini təsdiqləyən sənəd xaricində qadağan olunur.

**Maddə 10. Nəqliyyat vasitəsinin istismarında yol hərəkəti təhlükəsizliyinin təmin edilməsinin əsas tələbləri**

- Yol hərəkətində iştirak edən nəqliyyat vasitəsinin vəziyyəti yol hərəkətinin təhlükəsizliyini təmin etməlidir.
- Yol hərəkətində iştirak edən nəqliyyat vasitəsinin texniki nasazlığında nəqliyyat vasitəsinin sahibi və ya nəqliyyat vasitəsinin istismarını həyata keçirən şəxs məsuliyyət daşıyır.

***Qeyd edilən maddədə söhbət təhlükəsizlik standartlarından gedir. Bu standartlar səlahiyyətli inzibati orqanlar tərəfindən təyin edilir. Nəqliyyat vasitələri onların tələblərinə cavab verməlidirlər. Misal üçün sükan mexanizminin sazlığını, ön şüşənin təmizləyici cihazının yağışlı havada sazlığını, qabaritli işıq cihazlarının sutkanın qaranlıq vaxtında sazlığını, əyləc siteminin sazlığını və sairəni göstərmək olar. Qeyd edilən tələblər əməl olunmadıqda Gürcüstan qanunuvericiliyi nəqliyyat vasitəsini istismar edən şəxsə öhdəliklər qoyur.***

**Maddə 11. Yola yararlılıq testi (29.12.2006. N4221)**

Gürcüstan ərazisində istismarda olan və təyin edilən qayda ilə qeydiyyata alınan avto-nəqliyyat vasitəsi yola yararlılıq testinin akkreditə olunmuş vahid milli orqanına – Akkreditasiya Mərkəzi tərəfindən akkreditə olunmuş Testləşdirmə (İmtahan) Mərkəzinə (sonralar - Testləşdirmə Mərkəzi) tabedir.

Yola yararlılıq testi avto-nəqliyyat vasitəsinin qeydiyyatı yerinə və ya şəxsin hüquqi ünvanına baxmayaraq istənilən testləşdirmə mərkəzində keçirilə bilər.

Testləşdirmə (İmtahan) Mərkəzinə qarşı irəli sürülən tələbləri akkreditə olunmuş vahid milli orqan – Akkreditasiya Mərkəzi müəyyənləşdirir.

Avto-nəqliyyat vasitələrinə qarşı irəli sürülən tələblər (hansılarla müvafiqliyi təyin etmək məqsədilə də yola yararlılıq testi keçirilir), testin lövhələrinin formaları və hazırlanma qaydası, eləcə də müxtəlif kateqoriyalı avto-nəqliyyat vasitəsinin testləşdirilməsinin mütəmadiliyi Gürcüstan İqtisadiyyat və Sabit İnkişaf Nazirliyinin normativ aktı ilə müəyyənləşdirilir.

Yola yararlılıq testinin keçirilməsini təsdiqləyən lövhələrin hazırlanması və Testləşdirmə Mərkəzinə göndərilməsini Testləşdirmə Mərkəzinin yazılı tələbi əsasında Gürcüstan İqtisadiyyat və Sabit İnkişaf Nazirliyinin sisteminə daxil olan İctimai Hüquqlu Hüquqi Şəxs – Quruda Nəqliyyat Agentliyi təmin edir. Tələbdə lövhələrin sayı verilməli və akkreditasiyanı təsdiqləyən sənəd əlavə olunmalıdır.

Avto-nəqliyyat vasitələrinin yola yararlılıq testinin keçirilməsini təsdiqləyən lövhəni Testləşdirmə Mərkəzi verir.

Gürcüstan ərazisində istismarda olan və təyin edilən qayda ilə qeydiyyata alınan avto-nəqliyyat vasitəsi yola yararlılıq testini keçmir, əgər ki, onun sahibinə Gürcüstan qanunvericiliyi ilə müəyyənləşdirilən yol hərəkəti qaydalarının pozuntusu üçün inzibati xəta şəkilndə cərimə təyin edilmişsə və həmin cərimə təyin edilən qayda ilə ödənilməmişdirsə.

Testləşdirmə Mərkəzi üçün bu maddənin 7-ci bəndi ilə nəzərdə tutulan hüquq pozuntuları haqqında informasiyanın çatdırılmasını Gürcüstan Daxili İşlər Nazirliyinin patrul polisi təmin edir.

Testləşdirmə Mərkəzi hər ayın 10-cu gününə qədər Gürcüstan Daxili İşlər Nazirliyinin patrul polisinə ötən ay ərzində testləşdirilmiş avto-nəqliyyat vasitələrinin siyahısını Gürcüstan Daxili İşlər Nazirliyi tərəfindən təyin edilən qayda əsasında təqdim etmək məcburiyyətindədir.

**Maddə 12. Avto-nəqliyyat vasitəsinin istismarının qadağan edilməsi (28.04.2006. N2964)**

Yol hərəkətinin təhlükəsizliyinə əməl etmək məqsədilə qadağandır:

- Texniki cəhətdən nasaz avtonəqliyyat vasitəsinin istismarı;
- Gürcüstan Daxili İşlər Nazirliyinin patrul polisinin razılığı xaricində avtonəqliyyat vasitəsinin şüşələrinin tündləşdirilməsi.

Avtonəqliyyat vasitəsinin şüşələrinin tündləşdirilməsi qaydası və Gürcüstan Daxili İşlər Nazirliyinin patrul polisinin razılığı tələb olunmayan nəqliyyat vasitələrinin siyahısını Gürcüstan Daxili İşlər Naziri təsdiqləyir.

***Qeyd edilən maddə ilə nəzərdə tutulan tələblərin həyata keçirilməsi və bunun əsasında Gürcüstan Daxili İşlər naziri "Avtonəqliyyat vasitəsinin şüşələrinin tündləşdirilməsi qaydası və Gürcüstan Daxili İşlər Nazirliyinin patrul polisinin razılığı tələb olunmayan nəqliyyat vasitələrinin siyahısının təsdiqlənməsi barədə" 2010-cu ilin oktyabrın 29-da 917 saylı fərman verdi. Fərmana əsasən, səlahiyyətli orqan tərəfindən nəqliyyat vasitələrində tünd şüşələrin istifadəsinə razılıq xüsusi xidmətlərə və müdafiəsini dövlət təmin edən vəzifəli şəxslərə verilir (burada xidmət avtomobili, yaxud da şəxsi avtomobil konkretləşdirilmir. Qanun qarşısında bərabərlik prinsipi bizə ehtimal etmək əsasını verir ki, fərman xidmət avtomobilini nəzərdə tutur).***

**Maddə 13. Nəqliyyat vasitələrinin istismarını həyata keçirən hüqqi şəxs və özəl sahibkarın öhdəlikləri**

Gürcüstan ərazisində nəqliyyat vasitələrinin istismarını həyata keçirən hüquqi şəxs və ya özəl sahibkarlar borcludurlar:

- Gürcüstan Qanunvericiliyi ilə təyin edilən qayda əsasında sürücünün əmək və istirahət rejiminə riayət etsinlər;
- Səhiyyətli orqanlarının işçiləri ilə birlikdə reysdən əvvəl sürücünün tibbi yoxlanışdan keçməsini təmin etsinlər (müntəzəm daşınma və müntəzəm yerli-şəhər sərnişi daşınma hallarından başqa), eləcə də yol-nəqliyyat hadisəsində zərərçəkmişlər üçün sürücü tərəfindən ilkin tibbi yardım göstərilməsi bacarıqlarının öyrənilməsi tədbirlərini həyata keçirsinlər;
- Nəqliyyat vasitəsinin texniki vəziyyətinin yol hərəkəti qaydalarının tələbləri ilə müvafiqliyini təmi etsinlər, nasaz nəqliyyat vasitəsinin istismara verilməsinə yol verməsinlər.

***Gürcüstan İnzibati Xətalar Məcəlləsinə müvafiq olaraq hüquqi şəxsə məxsus yola yararlılıq testləşdirmənin keçirillməsinə aid edilən nəqliyyat vasitəsinin bu tədbirin xaricində xəttə işləməyə buraxılması həmin hüqqui şəxsin qeyd edilən məsələlərə nəzarət etməsi həvalə olunan vəzifəli şəxsinin inzibati məsuliyyətə cəlb olunmasına səbəb***

**Maddə 14. Yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi tələbləri**

- Gürcüstanın yollarında nəqliyyat vasitələrinin hərəkəti sağ tərəfdə təyin edilmişdir.
- Yol hərəkətinin təşkili ilə əlaqədar işlər qüvvədə olan dövlət standartları ilə qaydaya salınmış texniki vasitələrin kompleks istifadəsi əsasında həyata keçirilir və yol hərəkətinin təşkil edilməsi layihələri və sxemləri ilə nəzərə alınır.
- Yol hərəkətinin təşkilində yol hərəkətinin təhlükəsizliyinin azaldılması hesabına yol keçidinin böyüdülməsi və ya digər məqsədlə dəyişikliklərin daxil edilməsinə yol verilmir.

**Maddə 15. Yol hərəkəti iştirakçılarının hüqquları və vəzifələri**

Gürcüstanın yollarında şəxsin təhlükəsiz şəraitdə hərəkət hüququna dövlət tərəfindən zəmanət verilir və bu qanunla təmin edilir.

Yol hərəkəti iştirakçısı tərəfindən özünün hüquqlarının gerçəkləşdirilməsi yol hərəkətinin digər iştirakçısının hüquqlarını məhdudlaşdırmamalı və ya pozmamalıdır.

Yol hərəkəti iştirakçısının Gürcüstan İcra Hakimiyyəti orqanları tərəfindən və ictimai məmurlardan qəbul etmək hüququ vardır:

- Hərəkətin təhlükəsizlik şərtləri haqqında məlumat;
- Bu qanunun 8-ci maddəsində göstərilən yolda hərəkətin məhdudlaşdırılması və ya dayandırılmasının səbəbləri haqqında məlumat;
- Yol hərəkətinin təhlükəsizliyinin təmin edilməsi ilə əlaqədar məhsulun və xidmətin keyfiyyəti haqqında məlumat;
- Yol-nəqliyyat hadisəsi zamanı ilkin tibbi, xilasedici və digər növ yardım.

Yol hərəkəti iştirakçısı bu qanunla təyin edilən qaydaya əsasən sərbəst və maneəsiz yolda hərəkət edir.

Yol hərəkəti iştirakçısının Gürcüstan qanunvericiliyi ilə təyin edilən qaydaya əsasən yol hərəkətinin təhlükəsizliyinin təmin edilməsi sahəsində səlahiyyətli şəxsin əməlini şikayətləndirmək hüququ vardır.

**Maddə 16. Sürücülük hüququnu əldə etmək qaydası və şərtləri**

Gürcüstanda sürücülük hüququnu əldə etmək qaydası və şərtləri qanunvericiliklə müəyyənləşdirilir.

> ***Sürücülük hüququnun verilmə qaydası Daxili İşlər nazirinin "Mexaniki nəqliyyat vasitələrinin sürücülük hüququnun verilməsi və sürücüülk vəsiqələrinin verilmə qaydasının təsdiq edilməsi haqqında" 2007-ci il 10 avqust tarixli 1098 saylı fərmanı ilə təyin edilir.***

**Maddə 17. Mexaniki nəqliyyat vasitələrinin sürücülük hüququnun verilməsi üçün zəruri tələblər**

Mexaniki nəqliyyat vasitələrinin sürücülük hüququnun verilməsi üçün sürücülük imtahanı verilməlidir, yalnız Gürcüstan Qanunvericiliyi ilə nəzərdə tutulan hallar istisna edilməklə.

Mexaniki nəqliyyat vasitələrinin sürücülük imtahanına Gürcüstan Qanunvericiliyi ilə müəyyən edilən yaş həddinə çatmış və sürücülük üzrə hazırlıq müəssisələrində lazımi hazırlıqdan keçmiş şəxs buraxılır.

„A“ və ya „B“ kateqoriyalı nəqliyyat vasitələrinin sürücülük imtahanına müstəqil hazırlaşmış 18 yaşına çatmış şəxs buraxıla bilər.

**Maddə 17[1]. 17 yaşına çatmış şəxs üçün sürücülük hüququnun verilməsi şərtlərinin və dayandırılmasının (ləğv edilməsinin) əsasları**

1. Gürcüstan qanunvericiliyi ilə təyin edilən A və ya B kateqoriyalı nəqliyyat vasitələrinin sürücülük hüququ imtahanına 17 yaşına çatmış şəxs buraxıla bilər. İmtahanı uğurla verdiyi halda 17 yaşlı sürücüyə A və ya B kateqoriyalı nəqliyyat vasitələrinin sürücülük hüququ verilir (Gürcüstan qanunvericiliyi ilə müəyyənləşdirilmiş məhdudiyyətlərlə) və Gürcüstan ərazisində təsirdə olan sürücülük hüququnu təsdiq edən sürücülük vəsiqəsi verilir.

2. Gürcüstan Qanunvericiliyi ilə təyin edilən A və B kateqoriyasının nəqliyyat vasitəsinin sürücülük imtahanına 17 yaşına çatmış şəxsin buraxılması üçün valideynin və ya qəyyumun yazılı razılığı.

3. Bu maddənin birinci bəndi ilə təyin edilən qaydaya əsasən verilən A və ya B kateqoriyalı nəqliyyat vasitələrinin idarə olunma hüququ dayandırılır (ləğv olunur);

a) Şəxsin 18 yaşı tamam olduğundan 30-cu təqvim gününün 24 saatında;

b) Bu bəndin "a" yarımmadəsi ilə müəyyən edilmiş müddətdə şəxs tərəfindən A və ya B kateqoriyalı nəqliyyat vasitələrinin idarə olunma hüquqlarının müddətsiz (məhdudiyyət xaricində) verilməsi tələbi halında;

c) Bu bəndin “a” və “b” yarımmadələri ilə müəyyən edilmiş mühitlər yetişənə qədər şəxs üçün Gürcüstan Cinayət Məcəlləsi ilə, Gürcüstan İnzibati hüquq pozuntularının Məcəlləsi ilə və ya “nartkotik cinayətə qarşı mübarizə haqqında” Gürcüstan Qanununu ilə təyin edilən qayda ilə sürücülük hüququnun müsadirə olunması halında, müsadirə müddətinin bitməsinə qədər;
ç) bu qanunun 19-cu maddəsinin 2-ci bəndi ilə müəyyənləşdirilmiş əsaslardan biri ilə sürücülük hüququnu dayandırdıqda (ləğv edildikdə).

4. Bu maddənin birinci bəndi ilə təyin edilən qayda ilə “A” və ya “B” kateqoriyalı nəqliyyat vasitələrinin sürücülük hüququ verilən şəxsə qadağan edilir:
a) sərnişinlərin marşrut nəqliyyat vasitələri ilə daşınması, taksi və ya gəlir (mənfəət) əldə etmək məqsədilə;

b) əmək münasibətlərinin əsasında sürücü işləmək.

5. 17 yaşında sürücülük hüququ verilən şəxs tərəfindən “A” və “B” kateqoriyalı sürücülük imtahanında (nəzəri və praktiki imtahanlarda) aldığı müsbət qiymətləndirmə hüquqi qüvvəsini itirir:

a) bu maddənin 3-cü bəndinin “q” yarımmadəsi ilə müəyyənləşdirilmiş sürücülük hüququnun dayandırılmasının (ləğv edilməsinin) əsası yaranan kimi;

b) dərhal, bu maddənin 3-cü bəndinin “a” yarımmadəsi ilə müəyyənləşdirilmiş sürücülük hüququnun dayandırılmasından (ləğv edilməsindən), lakin ən geci sürücülük hüququnun müddətsiz (məhdudiyyət xaricində) verilməsində;

b.a) inzibati cəzanın Gürcüstan İnzibati Pozuntular Məcəlləsinin 116-cı, 117-ci və ya 123-cü maddəsi ilə nəzərdə tutulmuş hər hansı bir hüquq pozuntusu üçün;

b.b) “narkotik cinayətə qarşı mübarizə haqqında” Gürcüstan Qanununu ilə təyin edilən qayda ilə şəxsin sürücülük vəsiqəsi müsadirə olunur;

c) Gürcüstan Qanunvericiliyi ilə müəyyənləşdirilmiş hallarda.

6. Bu maddənin birinci bəndi ilə müəyyən edilmiş hüquq verilən şəxsə 18 yaşına çatdıqdan sonra “A” və ya “B” kateqoriyalı nəqliyyat vasitələrinin sürücülük hüququ 17 yaşında uğurla verilən sürücülük imtahanının əsasında verilir, əgər tələbat anı üçün bu maddənin 5-ci bəndi ilə müəyyənləşdirilmiş mühit yoxdursa.

7. Bu maddənin birinci bəndi ilə təyin edilən qayda ilə şəxsin nəqliyyat vasitəsinin sürücülük hüququ Gürcüstan Cinayət Məcəlləsi ilə, Gürcüstan İnzibati Xətalar Məcəlləsi ilə və ya “narkotik cinayətlərə qarşı mübarizə haqqında” Gürcüstan Qanunu ilə təyin edilən qayda əsasında müsadirə olunarsa, sürücülük hüququnun müddətsiz (məhdudiyyət xaricində) imtahanına 18 yaşına çatdıqda və sürücülük hüququnun müsadirə olunması müddəti keçdikdən sonra buraxılır.

8. Mexaniki nəqliyyat vasitəsinin sürücülük hüququnun verilməsini İctimai Hüquqlu Hüquqi Şəxs – Gürcüstan Daxili İşlər Nazirliyinin Xidmət Agentliyi həyata keçirir.

9. Mexaniki nəqliyyat vasitəsinin sürücülük hüququ olan şəxsə İctimai Hüquqlu Hüquqi Şəxs – Gürcüstan Daxili İşlər Nazirliyinin Xidmət Agentliyi Gürcüstan Qanunvericiliyi ilə təyin edilən qaydaya əsasən müvafiq kateqoriyanın nəqliyyat vasitəsinin sürücülük hüququnu, traktorçunun sürücülük vəsiqəsini və beynəlxalq sürücülük vəsiqəsini verir.

10. Mexaniki nəqliyyat vasitəsinin sürücülük hüququnun verilməsi, müsadirə olunmuş və ya dayandırılmış (ləğv edilmiş) sürücülük vəsiqəsinin, traktoristin sürücülük vəsiqəsinin və beynəlxalq sürücülük vəsiqəsinin verilməsi, bərpa edilməsi və ləğv edilməsi qaydası Gürcüstan Daxili İşlər nazirinin əmri ilə müəyyənləşdirilir.

11. Bu maddənin 4-cü bəndi ilə müəyyənləşdirilmiş mühitlər mövcud olduqda şəxs sürücülük hüquqlarından xaric hesab edilir.

**Maddə 18. Nəqliyyat vasitələrinin sürücülük vəsiqəsi**

Nəqliyyat vəsiqələrinin sürücülük hüququ vəsiqə ilə təsdiq olunur, hansı ki, beynəlxalq normaların tələblərinə müvafiqdir.

**Maddə 19. Mexaniki nəqliyyat vasitələrinin sürücülük hüququnun saxlanması və dayandırılmasının (ləğv edilməsinin əsasları)**

1. Mexaniki nəqliyyat vasitələrinin sürücülük hüququnun saxlanmasının əsasıdır:
   a) sürücünün səhhətinin pisləşməsi haqqında tibbi rəy. Tibbi rəy mexaniki nəqliyyat vasitəsinin təhlükəsiz idarə olunmasını qeyri-mümkün edir;
   b) Mexaniki nəqliyyat vasitəsinin sürücülük hüququnun müsadirə olunması Gürcüstan Cinayət Məcəlləsi ilə və ya Gürcüstan İnzibati Xətalar Məcəlləsi ilə təyin edilən qayda ilə təyin edilir;
   c) Mexaniki nəqliyyat vasitəsinin sürücülük hüququnun müsadirə olunması “Narkotik cinayətə qarşı mübarizə haqqında” Gürcüstan Qanunu ilə təyin edilən qayda əsasında həyata keçirilir.

2. Mexaniki nəqliyyat vasitələrinin sürücülük hüququnun dayandırılmasının (ləğv edilməsinin) əsaslarıdır:
a) Səlahiyyətli orqanın (vəzifəli şəxsin) tərəfindən qəbul edilən qərar, əgər ki, sürücülük hüququnun dayandırılması (ləğv edilməsinə) əsas vardırsa;
b) Bu qanunun 171-ci maddəsinin 3-cü bəndi ilə müəyyənləşdirilmiş mühitlərin olması;
c) şəxsin vəfat ertməsi.

3. Bu bəndin birinci bəndi ilə müəyyənləşdirilmiş mühit olduqda şəxsə mexaniki nəqliyyat vasitəsini idarə etmək qadağan edilir sürücülük hüququnun dayandırılmasının əsasının qarşısı alınana qədər və sürücülük hüququnun bərpa olunmasına qədər.

Dayandırılmış mexaniki nəqliyyat vasitəsinin sürücülük hüququnun bərpası Gürcüstan Qanunvericiliyi ilə təyin edilən qayda əsasında həyata keçirilir.

## Bu maraqlıdır

Avtomobil istehsalını inkişafı və ümumiyyətlə, dünyada baş verən texnoloji tərəqqi fonunda yol-nəqliyyat hadisələrinin və onların ağır nəticələrinin qarşıdan alınma problemi mədəni cəmiyyət üçün daha da aktual olur. İnsan tələfatı qeydə alınan ilk avtomobil qəzası 1896-cı ildə baş vermişdi. Bundan sonra bir əsrdən artıq vaxt keçir, avtomobil qəzalarında həlak olanların sayı isə günü-gündən artır. Qeyri-rəsmi informasiya əsasında 2000-ci ildə yuxarıda qeyd edilən hallarda dünyada 500 000 insan həlak olmuş, 15 000 000 insan isə müxtəlif dərəcəli bədən xəsarəti almış, onlardan 30%-i şikəst qalmışdır. Statistika çox təşviş doğurur, çünki avtomobil qəzalarının nəticəsində həlak olanların və zərərçəkənlərin sayı müasir dünyanın müxtəlif regionlarında davam edən mübarizə münaqişələrində ölənlərin və yaralanların sayından bir neçə dəfə artıqdır. Bundan irəli gələrək dünyada qabaqcıl dövlətlərdə mövcud, yol təsərrüfatının qaydaya salınma xətti ilə məşğul olan elmi təşkilatlarda yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi sahəsində mövcud problemlərin öyrənilməsinə və onların analizi əsasında işlənib hazırlanmış təşkili-texniki tədbirlərin praktikada həyata keçirilməsinə xüsusi diqqət verilir.

Avtomobillərdə təhlükəsizlik kəmərlərinin, moto-nəqliyyatda isə təhlükəsizlik dəbilqəsinin istifadəsi, eləcə də avtomobillə səyahət zamanı mobil telefonla söhbəti qadağan edilir, bununla belə avtomobildə quraşdırılmış xüsusi avadanlıqlar vasitəsilə telefondan istifadənin həyata keçirildiyi, sükan arxasından əllərin uzun müddətli aralanmaması halları istisna edilir. Bu, ilk növbədə yüksək keyfiyyətli təşviqatın nəticəsidir. Yol hərəkəti qaydalarının tədrisi proqramı uşaq bağçasından başlanır və məktəb müddətində əsaslı şəkildə öyrənilir.





Dünyanın bəzi böyük şəhərlərində həyata keçirilən yol hərəkətinin təşkili metodları ilə tanışlıq maraqlıdır. Misal üçün, Qahirəni göstərə bilərik, burada hərəkətin təşkili probleminin həllində müasir texnologiyalardan istifadə yaxın zamanlarda başlamışdır və Tokio şəhəri, hansı ki, qeyd edilən problemin həllində dünyanın qabaqcıl şəhərlərindən biridir.

8 milyon əhalisi olan Qahirə şəhərinin ətrafında (kəndlərdə) yaşayan əhalini daxil etməklə ümumi sayı 18 milyona çatır və onda 2 milyon avtomobil nəqliyyat vasitələri hərəkət edir. Şəhərin küçələri isə yalnız 750 min avtomobil üçün nəzərdə tutulmuşdur. Ölkə hakimiyyəti ilk növbədə əyləncə mərkəzlərini şəhər kənarında yerləşdirdi. Yaxın gələcəkdə şəhərin kənarında məntəqələrin tikilməsi planlaşdırılıb və burada ölkənin hakimiyyət müəssisələrinin mərkəzi-inzibati tikililəri yerləşdiriləcəkdir. Bunun nəticəsində hər gün təxminən 1 milyon insanın paytaxta daxil olmasının qarşısı alınancaqdır. Avtomobil nəqliyyatının dayanması və durması məsələsi ciddi problemlər yaradır, keçə bilməyən avtomobil birbaşa yolun işlək hissəsində dayanır. Məsələnin həlli məqsədilə şəhərdə davam edən yeni tikintilər üçün məcburi tələb qanuniləşdirilib ki, tikililərin birinci mərtəbəsi avtomobil duracaqları üçün istifadə olunsun, bundan əlavə xüsusi avtomobil duracaqlarının salınması xüsusi dəstəklə həyata keçirilir. Təcrübədə bir-birinə paralel küçələrdə yalnız birtərəfli istiqamətdə hərəkət geniş şəkildə tətbiq olunur. Ən effektlisi isə paytaxtda tunellərin və estakadaların tikintisi tendensiyasıdır, “5 Oktyabr” adlı estakadanın uzunluğu 48 kilometrdir.

530 kvadrat kilometrdə tikilmiş şəhər demək olar ki, 110 kilometr uzunluğunda dairəvi a/magistralla əhatə olunur, şəhərin küçələri onunla arterial yolla əlaqəlidir. Arterial yolla ikinci dərəcəli yolların birləşməsi yalnız estakadaların vasitəsilə baş verir. Şəhərin yüksək binalarında 180 dərəcəli dövriyyəli və 500 dəfə böyümə bacarığı olan video-kameralar quraşdırılıb. Onlar tərəfindən çəkilən şəkillər 24 saatlıq rejimlə paytaxtın yol polisi ştabında müşahidə olunur. Monitorlarda qeyd edilən hər hansı bir problem vəziyyətində operator hadisə yerinə patrul göndərir.

Şəhərarası avtomobil yollarına gəldikdə isə onlar maksimal şəkildə elekro radarla təchiz olunmuşlar, hansılar sürətin artırılmasının hər hansı bir faktında mərkəzi ofisə pozuntu fotoşəkillə qeyd edilən elektrik siqnalını verirlər. Yol hərəkəti qaydalarının pozuntusu faktlarına reaksiya verilməsi, onların səbəbləri ilə yaranmış nəticələrin mürəkkəbliyinə müvafiq olaraq kifayət qədər ciddi, minimal pul cərimasindən azadlıqdan 3 il müddətinə məhrum edilməyə qədərdir.

Tokio şəhərində hərəkətin təşkili sahəsi daha maraqlı və yüksək texnolojidir. Mərkəzi idarənin ştabında bir 16X4 metrlik və üç 4X4 metrlik ekran yerləşdirilmişdir. Bu ekranlarda insanların müdaxiləsi xaricində kompüter yol hərəkəti vəziyyətini göstərir. Şəhərdə daha 36 mikro ştab vardır, onlar da mərkəzi ştabla əlaqədardırlar. Qəza hadisəsindən 3 dəqiqədə mərkəzi ştab hadisə yerinə patrul avtomobilini göndərir, onun hərəkəti yuxarıda qeyd edilən ekranda görünür. Yollarda 360 dərəcə dövriyyəsi vasitəsilə kameralar bir çox yerlərdə quraşdırılmışdır. Onların vasitəsilə avtomobil yollarının hər hansı bir sahəsinin mərkəzi ştabda yerləşdirilmiş monitorlarda görüntüsü mümkündür. Avtomobil yollarında, eləcə də elektro radarlar və yuxarıdan aşağı yönəlmiş üfüqi infra-qırmızı indikatorlar quraşdırılmışdır və onlar şüanın müddəti ilə tıxacı qeyd edirlər və tıxacı aradan qaldırmaq üçün svetoforun işıqlarını dəyişirlər. Əlillər üçün xüsusi icazələr vardır. Onların vasitəsilə də svetoforları idarə etmək mümkündür.

Estakadaların təşkili məsələsi Tokio şəhərində dünyanın ən yüksək səviyyəsində həyata keçirilir. Torpaq səviyyəsində yerləşdirilmiş yollarda hərəkət pulsuzdur və sürət məhduddur. Eyni zamanda birinci səviyyəli estakada olan hərəkət 100 km/saatla icazə verilir. Avtomobil yollarının üçüncü səviyyəsi, yəni ikinci səviyyəli estakadada hərəkət pulsuzdur, sürət məhdudiyyətsizdir.

Hərəkət qaydalarının hər hansı bir pozuntusunu kompüter qeyd edir və sonra nəqliyyat vasitəsini eyniləşdirir. Monitorda onun tərəfindən əvvəllər yol verilmiş pozuntular haqqında informasiya görünür. Bundan sonra dərhal yanğınsöndürmə və tibbi yardım avtomobilləri ilə birlikdə cinayətkarı yaxalamaq üçün yol patrulu göndərilir.Svetofora yaxınlaşdıqda, operativ maşınlarda yerləşdirilmiş kompüterlərin vasitəsilə avtomatik olaraq svetoforun yaşıl işığı yandırılır.

Eləcə də yollarda çoxlu elektron informasiya lövhəcikləri yerləşdirilmiş və onlarda yol şəraitləri və ekoloji vəziyyət haqqında informasiya çıxarılmış və alternativ yollar təklif edilmişdir. Belə bir informasiyanı şəxsi avtomobillərdə quraşdırılmış kompüterlərin monitorlarında da görmək olar.

Tokio ictimai nəqliyyat vəziyyətinin yüksək səviyyəsi ilə də seçilir. Avtomobil yollarında xüsusi üstünlük zolaqları ayrılır. Onda polis, yanğınsöndürən və tibbi a/maşınlar da hərəkət edə bilərlər. Şəhərdə metronun 7 üfüqi müxtəlif səviyyələrində yerləşdirilmiş 17 xətti vardır.

Şəhərdə 13 milyondan artıq insan yaşayır. Qeyd etmək lazımdır ki, Tokio dünyanın ən böyük meqapolis mərkəzidir, hansında ümumi hesabda 35 milyon insan yaşayır. Bu fakta görə Tokioya gün ərzində əlavə olaraq 3,5 milyon insan daxil olur. Tokio küçələrində sistematik olaraq bir neçə milyon nəqliyyat vasitəsi hərəkət edir, amma küçələrdə yüklənmə hiss olunmur. İdeal nizamlanan hərəkətin təşkili vasitəsilə elə oldu ki, 2000-ci ildə Tokioda avtomobil qəzası nəticəsində qeyri-rəsmi informasiya ilə yalnız 123 insan həlak olmuşdur.

## Mövzu # 4
## Yol nişanları və onların xarakterizə edilməsi

Yol nişanları hərəkətin təhlükəsizliyinin nizamlanması və təmin edilməsinin əhəmiyyətli vasitəsi kimi hesab edilir.

- Onlar yol hərəkəti iştirakçılarını müxtəlif təhlükəli məntəqələrə yaxınlaşmaları haqqında xəbərdar edirlər;
- Yolayrıcı, işlək hissə və yolun ensiz sahəsinə keçid ardıcıllığını nizama salırlar;
- Küçələrin və yolların ayrı-ayrı sahələrində bəzi nəqliyyat vasitəsinin hərəkətini məhdudlaşdırırlar və ya qadağan edirlər;
- Müəyyən istiqamətdə hərəkət etməyə icazə verirlər;
- Əsas nişanların obyektə qədər hərəkət zonasını, vaxtını, məsafəni dəqiqləşdirirlər və ya onların hərəkətini məhdudlaşdırırlar.

Yol nişanları milli qanunvericiliyin tələbləri və 10807-78 standartına əsasən 7 qrupa ayrılır. Bunlardır:

***1. Xəbərdarlıq nişanları***
***2. Üstünlük nişanları***
***3. Qadağan nişanları***
***4. Göstərici nişanlar***
***5. Məlumatverici-göstərici nişanlar***
***6. Servis nişanları***
***7. Əlavə məlumat nişanları***

**1.** ***Xəbərdarlıq -*** xəbərdarlıq nişanları hərəkət iştirakçılarına (sürücülərə və ya piyadalara) müəyyən ölçülərin qəbul edilməsini tələb edən hərəkətin mövcud konkret təhlükəsi haqqında məlumat verirlər. Xəbərdarlıq yol nişanı Gürcüstanda bərabəryanlı üçbucaq formasındadır və onun ətrafı qırmızı haşiyəyə alınmışdır. Üçbucağın birləşdirici ucu hər zaman yuxarı tərəfə istiqamətlənmişdir.

**2.** ***Üstünlük –*** üstünlük nişanları yolayrıcının, işlək hissələrin kəsişdiyi və ya yolun ensiz sahəsində keçidin ardıcıllığını təyin edirlər.

Üstünlük nişanları müxtəlif formada ola bilər (dairə, dördbucaqlı, üçbucaq, romb və ya səkkizbucaqlı). Nişanları hər iki tərəfdən anlamaq olar.

**3..** ***Qadağan –*** qadağan nişanlarının məqsədi odur ki, yol hərəkəti iştirakçılarının əməl etməli olduqları öhdəliklərini, məhdudiyyətlərini və xüsusi qadağaları təyin etsin. Qadağan nişanları hərəkəti məhdudlaşdırırlar və ya əvvəllər təsis edilən məhdudiyyətləri ləğv edirlər. Qadağan nişanları dairə formasındadır, ağ rəngdə olur və qırmızı haşiyəsi vardır.

**4.** ***Göstərici –*** göstərici nişanlar yol hərəkəti iştirakçılarına müəyyən istiqamətdə, minimal sürətlə hərəkət etməyi göstərir, yalnız müəyyən növ nəqliyyata hərəkət etməyə icazə verir, eləcə də yolda mövcud maneədən yan ötməni, piyada və velosipedçilərin zolağında hərəkət istiqamətini göstərirlər.

Göstərici nişanlar əsasən dairəvi formadadır, göy rəngdə və üzərində ağ simvollar təsvir olunur.

**5..** ***Məlumatverici-göstərici –*** məlumatverici-göstərici nişanlar hərəkətin müəyyən rejimlərini təyin edir və ya ləğv edirlər, eləcə də yaşayış məntəqələri və digər obyektlərin yerləşməsi haqqında məlumat verirlər.

Məlumatverici-göstərici nişanlar əsasən kvadrat və ya düzbucaqlı formasında olur, onun mavi fonu və ağ rəngli qeydləri vardır. Tək-tək nişanlar istisna olunurlar, onların ağ, yaşıl və ya sarı rəngləri və qara qeydləri olur.

6. ***Servis*** **–** servis nişanları yol hərəkəti iştirakçılarına obyektin yerləşməsi haqqında informasiya verirlər. Servis nişanları düzbucaqlı formasında, mavi rəngdə olur. Onların üzərində əks edilən kiçik ölçülü ağ düzbucaqlı qara və ya qırmızı rəngli qeydlərlə verilir.

7. ***Əlavə informasiya nişanları*** **-** əlavə informasiya nişanları (lövhəciklər) birlikdə istifadə olunan nişanların qüvvəsini dəqiqləşdirir və ya məhdudlaşdırırlar.

   Əlavə informasiya nişanlarının (lövhələrin) düzbucaqlı formaları vardır. Onlar əsasən ağ rəngdə olurlar, qara haşiyə ilə və ya qara rəngdə, qırmızı və ya sarı qeydlərlə.

Eləcə də xüsusi hallarda nəqliyyat vasitələrinin qeyd edilməsi məqsədilə onların üzərində tanınma nişanlar bərkidilir. Bu nişanlar yol hərəkəti qaydalarında ayrıca qrupda verilmişdir.

Hər bir nişanın özünün nömrəsi (indeksi) var və onlar iki rəqəmdən ibarətdirlər. Birinci rəqəm qrupu göstərir, ikinci isə - qrupun daxilində nişanın sıra nömrəsini.



2.1 baş yol – 2 rəqəmi göstərir ki, nişan 2-ci qrupun üstünlük nişanlarına aiddir, 1 rəqəmi isə göstərir ki, bu nişan üstünlük nişanlarının qrupunda sıra ilə birincidir.

Nişanın hər bir qrupunun müəyyən forması və rəngi var. Bu isə əhəmiyyətli məsafədə onları tanımaq imkanını verir. Yol nişanları həm stasional (dirəyə bərkidilmiş uzunmüddətli təsir), eləcə də müvəqqəti dayaqlarda istifadə olunurlar. Eləcə də əgər dayaqda təsvir edilən müvəqqəti yol nişanları və qeydlərinin xətlərinin mənası qarşılıqlıdırsa, o zaman sürücülər yol nişanlarını rəhbər tuturlar.

Yol hərəkətinin iştirakçısı məcburdur ki, göstərişlərin yol hərəkətinin qaydalarının bir-birini istisna etdiyi kimi göründüyü halda da yol nişanlarının, işıqlandırıcı yol siqnallarının, nizamlayıcının və yol qeydlərinin göstərişlərini yerinə yetirsin.

Yol hərəkətinin iştirakçısına yol nişanlarını örtmək, zədələmək və ya özbaşına yol nişanlarını, svetoforları və digər hərəkətin təşkilinin texniki vasitələrini qoymaq qadağan edilir.

Yol hərəkətinin iştirakçıları svetoforun siqnallarını həmin hallarda da yerinə yetirməlidirlər, əgər ki, bu siqnallar keçmək üstünlüyünü müəyyən edən yol nişanlarının tələblərinə ziddirlərsə. Eləcə də nizamlayıcının siqnallarını və göstərişlərini bunların svetoforun siqnallarına, yol nişanlarına, göstərişlərinə və yol hərəkəti qaydalarına zidd olduğu halda da yerinə yetirirlər.

Yol nişanları hərəkətin istiqamətinin müvafiq tərəfində qoyulur və onlar hərəkət üçün açıq yolun işlək hissəsinin bütöv enində təsir edirlər. Nişanların qüvvəsi bir və ya bir neçə hərəkət zolağında məhdudlaşdırıla bilər.

## 1. Xəbərdarlıq nişanları

Xəbərdarlıq nişanları sürücüləri küçənin və ya yolun təhlükəli məntəqələrinə yaxınlaşmaları barədə xəbərdar edir. Sürücü xəbərdarlıq nişanından sonra diqqət yetirməli və hərəkətin sürətini həmin səddə qədər azaltmalıdır ki, lazım gəldikdə nəqliyyat vasitəsini təhlükəli məntəqənin qarşısında vaxtında dayandıra bilsin.

Xəbərdarlıq nişanlarının formasıdır – ağ və ya sarı fonla qırmızı haşiyəli üçbucaq.

Xəbərdarlıq nişanları məhdudiyyətləri təsis etmirlər, amma sürücülərin diqqətlərini cəmləşdirməyə və müvafiq sürət seçməyə məcbur edirlər. Qeyd edilən nişanlar yaşayış məntəqəsində 50-100 m məsafədə qoyulur, qeyri-yaşayış məntəqəsində isə 150-300 m məsafədə.

Cəmi 43 xəbərdarlıq nişanları var.

Xəbərdarlıq nişanlarından növbəti altısı qeyri-yaşayış məntəqələrində təhlükəli məntəqəyə qədər iki dəfə təsadüf olunur. Bu nişanlardır: 1,1; 1,2; 1,9; 1,10; 1,21; 1,23; birinci nişan 150-dən 300 metrə qədər məsafədə qoyulur, ikinci isə təhlükəli məntəqəyə ən azı 50 metr məsafədə qoyulur.

Onları ayrı-ayrılıqda təhlil edək.



1.1

**1.1 Şlaqbaumlu dəmir yol keçidi**

Yol hərəkətinin iştirakçılarını şlaqbaumla təchiz olunmuş dəmiryol keçidinə yaxınlaşma barəsində tanış edir. Qeyri-yaşayış məntəqəsində nişan iki dəfə qoyulur, bir dəfə 150-300 metrdə, ikinci dəfə isə 50 metrdə dəmir yol keçidinə qədər. Lazım gəldiyi halda xəbərdarlıq nişanı 1.1 başqa məsafədə də 7.1.1 ”obyektə qədər” lövhəsi ilə birlikdə qoyula bilər.




**7.1.1 ”Obyektə qədər”** – yol nişanından təhlükəli sahənin başlanğıcına qədər olan məsafəni, yerinə qədər və ya irəlidə, hərəkətin istiqaməti ilə mövcud müəyyən obyektə qədər (yerə qədər) lazımi məhdudiyyətlərin daxil edilməsini göstərir.

1.2 **1.2 Şlaqbaumsuz dəmir yol keçidi**

Sürücünü şlaqbaumsuz dəmiryol keçidi barədə xəbərdar edir. Qeyri-yaşayış məntəqəsində nişan iki dəfə qoyulur: birinci dəfə 150-300 m və ikinci dəfə - 50 m.

Yaşayış məntəqəsində nişan bir dəfə 50-100 m-də qoyulur. Lazım gəldiyi halda, 1.2 xəbərdarlıq nişanı başqa məsafədə də 7.1.1 ”obyektə qədər” lövhəsi ilə birlikdə qoyula bilər.



1.2

***Diqqət !!!***

*1.3* ***Nişanlar 1.1 - Şlaqbaumlu dəmir yol keçidi və 1.2 Şlaqbaumsuz dəmir yol keçidi təkrarlanır və sıra ilə ikinci nişan obyektə ən azı 50 m qalmış məsafədə qoyulur.***



1.3.1

**1.3.1 Birxətli dəmir yolu**

Xəbərdar edir ki, dəmiryol keçidi birxətlidir və onun bir şlaqbaumu vardır. Birbaşa dəmiryol keçidinin önündə qoyulur.

Əgər keçidin svetoforu vardırsa, o zaman nişan ona bərkidilir, svetofor olmadıqda isə ən yaxın relsdən ən azı 20 m məsafədə yerləşir.

**1.3.2 Çoxxətli dəmir yolu**

Iki və ya daha çox xətli yolla təchiz edilmiş dəmiryolu keçidi haqqında məlumat verir. 1.3.1 nişana analoji olaraq qoyulur.



1.3.2



1.4.1 1.4.2 1.4.3

1.4.1 1.4.2 1.4.3 **dəmiryolu keçidinə yaxınlaşma**

”Yol hərəkətinin təhlükəsizliyi haqqında” (28.05.1999) Gürcüstan qanununun 30-cu maddəsinin 5-ci bəndinin “q” yarımmaddəsinə əsasən, dəmiryol keçidində və onun qarşısında, 100 metr yaxınlıqda ötmək qadağandır. Eləcə də sağda, yaxud da 1.1 və ya 1.2 nişanları ilə birlikdə 150-300 metrdə quraşdırılır.

1.4.2 nişanı isə müstəqil bu iki nişanın arasında quraşdırılır.

**1.4.4 1.4.5 1.4.6 dəmiryolu keçidinə yaxınlaşma**

1.4.4, 1.4.5 və 1.4.6 nişanlar, 1.4.1,1.4.2,1.4.3 nişanlarına analoji olaraq yalnız yolun solunda bu sonuncu nişanlara paralel olaraq qoyulur.



1.4.4 1.4.5 1.4.6



1,5

**1.5 Tramvay xətti ilə kəsişmə**

Sürücünü tramvay xətti ilə kəsişməyə yaxınlaşma haqqında xəbərdar edir, çünki tramvaya yol verməlidir.

Belə ki, tramvayın üstünlüyü vardır, yalnız o hallar istisna olunur, nə zaman ki, depodan çıxır və ya depoya girir.

Yaşayış məntəqəsində 50-100 metrdə, qeyri-yaşayış məntəqələrində 150-300 metrdə tramvay xəttinin kəsişməsində qoyulur.

**1.6 Eyni əhəmiyyətli yolların kəsişməsi**

Yol hərəkəti iştirakçılarını eyni əhəmiyyətli yolların kəsişməsinə yaxınlaşma haqqında xəbərdar edir. Qeyri-yaşayış məntəqəsində təhlükəli məntəqəyə qədər nişan 150-300 metrdə, yaşayış məntəqəsində isə ən azı 50 metrdə yerləşdirilir. Bu nişanda sürücü yolları eyni əhəmiyyətli hesab etməlidir, hətta yolun biri bərk örtüklə örtülmüş, digəri isə örtüksüz (torpaq) olsa da belə.



1.6



1.7

**1.7 Dairəvi hərəkətlə kəsişmə**

Yol hərəkəti iştirakçılarını çətin yolayrıcına yaxınlaşma barəsində xəbərdar edir. Burada dairəvi hərəkət təşkil edilmiş və yolayrıcının önündə 4.3 “dairəvi hərəkəti” göstərən nişan quraşdırılır. Qeyri-yaşayış məntəqəsində nişan 150-300 m aralıda, yaşayış məntəqəsində isə yolayrıcına qədər 50-100 metrdə yerləşir.



**4.3 Dairəvi hərəkət**

Nişan sürücünü məcbur edir ki, yolayrıcında və ya meydanda nişanda oxlarla göstərilən istiqamətlə qonşu küçəyə və ya yola keçənə qədər hərəkət etsin.

**1.8 Svetoforla nizamlama**

Yol ayrıclarına, piyada keçidlərinə və ya yolun həmin məntəqəsinə yaxınlaşmanı xəbərdar edirlər, hansında hərəkət svetoforla nizamlanır. Nişan svetofora qədər görüntü sahəsinin 50 metrdən az olduğunda qoyulur və buna görə də sürücü artıq hazırlaşır və qadağan siqnalı onun üçün qəfil olmur (yəni ki, kəskin manevrə etməli olmur)

Qeyri-yaşayış məntəqəsində nişan 150-300 metrdə, yaşayış məntəqəsində təhlükəli məntəqəyə qədər 50-100 metrdə qoyulur.



1.8



1.9

**1.9 Ayrılan körpü**

Yol hərəkəti iştirakçılarını ayrılan körpüyə yaxınlaşma barədə xəbərdar edir. Qeyri-yaşayış məntəqəsində nişan 150-300 metrdə, yaşayış məntəqəsində təhlükəli məntəqəyə qədər 50-100 metrdə yerləşdirilir. Qeyri-yaşayış məntəqəsində nişan təkrarlanır. İkinci nişan təhlükəli məntəqənin başlanmasına ən azı 50 metr məsafədə qoyulur.

***Diqqət !!!***

***Nişanlar 1.9 ayrılan körpü, 1.10 sahilboyuna çıxış yaşayış məntəqələrinin kənarında mütləq təkrarlanır və sıra ilə ikinci nişan obyektə ən azı 50 metr qalmış qoyulur.***



1.10

**1.10 Sahilboyuna çıxış**

Yol hərəkəti iştirakçılarını xəbərdar edir ki, yol sahilə çıxır (çayın, gölün və ya dənizin sahilinə). Qeyri-yaşayış məntəqəsində nişan təhlükəli məntəqəyə qədər 150-300 metrdə, yaşayış məntəqəsində isə təhlükəli məntəqəyə qədər 50-100 metrdə qoyulur. İkinci nişan təhlükəli məntəqənin başlanmasına 50 metr qalmış qoyulur.

**1.11.1 Təhlükəli döngə**

Yol hərəkəti iştirakçılarını sağa istiqamətlənmiş təhlükəli və ya məhdudiyyətli görüntülü döngəyə yaxınlaşma haqqında xəbərdar edir. Qeyri-yaşayış məntəqəsində nişan 150-300 metrdə, yaşayış məntəqəsində təhlükəli məntəqəyə qədər 50-100 metrdə qoyulur. 3.24 və ya 5.18 nişanları ilə birlikdə qoyula bilər.



1.11.1



1.11.2

**1.11.2 Təhlükəli döngə**

Yol hərəkəti iştirakçılarını sola istiqamətlənmiş təhlükəli və ya məhdudiyyətli görüntülü döngəyə yaxınlaşma haqqında xəbərdar edir. Qeyri-yaşayış məntəqəsində nişan 150-300 metrdə, yaşayış məntəqəsində təhlükəli məntəqəyə qədər 50-100 metrdə qoyulur. 3.24 və ya 5.18 nişanları ilə birlikdə qoyula bilər.







**5.18 Tövsiyə edilən sürət**

Sürəti göstərir, hansı ilə yolun verilən sahəsində hərəkət tövsiyə edilir.



1.12.1

**1.12.1 Təhlükəli döngələr**

Yol hərəkəti iştirakçılarını birinci döngə ilə sağa istiqamətlənmiş təhlükəli və ya məhdudiyyətli görüntülü döngəyə yaxınlaşma haqqında xəbərdar edir. Qeyri-yaşayış məntəqəsində nişan 150-300 metrdə, yaşayış məntəqəsində təhlükəli məntəqəyə qədər 50-100 metrdə qoyulur. 3.24 və ya 5.18 nişanları ilə birlikdə qoyula bilər. 1.12.1 "təhlükəli döngələr" nişanları ilə birlikdə 7.2.1 "təsir zonası" əlavə məlumat lövhəciyi istifadə oluna bilər. Lövhə təhlükəli məntəqənin uzunluğunu göstərir.




**7.2.1 Təsir zonası**

Xəbərdarlıq nişanları ilə qeyd olunan yolun təhlükəli məntəqəsinin uzunluğunu və ya qadağan və məlumatverici-göstərici nişanların qüvvəsi zonasını göstərir.

**1.12.2 Təhlükəli döngələr**

Yol hərəkəti iştirakçılarını birinci döngə ilə sola istiqamətlənmiş təhlükəli və ya məhdudiyyətli görüntülü döngəyə yaxınlaşma haqqında xəbərdar edir. Qeyri-yaşayış məntəqəsində nişan 150-300 metrdə, yaşayış məntəqəsində təhlükəli məntəqəyə qədər 50-100 metrdə qoyulur. 3.24 və ya 5.18 nişanları ilə birlikdə qoyula bilər. 1.12.1 "təhlükəli döngələr" nişanları ilə birlikdə 7.2.1 "təsir zonası" əlavə məlumat lövhəciyi istifadə oluna bilər. Lövhə təhlükəli məntəqənin uzunluğunu göstərir.



1.12.2




1.13

1.13 **Sərt eniş**

Yol hərəkəti iştirakçılarını təhlükəli eniş haqqında xəbərdar edir. Onun əyriliyi nişanda faizlərlə göstərilir. Qeyri-yaşayış məntəqəsində nişan 150-300 metrdə, yaşayış məntəqəsində təhlükəli məntəqəyə qədər 50-100 metrdə qoyulur.

1.13 "sərt eniş" nişanı ilə birlikdə 7.2.1 "təsir zonası" əlavə məlumat lövhəciyi istifadə oluna bilər. Lövhə təhlükəli məntəqənin uzunluğunu göstərir. 1.13 "sərt eniş" və 1.14 "sərt yoxuş" nişanları birbaşa yoxuş və ya enişin başlanğıcında qoyula bilər, əgər ki, eniş və yoxuş bir-birinin ardınca gəlirsə.

**1.14 Sərt yoxuş**

Yol hərəkəti iştirakçılarını təhlükəli yoxuş haqqında xəbərdar edir. Onun əyriliyi nişanda faizlərlə göstərilir. Qeyri-yaşayış məntəqəsində nişan 150-300 metrdə, yaşayış məntəqəsində təhlükəli məntəqəyə qədər 50-100 metrdə qoyulur.

1.14 "sərt yoxuş" nişanı ilə birlikdə 7.2.1 "təsir zonası" əlavə məlumat lövhəciyi istifadə oluna bilər. Lövhə təhlükəli məntəqənin uzunluğunu göstərir. 1.13 "sərt eniş" və 1.14 "sərt yoxuş" nişanları birbaşa yoxuş və ya enişin başlanğıcında qoyula bilər, əgər ki, eniş və yoxuş bir-birinin ardınca gəlirsə.




1.14



1.15

**1.15 Sürüşkən yol**

Yol hərəkəti iştirakçılarını yolun sürüşkən məntəqəsinə yaxınlaşma barədə məlumat verir. Burada sürüşkənlik təhlükəsi çoxdur. Qeyri-yaşayış məntəqəsində nişan 150-300 metrdə, yaşayış məntəqəsində təhlükəli məntəqəyə qədər 50-100 metrdə qoyulur. Lazım gəldikdə 1.15 nişanı başqa məsafədə 7.1.1. "obyektə qədər" əlavə məlumat lövhəciyi ilə birlikdə qoyula bilər.

**1.16 Nahamar yol**

Yol hərəkəti iştirakçılarına yolun işlək hissəsinin səthinin nahamarlığı barədə xəbər verir (dalğalı, çuxurlu, körpüyə nahamar yolla və s.). Qeyri-yaşayış məntəqəsində nişan 150-300 metrdə, yaşayış məntəqəsində təhlükəli məntəqəyə qədər 50-100 metrdə qoyulur. Lazım gəldikdə 1.16 nişanı başqa məsafədə 7.1.1. "obyektə qədər" əlavə məlumat lövhəciyi ilə birlikdə qoyula bilər.



1.16



1.17

**1.17 Çınqıl sıçrayışı**

Yol hərəkəti iştirakçılarına hərəkət zamanı nəqliyyat vasitəsinin təkərlərindən çınqıl sıçrayan yolun məntəqəsinə yaxınlaşma barədə məlumat verir. Qeyri-yaşayış məntəqəsində nişan 150-300 metrdə, yaşayış məntəqəsində təhlükəli məntəqəyə qədər 50-100 metrdə qoyulur. Lazım gəldikdə 1.17 nişanı başqa məsafədə 7.1.1. "obyektə qədər" əlavə məlumat lövhəciyi ilə birlikdə qoyula bilər.

**1.18.1 Yolun daralması**

Yol hərəkəti iştirakçılarına yolun işlək hissəsinin və ya yolun hər iki tərəfdən daralması haqqında xəbər verir. Qeyri-yaşayış məntəqəsində nişan 150-300 metrdə, yaşayış məntəqəsində təhlükəli məntəqəyə qədər 50-100 metrdə qoyulur. Lazım gəldikdə 1.18.1 nişanı başqa məsafədə 7.1.1. "obyektə qədər" əlavə məlumat lövhəciyi ilə birlikdə qoyula bilər.



1.18.1



1.18.2

**1.18.2 Yolun sağdan daralması**

Yol hərəkəti iştirakçılarına yolun işlək hissəsinin və ya yolun sağ tərəfdən daralması haqqında xəbər verir. Qeyri-yaşayış məntəqəsində nişan 150-300 metrdə, yaşayış məntəqəsində təhlükəli məntəqəyə qədər 50-100 metrdə qoyulur. Lazım gəldikdə 1.18.2 nişanı başqa məsafədə 7.1.1. "obyektə qədər" əlavə məlumat lövhəciyi ilə birlikdə qoyula bilər.

**1.18.3 Yolun soldan daralması**

Yol hərəkəti iştirakçılarına yolun işlək hissəsinin və ya yolun sol tərəfdən daralması haqqında xəbər verir. Qeyri-yaşayış məntəqəsində nişan 150-300 metrdə, yaşayış məntəqəsində təhlükəli məntəqəyə qədər 50-100 metrdə qoyulur. Lazım gəldikdə 1.18.3 nişanı başqa məsafədə 7.1.1. "obyektə qədər" əlavə məlumat lövhəciyi ilə birlikdə qoyula bilər.



1.18.3



1.19

**1.19 İkitərəfli hərəkət**

Yol hərəkəti iştirakçılarına birtərəfli hərəkət yolunun sonu və qarşılıqlı hərəkət məntəqəsinin yaxınlaşması barədə xəbər verir. Burada sürət əhəmiyyətli şəkildə azalmalı və sağ tərəf tutulmalıdır. Qeyri-yaşayış məntəqəsində nişan 150-300 metrdə, yaşayış məntəqəsində təhlükəli məntəqəyə qədər 50-100 metrdə qoyulur. Lazım gəldikdə 1.19 nişanı başqa məsafədə 7.1.1. "obyektə qədər" əlavə məlumat lövhəciyi ilə birlikdə qoyula bilər.

### 1.20 Piyada keçidi

Yol hərəkəti iştirakçılarına 5.16.1 və 5.16.2 yol nişanları və ya 1.14.1-1.14.3 yol işarələri ilə qeyd olunan piyada keçidinə yaxınlaşma barədə və ya yolun işlək hissəsində piyadanın görünə bilməsi haqqında xəbər verir. Qeyri-yaşayış məntəqəsində nişan 150-300 metrdə, yaşayış məntəqəsində təhlükəli məntəqəyə qədər 50-100 metrdə qoyulur. Lazım gəldikdə 1.20 nişanı başqa məsafədə 7.1.1. "obyektə qədər" əlavə məlumat lövhəciyi ilə birlikdə qoyula bilər.


1.20


1.21

### 1.21 Uşaqlar

Yol hərəkəti iştirakçılarına yolun işlək hissəsində uşaqların görünə bilməsi barədə xəbər verir. Məktəblərin, uşaq bağçalarının və s. yanında qoyulur. Sürücü diqqətli olmalı, sürəti azaltmalı və yolu xüsusi diqqətlə keçməlidir. Qeyri-yaşayış məntəqəsində nişan 150-300 metrdə, yaşayış məntəqəsində təhlükəli məntəqəyə qədər 50-100 metrdə qoyulur. Lazım gəldikdə 1.21 xəbərdarlıq nişanı başqa məsafədə 7.1.1. "obyektə qədər" əlavə məlumat lövhəciyi ilə birlikdə qoyula bilər.

***Diqqət !!!***

***1.21 uşaqlar nişanı yaşayış məntəqəsinin kənarında mütləq təkrarlanır və sıra ilə ikinci nişan obyektə qədər ən azı 50 metrdə yerləşdirilir.***


1.22

### 1.22 Velosiped zolağı

Yol hərəkəti iştirakçılarına velosiped zolağına yaxınlaşma haqqında xəbər verir. Sürücü diqqətli olmalı, sürəti azaltmalıdır. Qeyri-yaşayış məntəqəsində nişan 150-300 metrdə, yaşayış məntəqəsində təhlükəli məntəqəyə qədər 50-100 metrdə qoyulur. Lazım gəldikdə 1.22 xəbərdarlıq nişanı başqa məsafədə 7.1.1. "obyektə qədər" əlavə məlumat lövhəciyi ilə birlikdə qoyula bilər.

### 1.23 Yol işləri

Yol hərəkəti iştirakçılarına yolun işlək hissəsində işlərin aparılması barəsində xəbər verir. Burada gecə saatlarında və məhdudiyyətli görüntü şərtləri xüsusi diqqət tələb edirlər. Hərəkətin sürəti əhəmiyyətli şəkildə azalmalı və yol lazımi şəkildə işıqlandırılmalıdır. Qeyri-yaşayış məntəqəsində nişan 150-300 metrdə, yaşayış məntəqəsində təhlükəli məntəqəyə qədər 50-100 metrdə qoyulur. Qeyri-yaşayış məntəqəsində nişan təkrarlanır. İkinci nişan təhlükəli məntəqənin başlanmasına ən azı 50 metr qalmış qoyulur. Yolun işlək hissəsində qısa işlər keçirildikdə yol nişanı 1.23 "yol işləri" işin aparıldığı yerdən 10-15 metrdə qoyulmalıdır. Lazım gəldikdə 1.23 xəbərdarlıq nişanı başqa məsafədə 7.1.1. "obyektə qədər" əlavə məlumat lövhəciyi ilə birlikdə qoyula bilər.


1.23

***Diqqət !!!***

***1.23 yol işləri nişanı yaşayış məntəqəsinin kənarında mütləq təkrarlanır və sıra ilə ikinci nişan obyektə qədər ən azı 50 metrdə yerləşdirilir.***

### 1.24 Mal-qara keçidi

Yol hərəkəti iştirakçılarına yolda ev heyvanlarının görünə bilməsi barədə xəbər verir. Sürücü sürəti azaltmalı və lazım gəldikdə nəqliyyat vasitəsini dayandırmalıdır.

Qeyri-yaşayış məntəqəsində nişan 150-300 metrdə, yaşayış məntəqəsində 50-100 metrdə qoyulur. Lazım gəldikdə 1.24 xəbərdarlıq nişanı başqa məsafədə 7.1.1. "obyektə qədər" əlavə məlumat lövhəciyi ilə birlikdə qoyula bilər.


1.24


1.25

### 1.25 Vəhşi heyvanlar

Yol hərəkəti iştirakçılarına yolda vəhşi heyvanların görünə bilməsi barədə xəbər verir. Sürücü elə bir sürət seçməlidir ki, lazım gəldikdə toqquşmanın qarşısını ala bilsin. Nişan təhlükəli məntəqəyə qədər 150-300 metrdə qoyulur.

Lazım gəldikdə 1.25 xəbərdarlıq nişanı başqa məsafədə 7.1.1. "obyektə qədər" əlavə məlumat lövhəciyi ilə birlikdə qoyula bilər.

### 1.26 Daş uçqunu

Yol hərəkəti iştirakçılarına yolun elə bir məntəqəsinə yaxınlaşma barədə xəbər verir, hansında uçqunlar, daş tökülməsi mümkündür. Qeyri-yaşayış məntəqəsində nişan 150-300 metrdə, yaşayış məntəqəsində 50-100 metrdə qoyulur. Lazım gəldikdə 1.26 xəbərdarlıq nişanı başqa məsafədə 7.1.1. "obyektə qədər" əlavə məlumat lövhəciyi ilə birlikdə qoyula bilər.



1.26



1.27

### 1.27 Yandan əsən külək

Yol hərəkəti iştirakçılarına yolun elə bir məntəqəsinə yaxınlaşma barədə xəbər verir, hansında yandan güclü külək əsə bilər. Bu isə avtomobilin düzxətli hərəkətinə mane ola bilər. Sürücü sürəti məhdudlaşdırmaqla və sükanı saxlamaqla avtomobili tabe etməlidir. Qeyri-yaşayış məntəqəsində nişan 150-300 metrdə, yaşayış məntəqəsində 50-100 metrdə qoyulur. Lazım gəldikdə 1.27 xəbərdarlıq nişanı başqa məsafədə 7.1.1. "obyektə qədər" əlavə məlumat lövhəciyi ilə birlikdə qoyula bilər.

### 1.28 Alçaqdan uçan təyyarələr

Yol hərəkəti iştirakçılarına xəbər verir ki, yolun yaxınlığında aerodrom var və alçaqdan uçan təyyarələr və vertolyotlar görünə bilər. Onların səsi sürücünü qorxutmamalı və çaşdırmamalıdır. Qeyri-yaşayış məntəqəsində nişan 150-300 metrdə, yaşayış məntəqəsində 50-100 metrdə qoyulur. Lazım gəldikdə 1.28 xəbərdarlıq nişanı başqa məsafədə 7.1.1. "obyektə qədər" əlavə məlumat lövhəciyi ilə birlikdə qoyula bilər.



1.28



1.29

### 1.29 Tunel

Yol hərəkəti iştirakçılarına xəbər verir ki, tunelə yaxınlaşırıq və burada işıqlanma sünidir və ya portalda görüntü məhduddur. Qeyri-yaşayış məntəqəsində nişan 150-300 metrdə, yaşayış məntəqəsində 50-100 metrdə qoyulur. Lazım gəldikdə 1.29 xəbərdarlıq nişanı başqa məsafədə 7.1.1. "obyektə qədər" əlavə məlumat lövhəciyi ilə birlikdə qoyula bilər.

### 1.30 Digər təhlükələr

Yol hərəkəti iştirakçılarına bu qrupun digər nişanları ilə (uçqun, xram, xəndəklər və s.) nəzərdə tutulmayan təhlükələr haqqında xəbər verir. Bu halda sürücü xüsusi diqqətlə və aşağı sürətlə hərəkət etməli və yola göz yetirməlidir.

Qeyri-yaşayış məntəqəsində nişan 150-300 metrdə, yaşayış məntəqəsində 50-100 metrdə qoyulur. Lazım gəldikdə 1.30 xəbərdarlıq nişanı başqa məsafədə 7.1.1. "obyektə qədər" əlavə məlumat lövhəciyi ilə birlikdə qoyula bilər.



1.30



1.31.1

### 1.31.1 Döngənin istiqaməti

1.31.1 və 1.31.2 nişanları sürücüyə məhdudiyyətli görüntü şərtlərində yardım edirlər ki, yolun döngə istiqamətini vaxtında müəyyənləşdirsinlər (hərəkətin istiqaməti məhdudiyyətli görüntüsü olan kiçik radiuslu yolun dairələnməsində; yolun təmir olunan məntəqəsinin dolanma istiqaməti)



1.31.2

### 1.31.2 Döngənin istiqaməti

1.31.1 və 1.31.2 nişanları sürücüyə məhdudiyyətli görüntü şərtlərində yardım edirlər ki, yolun döngə istiqamətini vaxtında müəyyənləşdirsinlər (hərəkətin istiqaməti məhdudiyyətli görüntüsü olan kiçik radiuslu yolun dairələnməsində; yolun təmir olunan məntəqəsinin dolanılma istiqaməti)



1.31.3

### 1.31.3 Döngənin istiqaməti

T-yə bənzər yolayrıcının qarşısında qoyulur. (hərəkətin istiqaməti "T" nişanlı yolayrıcında və ya yolların şaxələnməsində; yolun təmir olunan məntəqəsinin dolanılma istiqaməti ).

1.1, 1.2, 1.5–1.30 nişanları təhlükəli məntəqənin başlanılmasına qədər yaşayış məntəqəsindən kənarda 150-300 metrdə, yaşayış məntəqəsində isə 50-100 metr məsafədə qoyulur. Lazım gəldikdə, nişanlar başqa məsafədə də qoyulurlar, bu halda onlar 7.1.1 lövhəsində göstərilirlər.

1.13 və 1.14 nişanları 7.1.1 lövhəsinin xaricində də qoyula bilər, birbaşa enişin və ya yoxuşun əvvəlində, əgər ki, onlar bir-birinin ardınca gəlirsə.

1.23 nişanı işlək hissədə qısamüddətli işlərin keçirilmə yerindən 10-15 metr məsafədə, 7.1.1 lövhəsindən xaricdə qoyulur.

1.1, 1.2, 1.10, 1.21 və 1.23 nişanları yaşayış məntəqəsinin kənarında təkrarlanır. İkinci nişan təhlükəli məntəqənin əvvəlindən ən azı 50 metr aralıda yerləşir.

1.3.1 və 1.3.2 nişanları birbaşa dəmiryolu keçidinin önündə qoyulur.

1.31.1, 1.31.2 və 1.31.3 nişanları birbaşa kiçik radiuslu yolun daiərələnməsindən, təmir olunan məntəqənin dolanma yerlərinin önündə yerləşdirilir.

## Özünü yoxlamaq üçün suallar:

1. **Yol nişanlarının əsas funksiyalarını sadalayın.**
2. **Yol nişanlarının əsas qruplarını sadalayın.**
3. **Hansı yol nişanı üçbucaq formasında, ağ, qırmızı haşiyəlidir?**
4. **Hansı yol nişanı dairə formasında, ağ, qırmızı haşiyəlidir?**
5. **Sürücü necə hərəkət etməlidir, nə zaman ki, stasionar və müvəqqəti yol nişanları tələbləri qarşılıqlıdırsa?**
6. **Sizin fikrinizcə, nə üçün yol nişanları qruplarına konkret rəng və forma verilmişdir?**
7. **Xəbərdarlıq nişanları yol hərəkəti iştirakçılarına nə barədə xəbər verir?**
8. **Qeyri-yaşayış yerlərində iki dəfə hansı nişanlara təsadüf olunur?**
9. **Qeyd edilən nişanlara təhlükəli yerdən hansı məsafədə təsadüf olunur? Birinci dəfə? İkinci dəfə?**
10. **Hansı nişanlar yalnız qeyri-yaşayış məntəqəsində qoyulur?**
11. **Hansı halda hərəkət zamanı tramvayın üstünlüyü yoxdur?**
12. **1.6. nişanı sürücünü nə haqqında xəbərdar edir?**
13. **1.7; 1.8; 1.9 nişanları təhlükəli yerdən yaşayış məntəqəsinə qədər hansı məsafədən aralıdadırlar? Qeyri-yaşayış məntəqəsinə qədər?**
14. **Təhlükəli yerə qədər yaşayış məntəqəsində hansı məsafədə 1.11.1, 1.11.2; 1.12.1;1.12.2 nişanlarına təsadüf edirik? Qeyri-yaşayış məntəqəsində?**
15. **7.2.1. “Təsir zonası” əlavə məlumat lövhəsi ilə hansı xəbərdarlıq nişanlarına təsadüf edirik?**
16. **7.1.1. “Obyektə qədər” əlavə məlumat lövhəsi ilə hansı xəbərdarlıq nişanlarına təsadüf edirik?**
17. **Yaşayış məntəqələrindən kənarda hansı xəbərdarlıq nişanları təkrarlanırlar?**
18. **Nişan obyektdən hansı məsafədə aralı olmalıdır?**
19. **Hansı xəbərdarlıq nişanı aerodromun yaxınlığında qoyulur?**
20. **1.27 “yandan əsən külək” nişanı ilə qarşılaşdıqda sürücü nəyi təmin etməlidir?**

# Mövzu # 5
# Yol nişanları və onların xarakterizə olunması

## 2 . Üstünlük nişanları

Üstünlük nişanları yolayrıcılarının, işlək hissələrin kəsişməsinin və yolun dar hissələrinin keçməsinin ardıcıllığını nizamlayır. Nişan nizamlanmayan yolayrıclarını keçmə üstünlüyünü nizamlayır. Üstünlük nişanları yolun əvvəlində və ya yolayrıcının önündə təkrarlanır. Əgər baş yolun istiqaməti dəyişirsə, o zaman nişanın aşağısında əlavə məlumat lövhəciyi qoyulur. Cəmi 9 üstünlük nişanları vardır. Bəzi üstünlük nişanının özünəməxsus fərqli forması vardır və ondan əks tərəfdən də başa düşmək üçün istifadə olunur.


**2.1**

### 2.1 Baş yol

Nişan nizamlanmayan yolayrıclarının keçmə ardıcıllığını nizamlayır və sürücüyə keçid üstünlüyünü verir. Yolun əvvəlində qoyulur və birbaşa yolayrıcının əvvəlində təkrarlanır. Əgər baş yolun istiqaməti dəyişirsə, o zaman nişanın altında 7.13 "Baş yolun istiqaməti" əlavə məlumat lövhəciyi qoyulur və sonralar baş yolun istiqamətinin davam etdirilməsini göstərir.
Baş yolda sürücü üstünlüklə faydalanır, amma yolu xüsusi səsli siqnalla, göy və qırmızı rəngli işıqla təchiz edilmiş nəqliyyata və onu müşayiət edən dəstəyə verməlidir.

### 2.2 Baş yolun sonu

Nişan 2.1 nişanı ilə təchiz edilmiş yolun sonunu göstərir, burada sürücüyə keçid üstünlüyü verilir. Nişan birbaşa baş yolun sonunda qoyulur.


2.2


2.3.1

### 2.3.1 İkinci dərəcəli yolla kəsişmə

Göstərir ki, baş yolu hər iki tərəfdən ikinci dərəcəli yol kəsir. Burada sürücüyə nizamlanmayan yolayrıcının keçid üstünlüyü verilir. Qeyri-yaşayış məntəqəsində nişan 150-300 metrdə qoyulur, yaşayış məntəqəsində isə təhlükəli məntəqəyə qədər 50-100 metr aralıda.

### 2.3.2 İkinci dərəcəli yolun bitişməsi sağdan

Göstərir ki, baş yola sağdan ikinci dərəcəli yol bitişir. Burada sürücüyə nizamlanmayan yolayrıcının keçid üstünlüyü verilir. Qeyri-yaşayış məntəqəsində nişan 150-300 metrdə qoyulur, yaşayış məntəqəsində isə təhlükəli məntəqəyə qədər 50-100 metr aralıda.


2.3.2


2.3.3

### 2.3.3 İkinci dərəcəli yolun bitişməsi soldan

Göstərir ki, baş yola soldan ikinci dərəcəli yol bitişir. Burada sürücüyə nizamlanmayan yolayrıcının keçid üstünlüyü verilir. Qeyri-yaşayış məntəqəsində nişan 150-300 metrdə qoyulur, yaşayış məntəqəsində isə təhlükəli məntəqəyə qədər 50-100 metr aralıda.

### 2.4 Yol verin

Nişan xəbər verir ki, kəsişən küçədə hərəkət edən nəqliyyata keçid üstünlüyü verilir və sürücü yol verməyə borcludur, lazım gəldikdə dayanmalı və kəsişən küçədə hərəkət edən bütün növ nəqliyyat vasitələrinə yol verməlidir, 7.13 "Baş yolun istiqaməti" əlavə məlumat lövhəciyi olduqda – baş yolda hərəkət edən nəqliyyat vasitəsinə. Nişan birbaşa yolayrıcının əvvəlində qoyulur.

Bu nişanın fərqli olmasına görə və oxşar nişanlarla səhv salınmamasına görə o, ucu aşağıya tərəf qoyulur (asılır)!
Sürətli yollarda sürücünü vaxtında xəbərdar etmək məqsədilə 7.1.1 və ya 7.1.2 "obyektə qədər məsafə" əlavə məlumat nişanları ilə (lövhələrlə) birlikdə qoyulur.


2.4




**2.5 Dayanmadan hərəkət qadağandır**

Nişan kəsişən yolda dayanmadan hərəkəti qadağan edir, yəni sürücü məcburdur ki, yolda çəkilən “Dayan” xəttinin qarşısında (əgər “Dayan” xətti yoxdursa, o zaman kəsişən yolun qarşısında) dayansın və keçən nəqliyyata yol versin, kəsişən yolda hərəkət edən bütün növ nəqliyyat vasitəsinə yol versin. 7.13 “Baş yolun istiqaməti” əlavə məlumat lövhəciyi olduqda – baş yolda hərəkət edən nəqliyyat vasitəsinə. Nişan məhdudiyyətli görüntü olan yolayrıcılarının və ya yolun dayanmadan hərəkətin toqquşmaya səbəb olan təhlükəli məntəqələrinin qarşısında qoyulur. Bu halda sürücü “Dayan”xəttinin qarşısında dayanır, əgər xətt yoxdursa, o zaman nişanın qarşısında.

Bu nişana yollarda hərəkətin təhlükəsizliyi məqsədilə ona digər yol nişanlarına fərqli xüsusi əhəmiyyət verilir – onun səkkiz bucaq forması var. Bu onun hər hansı bir mürəkkəb iqlim nizamlayıcı yol ayrıclarında fərqlənməsini təmin edir. 2.1, 2.4 və 2.5 nişanlarını sfetoforun sütunlarına bərkidirlir ki, sfetofor söndükdə və ya nasazlıq zamanı (yol ayrıcı nizamlanmadıqda) sürücü üstünlük nişanını rəhbər tutsun.

**2.6 Qarşıdan hərəkətin üstünlüyü**

Nişan yolun ensiz məntəqəsində qoyulur və sürücünü qarşıdan hərəkət edənə yol verməyə məcbur edir. Sürücüyə yolun ensiz məntəqəsinə keçməyə qadağan edir, əgər ki, qarşıdan hərəkəti çətinləşdirirsə. Sürücü yolu yolun ensiz məntəqəsində və ya onun qarşı tərəfində yerləşən qarşıdan hərəkət edən nəqliyyat vasitəsinə verir. Lazım gəldikdə 7.1.1 “obyektə qədər məsafə” əlavə məlumat nişanı ilə birlikdə qoyula bilər.


2.6


2.7

**2.7 Qarşıdan hərəkətə nisbətən üstünlük**

Nişan yolun ensiz məntəqəsinin qarşısında qoyulur və sürücüyə hərəkət üstünlüyünü verir.

Sürücünü yolun ensiz məntəqəsinə yaxınlaşma barəsində xəbərdar edir, hansında qarşıdan hərəkətə nisbətən keçid üstünlüyü verilir.

## 3 . Qadağan nişanları

Qadağan nişanları küçələrin və yolların ayrı-ayrı sahələrində hərəkətin məhdudlaşdırılması və nizamlanmasına aid olunurlar. Qeyd edilən nişanlar əvvəl qadağan olunmuş hərəkəti qadağan və ya ləğv edirlər və xüsusi məhdudiyyətlər daxil edirlər.

Qadağan nişanlarının məqsədi yol hərəkəti iştirakçılarına riayət etməli olduqları öhdəlikləri, məhdudiyyətləri və xüsusi qadağaları təsis etməkdir. Qadağan nişanları ağ fonlu, ətrafında geniş qırmızı haşiyə ilə ən azı 0, 6 metr dairəni təqdim edir.

Nişanlar öz təyinatları və təsir zonalarına əsasən fərqlənirlər.

Cəmi 35 qadağan nişanları vardır.


3.1

### 3.1 Giriş qadağandır

Nişan verilən istiqamətdə hər növ nəqliyyat vasitəsinin girişini qadağan edir. Nişan təktərəfli hərəkətli küçənin və yolun sonunda, yaxud da təhlükəsizlik baxımından hərəkət qeyri-mümkün olan yerlərdə qoyulur. Nişanın qüvvəsi marşrut nəqliyyat vasitələrinə aid edilmir.

### 3.2 Hərəkət qadağandır


3.2

Nişan yolun müəyyən hissəsində və ya məhdud ərazidə hər növ nəqliyyat vasitəsinin hərəkətini qadağan edir. Nişan birbaşa yolun qeyd edilən qadağanın yayımlandığı məntəqənin qarşısında qoyulur. Nişanın qüvvəsi yayımlanmır:

- Marşrut nəqliyyat vasitələrinə;
- Qeyd edilən zonada yerləşən müəssisəyə xidmət edən və ya həmin zonada yaşayan və ya çalışan şəxsə xidmət edən və ya ona aid olan nəqliyyat vasitələrinə. Bu halda nəqliyyat vasitəsi qeyd edilən zonaya daxil olur və buradan təyinat yerinə tərəf ən yaxın yol ayrıcına çıxır;
- Birinci və ya ikinci qrup əlil və ya əlil daşıyan digər nəqliyyat vasitələrini idarə edən nəqliyyat vasitələrinə.

***Diqqət !!!***

***3.1 , 3.2 , 3.3 , 3.18.1 , 3.18.2 , 3.19 , 3.27 nişanlarının qüvvəsi yayımlanmır: təyin edilən marşrutla hərəkət edən nəqliyyat vasitələrinə (avtobus, m/avtobus, tramvay, trolleybus).***

***Eləcə də bu nişan deyil: birinci və ikinci qrup əlillərə və onları daşıyanlara, eləcə də bu zonada yaşayan və ya bu zonada fəaliyyət göstərən müəssisəyə xidmət edən vətəndaşlara!***

***Diqqət: 3.2 , 3.3 , 3.4 , 3.5 , 3.6 , 3.7 , 3.8 , 3.9 , 3.32 , 3.33 nişanlar müvafiq növ nəqliyyat vasitəsinin hər iki istiqamətdə hərəkətini qadağan edir.***

### 3.3 Mexaniki nəqliyyat vasitələrinin hərəkəti qadağandır


3.3

Nişan yolun müəyyən hissəsində və ya məhdud ərazidə hər növ mexaniki nəqliyyat vasitəsinin qadağan edir. Nişan birbaşa yolun qeyd edilən qadağanın yayımlandığı məntəqəsinin qarşısında qoyulur. Nişanın qüvvəsi yayımlanmır:

- Marşrut nəqliyyat vasitələrinə;
- Qeyd edilən zonada yerləşən müəssisəyə xidmət edən və ya həmin zonada yaşayan və ya çalışan şəxsə xidmət edən və ya ona aid olan nəqliyyat vasitələrinə. Bu halda nəqliyyat vasitəsi qeyd edilən zonaya daxil olur və

buradan təyinat yerinə tərəf ən yaxın yol ayrıcına çıxır;

Birinci və ya ikinci qrup əlil və ya əlil daşıyan digər nəqliyyat vasitələrini idarə edən nəqliyyat vasitələrinə.




3.4

**3.4 Yük hərəkəti**

Əgər nişanda kütlə göstərilmirsə və ya icazə verilən kütləsi nişanda veriləndən çoxdursa, o zaman icazə verilən maksimal çəkisi 3,5 tondan artıq olan yük avtomobilinin və nəqliyyat vasitəsi təkiblərinin hərəkəti qadağandır. Nişan qeyd edilən zonada yerləşən müəssisəyə xidmət edən və ya həmin zonada yaşayan və ya çalışan şəxsə xidmət edən və ya ona aid olan yük avtomobillərinin hərəkətini qadağan etmir. 3.4 nişanı bortlarında əyri ağ xətləri olan və ya sərnişin daşınması üçün nəzərdə tutulan yük avtomobillərinin hərəkətini qadağan etmir. Bu halda nəqliyyat vasitəsi qeyd edilən zonaya daxil olur və buradan təyinat yerinə tərəf ən yaxın yol ayrıcına çıxır. Eləcə də banında əyri ağ xətləri olan və ya sərnişin daşınması üçün nəzərdə tutulan yük avtomobillərinin hərəkətini qadağan etmir.

Nişan birbaşa yolun qeyd edilən qadağanın yayımlandığı məntəqənin qarşısında qoyulur.

**3.5 Motosikletlərin hərəkəti qadağandır**

Nişan yolun müəyyən hissəsində və ya məhdud ərazidə motosikletin hərəkətini qadağan edir. Nişan birbaşa yolun qeyd edilən qadağanın yayımlandığı məntəqənin qarşısında qoyulur. Nişanın qüvvəsi qadağan zonasında yerləşən müəssisəyə xidmət edən və ya həmin zonada yaşayan və ya çalışan şəxsə xidmət edən və ya ona aid olan nəqliyyat vasitələrinə yayımlanmır. Bu halda nəqliyyat vasitəsi qeyd edilən zonaya daxil olur və buradan təyinat yerinə tərəf ən yaxın yol ayrıcına çıxır.



3.5



3.6

**3.6 Traktorların hərəkəti qadağandır**

Nişan traktorların və özügedən maşınların hərəkətini qadağan edir. Nişan birbaşa qadağanın yayımlandığı məntəqənin qarşısında qoyulur. Nişanın qüvvəsi qadağan zonasında yerləşən müəssisəyə xidmət edən və ya həmin zonada yaşayan və ya çalışan şəxsə xidmət edən və ya ona aid olan nəqliyyat vasitələrinə yayımlanmır. Bu halda nəqliyyat vasitəsi qeyd edilən zonaya daxil olur və buradan təyinat yerinə tərəf ən yaxın yol ayrıcına çıxır.

**3.7 Qoşqu ilə hərəkət qadağandır**

Hər növ qoşqulu yük avtomobillərinin və traktorların hərəkətini, eləcə də mexaniki nəqliyyat vasitələrinin yedəyə alınmasını qadağan edir. Nişan birbaşa qadağanın yayımlandığı məntəqənin qarşısında qoyulur. Nişanın qüvvəsi qadağan zonasında yerləşən müəssisəyə xidmət edən və ya həmin zonada yaşayan və ya çalışan şəxsə xidmət edən və ya ona aid olan nəqliyyat vasitələrinə yayımlanmır. Bu halda nəqliyyat vasitəsi qeyd edilən zonaya daxil olur və buradan təyinat yerinə tərəf ən yaxın yol ayrıcına çıxır.



3.7



3,8

**3.8 At-araba ilə hərəkət qadağandır**

At-araba ilə hərəkət, eləcə də mal-qaranın ötürülməsi qadağandır. Nişan birbaşa qadağanın yayımlandığı məntəqənin qarşısında qoyulur. Nişanın qüvvəsi qadağan zonasında yerləşən müəssisəyə xidmət edən və ya həmin zonada yaşayan və ya çalışan şəxsə xidmət edən və ya ona aid olan nəqliyyat vasitələrinə yayımlanmır. Bu halda nəqliyyat vasitəsi qeyd edilən zonaya daxil olur və buradan təyinat yerinə tərəf ən yaxın yolayrıcına çıxır.

**3.9 Velosipedlə hərəkət qadağandır**

Nişan velosipedlərin və mopedlərin hərəkətini qadağan edir.

İntensiv hərəkətli və şəhərin ümumi faydalanma üçün nəqliyyat marşrutları keçən və hərəkətdə manealər yaranan şəhərin yollarında qoyulur.

Bu zaman velosipedçilər velosipeddən enməli və velosipedi əldə aparmalıdırlar. Nişan birbaşa qadağan zonasının qarşısında qoyulur.



3.9



3.10

**3.10 Piyadaların hərəkəti qadağandır**

Nişan yolların həmin məntəqələrində piyadaların hərəkətini qadağan edir, hansında təhlükəsizlik nöqteyi-nəzərindən buna icazə verilmir (tunellərdə, körpülərdə, estakadalarda) və burada piyadalar üçün səki və ya cığır yoxdur… Qadağan yalnız piyadalara şamil edilir və nişan birbaşa qadağan zonasının əvvəlində qoyulur, 3.10 nişanının qüvvəsi yalnız yolun onun qoyulduğu tərəfinə şamil edilir.

**3.11 Kütlənin məhdudlaşdırılması**

Nişan nəqliyyat vasitələrinin, eləcə də nəqliyyat vasitələrinin tərkiblərinin hərəkətini qadağan edir, hansıların ümumi faktiki kütlələri nişanda göstəriləndən çox olduğu halda. Nişanı bir qayda olaraq əsasən mühəndislik tikililərinin qarşısında (körpülər, estakadalar və s.) qoyulur, hansılar ki, nəqliyyat vasitələrinin artıq kütləsinə görə zədələnə bilər.



3.12

**3.12 Oxa düşən ağırlığın məhdudlaşdırılması**

Nişan həmin nəqliyyat vasitələrinin hərəkətini qadağan edir, hansıların hər hansı bir oxuna düşən faktiki yük nişanda göstərilən böyüklükdən çoxdur. Nişan birbaşa qadağan zonasının qarşısında durur.

Belə hesablanır: ikioxlu avtomobilin ön oxunda yüklənmə faktiki kütlənin 1/3-ni təşkil edir, arxa oxda isə 2/3-ni. Üçoxlu və daha artıq halda yüklənmə bərabər bölünür və müvafiq olaraq 1/3 ton qüvvəni təşkil edir. Əgər maşın üç oxludursa və o, 12 ton yük daşıyırsa, bu nişanda keçə bilər, çünki 12-nin üçdə bir hissəsi dörddür. Eyni yüklü iki oxlu maşının isə bu nişanda keçidi qadağan olunur.

3.13 **Hündürlüyün məhdudlaşdırılması**

Nəqliyyat vasitəsinin hərəkətini qadağan edir, hansının qabarit hündürlüyü yüklə və ya yüksüz nişanda qeyd ediləndən artıqdır. Nişanı körpülərin, tağların və digər yerlərin qarşısında qoyurlar, hansında qabarit hündürlüyün çox olması nəqliyyat vasitəsinin sürücüsünə təhlükəsiz keçid imkanını verəcəkdir.



3.13



3.14

**3.14 Enin məhdudlaşdırılması**

Nəqliyyat vasitəsinin hərəkətini qadağan edir, hansının qabaritli eni yüklə və ya yüksüz nişanda qeyd ediləndən çoxdur. Nişanı ensiz körpülərin, tunellərin və qabaritli eni nəqliyyat vasitəsinin sürücüsünə keçid imkanını verməyən yerlərin qarşısında qoyulur.

**3.15 Uzunluğun məhdudiyyəti**

Nişan nəqliyyat vasitəsinin, eləcə də nəqliyyat vasitələrinin tərkiblərinin hərəkətini qadağan edir, hansının qabaritli uzunluğu yüklə və ya yüksüz nişanda veriləndən çoxdur. Nişanı yolun çox ensiz məntəqələrinin, təhlükəli və kiçik radiuslu döngələrin qarşısında qoyurlar, burada avtomobil qatarı və qoşalaşdırılmış avtobuslar manevrə etməyə çətinlik çəkirlər və hərəkətə maneəçilik edirlər.



3.15



3.16

**3.16 Minimum ara məsafənin məhdudlaşdırılması**

Nəqliyyat vasitəsinin hərəkətini qadağan edir, hansıların arasında məsafə nişanda göstəriləndən azdır. Nişan birbaşa qadağan zonasının qarşısında qoyulur. 3.16 nişanının qüvvəsi nişan qoyulduğu yerdən ondan sonra yaxınlıqda yerləşən yol ayrıcına qədər şamil edilir, yaşayış məntəqəsində isə, əgər yol ayrıcı yoxdursa – yaşayış məntəqəsinin sonuna qədər. Nişanların qüvvəsi eləcə də yola yaxın ərazilərin çıxışları, düzənlik, meşə və digər

ikinci dərəcəli yolların kəsişməsi (bitişməsi ilə) ilə şamil edilir, hansıların qarşısında lazımi nişan qoyulmur. 3.16 nişanının qüvvə zonası 7.2.1 “Təsir zonası” əlavə məlumat lövhəciyinin istifadəsi ilə azala bilər.

**3.17 Gömrükxana**

Gömrükxanada (Gürcüstanın iqtisadi sərhədi ilə yaxında yerləşən nəzarət zonası) dayanmadan keçmək qadağandır. Nişan birbaşa nəzarət məntəqəsinin qarşısında qoyulur.




3.17




3.17.2

**3.17.2 Təhlükə**

Yol-nəqliyyat hadisəsi, qəza və ya digər təhlükə ilə əlaqədar bütün nəqliyyat vasitələrinin sonrakı hərəkətini qadağan edir.

Nişan birbaşa qadağan zonasının qarşısında qoyulur.

**3.18.1 Sağa dönmək qadağandır**

Nişan sürücüyə sağ tərəfə dönməyi qadağan edir. Hərəkətə birbaşa, sola və əks istiqamətdə icazə verilir. Nişanın qüvvəsi yalnız qarşısında durduğu işlək hissələrin kəsişməsinə şamil edilir. Nişanın qüvvəsi marşrut nəqliyyat vasitəsinə yayımlanmır.



3.18.1



3.18.2

3.18.2 **Sola dönmək qadağandır**

Nişan sürücüyə sol tərəfə dönməyi qadağan edir, geri dönməyə icazə verir. Nişanın qüvvəsi yalnız qarşısında durduğu işlək hissələrin kəsişməsinə şamil edilir. Nişanın qüvvəsi marşrut nəqliyyat vasitələrinə yayımlanmır.

**3.19 Geriyə dönmək qadağandır**

Nəqliyyat vasitəsinin geriyə dönməsini qadağan edir. Nişan yol ayrıcının qarşısında və ya həmin yerlərdə qoyulur, hansında yolun eninə görə, geriyə dönmək çətinləşir və bu manevr yol hərəkətinin digər iştirakçılarına, piyadalara təhlükə yaradır. Yol ayrıcının qarşısında qoyulan nişanın qüvvəsi yalnız işlək hissələrin həmin kəsişməsinə şamil edilir, hansının qarşısında dayanır. Nişanın qüvvəsi marşrut nəqliyyatı vasitələrinə yayımlanmır.



3.19



3.20

**3.20 Ötmək qadağandır**

Bütün növ nəqliyyat vasitələrini ötməyi qadağan edir, yalnız 30 km/s-dan az sürətlə hərəkət edən nəqliyyat vasitəsindən, moped və ya iki təkərli motosiklet arabasından başqa. Nişan birbaşa qadağan zonasının qarşısında qoyulur. 3.20 nişanın qüvvəsi nişan qoyulan yerdən sonra ən yaxın yol ayrıcına qədər şamil edilir, yaşayış məntəqəsində isə, əgər yol ayrıcı yoxdursa – yaşayış məntəqəsinin sonuna qədər. Nişanların qüvvəsi, eləcə də yola yaxın ərazilərin çıxışları, düzənlik, meşə və digər ikinci dərəcəli yolların kəsişməsi (bitişməsi ilə) ilə şamil edilir, hansıların qarşısında lazımi nişan qoyulmur. 3.20 nişanının qüvvə zonası 7.2.1 “Təsir zonası” əlavə məlumat lövhəciyinin istifadəsi ilə azala bilər.

Bu nişan (23457-86 dövlət standartına müvafiq olaraq) bir qayda olaraq, elə bir yollarda istifadə olunur, hansının hər iki istiqamətdə hərəkət üçün bir, iki və üç zolağı var və yol şəraitlərinin, kifayət qədər olmayan görüntü və intensiv hərəkətə görə ötmə hərəkətin təhlükəsizliyinə təhlükə yaradır.

**3.21 Ötməyin qadağan edildiyi zonanın qurtaracağı**

Bu nişan 3.20 nişanının qüvvəsi zonasının qurtaracağını bildirir.



3.21



3.22

**3.22 Yük avtomobillərinin ötməsi qadağandır**

İcazə verilən maksimum kütləsi 3,5 tondan çox olan yük avtomobilləri ilə bütün növ nəqliyyat vasitələrini ötməsini qadağan edir, yalnız 30 km/s-dan az sürətlə hərəkət edən nəqliyyat vasitəsindən, moped və ya iki təkərli motosiklet arabasından başqa. Traktora bütün növ nəqliyyat vasitələrini ötmək qadağan edilir, yalnız at-arabası və velosipeddən başqa. Nişan birbaşa qadağan zonasının qarşısında qoyulur. Nişanlarının qüvvəsi nişanın qoyulduğu yerdən sonra ən yaxın yol ayrıcına qədər aid edilir, yaşayış məntəqəsində isə, əgər yol ayrıcı yoxdursa – yaşayış məntəqəsinin sonuna qədər. Nişanların qüvvəsi, eləcə də yola yaxın ərazilərin çıxışları, düzənlik, meşə və digər ikinci dərəcəli yolların kəsişməsi (bitişməsi ilə) ilə müəyyən edilir, hansıların qarşısında lazımi nişan qoyulmur. 3.22 nişanının qüvvəsi zonası nişanın qüvvə zonasının sonunda 3.23 "Yük avtomobillərinin ötməsi qadağandır" nişanını qoymaqla 7.2.1 "Təsir zonası" əlavə məlumat lövhəciyinin istifadəsi ilə azala bilər.

**3.23 Yük avtomobillərinin ötməsi qadağandır**

Bu nişan 3.22 nişanın qüvvəsi zonasının qurtaracağını qeyd edir.



3.23




3.24

**3.24 Maksimum sürətin məhdudlaşdırılması**

Nişanda qeyd ediləndən çox sürətli (km/saat) nəqliyyat vasitəsinin hərəkətini qadağan edir. Nişan birbaşa qadağan zonasının qarşısında qoyulur. 5.22 "yaşayış məntəqəsinin əvvəli" nişanı ilə qeyd edilən yaşayış məntəqəsinin qarşısında qoyulan 3.24 "maksimum sürətin məhdudlaşdırılması" nişanının qüvvəsi məntəqənin 5.22 nişanına qədər şamil edilir.

3.24 nişanların qüvvəsi nişanın qoyulduğu yerdən sonra ən yaxın yol ayrıcına qədər şamil edilir, yaşayış məntəqəsində isə, əgər yol ayrıcı yoxdursa – yaşayış məntəqəsinin sonuna qədər. Nişanların qüvvəsi, eləcə də yola yaxın ərazilərin çıxışları, düzənlik, meşə və digər ikinci dərəcəli yolların kəsişməsi (bitişməsi ilə) ilə şamil edilir, hansıların qarşısında lazımi nişan qoyulmur .

Nişanın qüvvəsi zonası növbəti hallarda azaldıla bilər:

Növbəti 3.25 nişanını qoymaqla;

Nişanın növbəti sürətinin digər işarəli analoji nişanının qoyulması ilə;

Nişanın növbəti 3.31 qoyulması ilə;

Nişanla 7.2.1 lövhəciyinin istifadəsi ilə;

Nişanla 7.16 lövhəciyi istifadə oluna bilər və yalnız zamanın həmin müddətində şamil edilir – nə zaman ki, yolun örtüyü nəmdir. Eləcə də yolun işlək hissəsinin yuxarısında 7.14 nişanı ilə birlikdə asıla bilər və burada zonanın qurtaracağında sürətin rejimini təyin edir.

**3.25 Maksimum sürətin məhdudlaşdırıldığı zonanın qurtaracağı**

Bu nişan 3.24 nişanın qüvvə zonasının qurtaracağını qeyd edir




3.25



3.26

**3.26 Səs siqnalı vermək qadağandır**

Səs siqnalından istifadə etməyi qadağan edir. Yalnız yol-nəqliyyat hadisəsinin qarşısını almaq üçün istifadə edilən hallar istisna olunur. Nişan birbaşa qadağan zonasının qarşısında qoyulur. 3.26 nişanının qüvvəsi nişanın qoyulduğu yerdən sonra ən yaxın yol ayrıcına qədər qüvvədədir, yaşayış məntəqəsində isə, əgər yol ayrıcı yoxdursa – yaşayış məntəqəsinin sonuna qədər. Nişanların qüvvəsi eləcə də yola yaxın ərazilərin çıxışları, düzənlik, meşə və digər ikinci dərəcəli yolların kəsişməsi (bitişməsi ilə) ilə müəyyən edilir, hansıların qarşısında lazımi nişan qoyulmur. 3.26 nişanının qüvvə zonası 7.2.1 “Təsir zonası” əlavə məlumat lövhəciyinin istifadəsi ilə azala bilər.

**3.27 Dayanmaq qadağandır**

Nəqliyyat vasitəsinin dayanmasını və durmasını qadağan edir. Nişan birbaşa qadağan zonasının qarşısında qoyulur. Nişanın qüvvəsi marşrut nəqliyyat vasitələrinə yayımlanmır. 3.27 nişanı 1.4 işarəsi ilə birlikdə istifadə oluna bilər. Bu halda nişanların qüvvə zonası işarə xəttinin uzunluğu ilə müəyyənləşdirilir. 3.27 nişanının qüvvəsi yalnız qoyulduğu yolun tərəfinə şamil edilir. 3.27 nişanının qüvvəsi nişanın qoyulduğu yerdən sonra ən yaxın yol ayrıcına qədər şamil edilir, yaşayış məntəqəsində isə, əgər yol ayrıcı yoxdursa – yaşayış məntəqəsinin sonuna qədər. Nişanların qüvvəsi eləcə də yola yaxın ərazilərin çıxışları, düzənlik, meşə və digər ikinci dərəcəli yolların kəsişməsi (bitişməsi ilə) ilə müəyyən edilir, hansıların qarşısında lazımi nişan qoyulmur. 3.27 nişanının qüvvə zonası onun qüvvə zonasının qurtaracağında 7.2.3 “Təsir zonası” əlavə məlumat lövhəciyinin təkrarlanması 3.27-3.30 nişanının qoyulması və ya7.2.2 “Təsir zonası” lövhəciyinin istifadəsi ilə azala bilər.



3.27

***Diqqət !!!***

***3.1 , 3.2 , 3.3 , 3.18.1 , 3.18.2 , 3.19 , 3.27 nişanlarının qüvvəsi yayımlanmır: təyin edilən marşrutla hərəkət edən marşrut nəqliyyat vasitələrinə (avtobus, m/avtobus, tramvay, trolleybus).***

***Nişanın təsir zonası azala və ya dəqiqləşdirilə bilər:***

***Nişanla brilikdə 7.2.2 7.2.3 7.2.4 7.5.4 7.5.5 7.5.6 7.5.7 lövhəciklərinin istifadəsi ilə;***

***7.2.2 nişanın qüvvəsi zonasını göstərir, konkret halda nişanın qüvvəsi zonası 10m-dir.***

***7.2.3 nişanın qüvvəsi zonasının qurtaracağını göstərir.***

***7.2.4 lövhəciyi xəbərdar edir ki, sürücü nişanın qüvvəsi zonasındadır.***

***7.5.4; 7.5.5 ;7.5.6 ;7.5.7 “təsir müddəti" lövhəçikləri sutkanın saatlarını və həftənin günlərini göstərir, nə zaman ki, nişanlar təsir göstərirlər.***

**3.28 Durmaq qadağandır**

Nəqliyyat vasitəsinin durmasını qadağan edir. Nişan birbaşa qadağan zonasının qarşısında qoyulur. Nişanın qüvvəsi taksometri yanan taksiyə və birinci və ya ikinci qrup əlil və əlil daşıyan digər nəqliyyat vasitələrinə yayımlanmır. 3.28 nişanı 1.10 işarəsi ilə birlikdə istifadə oluna bilər. Bu halda nişanların qüvvəsi zonası işarə xəttinin uzunluğu ilə müəyyənləşdirilir. 3.28 nişanının qüvvəsi yalnız qoyulduğu yolun tərəfinə şamil edilir. 3.28 nişanının qüvvəsi nişanın qoyulduğu yerdən sonra ən yaxın yol ayrıcına qədər aid edilir, yaşayış məntəqəsində isə, əgər yol ayrıcı yoxdursa – yaşayış məntəqəsinin sonuna qədər. Nişanların qüvvəsi eləcə də yola yaxın ərazilərin çıxışları, düzənlik, meşə və digər ikinci dərəcəli yolların kəsişməsi (bitişməsi ilə) ilə məyyən edilir, hansıların qarşısında lazımi nişan qoyulmur. 3.28 nişanının qüvvəsi zonası onun qüvvəsi zonasının qurtaracağında 7.2.3 “Təsir zonası” əlavə məlumat lövhəciyinin təkrarlanması 3.27-3.30 nişanının qoyulması və ya 7.2.2 “Təsir zonası” lövhəciyinin istifadəsi ilə azala bilər.



3.28



3.29

**3.29 Ayın tək günlərində durmaq qadağandır**

Ayın tək günlərində nəqliyyat vasitələrinin durmasını qadağan edir. Nişan birbaşa qadağan zonasının qarşısında qoyulur. Nişanın qüvvəsi taksometri yanan taksiyə və birinci və ya ikinci qrup əlil və əlil daşıyan digər nəqliyyat vasitələrinə yayımlanmır. 3.29 və 3.30 nişanlarını eyni zamanda istifadə etdikdə, nəqliyyat vasitəsinin yolun bir tərəfindən digərinə keçirilməsi vaxtı saat 19-dan 21-ə qədər.

3.29 nişanının qüvvəsi nişanın qoyulduğu yerdən sonra ən yaxın yolayrıcına qədər aid edilir, yaşayış məntəqəsində isə, əgər yol ayrıcı yoxdursa – yaşayış məntəqəsinin

sonuna qədər. Nişanların qüvvəsi qarşısında lazımi nişan qoyulmayan, eləcə də yola yaxın ərazilərin çıxışları, düzənlik, meşə və digər ikinci dərəcəli yolların kəsişməsi (bitişməsi ilə) ilə müəyyən edilir. 3.29 nişanının qüvvəsi zonası onun qüvvəsi zonasının qurtaracağında 7.2.3 "Təsir zonası" əlavə məlumat lövhəciyinin təkrarlanması 3.27-3.30 nişanının qoyulması və ya 7.2.2 "Təsir zonası" lövhəciyinin istifadəsi ilə azala bilər.

**3.30 Ayın cüt günlərində durmaq qadağandır**

Ayın cüt günlərində nəqliyyat vasitələrinin durmasını qadağan edir. Nişan birbaşa qadağan zonasının qarşısında qoyulur. Nişanın qüvvəsi taksometri yanan taksiyə və birinci və ya ikinci qrup əlil və əlil daşıyan digər nəqliyyat vasitələrinə yayımlanmır. 3.29 və 3.30 nişanlarını eyni zamanda istifadə etdikdə, nəqliyyat vasitəsinin yolun bir tərəfindən digərinə keçirilməsi vaxtı saat 19-dan 21-ə qədər.

3.30 nişanının qüvvəsi nişanın qoyulduğu yerdən sonra ən yaxın yol ayrıcına qədər aid edilir, yaşayış məntəqəsində isə, əgər yol ayrıcı yoxdursa – yaşayış məntəqəsinin sonuna qədər. Nişanların qüvvəsi qarşısında lazımi nişan qoyulmayan, eləcə də yola yaxın ərazilərin çıxışları, düzənlik, meşə və digər ikinci dərəcəli yolların kəsişməsi (bitişməsi ilə) ilə müəyyən edilir,. 3.30 nişanının qüvvəsi zonası onun qüvvə zonasının qurtaracağında 7.2.3 "Təsir zonası" əlavə məlumat lövhəciyinin təkrarlanması 3.27-3.30 nişanının qoyulması və ya 7.2.2 "Təsir zonası" lövhəciyinin istifadəsi ilə azala bilər.


3.30


3.31

**3.31 Bütün məhdudiyyətlər zonasının qurtaracağı**

Nişan eyni zamanda 3.16, 3.20, 3.22, 3.24, 3.26, 3.27, 3.28, 3.29, 3.30 qadağan nişanlarının qüvvəsi zonasının qurtaracağını bildirir.

**3.22 Təhlükəli yükü olan nəqliyyat vasitələrinin hərəkəti qadağandır**

"Təhlükəli yük" tanıdıcı nişanlı nəqliyyat vasitəsinin hərəkətini qadağan edir. Nişan birbaşa qadağan zonasının qarşısında qoyulur.


3.22

***Diqqət: 3.2 , 3.3 , 3.4 , 3.5 , 3.6 , 3.7 , 3.8 , 3.9 , 3.32 , 3.33 nişanları müvafiq növ nəqliyyat vasitəsinin hər iki istiqamətlə hərəkətini qadağan edirlər.***


3.24

3.24 **Partlayıcı və tezalışan yükü olan nəqliyyat vasitələrinin hərəkəti qadağandır**

"Təhlükəli yük" tanıdıcı nişanlı və 19433-88 dövlət standartı ilə 1.22-2.4, 3.1, 3.2, 5.2 sinfinin təhlükəli yükünü daşımaq üçün nəzərdə tutulan nəqliyyat vasitəsinin hərəkətini qadağan edir. Nişan birbaşa qadağan zonasının qarşısında qoyulur.

3.2–3.9 və 3.33 nişanları müvafiq nəqliyyat vasitələrinin hər iki istiqamətlə hərəkətini qadağan edir.

Nişanların qüvvəsi yayımlanmır:

a) 3.1–3.3, 3.18.1, 3.18.2, 3.19, 3.27 nişanlarına – marşrut nəqliyyat vasitələrinə;

b) 3.2–3.8 nişanlarına – Nişanın qüvvəsi qadağan zonasında yerləşən müəssisəyə xidmət edən və ya həmin zonada yaşayan və ya çalışan şəxsə xidmət edən və ya ona aid olan nəqliyyat vasitələrinə yayımlanmır. Bu halda nəqliyyat vasitəsi qeyd edilən zonaya daxil olur və buradan təyinat yerinə tərəf ən yaxın yol ayrıcına çıxır;

c) 3.28–3.30 nişanlarına - taksometri yanan taksiyə;

ç) 3.2, 3.3, 3.28–3.30 nişanlarına – birinci və ya ikinci qrup əlil və əlil daşıyan digər nəqliyyat vasitələrinə;

3.18.1, 3.18.2 nişanlarının qüvvəsi aid edilir – işlək hissələrin həmin kəsişməsinə, hansının qarşısında müvafiq nişan quraşdırılır;

3.16, 3.20, 3.22, 3.24, 3.26–3.30 nişanın qüvvəsi aid edilir nişanın qoyulduğu yerdən sonra ən yaxın yol ayrıcına qədər , yaşayış məntəqəsində isə, əgər yol ayrıcı yoxdursa – yaşayış məntəqəsinin sonuna qədər. Nişanların qüvvəsi qarşısında lazımi nişan qoyulmayan, eləcə də yola yaxın ərazilərin çıxışları, düzənlik, meşə və digər ikinci dərəcəli yolların kəsişməsi (bitişməsi ilə) ilə müəyyən edilir.

5.22 nişanı ilə qeyd edilən yaşayış məntəqəsinin qarşısında qoyulan 3.24 nişanının qüvvəsi məntəqəni bildirən 5.22 nişanına qədər şamil edilir.

Nişanların qüvvə zonası azalır:

a) 3.16 və 3.26 nişanları – 7.2.1 lövhəciyinin istifadəsi ilə;

b) 3.20, 3.22, 3.24 nişanları – onların qüvvəsi zonasının qurtaracağında müvafiq 3.21, 3.23, 3.25 nişanlarının qoyulması və ya 7.2.1 lövhəciyinin istifadəsi ilə. 3.24 nişanının təsir zonası hərəkətin maksimum sürətinin başqa əhəmiyyətli 3.24 nişanının qoyulması ilə;

g) 3.27–3.30– nişanları – onların qüvvəsi zonasının qurtaracağında 7.2.3 nişanlı lövhəciyi təkrarlayan 3.27–3.30 nişanları qoymaqla və ya 7.2.2 lövhəciyindən istifadə etməklə. 3.27 nişanı 1.4 işarəsi ilə istifadə olunur, 3.28 nişanı isə - 1.10 işarəsi ilə birlikdə. Bununla yanaşı, nişanların təsir zonası işarə xəttinin uzunluğu ilə müəyyənləşdirilir.

3.10, 3.27–3.30 nişanlarının qüvvəsi yalnız yolun nişan qoyulduğu tərəfinə aid edilir.

## Özünü yoxlamaq üçün suallar:

1. **Üstünlük nişanları nəyi müəyyənləşdirir?**
2. **Üstünlük nişanlarının hansı formaları vardır?**
3. **Üstünlük nişanları obyektə qədər hansı məsafədə qoyulur və onların tələbləri hara qədər şamil edilir?**
1. **Məcburi hərəkət istiqaməti nişanları nəyi müəyyənləşdirir?**
2. **Məcburi hərəkət istiqaməti nişanlarının hansı formaları vardır?**
3. **Onlar harada qoyulur və onların tələbləri harada şamil edilir?**
4. **Hansı nişanların qüvvəsi marşrut nəqliyyat vasitələrinə yayımlanmır?**

# Mövzu # 6
# Yol nişanları və onların xarakterizə edilməsi

## 4. Məcburi hərəkət istiqaməti nişanları

Məcburi hərəkət istiqaməti nişanları yol hərəkəti iştirakçılarına müəyyən istiqamətdə minimum sürətlə, yalnız müəyyən növ nəqliyyatla hərəkət etməyi göstərir, eləcə də yolda mövcud maneələri dolanmaq, piyadaların və velosipedçilərin zolaqlarında hərəkət istiqamətini göstərirlər.

Məcburi hərəkət istiqaməti nişanları (4.9.1-4.9.3 nişanlarından başqa) üzərində təsvir olunan ağ simvollarla dairəvi formadadır.

Məcburi hərəkət istiqaməti nişanları birbaşa təsir göstərdikləri yerdə qoyulur.

Məcburi hərəkət istiqaməti nişanları təyin edilən marşrutla hərəkət edən ümumi faydalanan nəqliyyat vasitələrinə yayımlanmır.

Cəmi 18 məcburi hərəkət istiqaməti nişanları vardır.

Qeyd edilən nişanlar hərəkətin müəyyənləşdirilmiş rejimini daxil edir və ya ləğv edirlər.


4.1.1

**4.1.1 Düzünə hərəkət**

Sürücünü yalnız düzünə hərəkət etməyə məcbur edir. Nişanın qüvvəsi nişan quraşdırılan baş yolun hərəkət hissəsinin kəsişdiyi sahəyə şamil edilir. Yolun başlanğıcında quraşdırılır 4.1.1 "Birbaşa hərəkət" nişanının qüvvəsi ən yaxın yol ayrıcına qədər şamil edilir. Nişan həyətə sağdan dönməyi və yola yaxın digər ərazilərə girişi qadağan etmir. Nişanın qüvvəsi marşrut nəqliyyat vasitələrinə yayımlanmır.

4.1.2 **Sağa hərəkət**

Sürücünü yalnız sağa hərəkət etməyə məcbur edir. Nişanın qüvvəsi nişan quraşdırılan yolun hərəkət hissəsinin kəsişdiyi sahəyə şamil edilir. Nişanın qüvvəsi marşrut nəqliyyat vasitələrinə yayımlanmır.


4.1.2


4.1.3

**4.1.3 Sola hərəkət**

Sürücünü yalnız sola hərəkət etməyə məcbur edir. Nişanın qüvvəsi nişan quraşdırılan yolun hərəkət hissəsinin kəsişdiyi sahəyə şamil edilir.Nişanın qüvvəsi marşrut nəqliyyat vasitələrinə yayımlanmır.

**4.1.4 Düzünə və ya sağa hərəkət**

Sürücünü yalnız düzünə və ya sağa hərəkət etməyə məcbur edir. Nişanın qüvvəsi nişan quraşdırılan yolun hərəkət hissəsinin kəsişdiyi sahəyə şamil edilir.Nişanın qüvvəsi marşrut nəqliyyat vasitələrinə yayımlanmır.


4.1.4


4.1.5

**4.1.5 Düzünə və ya sola hərəkət**

Sürücünü yalnız düzünə və ya sola hərəkət etməyə məcbur edir. Nişanın qüvvəsi nişan quraşdırılan yolun hərəkət hissəsinin kəsişdiyi sahəyə şamil edilir. Nişanın qüvvəsi marşrut nəqliyyat vasitələrinə yayımlanmır.

4.1.6 **Sağa və ya sola hərəkət**

Sürücünü yalnız sağa, sola və ya əks istiqamətdə hərəkət etməyə məcbur edir. Nişanın qüvvəsi nişan quraşdırılan yolun hərəkət hissəsinin kəsişdiyi sahəyə şamil edilir. Nişanın qüvvəsi marşrut nəqliyyat vasitələrinə yayımlanmır.


4.1.6

***Hərəkətə yalnız nişanda oxla verilən istiqamətdə icazə verilir.***
***Sola dönməyə icazə verən nişanlar geri dönməyə də icazə verirlər.***
***Eləcə də 4.1.1-4.1.6 nişanları oxların konfiqurasiyası ilə istifadə olunurlar, onlar konkret kəsişmədə hərəkətin lazımi istiqamətinə uyğundurlar.***
***4.1.1–4.1.6 nişanların qüvvəsi marşrut nəqliyyat vasitələrinə yayımlanmır.***
***4.1.1–4.1.6 nişanların qüvvəsi baş yolun qarşısında nişan quraşdırılır kəsişməsinə şamil edilir.***
***Yol hissəsinin başlanğıcında quraşdırılır 4.1.1 nişanının qüvvəsi yaxın yol ayrıcına qədər şamil edilir. Nişan həyətə sağdan dönməyi və yola yaxın digər ərazilərə girişi qadağan etmir.***


4.2.1

**4.2.1 Maneəni sağdan keçmə**

Yalnız oxla göstərilən tərəfdən dolanmaq olar.

**4.2.2 Maneəni soldan keçmə**

Yalnız oxla göstərilən tərəfdən dolanmaq olar.


4.2.2


4.2.3

**4.2.3 Maneəni sağdan və ya soldan keçmə**

İstənilən tərəfdən dolanmaq olar.

**4.3 Dairəvi hərəkət**

Nişan sürücünü yol ayrıcında və ya meydanda nişanda oxlarla göstərilən istiqamətdə qonşu küçəyə və ya yola çıxışa qədər hərəkət etməyə məcbur edir.

Nişan yalnız başlanğıcında quraşdırılır meydana və ya yol ayrıcına təsir göstərir. Dairəvi hərəkəti olan yol ayrıcında 4.3 nişanı keçid üstünlüyünü təyin etmir. Belə yol ayrıcını keçmək nizamlanmayan yol ayrıclarının keçilməsinin ümumi prinsiplərinə analojidir.


4.3


4.4

**4.4 Minik avtomobillərinin hərəkəti**

4.4 nişanı minik avtomobillərinin, avtobusların, motosikletlərin və icazə verilmiş maksimum kütləsi 3,5 tondan artıq olmayan yük avtomobillərinin hərəkətinə icazə verir. Bu nişan işarələnmiş sahədə yerləşən müəssisələrə xidmət edən, habelə həmin sahədə yaşayan vətəndaşlara xidmət edən və ya məxsus olan digər nəqliyyat vasitələrinin hərəkətinə də icazə verir. Belə hallarda nəqliyyat vasitələri işarələnmiş sahəyə təyinat yerinə ən yaxın yolayrıcından girib-cıxmalıdırlar. Nişan əlavə məlumat 7.3.1, 7.3.2, 7.3.3 “təsir istiqamətləri” nişanları (lövhəcikləri) ilə birlikdə istifadə oluna bilər.

### 4.5 Velosiped zolağı

Yalnız velosipedlə və ya mopedlə hərəkətə icazə verilir. Velospied zolağı ilə faydalanma hüququ piyadalara da verilir, nə zaman ki, səki və ya piyadalar üçün zolaq yoxdur. Nişan velosiped zolağının olduğu halda qoyulur.



4.5



4.6

### 4.6 Piyada zolağı

Yalnız piyadalara hərəkət etmək icazəsini verir, digər hərəkət iştirakçılarına bu zolaqdan faydalanmağı qadağan edir. Nişan piyada zolağının olduğu halda qoyulur və ya yolun elə bir məntəqələrində, hansılarda piyadaların hərəkəti mümkündür və zolağın yolla kəsişməsindən sonra hər dəfə təkrarlanır.

Yalnız piyadalar hərəkət edirlər, velosipedi isə əllə diyirləmək olar.

### 4.7. Minimum sürətin məhdudlaşdırılması

Ancaq nişanda göstərilmiş həddə (km/saat) bərabər və ya artıq sürətlə hərəkət etməyə icazə verilir. Şəhərin ayrı-ayrı magistralında və ya bəzi əsas zolağın yuxarısında əlavə məlumat "hərəkət zolağı" lövhəciyi ilə birlikdə qoyulur ki, sürətlə hərəkət edən nəqliyyat vasitələrinə mane olmasın.




4.7




4.8

### 4.8 Minimum sürətin məhdudlaşdırıldığı zonanın qurtaracağı

4.7. "Minimum sürətin məhdudlaşdırılması" nişanının qüvvəsi zonasının qurtaracağını bildirir.



4.9.1



4.9.2



4.9.3

### 4.9.1 4.9.2 4.9.3 Təhlükəli yükü olan nəqliyyat vasitələrinin hərəkət istiqaməti

Təhlükəli yük" tanınma nişanı ilə işarələnmiş NV-nin hərəkətinə ancaq nişanda göstərilmiş istiqamətdə icazə verilir: 4.9.1 – sola, 4.9.2 –düzünə və 4.9.3 –sağa.

# Mövzu # 7

# Yol nişanları və onların xarakterizə edilməsi

## 5. Məlumatverici-göstərici nişanlar

Məlumatverici-göstərici nişanlar hərəkətin müəyyən rejimlərini bərpa edir və ya ləğv edir, eləcə də yaşayış məntəqələrinin və digər obyektlərin vəziyyəti haqqında məlumat verirlər.

Məlumatverici-göstərici nişanların 42 növü vardır, bu nişanlar 5.1-lə başlanır və 5.19.2 ilə sona çatır.

Bu nişanlar sürücüyə müxtəlif informasiyalar verir və hansı məntəqəyə yaxınlaşdıqları və qeyd edilən məntəqəyə tərəf necə getməyi göstərirlər.

Onlar ağ, göy və ya yaşıl fonu olan düzbucaqlı formasının nişanlarını təqdim edirlər (5.21.1 – istiqamət göstərən nişandan başqa), hansılarda qara və ya ağ simvollarla lazımi informasiya qeyd olunur. Eləcə də sarı fonda verilən nişanlar da vardır.


5.1

### 5.1 Avtomagistral

Nişanın yaşıl fonu var, avtomagistralda hərəkəti nizamlayan normaların tələbləri təsir göstərən, xüsusi inşa edilmiş və nəqliyyat vasitələrinin hərəkəti üçün nəzərdə tutulmuş yolun başlanğıcında qoyulur. Bu yol yolun kənarındakı mülkiyyətə xidmət etmir və onun:

- ayrı-ayrı yerləri istisna etməklə və ya müvəqqəti qayda ilə hər iki istiqamətdə hərəkət üçün bir-birindən ayrılan zolaqla və ya xüsusi hallarda, digər vasitələrlə bölünmüş ayrıca işlək hissələri vardır.
- Yolla, dəmiryolu və ya tramvay xətti ilə, piyada və velosiped zolağı ilə eyni səviyyədə kəsişməsi yoxdur.

Avtomagistralda qadağandır:

a) piyadanın, ev heyvanlarının, velosipedlərin, mopedin, traktorun və özügedən maşının, habelə digər nəqliyyat vasitələrinin hərəkəti, hansıların sürəti texniki əlamətlərlə və ya onların vəziyyətlərinə görə 40 km/saatdan aşağıdır;

b) 5.15 “duracaq zonası” və 6.11 “istirahət zonası” nişanları ilə qeyd edilən xüsusi duracaq meydanlarından kənarda dayanmaq;

c) Geri dönmək və ayırıcı zolağın texnoloji sınıqlarına daxil olmaq;

d) Geriyə hərəkət etmək;

e) Sürmə təlimi.

Nişanı avtomagistrala çıxışa qədər yol ayrıcının qarşısında qoyurlar. Eləcə də 7.1.1 , 7.1.3 , 7.1.4 lövhəcikləri ilə qoyula bilər.

### 5.2 Avtomagistralın qurtaracağı.

Avtomagistralda hərəkəti nizamlayan normaların tələblərinin qüvvəsini göstərən və yaşıl fonu olan 5.1 “Avtomagistral” yol nişanı ilə qeyd edilən yolun qurtaracağını göstərir. Təkrar olaraq sürücülərə xəbərdarlıq məqsədilə avtomagistralın qurtaracağına qədər 400-1000 metr məsafədə əlavə məlumat 7.1.1 ”obyektə qədər məsafə” nişanı ilə birlikdə qoyula bilər. Burada nişandan avtomagistralın qurtaracağına qədər məsafə göstərilir.


5.2


5.3

### 5.3 Avtomobillər üçün yol

Nişanın mavi fonu var, yolun başlanğıcında qoyulur və ancaq avtomobillərin, avtobusların və motosikletlərin hərəkətinə aid olunur. “Yol hərəkətinin təhlükəsizliyi haqqında” Gürcüstan qanununun 35-ci maddəsinin 3-cü bəndinə əsasən 5.3. “avtomobil yolu” nişanı ilə qeyd edilən yola avtomagistralda hərəkəti nizamlayan normaların tələbləri şamil edilir.

Nişanı yolun başlanğıcında və ya 7.1.1, 7.1.3, 7.1.4 lövhəcikləri ilə birlikdə qoyurlar.

### 5.4 Avtomobillər üçün yolun qurtaracağı

5.3 ”Avtomobillər üçün yol” nişanı ilə qeyd edilən yolun qurtarqacağını göstərir. Onun mavi fonu var və avtomobil yolunun qurtaracağında qoyulur. Təkrar olaraq sürücülərə xəbərdarlıq məqsədilə avtomobillər üçün yolun qurtaracağına qədər əlavə məlumat 7.1.1 ”obyektə qədər məsafə” nişanı ilə birlikdə qoyula bilər. Burada nişandan avtomobillər üçün yolun qurtaracağına qədər məsafə göstərilir.



5.4



5.5

### 5.5 Birtərəfli yol

Bütün en üzrə bir tərəfə təşkil olunmuş yol və ya hərəkət hissəsində nəqliyyat vasitəsinin hərəkətini bildirir. Burada geri dönmək qadağandır. Nişan kvadrat formasındadır, birtərəfli yolun və ya hərəkət hissəsinin başlanğıcında qoyulur.

### 5.6 Birtərəfli yolun qurtaracağı

Birtərəfli yolun və ya hərəkət hissəsinin qurtaracağını bildirir. Nişan kvadrat formasındadır, birtərəfli yolun və ya hərəkət hissəsinin qurtaracağında qoyulur. Təkrar olaraq yolun qurtaracağına qədər əlavə məlumat 7.1.1 ”obyektə qədər məsafə” nişanı ilə birlikdə qoyula bilər. Burada nişandan birtərəfli yolun qurtaracağına qədər məsafə göstərilir.



5.6



5.7.1



5.7.2

5.7.1 5.7.2 **Birtərəfli hərəkət yoluna çıxış**

Birtərəfli hərəkət təşkil olunmuş yola və ya hərəkət hissəsinə çıxışı bildirir, onun bütöv enində birtərəfli hərəkət təşkil olunmuşdur. Soldan sağa 5.7.1, yaxud da sağdan sola 5.7.2 nişanları mavi fonla uzun düzbucaq formasındadır. Nişan birbaşa yol ayrıcının başlanğıcında qoyulur.



5.8.1

### 5.8.1 Zolaqlarda hərəkət istiqamətləri

Hərəkət zolaqlarının miqdarını və onlarda hərəkətin icazə verilmiş istiqamətlərini göstərir. Birbaşa yol ayrıcının başlanğıcında yolun yuxarısında qoyulur və bütün yol ayrıcına təsir göstərir. Lazım gəldikdə, əvvəlcədən 50-150 m-də qoyula bilər.

Yol ayrıcının başlanğıcında quraşdırılır 5.8.1 “Zolaqlarda hərəkət istiqamətləri” nişanının qüvvəsi bütün yol ayrıcında təsir göstərir, əgər ki, ondan sonra quraşdırılan nişan fərqli işarələr vermirsə. Kənar sol zolaqdan sola dönməyə icazə verən 5.8.1 “Zolaqlarda hərəkət istiqamətləri” nişanı həmin zolaqdan geriyə dönməyə də icazə verir.

### 5.8.2 Zolaqda hərəkət istiqaməti

Hərəkət zolağında hərəkətin icazə verilmiş istiqamətini bildirir. Yol ayrıcının başlanğıcında quraşdırılır 5.8.2 “Zolaqda hərəkət istiqaməti” nişanının qüvvəsi bütün yol ayrıcında təsir göstərir, əgər ki, ondan sonra quraşdırılan nişan fərqli işarələr vermirsə. Kənar sol zolaqdan sola dönməyə icazə verən 5.8.2 “Zolaqda hərəkət istiqaməti” nişanı həmin zolaqdan geriyə dönməyə də icazə verir. Lazım gəldikdə, əvvəlcədən 50-150 m-də qoyula bilər.



5.8.2




5.8.3

### 5.8.3 Zolağın başlanğıcı

Yoxuşda əlavə zolağın və ya tormozlama zolağının başlanğıcını bildirir. Əgər əlavə zolağın qarşısında quraşdırılmış nişanın üzərində 4.7 “Minimum sürətin məhdudlaşdırılması” nişanı göstərilmişdirsə, belə olan halda əsas zolaqla 4.7 Nişanında olan həddə bərabər və ya ondan artıq sürətlə hərəkət edə bilməyən nəqliyyat vasitələrinin sürücüləri əlavə zolağa keçməlidirlər.

**5.8.4 Zolağın başlanğıcı**

Üç zolaqlı yolun eyni istiqamətdə hərəkət üçün təyin olunmuş orta zolağının başlanğıc sahəsini göstərir.



5.8.4



5.8.5

**5.8.5 Zolağın qurtaracağı**

Yoxuşda əlavə zolağın və ya sürətlənmə zolağının qurtaracağını bildirir.

**5.8.6 Zolağın qurtaracağı**

Üç zolaqlı yolun eyni istiqamətdə hərəkət üçün təyin olunmuş orta zolağının qurtaracağını bildirir.



5.8.6



5.8.7

**5.8.7 Zolaqlarda hərəkət istiqaməti**

Üç zolaqlı yolun hər bir zolağında hərəkətin istiqamətini göstərir. Əgər 5.8.7 nişanının üzərində hər hansı nəqliyyat vasitəsinin hərəkətini qadağan edən nişan göstərilmişdirsə, onda bu nəqliyyat vasitəsinin müvafiq zolaqda hərəkəti qadağandır. 5.8.7, 5.8.8 nişanları dörd və daha artıq hərəkət zolağı olan yollarda quraşdırılır.



5.8.7

**5.8.7 Zolaqlarda hərəkət istiqaməti**

Üç zolaqlı yolun hər bir zolağında hərəkətin istiqamətini göstərir. 5.8.7, 5.8.8 nişanları dörd və daha artıq hərəkət zolağı olan yollarda quraşdırılır.

**5.9 Marşrut nəqliyyat vasitələri üçün zolaq**

Nəqliyyat vasitələrinin axını ilə eyni istiqamətdə hərəkət edən və ancaq ümumi istifadədə olan nəqliyyat vasitələrinin hərəkəti üçün təyin olunmuş zolağı bildirir. Nişanın qüvvəsi onun üzərində yerləşdirildiyi zolağa şamil edilir. Yoldan sağda quraşdırılmış nişanın qüvvəsi yolun sağ zolağına şamil edilir. Əgər yol ayrıcından sonra nişan təkrarlanmırsa, o zaman nişanın qüvvəsi zonası sona çatmış hesab olunur. Yolun sağ tərəfində quraşdırılmış nişanın qüvvəsi sağ zolağa şamil edilir.



5.9



5.10.1

**5.10.1 Marşrut nəqliyyat vasitələri üçün zolağı olan yol**

Bütün NV-nin axınına qarşı ümumi istifadədə olan nəqliyyat vasitələrinin hərəkəti üçün xüsusi olaraq təyin edilmiş hərəkət zolağı olan yolu bildirir. Nişan yolun başlanğıcında marşrut nəqliyyat vasitələri üçün xüsusilə ayrılmış zolağın yuxarısında quraşdırılır.

**5.10.2 5.10.3 Marşrut nəqliyyat vasitələri üçün zolağı olan yola çıxış**

Nişanlar göstərirlər ki, nəqliyyat vasitələrinin hərəkəti üçün xüsusi olaraq təyin edilmiş hərəkət zolağının, nəqliyyat vasitələrinin ümumi axınına qarşı – sağdan sola 5.10.2, yaxud da soldan sağa 5.10.3 kəsişdiyi yola çıxış.



5.10.2



5.10.3



5.10.4

### 5.10.4 Marşrut nəqliyyat vasitələri üçün zolağı olan yolun qurtaracağı

Marşrut nəqliyyat vasitələri üçün zolağı olan yolun qurtaracağını bildirir.

### 5.11.1 Geriyə dönmə yeri

Geriyə dönmə yerini göstərir. Nişan sola dönməni qadağan edir, yolun sol tərəfində birbaşa geriyə dönmə yerinin qarşısında və ya yuxarıda quraşdırılır.



5.11.1




5.11.2

### 5.11.2 Geriyə dönmə sahəsi

Geriyə dönmə sahəsinin uzunluğunu göstərir. Nişan sola dönməni qadağan edir, yolun sol tərəfində birbaşa geriyə dönmə yerinin qarşısında və ya yuxarıda quraşdırılır

### 5.12 Avtobusun və ya trolleybusun dayanacaq yeri

Təyin edilən marşrutla hərəkət edən avtobusun və ya trolleybusun dayanacaq yerini göstərir. Yaşayış məntəqəsində sürücü işarə edilən dayanacaqdan hərəkətə başlayan avtobusa və ya trolleybusa yol verməyə məcburdur. Avtobus və trolleybusun sürücüləri isə ancaq onlara yol verildiyinə əmin olduqdan sonra hərəkətə başlayırlar. Sürücüyə marşrut nəqliyyat vasitələri qeyd edilən dayanacaq meydançasında nəqliyyat vasitəsini dayandırmaq qadağan edilir, meydança olmadıqda isə marşrut nəqliyyat vasitələrinin yerinin göstəricisindən 15 metr aralıda, əgər ki, bu, marşrut nəqliyyat vasitələrinin hərəkətinə mane olursa.



5.12



5.13

### 5.13 Tramvayın dayanacaq yeri

Tramvayın dayanacaq yerini göstərir. Sürücü yolun işlək hissəsinin ortasında, yan istiqamətdə hərəkət edən tramvayın dayanacaq yerində dayanan tramvaya tərəf gedən və ya qapısı tərəfindən gedən piyadalara yol verməlidir.

### 5.14 Minik taksilərinin dayanacaq yeri

Minik taksilərinin dayanacaq yerini göstərir. Sürücüyə nəqliyyat vasitəsini taksi işarəsi olan dayanacaq yerindən 15 metr aralıda nəqliyyat vasitəsini dayandırmaq qadağan edilir, əgər ki, bu, minik taksisinin hərəkətinə mane olursa.



5.14



5.15

### 5.15 Duracaq yeri

Nişan nəqliyyat üçün xüsusilə ayrılmış duracaq meydançalarını göstərmək üçün istifadə olunur.

7.6.1 , 7.6.2 , 7.6.3 , 7.6.4 , 7.6.5 , 7.6.6 , 7.6.7 , 7.6.8 , 7.6.9 lövhəcikləri ilə birlikdə quraşdırıla bilər – avtomobillərin və motosikletlərin səkidə dayandırılması üsullarını göstərir.

Eləcə də 7.7 , 7.8 , 7.9 lövhələri ilə quraşdırıla bilər və müvafiq qüvvələri bildirir.

### 5.16.1 5.16.2 Piyada keçidi

5.16.1 və 5.16.2 nişanları yolda piyadaların təşkil edilmiş keçidlərini qeyd etmək üçün quraşdırılır. Bir çox hallarda 5.16.2 nişanı yolun sağında, keçidin yaxın sərhəddi qarşısında, 5.16.1 nişanı isə yolun solunda, keçidin uzaq sərhəddində quraşdırılır.



5.16.1



5.16.2


5.17.1


5.17.2

**5.17.1 5.17.2 Yeraltı piyada keçidi**

Nişanlar yeraltı piyada keçidi haqqında məlumat verir. Piyada yolun işlək hissəsini yalnız yeraltı piyada keçid vasitəsi ilə kəsməyə məcburdur.

**5.17.3 5.17.4 Yerüstü piyada keçidi**

Nişanlar yerüstü piyada keçidi haqqında məlumat verir. Piyada yolun işlək hissəsini yalnız yerüstü piyada keçid vasitəsi ilə kəsməyə məcburdur.


5.17.3


5.17.4



5.18.

**5.18 Tövsiyə edilən sürət**

Yolun müəyyən edilmiş sahəsində tövsiyə edilən sürət. Bu nişanın qüvvəsi yolun birinci yolayrıcına kimi olan sahəsinə şamil edilir, 5.18 nişanı xəbərdarlıq nişanı ilə birgə quraşdırıldığı hallarda isə təhlükəli sahənin uzunluğu ilə təyin edilir. Bu nişan göstərilən sürətlə hərəkət etməyi tövsiyə edir. Amma aşağı sürətlə hərəkət etməyə də icazə verilir, amma digər nəqliyyat vasitələrinə mane olmamaq şərtilə.

**5.19.1. 5.19.2 5.19.3 Dalan**

Bu nişanlar birbaşa, yaxud da sağdan/soldan bitişmiş yolun birbaşa çıxışının olmadığını göstərir. Nişan yolun başlanğıcında, yaxud da yolun işlək hissələrinin kəsişməsinə qədər quraşdırılır.

Bu nişanlar birbaşa hərəkət olmayan yolda hərəkəti qadağan etmirlər.


5.19.1


5.19.2


5.19.3








5.20.1

**5.20.1 İstiqamətlərin ilkin göstəricisi**

Yaşayış məntəqəsinə və digər obyektlərə tərəf hərəkətin istiqamətini göstərirlər. 5.20.1 nişanı eləcə də 3.11 -3.15 qadağan nişanlarından biri quraşdırılmış sahələrin dolanmasını göstərir. 5.20.1 nişanında eləcə də 5.29.1 “yolun (marşrutun) nömrəsi və istiqaməti” nişanının təsviri, avtomagistralın, aeroport simvolları, idman və digər piktoqramlar verilir, eləcə də hərəkətin özünəməxsusluğu haqqında məlumat verən nişanların təsviri də göstərilir. 5.20.1 nişanının aşağı hissəsində nişanın quraşdırılma yerindən yol ayrıcına qədər və ya tormozlama zolağının başlanğıcına qədər məsafə verilir. Qeyri-yaşayış məntəqəsində quraşdırılmış 5.20.1 nişanında yaşıl və ya göy fon göstərilən yaşayış məntəqəsinə və ya obyektə qədər hərəkətin müvafiq avtomagistral və ya digər yolla həyata keçirildiyi bildirilir. Yaşayış məntəqəsində quraşdırılmış 5.20.1 nişanında yaşıl və ya göy fon göstərilən yaşayış məntəqəsinə və ya obyektə qədər hərəkətin verilən yaşayış məntəqəsindən çıxdıqdan sonra müvafiq avtomagistral və ya digər yolla həyata keçirildiyi bildirilir. Ağ fon isə onu bildirir ki, göstərilən obyekt verilən yaşayış məntəqəsindədir. Nişanları yol ayrıcına qədər və ya yavaşıtma zonasının başlanğıcına qədər ən azı 300 metrdə quraşdırırlar, yaşayış məntəqəsində isə ən azı 50 metrdə. Magistralda tormozlama zolağına qədər 800 metrdə quraşdırılır.

**5.20.2 İstiqamətin ilkin göstəricisi**

Yaşayış məntəqəsinə və digər obyektlərə tərəf hərəkətin istiqamətini göstərirlər. 5.20.2 nişanında, eləcə də 5.29.1 “yolun (marşrutun) nömrəsi və istiqaməti” nişanının təsviri, avtomagistralın, aeroport simvolları, idman və digər piktoqramlar verilir. Qeyri-yaşayış məntəqəsində quraşdırılmış 5.20.2 nişanında yaşıl və ya göy fon göstərilən yaşayış məntəqəsinə və ya obyektə qədər hərəkətin müvafiq avtomagistral və ya digər yolla həyata keçirildiyi bildirilir. Yaşayış məntəqəsində quraşdırılmış 5.20.2 nişanında yaşıl və ya göy fon göstərilən yaşayış məntəqəsinə və ya obyektə qədər hərəkətin verilən yaşayış məntəqəsindən çıxdıqdan sonra müvafiq avtomagistral və ya digər yolla həyata keçirildiyi bildirilir. Ağ fon isə onu


5.20.2

bildirir ki, göstərilən obyekt verilən yaşayış məntəqəsindədir. Nişanlar yolayrıcının qarşısında qeyri-yaşayış məntəqələrində 100 m, yaşayış məntəqələrində isə 50 metrdə quraşdırılır.


5.20.3

### 5.20.3 Hərəkət sxemi

Nişan hərəkətin marşrutunu, yol ayrıcında ayrı-ayrı manevrlərin qadağan edilməsini və mürəkkəb yol ayrıcılarında icazə verilən istiqamətlərini bildirir.

Nişan yol ayrıcının qarşısında yaşayış məntəqəsində 50-100 metrdə, qeyri-yaşayış məntəqəsində 150-300 metrdə quraşdırılır.

### 5.21.1 İstiqamət göstəricisi

Yaşayış məntəqəsinə və digər obyektlərə tərəf hərəkətin istiqamətini göstərir. Nişanda onda qeyd edilən obyektə qədər məsafə, avtomagistral, aeroport simvolları, idman və digər piktoqramlar qeyd edilə bilər. Nişan birbaşa yol ayrıcı və ya döngənin qarşısında quraşdırılır. Qeyri-yaşayış məntəqəsində quraşdırılmış 5.21.1 nişanında yaşıl və ya göy fon göstərilən yaşayış məntəqəsinə və ya obyektə qədər hərəkətin müvafiq avtomagistral və ya digər yolla həyata keçirildiyi bildirilir. Yaşayış məntəqəsində quraşdırılmış 5.21.1 nişanında yaşıl və ya göy fon göstərilən yaşayış məntəqəsinə və ya obyektə qədər hərəkətin verilən yaşayış məntəqəsindən çıxdıqdan sonra müvafiq avtomagistral və ya digər yolla həyata keçirildiyini bildirir. Ağ fon isə onu bildirir ki, göstərilən obyekt verilən yaşayış məntəqəsindədir.



5.21.1



5.21.2

### 5.21.2 İstiqamətlər göstəricisi

Yaşayış məntəqəsinə və digər obyektlərə tərəf hərəkətin istiqamətini (marşrut məntəqələrinə qədər hərəkətin istiqamətləri) göstərir. Nişanda onda qeyd edilən obyektə qədər məsafə, avtomagistral, aeroport simvolları, idman və digər piktoqramlar qeyd edilə bilər. Nişan birbaşa yol ayrıcı və ya döngənin qarşısında quraşdırılır. Qeyri-yaşayış məntəqəsində quraşdırılmış 5.21.2 nişanında yaşıl və ya göy fon göstərilən yaşayış məntəqəsinə və ya obyektə qədər hərəkətin müvafiq avtomagistral və ya digər yolla həyata keçirildiyi bildirilir. Yaşayış məntəqəsində quraşdırılmış 5.21.2 nişanında yaşıl və ya göy fon göstərilən yaşayış məntəqəsinə və ya obyektə qədər hərəkətin verilən yaşayış məntəqəsindən çıxdıqdan sonra müvafiq avtomagistral və ya digər yolla həyata keçirildiyini bildirir. Ağ fon isə onu bildirir ki, göstərilən obyekt verilən yaşayış məntəqəsindədir.



5.22

### 5.22 Yaşayış məntəqəsinin başlanğıcı

Yaşayış məntəqəsində hərəkət qaydaları üzrə normalarla təyin olunmuş tələblərin qüvvədə olduğu yaşayış məntəqəsinin (5.23 nişanına qədər) adı və başlanğıcını bildirir.

### 5.23 Yaşayış məntəqəsinin qurtaracağı

Yaşayış məntəqəsində hərəkət qaydaları üzrə normalarla təyin olunmuş tələblərin qüvvədən düşdüyü yeri bildirir.


5.23



5.24

### 5.24 Yaşayış məntəqəsinin başlanğıcı

Nişan göy fondadır və yaşayış məntəqəsində hərəkət qaydaları üzrə normalarla təyin olunmuş tələblərin qüvvədə olmadığı yaşayış məntəqəsinin adı və başlanğıcı.

### 5.25 Yaşayış məntəqəsinin qurtaracağı

5.24 nişanı ilə qeyd edilən yaşayış məntəqəsinin qurtaracağını bildirir.


5.25



5.26

### 5.26 Obyektin adı

Yaşayış məntəqəsindən fərqli obyektlərin (çay, göl, keçid, tarixi abidələr və s.) adını və yerini bildirir. Birbaşa obyektin qarşısında və ya ilkin 7.1.1, 7.1.3 və ya 7.1.4 “obyektə qədər məsafə” əlavə məlumat nişanları ilə birlikdə quraşdırılır.

**5.27 Məsafələr göstəricisi**

Marşrut üzrə yerləşmiş yaşayış məntəqələrinə kimi olan məsafələri (km) göstərir.




5.27




5.28

**5.28 Kilometr göstəricisi**

Yolun başlanğıcından və ya qurtaracağına kimi olan məsafəni (km) bildirir. Yolun hər kilometrindən bir quraşdırılır.

**5.29.1 Yolun (marşrutun) nömrəsi və istiqaməti**

**Y**ola (marşruta) verilmiş nömrəni bildirir.

Avtomagistralda yaşıl fonla quraşdırılır, göy rənglə - avtomobil yollarında.

Yolun (marşrutun) nömrəsini və istiqamətini göstərir, yolayrıcların əvvəlində quraşdırılır. "E" hərfi göstərir ki, yol Avropa magistrallar sisteminə daxildir, rəqəm isə nömrəni göstərir. Nişan yolun (marşrutun) əvvəlində qoyulur və hər 15-20 km-dən sonra təkrarlanır.




5.29.1




5.29.2

**5.29.2 Marşrutun nömrəsi və istiqaməti**

Yolun (marşrutun) nömrəsini və istiqamətini göstərir, yolayrıcların əvvəlində quraşdırılır.

**5.30.1 Yük avtomobilləri üçün hərəkət istiqaməti**

Yolayrıcında yük avtomobilləri, traktorlar və özügedən maşınların hərəkəti hər hansı bir istiqamətdə qadağan edildikdə bu nişan onların hərəkətini məsləhət görülən istiqamətini bildirir.



5.30.1



5.30.2

**5.30.2 Yük avtomobilləri üçün hərəkət istiqaməti**

Yolayrıcında yük avtomobilləri, traktorlar və özügedən maşınların hərəkəti hər hansı bir istiqamətdə qadağan edildikdə bu nişan onların hərəkətini məsləhət görülən istiqamətini bildirir.

**5.30.3 Yük avtomobilləri üçün hərəkət istiqaməti**

Yolayrıcında yük avtomobilləri, traktorlar və özügedən maşınların hərəkəti hər hansı bir istiqamətdə qadağan edildikdə bu nişan onların hərəkətini məsləhət görülən istiqamətini bildirir



5.30.3



5.31

**5.31 Kənardankeçmə istiqaməti**

Hərəkət üçün müvəqqəti bağlı olan yol sahəsinin kənardankeçmə marşrutunu bildirir. Birbaşa kənardankeçmə zonasının əvvəlində, yaxud da ilkin qeyri-yaşayış məntəqəsində 150-300 metrdə, yaşayış məntəqəsində yol ayrıcına qədər 50-100 metrdə qoyulur.

1.



5.32.1



5.32.2



5.32.3

**5.32.1. 5.32.2 5.32.3 Kənardankeçmə istiqaməti**

Hərəkət üçün müvəqqəti bağlı olan yol sahəsinin düzünə, sağa və ya sola kənardankeçmə istiqamətini bildirir.

**5.33 Stop-xətt**

Svetoforun (nizamlayıcının) qadağan siqnalında nəqliyyat vasitəsi dayandırılması yerini bildirir. Yolun sağ tərəfində, yaxud da yolun işlək hissəsinin yuxarısında quraşdırılır və bir çox hallarda üfüqi "Stop xətti" işarəsi ilə birlikdə istifadə olunur.



5.33



5.34.1

**5.34.1 Başqa işləк hissədə yerdəyişmənin ilkin göstəricisi**

Ayırıcı zolaqlı yolun hərəkət üçün bağlı olan hərəkət hissəsi sahəsinin kənardankeçmə və ya sağ hərəkət hissəsinə qayıtmaq üçün hərəkət istiqamətlərini göstərir.

**5.34.2 Başqa işlək hissədə yerdəyişmənin ilkin göstəricisi**

Sağ hərəkət hissəsinə qayıtmaq üçün hərəkət istiqamətlərini göstərir .



5.34.2



5.35

**5.35 Qarşılıqlı hərəkət**

Bir və ya bir neçə hərəkət zolağında hərəkətin əks istiqamətdə dəyişməsi mümkün olan yolun başlanğıcını bildirir.

**5.36 Qarşılıqlı hərəkətin sonu**

5.35 “Qarşılıqlı hərəkət” nişanının qüvvədə olması zonasının qurtaracağını bildirir.



5.36



5.37

**5.37. Qarşılıqlı hərəkət yoluna çıxış**

Kəsişən yolda və ya onun bir neçə zolağında təşkil edilmiş qarşılıqlı hərəkəti göstərir. Nişan qarşılıqlı hərəkət yoluna çıxışın əvvəlində hər dəfə qoyulur.

**5.38 Yaşayış zonası**

Göstərir ki, nəqliyyat yaşayış zonasında hərəkət edir, burada həm səkidə, eləcə də yolun işlək hissəsində hərəkətə icazə verilir. Burada üstünlük piyadaya verilir, amma o, nəqliyyata mane olmamalıdır. İcazə verilən sürət 20 km/saatdır.



5.38



5.39

**5.39 Yaşayış zonasının qurtaracağı**

5.38 “Yaşayış zonası” nişanının qüvvəsi zonasının qurtaracağını bildirir.

Qeyri-yaşayış məntəqəsində quraşdırılmış 5.20.1, 5.20.2, 5.21.1 və 5.21.2 nişanlarında yaşıl və ya göy fon bildirir ki, verilən yaşayış məntəqəsinə və ya obyektə qədər hərəkət müvafiq avtomagistralla və ya başqa yolla həyata keçirilir.

Yaşayış məntəqəsində quraşdırılmış 5.20.1, 5.20.2, 5.21.1 və 5.21.2 nişanlarında yaşıl və ya göy fon bildirir ki, verilən yaşayış məntəqəsinə və ya obyektə qədər verilən yaşayış məntəqəsindən çıxdıqdan sonra hərəkət müvafiq avtomagistralla və ya başqa yolla həyata keçirilir. Ağ fon isə bildirir ki, göstərilən obyekt verilən yaşayış məntəqəsindədir.

# Mövzu # 8
# Yol nişanları və onların xarakterizə edilməsi

## 6. Xidmət (servis) nişanları

Servis nişanları yol hərəkəti iştirakçılarına müvafiq obyektlərin yerləşməsi barədə məlumat verirlər. Servis nişanları mavi fonda düzbucaqlını təqdim edir və onlarda qara və ya qırmızı rəngli qeydlərlə daha kiçik ölçülü ağ düzbucaqlılar verilir. Nişanın alt tərəfində mavi zolaqda, ağ rəngli qeydlərlə obyektə qədər məsafə, oxla istiqamət göstəricisi və eləcə də obyektin adı verilən qeyd verilə bilər. Nişanlar obyektlərin qarşısında və ya əvvəlcədən quraşdırılır. Qeyri-yaşayış məntəqələrində nişanlar əvvəlcədən göstərilən obyektdən 60-80 km,15-20 km və 400-800 metr aralıda quraşdırılır.

Bundan əlavə, yaşayış məntəqələrində servis nişanları əvvəlcədən göstəriləcək obyektə qədər 100-150 metr aralı məsafədə quraşdırılmalıdır.


6.1

**6.1 İlk tibbi yardım məntəqəsi**
Nişan ilk tibbi yardımın göstərilməsi mümkün olan obyekt haqqında məlumat verir.


6.2

**6.2 Xəstəxana**
Zərər çəkmişə tibbi yardım göstərilə və stasionarda yerləşdirilə bilən obyekt.


6.3

**6.3 Yanacaq doldurma məntəqəsi**
Obyekti göstərir, hansında avtomobili yanacaq materialı ilə doldurmaq olar.


6.4

**6.4 Avtomobillərə texniki xidmət məntəqəsi**
Avtomobilə texniki xidmət göstərilə bilən obyekt.


6.5

**6.5 Avtomobillərin yuyulma məntəqəsi**
Avtomobillərin yuyulma obyektini göstərir.


6.6

**6.6 Telefon**
Telefon-avtomat və ya rabitə xidmətinin yerləşməsini göstərir.


6.7

**6.7 Yeməkxana**
Nişan yeməkxananın yerləşməsini göstərir.


6.8

**6.8 İçməli su**
Nişan içməli suyun yerləşməsini göstərir.


6.9

**6.9 Mehmanxana və ya motel**
Nişan sürücünün və sərnişinlərin dayanıb istirahət edə biləcəkləri obyektin (mehmanxana, motel) yerləşməsini göstərir.


6.10

**6.10 Kempinq**
Nişan turistlərin dincələ biləcəkləri obyektin yerləşməsini göstərir.


6.11

**6.11 İstirahət yeri**
Nişan məsafə və istiqaməti göstərməklə yolun yaxınlığında istirahət yerini göstərir.


6.12

**6.12 Yol polisinin daima postu**
Nişan patrul polisinin postunun yerləşməsini göstərir.

Qeyd edilən nişanlarda obyektə qədər qalmış məsafə və ya istiqamət göstərilə bilər.

## 7. Əlavə məlumat nişanları (lövhəciklər)

Əlavə məlumat nişanları ilə əsas nişanların qüvvəsi zonası, vaxtı, obyektə qədər məsafə, qüvvənin istiqaməti və s. dəqiqləşdirilir, yaxud da onların qüvvəsi məhdudlaşdırılır.

Qeyd edilən nişanlar digər nişanların məhdudlaşdırılması və dəqiqləşdirilməsi üçün təsis edilmişdir. Bildirir ki, hansı nəqliyyat vasitəsinə keçmək qadağan edilir, eləcə də nişanın qüvvəsi zonası, vaxtı, obyektə qədər məsafə, qüvvənin istiqaməti və s. göstərir.

Əlavə məlumat nişanları (lövhəcikləri) qara haşiyəli və qara, qırmızı və ya sarı qeydli ağ rəngli düzbucaqlını təqdim edirlər. Qırmızı fonda qara simvollarla yerinə yetirilmiş yol nişanı 7.19 – təhlükəli yük istisna edilir.

Əlavə məlumat nişanları (lövhəcikləri) birbaşa həmin nişanın altında quraşdırılır, hansı ilə istifadə olunur. 7.2.2-7.2.4, 7.13 lövhəcikləri nişanın yanında quraşdırılır, əgər ki, bu nişan yolun işlək hissəsinin, yol kənarının və ya səkinin yuxarısında quraşdırılmışdırsa.

Cəmi 50 növ əlavə məlumat nişanları (lövhəcikləri) vardır.



7.1.1

### 7.1.1 Obyektə qədər məsafə

Nişandan təhlükəli zonanın başlanğıcına qədər, müvafiq məhdudiyyətin daxil olduğu yerə qədər və ya əvvəlində, hərəkətin istiqaməti ilə mövcud müəyyən obyektə (yerə) qədər məsafəni göstərir.

Xəbərdarlıq nişanları ilə birlikdə istifadəsi zamanı o, nişandan təhlükəli sahənin başlanğıcına qədər məsafəni bildirir;

Üstünlük və qadağan nişanları ilə istifadəsi zamanı nişanın qüvvədə olma yerinin başlanğıcını bildirir;

Məlumatverici-göstərici nişanlarla istifadəsi zamanı duracaq yerini, magistralın başlanğıcı-qurtaracağı və s. haqqında məlumat verir;

***Diqqət !!! 7.1.1 ; 7.1.2 ; 7.1.3 ; 7.1.4 nişanlarının təyinatını bilmək vacibdir!!!***
***"Qüvvədə olma zonası" nişanları ilə səhv salmayın!!***

### 7.1.2 Obyektə qədər məsafə

2.4 "Yol ver" nişanından yol ayrıcına qədər məsafəni göstərir, əgər ki, yol ayrıcının qarşısında 2.5 "Dayanmadan keçmək qadağandır" nişanı quraşdırılmışdırsa.



7.1.2



7.1.3



7.1.4

### 7.1.3 7.1.4 Obyektə qədər məsafə

Bu və 7.1.4 nişanları obyektə qədər olan məsafəni və onun yolun solunda və ya sağında yerləşməsini göstərirlər. Əsasən 5.1, 5.3,5.15, 5.16.1, 5.16.2, 5.17.1, 5.17.2,5.17.3, 5.14 məlumatverici nişanlarla birlikdə işlənilir və magistrala, avtomobil yoluna, duracaq yerinə, piyada keçidinə və s. qədər məsafəni və istiqaməti göstərirlər.

### 7.2.1 Qüvvədə olma zonası

Xəbərdarlıq nişanları ilə qeyd edilən yolun təhlükəli hissəsinin uzunluğunu və ya qadağan və məlumatverici-göstərici nişanların qüvvədə olma zonasını göstərirlər.



7.2.1



7.2.2

### 7.2.2 Qüvvədə olma zonası

Bu nişan 3.27 , 3.28 , 3.29 və 3.30 qadağan nişanları ilə birlikdə göstərirlər ki, bu nişanların qüvvədə olma zonası lövhədə göstərilən məsafədir (bu halda 10 metr).

### 7.2.3 Qüvvədə olma zonası

Nişan 3.27 , 3.28 , 3.29 və 3.30 qadağan nişanlarının qüvvədə olma zonasının qurtaracağını göstərir.


7.2.3


7.2.4

### 7.2.4 Qüvvədə olma zonası

Nişan 3.27 , 3.28 , 3.29 və 3.30 qadağan nişanlarının qüvvədə olma zonasında olmaq barədə xəbər verir.

Bir qayda olaraq 7.2.2 və 7.2.3 nişanlarının ortasında quraşdırılır (bir daha sürücüyə qadağan zonasında olmaq barədə xatırlatsın).

### 7.2.5 7.2.6 Qüvvədə olma zonası

Meydanların, binaların fasadlarının ətrafında duracağı və ya dayanacağı qadağan etdikdə bu nişanlar 3.27 , 3.28 , 3.29 və 3.30 qadağan nişanlarının qüvvədə olması istiqamətlərini və zonasını göstərirlər.



7.2.5



7.2.6

***7.2.2 nişanı 3.27–3.30 qadağan nişanlarının qüvvədə olma zonasını göstərir;***
***7.2.3 nişanı 3.27–3.30 nişanlarının qüvvədə olma zonasının qurtaracağını göstərir;***
***7.2.4 nişanı sürücüyə onun 3.27–3.30 nişanlarının qüvvədə olma zonasında yerləşdiyi barədə xəbər verir;***
***7.2.5, 7.2.6 nişanları dayanacaq və duracaq qadağan olunduqda meydanın, binanın fasadının və s. bir tərəfi boyunca 3.27–3.30 nişanlarının istiqaməti və qüvvədə olma zonasını bildirir***


7.3.1


7.3.2


7.3.3

**7.3.1 7.3.2 7.3.3 qüvvədə olma istiqaməti**

Bu nişanlar yol ayrıcının qarşısında quraşdırılmış başqa yol nişanlarının qüvvədə olma istiqamətini, eləcə də birbaşa yolun yaxınlığında yerləşən obyektə tərəf hərəkətin istiqamətini göstərirlər.


7.4.1

**7.4.1 Nəqliyyat vasitələrinin növləri**

Lövhə maksimum kütləsi 3.5 tondan artıq (yəni 3.5 tondan çoxdur) yük avtomobilləri nişanının qüvvədə olmasına aid edilir.

**7.4.2 Nəqliyyat vasitələrinin növləri**

Lövhə hər növ qoşqulu yük avtomobilləri və traktorlar, eləcə də yedəyə alan nəqliyyat vasitələri nişanının qüvvədə olmasına şamil edilir.


7.4.2


7.4.3

**7.4.3 Nəqliyyat vasitələrinin növləri**

Lövhə avtomobillər, eləcə də maksimum kütləsi 3.5 tona bərabər və ya bundan aşağı olan yük avtomobilləri nişanının qüvvədə olmasına şamil edilir.

**7.4.4 Nəqliyyat vasitələrinin növləri**

Lövhə avtobuslar, eləcə də sərnişin daşınması üçün quraşdırılmış yük avtomobilləri nişanının qüvvədə olmasına şamil edilir.


7.4.4


7.4.5

**7.4.5 Nəqliyyat vasitələrinin növləri**

Lövhə yalnız traktor və özügedən maşınlar nişanının qüvvədə olmasına şamil edilir.


7.4.6

**7.4.6 Nəqliyyat vasitələrinin növləri**

Lövhə motosiklet (moto-araba) və yüksüz çəkisi 400 kiloqramdan çox olmayan dördtəkərli nəqliyyat vasitələri nişanının qüvvədə olmasına şamil edilir.


7.4.7

**7.4.7 Nəqliyyat vasitələrinin növləri**

Lövhə yalnız velosipedlər nişanının qüvvədə olmasına şamil edilir.

**7.4.8 Nəqliyyat vasitələrinin növləri**

Lövhə "Təhlükəli yük" tanıdıcı nişanlı nəqliyyat vasitələri nişanının qüvvədə olmasına şamil edilir.


7.4.8


7.5.1

**7.5.1 Şənbə, bazar və bayram günləri**

Lövhə göstərir ki, nişan yalnız şənbə, bazar və bayram günlərində qüvvədədir.

**7.5.2 İş günləri**

Lövhə göstərir ki, nişan iş günlərində qüvvədədir.


7.5.2


7.5.3

**7.5.3 Həftənin günləri**

Lövhə göstərir ki, nişan yalnız lövhədə göstrəilən həftənin müəyyən günlərində qüvvədədir (bu halda yalnız bazar ertəsi və çərşənbə axşamı).

**7.5.4 Qüvvədə olma vaxtı**

Bu 7.5.5 , 7.5.6 , 7.5.7 lövhələr qadağan, göstərici, məlumatverici-göstərici nişanlarla birlikdə istifadə olunur və qüvvədə olduqları sutkanın və həftənin günlərini göstərirlər.



7.5.4


7.6.1

7.6.2

7.6.3

7.6.4

7.6.5


7.6.6

7.6.7

7.6.8

7.6.9

**Nəqliyyat vasitələrinin duracağa qoyulma üsulu**

Bu lövhələr 5.15 "Duracaq yeri" məlumatverici-göstərici nişanı ilə birlikdə istifadə olunur və avtomobillərin və motosikletlərin səki yaxınlığında və səkidə duracağa qoyulma üsullarını göstərirlər.

7.6.1 göstərir ki, duracaqda bütün nəqliyyat vasitələri səkinin ətrafında işlək hissədə durmalıdırlar.

7.6.2–7.6.9 minik avtoomobili və motosikletin səkiyə yaxın duracağa qoyulma üsullarını göstərirlər.


7.7

**7.7 İşləməyən mühərriklə durma**

Lövhə göstərir ki, 5.15 nişanlı duracaqda yalnız işləməyən mühərriklə durmaq olar.

**7.8 Pullu xidmətlər**

Göstərir ki, xidmət yalnız nəğd ödəmə ilə həyata keçirilir.



7.8



7.9

**7.9 Durma müddətinin məhdudlaşdırılması**

Lövhə 5.15 "Durma yeri" nişanlı duracaqda nəqliyyat vasitələrinin maksimum durma müddətini göstərir.

**7.10 Avtomobillərə baxış üçün yer**

Lövhə göstərir ki, 5.15 və ya 6.11 nişanları göstərilən meydanlarda estakada və ya baxış üçün xəndək var.


7.10



7.11

**7.11 İcazə verilən kütlənin məhdudlaşdırılması**

Lövhə göstərir ki, nişanın qüvvəsi yalnız icazə verilən kütləsi lövhədə göstərilən böyüklükdən çox olan nəqliyyat vasitələrinə şamil edilir. (bu böyüklük dəyişə bilər).

**7.12 Təhlükəli yol qırağı**

Lövhə göstərir ki, yol qırağına keçmək onda aparılan təmir işlərinə görə təhlükəlidir və 1.23 "yol işləri" nişanı ilə birllikdə istifadə olunur.


7.12


7.13

**7.13 Baş yolun istiqaməti**

Yol ayrıcında baş yolun istiqamətini göstərir və yol ayrıcının qarşısında quraşdırılan 2.1 "Baş yol", 2.4 "Yol ver" və 2.5 "Dayanmadan hərəkət qadağandır" nişanları ilə birlikdə istifadə olunur.

**7.14 Hərəkət zolağı**

Lövhə qadağan və göstərici nişanlarla birlikdə istifadə olunur və nişanın və ya svetoforun qüvvədə olma zolağını göstərir.


7.14


7.15

**7.15 Kor piyada**

Lövhə göstərir ki, piyada keçidindən kor piyada istifadə edir və piyada keçidlərini bildirən 1.20, 5.16.1, 5.16.2 nişanlarla və svetoforla birlikdə istifadə olunur.

**"Yaş örtük"**

Lövhə göstərir ki, nişan baş hissənin örtüyünün yaş olmasına qədər qüvvədədir.


7.16


7.17

**7.16 Əlillər**

Lövhə göstərir ki, 5.15 nişanın qüvvəsi əlillər idarə edən və tanışedici "Əlil" nişanı quraşdırılan moto-arabalara və avtomobillərə şamil edilir.

**7.18 Əlillərdən başqa**

Lövhə göstərir ki, nişanın qüvvəsi əlillər idarə edən və tanışedici "Əlil" nişanı quraşdırılan moto-arabalara və avtomobillərə şamil edilmir.


7.18



7.19

**7.19 Təhlükəli yük**

195433-88 dövlət standartına əsasən təhlükəli yük sinfinin (siniflərinin) nömrəsini göstərir, nişanın qüvvəsi bu təhlükəli yükü daşıyan nəqliyyat vasitələrinə şamil edilir.

Lövhə bilavasitə birlikdə istifadə edildiyi nişanın aşağısında quraşdırılır.

7.2.2–7.2.4, 7.13 lövhəcikləri nişanın yanında yerləşdirilir, əgər ki, bu nişan baş hissənin, yolun qırağının və ya səkinin yuxarısında quraşdırılmışdırsa. Əgər müvəqqəti və stasionar yol qaydaları bir-birinin əksinədirsə, o zaman sürücü müvəqqəti nişanları rəhbər tutur.

Başqa lövhəciklərə də təsadüf etmək olar, onlar hərəkəti məhdudlaşdırmır, hətta sürücülərə yardım edirlər.

# Mövzu # 9
# Yolların nişanlanması və onların xarakterizə edilməsi

## 1. Üfüqi nişanlanma

Üfüqi nişanlanma (xətt, ox, yazı və digər qeydlər) hərəkətin müəyyən rejimlərini və qaydalarını təsis edir. Üfüqi nişanlanma ağ rənglə çəkilir, 1.4, 1.10 və 1.17 xətlərindən başqa, onlar sarı rəngdədirlər.




1.1 əks istiqamətli nəqliyyat axınlarını ayırır və yolların təhlükəli yerlərində bildirir:

- hərəkət zolaqlarının sərhədini;
- yolun hərəkət hissəsinin giriş qadağan edilən sərhədlərini;
- nəqliyyat vasitələrinin duracaq yerlərinin sərhədlərini və avtomagistrallara aid edilməyən yolların hərəkət hissəsinin kənarlarını göstərir.

- Bu xəttin kəsişməsi qadağandır!
- Yalnız hərəkət hissəsinin kənarını bildirən və sürücünün sağ tərəfində yerləşən xəttin kəsişməsinə icazə verilir , nəqliyyatın yolun sağ kənarında dayanmaq məqsədilə!

***Müvəqqəti yol nişanları və nişanlanma xətlərinin əhəmiyyəti bir-birinin əksinə olduğu halda, sürücü nişanları rəhbər tutmalıdır (üstünlük verməlidir)!!!***

**1.2** - avtomagistrallarda hərəkət hissəsinin kənarını göstərir (enli bütöv xətlər) nəqliyyat vasitəsini yolun qırağında dayandırmaq üçün1.2 xəttinin kəsişməsi mümkündür.







**1.3**. dörd və daha çox hərəkət zolağı olan yollarda əks istiqamətli nəqliyyat axınlarını ayırır; 1.3 xəttinin kəsişməsi qadağandır.

1.4 sarı bütöv xətt - dayanma qadağan olunan yerləri bildirir, müstəqil və ya 3.27 nişanı ilə birlikdə tətbiq edilir və hərəkət hissəsinin kənarına və ya bordürün üst hissəsində çəkilir.






**1.5 xətt -** iki və ya üç zolağı olan yollarda əks istiqamətli nəqliyyat axınlarını ayırır, bir istiqamətdə hərəkət üçün iki və daha çox zolaq olduqda, hərəkət zolaqlarının sərhədlərini göstərir; 1.5 xəttinin kəsişməsi istənilən tərəfdən mümkündür.

1.5 Xətt - əks istiqamətli və ya eyni istiqamətli nəqliyyat axınlarını ayıran 1.1 və ya 1.11 nişanlanma xətlərinə yaxınlaşma barədə xəbərdarlıq edir (yaxınlaşma xətti - cizgilərinin uzunluğu onların aralarındakı məsafədən üç dəfə böyük olan qırıq xətlər); xəttlərin kəsişməsi istənilən tərəfdən mümkündür.







**1.7 xətt -** yolayrıcının hüdudlarında hərəkət zolaqlarını göstərir (cizgiləri qısa və onların aralarındakı məsafə cizginin uzunluğuna bərabər olan qırıq xətlər); xəttlərin kəsişməsi istənilən tərəfdən mümkündür.

**1.8** xətt - sürətləndirmə və ya tormozlama zolağı ilə yolun hərəkət hissəsinin əsas zolağı arasında sərhədi göstərir (enli qırıq xətlər müxtəlif səviyyələrdəki yolayrıclarında, kəsişmələrdə, avtobus dayanacaqları zonasında və sair yerlərdə); xətlərin kəsişməsi istənilən tərəfdən mümkündür.







**1.9** xətt - reversiv hərəkətlə nizamlanma tətbiq edilən hərəkət zolaqlarının sərhədlərini göstərir, qarşılıqlı hərəkətlə nizamlanma tətbiq olunan yollarda əks istiqamətli (qarşılıqlı hərəkət svetoforları söndürülən zaman) nəqliyyat axınlarını ayırır;
1.9. xəttin kəsişməsinə icazə verilir, əgər ki, o, sürücüdən sağ tərəfdədirsə və reversiv svetofor yoxdur və ya işləmirsə. Reversiv svetofor işlədikdə, 1.9 xəttin kəsişməsinə istənilən tərəfdən icazə verilir o halda, əgər o, bir istiqamətli hərəkət zolaqlarını bölürsə. Reversiv svetofor işləmədiyi halda, sürücü dərhal sağdan yerini dəyişməyə məcburdur – 1.9 xəttinin o biri tərəfinə. Əgər reversiv svetofor işləmirsə, əks istiqamətdə hərəkət edən nəqliyyat axınlarını bölən 1.9 xəttinin kəsişməsi qadağandır!

**1.10 sarı qırıq xətt** - duracağın qadağan olunduğu yerləri bildirir, müstəqil və ya 3.28 nişanı ilə birlikdə tətbiq olunur və hərəkət hissəsinin kənarına və ya bordürün üst hissəsində çəkilir;






**1.11 xətti** yalnız bir zolaqdan çıxaraq yerdəyişməyə icazə verilən yol sahələrində əks və ya eyni istiqamətli nəqliyyat axınlarını ayırır və yalnız bir tərəfə hərəkət etməyə icazə verilən yollarda duracaqlara girmək və çıxmaq, geriyə dönmək və sair üçün nəzərdə tutulmuş yerləri göstərir; xəttin kəsişməsinə həm qırıq, eləcə də bütöv xətt tərəfdən icazə verilir, amma ötmək və kənardan keçmək bitdikdən sonra;

**1.12 xətti** - (stop-xətt) - 2.5 nişanı olduqda və ya svetoforun (nizamlayıcının) qadağan siqnalı verildikdə, sürücünün dayanmalı olduğu yeri göstərir;







**1.13 xətti** - kəsişən yolla hərəkət edən nəqliyyat vasitələrinə yol vermək üçün sürücünün lazım gəldikdə, dayanmalı olduğu yeri göstərir; 2.4 üstünlük nişanı ilə birlikdə tətbiq oluna bilər;

**1.14.1** ("zebra") - nizamlanmayan piyada keçidini bildirir.







**1.14. 1** ("zebra") - nizamlanmayan piyada keçidini bildirir; nişanlanma oxları piyadaların hərəkət istiqamətini göstərir.

**1.14.3** xətləri - hərəkətin svetoforla nizamlandığı piyada keçidini göstərir;





**1.15** xətləri - velosiped yolunun yolun hərəkət hissəsi ilə kəsişdiyi yeri göstərir;

**1.16.1 (1.16.2 və 1.16.3)** nəqliyyat axınlarının ayrıldığı və ya birləşdiyi yerlərdə istiqamətləndirici adacıqları göstərir.







**1.17** sarı xətt – ümumi istifadədə olan nəqliyyat vasitələrinin dayanacaqlarını və taksi duracaqlarını göstərir;

**1.18** yolayrıcında hərəkətin zolaqlar üzrə icazə verilmiş istiqamətlərini göstərir, müstəqil, yaxud 5.8.1, 5.8.2 nişanları ilə birlikdə tətbiq edilir, dalan təsviri çəkilmiş nişanlama xətti göstərir ki, yaxınlıqdakı hərəkət hissəsinə dönmək qadağandır, sol kənar zolaqdan sola dönməyə icazə verən işarə həmin zolaqdan geriyə dönməyə də icazə verir;







**1.19** yolun hərəkət hissəsinin daralan sahəsinə (həmin istiqamətdə zolaqların sayının azaldığı sahəyə), yaxud əks istiqamətlərdə nəqliyyat axınlarını ayıran 1.1 və 1.11 nişanlama xətlərinə yaxınlaşmanı göstərir. Birinci halda 1.19 nişanlama xətti 1.18.1-1.18.3 nişanları ilə birlikdə tətbiq oluna bilər;

**1.20** 1.13 nişanlanma xəttinə yaxınlaşmanı bildirir;






**1.21** («stop» yazısı) - 2.5 nişanı ilə birlikdə tətbiq olunduğu hallarda 1.12 nişanlanma xəttinə yaxınlaşmanı bildirir;




**1.22** yolun (marşrutun) nömrəsini göstərir




**1.23** ümumi istifadədə olan nəqliyyat vasitələri üçün xüsusi zolağı göstərir

1.1 və 1.3 xətlərinin kəsişməsi qadağandır.

Nəqliyyat vasitəsinin yol qırağında dayandırmaq üçün baş hissənin qırağını bildirən və sürücünün sağ tərəfində yerləşən 1.1 və 1.2 xətlərinin kəsişməsinə icazə verilir.

1.5–1.8 xətlərinin kəsişməsinə istənilən tərəfdən icazə verilir.

1.9. xəttin kəsişməsinə icazə verilir, əgər ki, o, sürücüdən sağ tərəfdədirsə və reversiv svetofor yoxdur və ya işləmirsə. Reversiv svetofor işlədikdə, 1.9 xəttin kəsişməsinə istənilən tərəfdən icazə verilir o halda, əgər o, bir istiqamətli hərəkət zolaqlarını bölürsə. Reversiv svetofor işləmədiyi halda, sürücü dərhal sağdan yerini dəyişməyə məcburdur – 1.9 xəttinin o biri tərəfinə. xəttin kəsişməsinə icazə verilir, əgər ki, o, sürücüdən sağ tərəfdədirsə və reversiv svetofor yoxdur və ya işləmirsə. Reversiv svetofor işlədikdə, 1.9 xəttin kəsişməsinə istənilən tərəfdən icazə verilir o halda, əgər o, bir istiqamətli hərəkət zolaqlarını bölürsə. Reversiv svetofor işləmədiyi halda, sürücü dərhal sağdan yerini dəyişməyə məcburdur – 1.9 xəttinin o biri tərəfinə

Əgər reversiv svetofor işləmirsə, əks istiqamətdə hərəkət edən nəqliyyat axınlarını bölən 1.9 xəttinin kəsişməsi qadağandır!

1.11 xəttin kəsişməsinə həm qırıq, eləcə də bütöv xətt tərəfdən icazə verilir, amma ötmək və kənardan keçmək bitdikdən sonra/

Əgər dayaqda təsvir edilən müvəqqəti yol nişanları və nişanlanma xətlərinin əhəmiyyəti bir-birinin əksinədirsə, o zaman sürücülər yol nişanlarını rəhbər tuturlar.

# Mövzu # 10
# Yol nişanlanması və onların xarakterizə edilməsi
## Şaquli nişanlanma

Körpülərin dayaqları, tunellərin gövdə səthi, hasarlar, sürahılar, bordürlər, yol qurğuları və yol avadanlığı elementləri üzərində birgə qara və ağ rəngli zolaqlar şəklində çəkilmiş şaquli nişanlanma qabaritləri göstərir və görünən səmtləşmə vasitəsi rolunu oynayır.









2.1 yol qurğularının hərəkətdə olan nəqliyyat vasitələri üçün təhlükə doğuran şaquli elementlərini (işıq dirəkləri, ağacları, körpülərin dayaqlarını və s.) göstərir;

2.2 - tunellərin, körpülərin aşırımlarının və digər qurğuların elementlərinin aşağı kənarını göstərir, hansılar yolun baş hissəsindən 5 metr aşağı hündürlükdə yerləşirlər və hansıların altında bütövlükdə və ya qismən yolun baş hissəsi keçir.

2.3. ayırma zolaqlarında və ya təhlükəsizlik adacıqlarında düzəldilmiş dairəvi adacıqları göstərir

2.4. istiqamətləndirici dirəkcikləri, yolkənarı kötükcükləri, çəpərlərin dayaqlarını və s. göstərir

2.5. 50 metrdən kiçik radiuslu döngələrdə, sərt enişlərdə, digər təhlükəli sahələrdə yol sədlərinin yan səthini göstərir.

2.6. 2.5 nişanlanması ilə müəyyənləşdiriləndən fərqli yolun başqa sahələrində yol sədlərinin yan səthini göstərir;

2.7. təhlükəli sahələrdə yol səthindən hündürə çıxan təhlükəsizlik adacıqlarını, bordürləri və rezistorların kənar səthin kiçik radiuslu döngələrində, yolun daralmış yerlərində, sahillərdə və digər təhlükəli sahələrin çıxışlarında göstərir.

## Mövzu # 11

## Yol hərəkəti qaydaları - sürücünün ümumi vəzifələri. Nəqliyyat vasitələrinin istismara buraxılması. Nəqliyyat vasitələrinə bərkidilən tanınma nişanları

### Fəsil V

### Yol hərəkəti qaydaları

***Yol hərəkəti iştirakçılarının arasında ən aktiv rol nəqliyyat vasitəsinin sürücüsünə və ona bərabər şəxslərə verilir, müvafiq olaraq qanunvericilik bu insanlara qarşı daha çox tələblər və öhdəliklər irəli sürür. "Yol hərəkətinin təhlükəsizliyi haqqında" Gürcüstan Qanunun 20-ci maddəsinə əsasən:***

**Maddə 20. Sürücünün ümumi vəzifələri**

**Mexaniki nəqliyyat vasitəsinin sürücüsünün olmalıdır:**

- nəqliyyat vasitəsini idarə etdiyi kateqoriyanın sürücülük vəsiqəsi, sürücünün sürücülük vəsiqəsi müsadirə olunduqda – nəqliyyat vasitəsini müvəqqəti idarə etmək icazəsi;

- nəqliyyat vasitəsinin qeydiyyat sənədləri;
- verilən nəqliyyat vasitəsinə sahib olma, istifadə və ya üzərində sərəncam vermək hüququnu təsdiqləyən sənəd – sahibi olmadıqda onun nəqliyyat vasitəsi ilə dövlət sərhədlərini keçdikdə və ya ölkənin Gürcüstan yurisdiksiyası qüvvədə olmayan ərazisini keçdiyi halda.
- (24.06.2004. N206)

***Motosikletlə hərəkət zamanı sürücü və sərnişin mütləq moto-dəbilqədən istifadə etməlidirlər.***

***Beynəlxalq yol hərəkətində iştirak edən mexaniki nəqliyyat vasitəsinin sürücüsü:***

- **nəqliyyat vasitəsinin qeydiyyat şəhadətnaməsini, sürücülük vəsiqəsini və daşınan yüklərə dair sənədləri özündə saxlamalıdır;**

- **nəqliyyat vasitəsində onu qeydə almış dövlətin dövlət qeydiyyat nişanı və fərqlənmə nişanı olmalıdır**.

***Nəqliyyat vasitəsinin sürücüsü:***

- yola düşməzdən qabaq nəqliyyat vasitələrinin istismara buraxılmasına dair vəzifəli şəxslərin məsuliyyəti haqqında əsas qaydalara uyğun olaraq, nəqliyyat vasitəsinin texniki cəhətdən sazlığını yoxlamalı və onu yol boyu təmin etməlidir;
- mexaniki nəqliyyat vasitəsini (konstruksiyası təhlükəsizlik kəmərlərini nəzərdə tutmayan nəqliyyat vasitəsindən başqa) idarə etdikdə təhlükəsizlik kəmərindən istifadə edir və ondan sağ (və ya sol) tərəfdə əyləşən sərnişin tərəfindən təhlükəsizlik kəmərindən avtomagistralda faydalanmaq, yerli əhəmiyyətli və şəhər ərazisində mövcud avtomobil yollarından başqa; (23.06.2005.N1747)
- İşlək tormozlama sisteminin, sükan mexanizminin, qoşqulu qurğuların (qatarın tərkibində) nasazlığında, sutkanın qaranlıq vaxtında sıradan çıxmış faralarla (və ya onların xaricində) və arxa qabaritli işıqlarla yolda hərəkət etməli, hansında süni işıqlar yoxdur, yaxud da məhdudiyyətli görünmə şərtlərində, eləcə də sürücü tərəfindəki şüşətəmizləyicilərin duman, yağış və ya qarda işləməməsində;
- Yolda nəqliyyat vasitəsinin istismarı qadağan edilən digər nasazlıq yarandıqda onun qarşısını almalı və əgər mümkün deyilsə, - təhlükənin bütün lazımi ölçülərini nəzərə almaqla nəqliyyat duracağına və ya təmir yerinə aparmalı;

***Yol hərəkəti təhlükəsizliyinin qaydalarının pozulduğunda sürücü yol polisinin tələbi ilə nəqliyyat vasitəsini dayandırmalı və ona təqdim etməlidir:***

- nəqliyyat vasitəsini idarə etdiyi kateqoriyanın sürücülük vəsiqəsi, sürücünün sürücülük vəsiqəsi müsadirə olunduqda – nəqliyyat vasitəsini müvəqqəti idarə etmək icazəsi;
- nəqliyyat vasitəsinin qeydiyyat sənədləri;

***Əgər kifayət qədər əsas varsa, sürücü alkoqol, narkotik və ya digər sərxoşluq vəziyyətindədirsə, yol polisinin tələbi ilə o, sərxoşluq-ayıqlığı təyin etmək üçün tibbi yoxlanışdan keçməlidir***

***Yol-nəqliyyat hadisəsində iştirakçı sürücü məcburdur:***

- nəqliyyat vasitəsini dərhal dayandırmalı (yerindən tərpətməməli), qəza-işıq siqnalını yandırmalıdır;
- zərərçəkənlərə ilk tibbi yardım göstərilməsi üçün mümkün olan tədbirləri görməli, "Təcili tibbi yardım" maşını çağırmalı, zərər çəkənləri həyat üçün təhlükəli xəsarət aldığı hallarda isə, onu səmt üzrə gedən nəqliyyat vasitəsi ilə yaxınlıqdakı tibbi müəssisəyə göndərməli, bu mümkün olmadıqda isə, özünün nəqliyyat vasitəsi ilə aparmalı, orada şəxsiyyətini təsdiq edən sənəd və ya vəsiqə, nəqliyyat vasitəsinin qeydiyyatı sənədini təqdim etməklə özünün soyadını, nəqliyyat vasitəsinin qeydiyyat nömrə nişanını bildirməli, sonra hadisə yerinə qayıtmalıdır;
- başqa nəqliyyat vasitələrinin hərəkəti qeyri-mümkün olduqda, yolun hərəkət hissəsini boşaltmalıdır.
- Yolun hərəkət hissəsini boşaltmaq və ya zərərçəkənləri öz nəqliyyatında müalicəxanaya aparmaq zərurəti olduqda, şahidlərin iştirakı ilə əvvəlcə nəqliyyat vasitəsinin vəziyyətini, izləri və hadisəyə aidiyyəti olan əşyaları qeyd etməli

və onların qorunması, nəqliyyat vasitələrinin hadisə yerinin yanından keçməsini təşkil etmək üçün mümkün olan bütün tədbirləri görməlidir;

- hadisə haqqında polisə xəbər verməli, hadisəni görmüş adamların soyadlarını, ünvanlarını yazmalı və polis əməkdaşlarının gəlməsini gözləməlidir.

***Əgər yol-nəqliyyat hadisəsi nəticəsində heç kim zərər çəkməmişsə, sürücülər mövcud mühitləri dəyərləndirməklə, qarşılıqlı razılıq əsasında əvvəlcədən hadisənin sxemini çəkib, imza atıb bu faktı rəsmiləşdirmək üçün ən yaxın yol polisi məntəqəsinə və ya polis orqanına gələ bilərlər.***

***Sürücüyə qadağandır:***

- istifadə edilməsi nəticəsində diqqəti və çevikliyi azaldan dərman vasitələrinin təsiri altında, xəstə və əzgin, yorğun vəziyyətdə nəqliyyat vasitəsini idarə etməməlidir;
- nəqliyyat vasitəsini idarə etdikdə mobil kommunikasiya vasitəsindən istifadə etməməlidir. Qeyd edilən qadağa sürücünün qulaqcıqlarla və ya kommunikasiyanın ucadan (yaxud da məsafədə) söhbət funksiyası ilə faydalandığında və hər iki əlinin nəqliyyat vasitəsinin sükanının üzərində olduğunda qüvvədə olmur; (23.06.2005.N1747)
- nəqliyyat vasitəsini idarə etmək ixtiyarını alkoqol, narkotik və ya digər növ sərxoş vəziyyətdə olan və ya diqqəti və çevikliyi azaldan dərman vasitələrinin təsiri altında, xəstə və əzgin şəxsə, eləcə də üzərində eyni kateqoriyalı nəqliyyat vasitəsini idarə etmək hüququ olmayan şəxsə verməməlidir.

***Qanunun 21-ci maddəsində nəqliyyat vasitəsinin polisdə qeydiyyata alınma şərtləri, eləcə də nəqliyyat vasitələri ilə əlaqədar vəzifəli şəxslərin öhdəlikləri formalaşdırılmışdır. Eləcə də fərqli nəqliyyat vasitələrində, uyğun tanışlıq nişanlarının yerləşdirilmə öhdəlikləri və bu nişanların standartları formalaşdırılmışdır.***

**Maddə 21. Nəqliyyat vasitələrinin istismara buraxılması və yol hərəkətinin təhlükəsizliyinin təmin edilməsi tədbirləri. Vəzifəli şəxslərin öhdəlikləri:**

- Mexaniki nəqliyyat vasitələrinin qeydiyyat müddəti Gürcüstan Daxili İşlər nazirinin fərmanı ilə müəyyənləşdirilir.
- Mexaniki nəqliyyat vasitəsinin (tramvay və trolleybuslardan başqa) və qoşqunun xüsusi yerlərində müvafiq nümunənin qeydiyyat nişanları quraşırılır, ön şüşənin sol alt küncündə yol üçün yararlılıq testinin keçməsini təsdiqləyən lövhəcik yerləşdirilir. (29.12.2006. N4221)
- Yol hərəkətinin təhlükəsizliyi və ətraf mühitin müdafiəsi məqsədilə yol hərəkətində iştirak edən nəqliyyat vasitəsinin texniki vəziyyəti və təchizatı müvafiq standartlara və qaydalara cavab verməlidir.
- Sərnişin daşıyan bortun platformalı yük avtomobili döşəmədən 0,3-0,5 metr hündürlükdə və bortun üst səthindən ən azı 0,3 metrdə bərkidilimiş oturacaqlarla təchiz olunmalı, uşaqlar daşındıqda isə bortların ətrafında yerləşdirilmiş oturacaqların möhkəm arxalıqları olmalıdır;
- Avtomobilin idarə olunmasının təlimi üçün təlim təşkilatlı mexaniki nəqliyyat vasitəsi mexanizmlərlə və tormozlamanın əlavə əyləcləri ilə təchiz olunmalıdır.
- Velosipedin tormozu, sükanı və səsli siqnalı olmalı, qarşıdan sayrışan və ağ rəngli fara ilə (sutkanın qaranlıq vaxtında məhdudiyyətli görünmə şərtlərində hərəkət üçün), arxadan isə - sayrışan və qırmızı rəngli fara ilə hər iki yan tərəfdən isə narıncı və ya qırmızı rəngli sayrışan fara ilə təchiz olunmalıdır.
- Dördtəkərli arabanın konstruksiya ilə nəzərdə tutulan oturacağı, tormoz qurğusu və diyirlənməyə qarşı dayaqları olmalı, qarışdan iki sayrışan və ağ rəngli fara, arxadan isə iki sayrışan və ya qırmızı fara ilə təchiz olunmalıdır.
- Tramvay və trolleybuslara müvafiq orqanlar tərəfindən verilən qeydiyyat nömrələri quraşdırılır.

***Nəqliyyat vasitələrinə növbəti tanınma işarələri bərkidilir:***

«**Avtoqatar**» - qoşqulu yük avtomobillərində və təkərli traktorlarda (1,4 ton və daha artıq yük götürən), habelə birləşdirilmiş avtobus və trolleybuslarda - kabinənin damında bir-birindən 150-300 mm aralı, üfüqi yerləşdirilmiş narıncı rəngli üç fənər şəklində;



«**Tikanlı şinlər**» - tikanlı şinlər qoyulmuş mexaniki nəqliyyat vasitələrinin arxasında - bərabərtərəfli, ağ rəngli, təpəsi yuxarı yönəldilmiş və qırmızı haşiyəyə alınmış içərisində qara rənglə şin təsviri olan üçbucaq şəklində (üçbucağın tərəfləri azı 200 mm, haşiyənin eni üçbucağın tərəfinin onda biri qədər);



«**Uşaqların daşınması**» - avtobusda dəstə ilə uşaq apararkən, bu nəqliyyat vasitələrinin qabağında və arxasında - qırmızı haşiyəyə alınmış və içərisində qara rənglə 1.21 yol nişanının simvolu təsvir edilmiş sarı rəngli kvadrat şəklində (kvadratın tərəfləri azı 250 mm, haşiyənin eni kvadratın tərəfinin onda biri qədər);



«**Kar sürücü**» - lal-kar və ya kar sürücülərin idarə etdiyi mexaniki nəqliyyat vasitələrinin qabağında və arxasında-diametri 160 mm olan, içərisində təpəsi aşağı yönəldilmiş bərabərtərəfli xəyali üçbucağın künclərində 40 mm diametrli üç qara dairəcik çəkilmiş sarı rəngli dairə şəklində;;



«**Təhlükəli yük**» - belə yüklər daşıyan nəqliyyat vasitələrinin qabağında və arxasında - 690x300 mm ölçüdə, onun 400x300 mm ölçüdə sağ hissəsi narıncı, sol hissəsi isə 15 mm enində qara haşiyəyə alınmış ağ rəngdə olan düzbucaq şəklində (nişanda yükün təhlükəli xassələrini xarakterizə edən işarələr çəkilir);



«**Təlim nəqliyyat vasitəsi**» - sürücülük öyrətmək üçün istifadə olunan mexaniki nəqliyyat vasitəsinin qabağında və arxasında - bərabərtərəfli, ağ rəngli, təpəsi yuxarı yönəldilmiş və qırmızı haşiyəyə alınmış (üçbucağın tərəfləri azı 200 mm, haşiyənin eni üçbucağın tərəfinin onda biri qədər) və içərisində qara rəngdə «təlim» sözü yazılmış üçbucaq şəklində (minik avtomobilinin damında ikitərəfli nişan qoyulmasına yol verilir);



**„Sürətin məhdudlaşdırılması”** – 3.24 yol nişanının kiçildilmiş rəngli təsviri, hansında icazə verilən hərəkətin sürəti (nişanın diametri ən azı 160 mm-dir, haşiyənin eni – diametrin 1/10 ) mexaniki nəqliyyat vasitələrinin banının arxa tərəfində, solda verilir və bu nəqliyyat vasitəsini təhlükəli və iri qabaritli yük daşıdıqda iki ilə qədər iş təcrübəsi olan sürücü idarə edir, eləcə də nişandan texniki xarakterləri ilə nəqliyyat vasitəsinin maksimum sürətin bu qanunun 29-cu maddəsinin 4-cü bəndi ilə müəyyənləşdiriləndən az olduğu halda;




“**Nəqliyyat vasitəsinin qabaritindən kənara çıxan yük**» - 400x400 mm ölçüdə, diaqonal boyu 50 mm enində, növbə ilə qırmızı və ağ zolaqlar çəkilmiş, işıqqaytarıcı səthə malik lövhəcik şəklində;



«**Uzunölçülü nəqliyyat vasitəsi**» - yüklü və ya yüksüz iki və daha çox qoşqusu olan uzunluğu 24 metrdən artıq olan avtoqatarların arxasında - 40 mm enində qırmızı haşiyəsi olan sarı rəngli, azı 1200x200 mm ölçülü, işıqqaytarıcı səthə malik düzbucaq şəklində (göstərilən ölçüdə nişanı yerləşdirmək mümkün olmadıqda, azı 600x200 mm ölçüdə iki eyni nişanı nəqliyyat vasitəsinin oxuna simmetrik yerləşdirməyə yol verilir) tanınma nişanları quraşdırılır;



***Yuxarıda sadalananlardan əlavə sürücünün istəyinə əsasən nəqliyyat vasitələrinə tanınma nişanı bərkidilir:***

«**Əlil**» - I və II qrup əlillər üçün xüsusi avadanlıqlar quraşdırılmış, onlar tərəfindən idarə olunan və qeydiyyat şəhadətnaməsində bu barədə müvafiq qeyd olan nəqliyyat vasitələrinin qabaq və arxasında - tərəfləri 150 mm ölçülü, daxilində 7.17 simvolunun qara boya ilə təsviri olan sarı rəngli kvadrat şəklində;



«**Həkim**» - sürücü-həkimlərin idarə etdiyi nəqliyyat vasitələrinin qabağında və arxasında - tərəflərinin ölçüsü 140 mm olan, içərisinə ağ dairədə (diametri 125 mm) qızıl xaç (ştrixin hündürlüyü 90 mm, eni 25 mm) təsviri vurulmuş, göy rəngli kvadrat şəklində;



***Sürücünün, eləcə də nəqliyyat vasitəsində olmalıdır***

«**Qəza dayanma nişanı**» - lövhə. Bərabərtərəfli üçbucaq formasında ən azı 0,4 m (16 düym) uzunluğunda yanları ilə və ən azı 0.05 m (2 düym) enində qırmızı kənarları ilə; yolun hərəkət hissəsində nəqliyyat vasitəsi məcburi dayandığı hallarda quraşdırılır; bu üçbucaqlının orta hissəsində boşluq ola bilər, yaxud da açıq rəngli boya ilə boyanmış ola bilər; qırmızı kənarlar öz şəffaflığı ilə işıq verməli, yaxud da işıqqaytaran xassələrə malik olmalıdır; lövhə elə quraşdırılmalıdır ki, ondan möhkəm şaquli vəziyyətdə istifadə olunsun. Məcburi qayda ilə qoyulur.



Mexaniki nəqliyyat vasitəsinin yedəyə alındığı zaman elastiki birləşdirici zəncirləri qeyd etmək üçün bayraqcıqlardan, xəbərdarlıq qurğusundan və ya üzərində diaqonal şəklində qırmızı və ağ rəngli 50 mm enində bir-birini əvəz edən zolaqlarla işıqqaytaran səthli 200X200 mm ölçüdə lövhədən istifadə olunur; elastiki birləşdirici dairələrə ən azı iki xəbərdarlıq qurğusu (bayraqcıq) bərkidilir.

Sərt yedəyə alan qurğunun konstruksiyası 25907-89 dövlət standartının tələblərinə cavab verməlidir.

***Nəqliyyat vasitələrinin istismarı və texniki vəziyyət üçün məsuliyyət daşıyan vəzifəli şəxslərə qadağan edilir:***

- texniki baxımdan nasaz mexaniki nəqliyyat vasitəsini, həm istismarı qadağan olan, eləcə də təyin edilən qaydaların pozuntusu ilə düzəldilmiş nəqliyyat vasitəsini və ya təyin edilən qayda ilə qeydiyyata alınmamış və ya da ki, yol üçün yararlılıq testindən (22.02.2011, 4216 2011-ci ilin aprelin 15-dən qüvvəyə minən) keçməyən nəqliyyat vasitəsini xəttə buraxmaq;
- nəqliyyat vasitəsini idarə etmək ixtiyarını alkoqol, narkotik və ya digər növ sərxoş vəziyyətdə olan və ya diqqəti və çevikliyi azaldan dərman vasitələrinin təsiri altında, xəstə və əzgin şəxsə, eləcə də üzərində eyni kateqoriyalı nəqliyyat vasitəsini idarə etmək hüququ olmayan şəxsə vermək;
- asfalt, sement-beton örtüklü yollarda hərəkət üçün traktor və tırtıllı digər özügedən maşınları buraxmaq.

***Yolun, dəmiryolunun keçidi və digər yol qurğularının vəziyyəti üçün məsuliyyət daşıyan vəzifəli şəxslər məcburdurlar:***

- yolu, dəmiryol keçidini və digər yol qurğularını hərəkət üçün təhlükəsiz vəziyyətdə saxlamamalıdırlar;
- hərəkət üçün maneələrin vaxtında qarşısını almaq üçün, eləcə də yolun ayrı-ayrı sahələrində hərəkəti qadağan edilməsi və ya məhdudlaşdırılması üçün ölçülər götürməli, əgər ki, bu yolla faydalanma hərəkətin təhlükəsizliyi üçün təhlükə yaradırsa.

***Yolda təmir işlərinin aparılmasında məsuliyyət daşıyan vəzifəli şəxslər məcburdurlar:***

- yolda işin aparıldığı yerdə hərəkətin təhlükəsizliyini təmin etməldirlər. Bu yeri, eləcə də orada dayandırılmış yol maşınlarını, tikinti materialını, konstruksiyaları və s. müvafiq yol nişanları ilə nişanlama və hasarlama qurğuları ilə , sutkanın qaranlıq vaxtında və ya məhdudiyyətli görünmə şərtlərində - əlavə qırmızı və sarı rəngli siqnal işıqları ilə təchiz etməlidir;
- iş bitdikdə yolda nəqliyyat vasitələrinin və piyadaların təhlükəsiz hərəkətini təmin etməlidirlər.

***Vəzifəli şəxslər Gürcüstan Qanunvericiliyi ilə nəzərdə tutulan hallarda, təyin edilən qayda əsasında müvafiq orqanlarla razılaşdırırlar:***

- şəhərdə və avtomobil yolunda hərəkətin təşkil edilməsi sxemlərini;
- yolun, yol qurğularının inşasını, yenidən qurulmasını və təmiri layihələrini;
- piyadaların hərəkətini çətinləşdirən və görünməni kəskinləşdirən birbaşa yola yaxın köşklərin qoyulmasını, transparant və plakatın sərgisini, reklam lövhəcikləri və digər əşyaların qoyulmasını;
- Marşrut nəqliyyat vasitəsinin hərəkəti marşrutlarını və dayanacaq məntəqələrini (dayanacaqları);
- Yolda kütləvi, idman və digər tədbirlərin keçirilməsini;
- Nəqliyyat vasitəsinin yenidən düzəldilməsini, onda xüsusi sayrışan və səsli siqnalların bərkidilməsi, nəqliyyat vasitələrinin banının kənarlarında əyri ağ zolaqların çəkilməsini;
- Təhlükəli, ağırçəkili və iriqabaritli yükün daşınmasını;
- Ümumi uzunluğu 20 metrdən çox olan avtoqatarın hərəkətini, yaxud da iki və ya artıq qoşqulu avtoqatarın hərəkətini;

- Yol hərəkətinin təhlükəsizliyi mütəxəssisinin, sürücülük təliminin təlimatçısının və sürücülük üzrə hazırlıq proqramlarını;
- Sürücülük təlimi qadağan olan yolların siyahısını;
- Nəqliyyat vasitəsi və ya piyadanın hərəkəti üçün maneəçilik yaradan yolda hər hansı növ işlərin aparılmasını.

# Mövzu # 12
# Xüsusi siqnalların tətbiqi. Piyada və sərnişinin vəzifələri

***Qanunun 22-ci maddəsində xüsusi siqnalların (onlarda göy, qırmızı, narıncı işıq qurğuları və xüsusi səsli siqnallar nəzərdə tutulur) tətbiqi səlahiyyətləri və qaydaları təsvir olunmuşdur. Eləcə belə bir siqnallarla təchiz olunan nəqliyyat vasitələrinin yaxnlaşması halında də yol hərəkəti iştirakçılarının öhdəlikləri verilir.***

**Maddə 22. Xüsusi siqnalların tətbiqi**

Nəqliyyat vasitəsində göy rəngli işıq yandırılan və xidməti tapşırığı yerinə yetirən operativ və ya xüsusi xidmətin nəqliyyat vasitəsinin sürücüsü hərəkətin təhlükəsizliyini təmin etmək məqsədilə bu qanunun 25-ci və 27-37 maddələrinin tələblərindən yan keçə bilər, yalnız ***nizamlayıcının siqnallarından başqa***.

Göy rəngli işıqla yanaşı, qırmızı rəngli işıq da qoşula bilər. Hərəkətin başqa iştirakçıları qarşısında üstünlük almaq üçün belə nəqliyyat vasitələrinin sürücüləri sayrışan göy işıq və xüsusi səs siqnalını qoşmalıdırlar. Həmin sürücülər, onlara yol verildiyini yəqin etdikdən sonra üstünlükdən istifadə edə bilərlər.

***Belə bir hüquqla operativ və ya xüsusi xidmətin nəqliyyat vasitələrini müşayiət edən nəqliyyat vasitəsinin sürücüsü də faydalanır.***

Sürücü yolu göy rəngli işıqla hərəkət edən nəqliyyat vasitəsinə, eləcə də müşayiət edilən nəqliyyat vasitəsinə verir, hansının yaxını işıqlandıran faraları onun maneəsiz hərəkətinin təmin edilməsi üçün qoşulmuşdur.

***Qoşulmuş göy rəngli işıqla dayanmış nəqliyyat vasitəsinə yaxınlaşdıqda sürücü sürəti azaldır ki, lazım gəldikd, nəqliyyat vasitəsini dərhal dayandıra bilsin.***

**Narıncı və ya sarı rəngli sayrışan işıq siqnalları** quraşdırılmış xüsusi nəqliyyat vasitələrinin sürücüləri yolda tikinti, təmir və ya təmizlik işləri görərkən hərəkət təhlükəsizliyini təmin etmək şərtilə yol nişanlarının və nişanlama xətlərinin tələblərindən, eləcə də bu qanunun 28-ci maddəsinin 4-8-ci və 35-ci maddənin birinci bəndinin tələblərindən kənara çıxa bilərlər. Başqa sürücülər onların işinə maneçilik törətməməlidirlər. Narıncı və ya sarı rəngli işartılı işıq, hərəkət zamanı üstünlük vermir və hərəkətin digər iştirakçılarını təhlükə barədə xəbərdar etməyə xidmət edir.

**Maddə 23. Piyadanın vəzifələri**

- ***Piyada səki ilə, piyada zolağı ilə, yol çiyinləri ilə, bunlar olmadıqda isə velosipedçilərin hərəkətini çətinləşdirməmək şərti ilə velosiped yolu ilə hərəkət etməli*** və ya ayırıcı zolağı olan yollarda hərəkət hissəsinin xarici kənarı ilə getməlidir (iri əşyalar daşıyan və ya aparan piyadaların, habelə mühərriksiz əlil arabalarında gedən şəxslərin səki və ya yol çiyini ilə hərəkəti başqa piyadalar üçün maneə yaratdıqda, onlar yolun hərəkət hissəsinin kənarı ilə gedə bilərlər);
- ***yaşayış məntəqələrindən kənarda yolun hərəkət hissəsi ilə hərəkət etdikdə nəqliyyat vasitələrinin hərəkəti istiqamətinə qarşı getməlidir*** (mühərriksiz əlil arabalarında hərəkət edən, motosiklet, moped, velosiped sürən şəxslər belə hallarda nəqliyyat vasitələrinin hərəkəti istiqamətində getməlidirlər);
- Mütəşəkkil piyada dəstələrinə yalnız nəqliyyat vasitələrinin hərəkəti istiqamətində, yolun hərəkət hissəsinin sağ tərəfi ilə, bir sırada dörd nəfərdən çox olmayan dəstə ilə getməyə icazə verilir. Dəstənin qabağında və arxasında - sol tərəfdə müşayiətçilər olmalıdırlar, onlar əllərində qırmızı bayraqcıqlar, sutkanın qaranlıq vaxtında və məhdudiyyətli görünmə şəraitində isə, yandırılmış fənərlər: qabaqda - ağ, arxada - qırmızı işıq fənəri tutmalıdırlar. Uşaqları dəstə halında yalnız sutkanın işıqlı vaxtı və böyüklərin müşayiəti ilə ancaq səki ilə, piyada yolu ilə, bunlar olmadıqda isə yol çiyini ilə aparmağa icazə verilir.
- ***Piyada yolun baş hissəsini piyadaların keçidində keçir, o cümlədən yeraltı və yerüstükeçidlərlə, əgər bunlar yoxdursa, o zaman yol ayrıcında, səkinin və ya yol çiyninin xəttində.*** Görünmə zonasında keçid və ya yolayrıcı olmadıqda, ayırıcı zolaq olmayan və sədd çəkilməyən, hər iki tərəfdən yaxşı görünən sahələrdə hərəkət hissəsinin kənarına nisbətən yolu düzbucaq altında keçməlidir. Hərəkətin nizamlandığı yerlərdə nizamlayıcının və ya piyada svetoforunun, o olmadıqda isə, nəqliyyat svetoforunun işarəsini əsas tutmalıdır.

- Piyada, nizamlanmayan piyada keçidlərində yolun hərəkət hissəsinə yalnız yaxınlaşmaqda olan nəqliyyat vasitələrinədək məsafəni, onların sürətini qiymətləndirdikdən və yolu keçməyin onlar üçün təhlükəsiz olacağını yəqin etdikdən sonra çıxa bilər. Bununla belə, yolun hərəkət hissəsini keçdikdə (piyadalar üçün keçid olmadıqda) piyada nəqliyyat vasitələrinin hərəkətinə mane olmamalı, dayanmış nəqliyyat vasitəsinin və ya görmə sahəsini məhdudlaşdıran başqa maneənin arxasından yolun hərəkət hissəsinə çıxmazdan əvvəl yaxınlaşan nəqliyyat vasitəsinin olmadığını yəqin etməlidir.
- Piyada yolun hərəkət hissəsində zərurət olmadan ləngiməməli və dayanmamalıdır. Keçidi başa çatdıra bilməmiş piyadalar nəqliyyat vasitələrinin əks istiqamətli hərəkətlərini ayıran xəttin üstündə dayanıb gözləməlidirlər. Piyadalar yalnız hərəkətin təhlükəsizliyinə əmin olduqdan sonra və svetoforun (nizamlayıcının) siqnalını nəzərə almaqla yolu keçməyə davam edə bilərlər.

***Piyada göy sayrışan işığı və xüsusi səsli siqnalı qoşulmuş nəqliyyat vasitəsi yaxınlaşdıqda yolun hərəkət hissəsindən keçməməlidir. Yolun hərəkət hissəsində duran piyada belə bir nəqliyyat vasitəsinə yol verməli və dərhal yolu boşaltmalıdır.***

- ***Ümumi istifadədə olan nəqliyyat vasitəsini və taksini, yalnız yolun hərəkət hissəsindəki nisbətən azca hündürə qaldırılmış minik meydançalarında, onlar olmadıqda isə, səkidə və ya yol çiyinlərində gözləməlidir*** (azca hündürə qaldırılmış minik meydançalarının olmadığı dayanacaq məntəqələrində nəqliyyat vasitəsinə minmək üçün yolun hərəkət hissəsinə yalnız nəqliyyat vasitəsi dayandıqdan sonra çıxmağa icazə verilir. Nəqliyyat vasitəsindən düşdükdən sonra ləngimədən yolun hərəkət hissəsini tərk etmək lazımdır);

**Maddə 24.** **Sərnişinin vəzifələri**

***Sərnişin:***

nəqliyyat vasitəsinə yalnız xüsusi minik meydançasından, belə meydança olmadıqda isə, səkidən və ya yolun çiyini tərəfdən yalnız nəqliyyat vasitəsi tam dayandıqdan sonra minib-düşməlidir (sərnişinlərin səki və ya yolun çiyini tərəfdən minib-düşməsi mümkün olmayan halda, onlar yolun hərəkət hissəsindən o şərtlə minib-düşə bilər ki, bu, təhlükəli olmasın və hərəkətin digər iştirakçıları üçün maneə yaratmasın);

***Sərnişinə qadağan olunur:***

- hərəkət vaxtı sürücünün diqqətini nəqliyyat vasitəsini idarə etməkdən yayındırmamalıdır;
- bortu olan platformalı yük avtomobili ilə getdikdə banda dayanmaq, bortlarda oturmaq və ya onların üzərinə yük qoymaq;
- hərəkətdə olan nəqliyyat vasitəsinin qapısını açmaq.

# Mövzu # 13

## Svetoforun və nizamlayıcının siqnalları. Qəza işığının siqnallaşdırılması

**Yol hərəkətinin təşkilinin texniki vasitələri arasında ən böyük rol svetoforlara verilir. Svetoforlar müxtəlif formalı və təyinatlıdırlar. Onların növləri və tələbləri haqqında izahatlar qanunun 25-ci maddəsində verilir. Bu maddədə həmin qanunun terminlərində izah olunan "nizamlayıcı" tərəfindən verilən siqnalların təyinatı barədə söhbət gedir.**

**Maddə 25. Svetoforun və nizamlayıcının siqnalları**

Svetoforların vasitəsi ilə verilən siqnallarda ***yaşıl, sarı, qırmızı və sarımtıl rənglər*** tətbiq edilir. Təyinatından asılı olaraq svetofor siqnalları dairəvi formalı, ox (oxlar), piyadanın və ya velosipedin silueti şəklində və X formalı ola bilər.

Dairəvi siqnallı svetoforların yaşıl ox (oxlar) şəklində bir və ya iki əlavə bölməsi ola bilər: həmin bölmələr dairəvi yaşıl siqnalın səviyyəsində yerləşdirilir.

***Svetoforun dairəvi siqnallarının aşağıdakı mənaları vardır:***

- ***yaşıl rəngli işığın yanması*** - bu siqnal hərəkətə icazə verir;
- ***yaşıl rəngli işığın yanıb- sönməsi*** - bu siqnal hərəkətə icazə verir və bildirir ki, onun vaxtı qurtarır, tezliklə qadağan siqnalı yanacaq (yaşıl siqnalın sönməsinə qədər qalan müddəti sürücülərə bildirmək üçün rəqəmli tablo tətbiq edilə bilər);
- ***sarı rəngli işığın yanması*** - bu siqnal hərəkəti qadağan və tezliklə siqnalların dəyişəcəyi barədə xəbərdarlıq edir; –
- ***sarı rəngli işığın yanıb-sönməsi*** - hərəkətə icazə verir və nizamlanmayan yolayrıcının və ya piyada keçidinin olduğunu bildirir, təhlükə barədə xəbərdarlıq edir;
- ***qırmızı rəngli işığın yanması və ya yanıb-sönməsi*** - bu siqnal hərəkəti qadağan edir; qırmızı və sarı rəngli işıqların eyni vaxtda yanması - bu siqnal hərəkəti qadağan edir və tezliklə yaşıl siqnalın yanacağını bildirir.

Svetoforun oxlar şəklində qırmızı, sarı və yaşıl rəngli işıqlarının mənası müvafiq rəngli dairəvi işıqların mənası ilə eynidir, lakin onların qüvvəsi yalnız oxlarla göstərilən istiqamətə (istiqamətlərə) şamil edilir. Həm də sola dönməyə icazə verən ox, müvafiq yol nişanının geriyə dönməyi qadağan etmədiyi hallarda, geriyə dönməyə də icazə verir. Əlavə bölmədəki yaşıl oxun da mənası belədir. Əlavə bölmənin işığının sönməsi bu bölmənin nizamladığı istiqamətdə hərəkətin qadağan edilməsi deməkdir.

Svetoforun əsas yaşıl işığının üstünə qara konturlu ox (oxlar) çəkilmişsə, bu, sürücülərə svetoforun əlavə bölməsinin olduğunu bildirir və əlavə bölmənin işığında göstəriləndən fərqlənən digər istiqamətlərdə hərəkətə icazə verir.

Svetoforun işığı piyada (velosiped) silueti şəklindədirsə, onun qüvvəsi yalnız piyadalara (velosipedçilərə) şamil edilir. Bu zaman yaşıl işıq piyadaların (velosipedçilərin) hərəkətinə icazə verir, qırmızı işıq isə onların hərəkətini qadağan edir. Velosipedçilərin hərəkətini nizamlamaq üçün həmçinin dairəvi işıqları olan kiçik ölçülü svetoforlardan da istifadə edilə bilər; həmin svetoforlara üzərində qara rəngli velosiped təsviri olan 200x200 mm ölçüdə ağ rəngli düzbucaqlı lövhə əlavə olunur.

Kor piyadalara yolun hərəkət hissəsini keçməyin mümkünlüyünü bildirmək üçün svetoforun işıq siqnallarına səs siqnalı da əlavə edilə bilər.

Yolun hərəkət hissəsinin zolaqları ilə, xüsusən hərəkət istiqaməti əks tərəfə dəyişə bilən zolaqları ilə nəqliyyat vasitələrinin hərəkətini nizamlamaq üçün belə yollarda qırmızı rəngli X formalı siqnalı və aşağı yönəldilmiş oxşəkilli yaşıl siqnalı olan qarşılıqlı svetoforlar tətbiq edilir. Bu siqnallar onların altında yerləşən zolaqda hərəkəti müvafiq sürətdə qadağan edir və ya ona icazə verir. Qarşılıqlı svetoforun əsas siqnallarına diaqonal üzrə aşağı sağa və ya sola istiqamətləndirilmiş oxşəkilli sarı siqnal əlavə edilə bilər; onun yanması siqnalın dəyişəcəyini və oxun göstərdiyi zolağa keçməyin zəruriliyini bildirir.

Tramvaylar, habelə digər ümumi istifadədə olan nəqliyyat vasitələri üçün ayrılmış zolaqda hərəkət edən həmin nəqliyyat vasitələrinin hərəkətini nizamlamaq üçün «T» hərfi şəklində yerləşmiş ağ-sarımtıl dörd dairəvi siqnalı olan birrəngli siqnal svetoforları tətbiq edilə bilər. Svetoforun aşağısında yanan siqnalla eyni anda yuxarıda yanan bir və ya bir neçə siqnal - hərəkətə icazə verir. Aşağı siqnalla birlikdə: yuxarıdakı sol siqnal yananda - sola, ortadakı yananda - düzünə, sağdakı yananda - sağa hərəkət etməyə icazə verir. Əgər yalnız yuxarıdakı üç siqnal yanırsa, hərəkət qadağandır.

Dəmiryol keçidində yerləşən dairəvi sarımtıl siqnal nəqliyyat vasitələrinin keçiddən keçib getməsinə icazə verir. Yanıb-sönən sarımtıl və sönmüş qırmızı siqnal olduqda görmə sahəsi həddində keçidə yaxınlaşan qatarın (lokomotivin, drezinanın) olmadığı halda hərəkətə icazə verir.



**Təşkilatın**



**İstiqamətin**



**Dəmiryolun**



**Xəbərdarlıq**



**Üfüqi yerləşmənin**



**Əlavə bölmə**



**Şaquli yerləşmənin**



**Dayan**



**Birbaşa**



**Birbaşa və sağa**



**Birbaşa və sola**



**Reversiv**



**Qırmızı svetofor (bununla yanaşı yanıb-sönən hərəkəti qadağan edir)**



**Sarı svetofor hərəkəti qadağan edir, yalnız başlanmış hərəkəti bitirmək olar**



**Yaşıl svetofor hərəkəti göstərir**



**Yanıb-sönən sarı işıq yol ayrıcında çox ehtiyatla hərəkətə icazə verir**



**Yanıb-sönən yaşıl işıq hərəkəti göstərir və eləcə də sürücünü xəbərdar edir ki, bir neçə saniyədə qadağan svetoforu qoşulacaqdır**



**Yanıb-sönən qırmızı işıq göstərir ki, bir neçə saniyədə sarı işıq qoşulacaq və yaşıl işıq üçün hazırlaşmaq lazımdır.**

## Svetoforlar

Svetoforların vasitəsi ilə verilən siqnallarda ***yaşıl, sarı, qırmızı və sarımtıl rənglər*** tətbiq edilir.

**Yaşıl siqnal** – hərəkətə icazə verir.

**Yaşıl rəngli siqnalın yanıb- sönməsi** - bu siqnal hərəkətə icazə verir və bildirir ki, onun vaxtı qurtarır, tezliklə qadağan siqnalı yanacaq

**Sarı siqnal** – bu siqnal hərəkəti qadağan edir, sarı siqnalın qoşulmasında (yaxud da nizamlayıcının əlini yuxarı qaldırması) sürücünün eksterna tormozlama xaricində nəqliyyatı dayandıra bilmədiyi haldan başqa və tezliklə siqnalların dəyişəcəyi barədə xəbərdarlıq edir;

**Sarı yanıb-sönən** – hərəkətə icazə verir və nizamlanmayan yolayrıcının və ya piyada keçidinin olduğunu bildirir, təhlükə barədə xəbərdarlıq edir.

**Qırmızı siqnal** (qırmızı yanıb-sönən)– hərəkəti qadağan edir.

**Qırmızı və sarı siqnalların eyni vaxtda yanması** - bu siqnal hərəkəti qadağan edir və tezliklə yaşıl siqnalın yanacağını bildirir.

Əgər svetofor əlavə bölmə ilə təchiz edilmişdirsə, nəqliyyat bölmədə oxla göstərilən istiqamətlə yalnız oxun qoşulduğu halda hərəkət edə bilər.

Svetoforun əsas yaşıl işığının üstünə qara konturlu ox (oxlar) çəkilmişsə, bu, sürücülərə svetoforun əlavə bölməsinin olduğunu bildirir və əlavə bölmənin işığında göstəriləndən fərqlənən digər istiqamətlərdə hərəkətə icazə verir.

Reversiv hərəkət yolunda reversiv svetoforlardan istifadə olunur.

**Yaşıl** –yerləşdiyi zolaqda hərəkətə icazə verir;

**Qırmızı** – verilən zolaqda hərəkəti qadağan edir

**Sarı** – əgər vardırsa, – siqnalın növbəti dəyişməsi və göstərilən zolaqda keçid zərurəti haqqında xəbərdar edir.

Sönmüş reversiv svetofor – bu zolaqda keçidi qadağan edir.

## *Nizamlayıcının siqnallarının növbəti mənaları vardır:*

### *Əllər yana uzadılmış və ya buraxılmışdır:*



- sağ və sol yan tərəflərdən tramvayın düzünə hərəkət etmək hüququ var;
- relssiz nəqliyyat vasitələrinin – düzünə və sağa;
- Piyadanın yolun hərəkət hissəsindən keçmək hüququ var;
- Nizamlayıcının qabaq və arxa tərəfindən – bütün növ nəqliyyat vasitələrinin və piyadanın hərəkəti qadağandır;

### *Sağ əl irəli uzadılmışdır:*

- Sol yan tərəfdən tramvayın sola, relssiz nəqliyyat vasitələrinin –bütün istiqamətlərə hərəkət etmək hüquqları var;
- Döş tərəfindən bütün nəqliyyat vasitələrinin yalnız sağ tərəfdən hərəkət etmək hüquqları var;
- Sağ tərəfdən və kürək tərəfindən bütün nəqliyyat vasitələrinin hərəkəti qadağandır;
- Piyadanın hüququ var ki, hərəkət hissəsində nizamlayıcının kürəyinin arxasından keçmək hüququ var;

### *Əli yuxarı qaldırılmışdır:*

***Svetoforun sarı işığı yandıqda və ya nizamlayıcı qolunu yuxarı qaldırdıqda nəqliyyat vasitəsini kəskin tormozlamadan bu maddənin ikinci və üçüncü hissələrində müəyyən edilən yerlərdə saxlaya bilməyəcək sürücülərə hərəkəti davam etdirməyə icazə verilir. Siqnal verilərkən yolun hərəkət hissəsində olan piyadalar keçidi boşaltmalı, bu mümkün olmadıqda isə, nəqliyyat vasitələrinin əks istiqamətli hərəkətlərini ayıran xəttin üzərində dayanmalıdırlar.***

Nizamlayıcı əllərinin vasitəsilə sürücüyə və piyadaya digər aydın siqnallar verə bilər və bunun üçün dəyənək və ya qırmızı siqnallı (işıqqaytaran) diskdən istifadə edə bilər.

Nizamlayıcı nəqliyyat vasitələrinin dayandırılması haqqında tələbi hündürdən – danışan qurğu ilə və ya nəqliyyat vasitəsinə tərəf istiqamətlənmiş jestikluylasiya ilə ötürür. Bu halda sürücü göstərilən yerdə dayanmalıdır.

***Fitlə verilən əlavə siqnalın məqsədi hərəkət iştirakçılarının diqqətini cəmləməkdir.***

Svetoforun (reversivdən başqa) və ya nizamlayıcının qadağan siqnalında sürücü "Stop" xətti (5.33 nişanı ilə) yanında dayanmalıdır, əgər ki:

- Yol ayrıcında – kəsişən hərəkət hissəsində (bu qanunun 32-ci maddəsinin 4-cü bəndinin "d" altbəndinə müvafiq olaraq) piyadaya maneə yaratmırsa;
- Dəmiryol keçidinin qarşısında – bu qanunun 34-cü maddəsinin 4-cü bəndinə uyğun olaraq;
- Başqa yerlərdə - svetoforun və ya nizamlayıcının qarşısındakı hərəkət hüququ verilən nəqliyyat vasitəsinə və piyadaya mane olmasın.

***Sarı siqnal qoşulduqda və ya nizamlayıcı tərəfindən əl yuxarı qaldırıldıqda sürücü tormozlama xaricində nəqliyyatı qanunla müəyyənləşdirilmiş yerdə dayandıra bilmədikdə hərəkəti davam etdirmək hüququ var. Siqnal verildikdə yolun hərəkət hissəsində olan piyada yolu boşaltmalı və əgər bu mümkün deyilsə, o zaman piyada qarşılıqlı əks istiqamətdə hərəkət edən hərəkətdə olan nəqliyyat axınlarını bölən xətdə dayanmalıdır.***

Nizamlayıcının siqnalları və göstərişləri svetoforun siqnallarına, yol nişanlarının və nişanlama xətlərinin tələblərinə zidd olduqda belə, sürücülər və piyadalar bu siqnallara və göstərişlərə əməl etməlidirlər. Dəmiryol keçidində svetoforun qırmızı yanıb-sönən siqnalı ilə birlikdə səsli siqnal verilir, hansı ki, hərəkətin qadağan olunması haqqında əlavə informasiya verir.

**Maddə 26. Qəza məşəl siqnalizasiyası**

***Qəza məşəl siqnalizasiyası qoşulur:***

- Yol-nəqliyyat hadisəsi zamanı;
- Məcburi dayanma zamanı və dayanacaq qadağan olunan yerdə;
- Sürücünün qarşıdan gələn nəqliyyat vasitəsinin faralarının işığı ilə gözünün qamaşdığında;
- Yedəyə alınma zamanı (yedəyə alınan nəqliyyat vasitəsinə);
- Hərəkət iştirakçılarını nəqliyyat vasitəsindən gözlənilən təhlükə barəsində xəbərdar etmək üçün.

# Mövzu # 14
# Hərəkətə başlama, manevrə etmə, nəqliyyat vasitəsinin yolun hərəkət hissəsində düzülüşü. Hərəkətin sürəti

***Bu mövzuda verilən maddələrdə yol hərəkətinin təhlükəsizliyinin əsas tələbləri formalaşdırılıb, hansıların pozuntusu yol-nəqliyyat hadisələrinin əsas səbəblərini təqdim edir. Bunlardır: hərəkətə başlama, manevrə etmə, hərəkətin sürəti və s.***

**Maddə 27. Hərəkətə başlama, manevrə etmə**

***Sürücü hərəkətə başlamazdan, yerdəyişməzdən, dönməzdən, ötməzdən və dayanmazdan qabaq müvafiq istiqamətə dönmək üçün xarici işıq siqnallarının köməyi ilə***, bunlar olmadıqda və ya nasazlıq yarandıqda isə əl işarələri ilə siqnal verməlidir. Bu zaman manevr təhlükəsiz olmalı və hərəkətin digər iştirakçıları üçün maneə yaratmamalıdır. Yana uzadılmış sol qol, yaxud yana uzadılaraq düzbucaq şəkildə dirsəkdən yuxarı bükülmüş sağ qol sola (geriyə) dönmə siqnalına uyğundur. Yana uzadılmış sağ qol, yaxud yana uzadılaraq düzbucaq şəklində dirsəkdən yuxarı bükülmüş sol qol sağa dönmə siqnalına uyğundur. Yuxarı qaldırılmış sol və ya sağ qol tormozlama siqnalına uyğundur.

Dönmə göstəriciləri və ya əl ilə siqnal manevrə başlamazdan əvvəl verilir, manevr qurtardıqdan sonra isə dərhal kəsilir (əl ilə verilən siqnal bilavasitə manevrə başlamazdan əvvəl qurtara bilər). Bu zaman verilən siqnal hərəkətin digər iştirakçılarını çaşdırmamalıdır. Siqnal verməsi sürücüyə üstünlük vermir və onu təhlükəsizlik tədbirləri görməkdən azad etmir.

Sürücü yola bitişik ərazidən yola çıxarkən, yolda gedən nəqliyyat vasitələrinə və piyadalara, yoldan kənara çıxdıqda isə, hərəkət yolunu kəsən piyadalara və velosipedçilərə yol verməlidir.

Sürücü yerdəyişmə zamanı hərəkət istiqamətini dəyişmədən eyni səmtə gedən nəqliyyat vasitələrinə yol verməlidir. Eyni səmtə gedən nəqliyyat vasitələri yerdəyişməni eyni vaxtda edirlərsə, onda sürücü özündən sağdakı nəqliyyat vasitəsinə yol verməlidir.

Dairəvi hərəkət təşkil edilmiş yolayrıcında dönmək istisna olmaqla, sağa, sola və ya geriyə dönməzdən əvvəl sürücü həmin istiqamətdə hərəkət hissəsində müvafiq kənar vəziyyət tutmalıdır.

Solda hərəkət hissəsi ilə bir səviyyədə yerləşən eyni istiqamətli tramvay yolları olduqda, 5.8.1 və ya 5.8.2 nişanları ilə başqa hərəkət qaydası müəyyən edilməmişdirsə, həmin yollardan keçərək sola və geriyə dönmək lazımdır. Bu zaman tramvay üçün maneə yaradılmamalıdır.

Elə dönmək lazımdır ki, nəqliyyat vasitəsi hərəkət hissələrinin kəsişdiyi yerdən çıxarkən qarşıdan gələn nəqliyyatın yoluna keçməsin. Nəqliyyat vasitəsi sağa dönərkən, hərəkət hissəsinin mümkün qədər sağ kənarına yaxın hərəkət etməlidir.

Nəqliyyat vasitəsi öz qabaritinə və ya başqa səbəblərə görə bu maddənin beşinci hissəsinin tələblərinə əməl etməklə dönə bilmirsə, həmin tələblərdən kənara çıxmağa o şərtlə yol verilir ki, hərəkət təhlükəsizliyi təmin olunsun və bu, digər nəqliyyat vasitələri üçün maneə yaratmasın.

Yolayrıcından kənarda sola və ya geriyə dönərkən relssiz nəqliyyat vasitəsinin sürücüsü qarşıdan gələn nəqliyyat vasitələrinə və eyni istiqamətdə gedən travmaya yol verməlidir. Yolayrıcından kənarda geri dönərkən yolun sol kənarı tərəfdən manevr etmək üçün hərəkət hissəsinin eni kifayət qədər olmadıqda, hərəkət hissəsinin sağ kənarından (yolun sağ qırağından) manevr etməyə yol verilir. Bu zaman sürücü arxadan və qarşıdan gələn nəqliyyat vasitələrinə yol verməlidir.

Nəqliyyat vasitələrinin hərəkət trayektoriyaları kəsişdikdə, keçmənin növbəliliyi isə qaydalarda göstərilmədikdə, sağ tərəfdən hərəkət edən nəqliyyat vasitəsinə üstünlük verilir.

Tormozlama zolağı olduqda, hərəkət istiqamətini dəyişmək istəyən sürücü vaxtında həmin zolağa keçməli və yalnız burada sürəti azaltmalıdır.

Yola giriş yerində sürətləndirmə zolağı olduqda, sürücü həmin zolaqla getməli və bu yolla gedən nəqliyyat vasitələrinə yol verərək qonşu zolağa keçməlidir.

***Geriyə dönmək qadağandır:***

1) piyada keçidlərində;
2) tunellərdə;
3) körpülərdə, estakadalarda və onların altında;
4) dəmiryol keçidlərində;
5) ən azı bir istiqamətdə yolun 100 metrdən az hissəsi görünən yerlərdə;
6) ümumi istifadədə olan nəqliyyatın dayanacaq məntəqələrinin yerləşdiyi yerlərdə.

Nəqliyyat vasitəsinin geriyə hərəkətinə o şərtlə icazə verilir ki, bu manevr təhlükəsiz olsun və hərəkətin digər iştirakçılarına maneə yaratmasın. Lazım gəldikdə, sürücü başqa şəxslərin köməyindən istifadə etməlidir.

**Maddə 28. Nəqliyyat vasitələrinin yolun hərəkət hissəsində yerləşməsi**

- Nəqliyyat vasitələrinin hərəkəti üçün zolaqların sayı nişanlama və ya 5.1, 5.8.7, 5.8.8 nişanları ilə müəyyənləşdirilir, onların olmadığı halda sürücünün özü tərəfindən hərəkət hissəsinin enini, nəqliyyat vasitələrinin qabaritini və onlar arasında lazımi məsafəni nəzərə almaqla müəyyənləşdirilir. Bununla belə, əks hərəkət üçün aid olan tərəf solda düzülmüş hərəkət hissəsinin eninin yarısı hesab olunur.
- Dörd və ya artıq zolaqlı ikitərəfli hərəkət yolunda yolun kənar hərəkəti üçün ayrılan tərəfə keçmək qadağandır.
- Üç hərəkət zolağı olan ikitərəfli hərəkət yollarında nəqliyyat vasitələri yolun hərəkət hissəsinin mərkəzində yerləşən və hər iki istiqamət üçün sol kənar hesab olunan orta zolağa keçməməlidirlər. Orta zolağa keçməyə yalnız ötmə, yandan keçmə və sola, yaxud geriyə dönmə üçün icazə verilir.
- Sürücü baş hissənin sağ kənarına yaxın hərəkət edir. Sağ zolaq boş olduqda, sol zolaqdan istifadə etmək qadağandır.

- Hərəkət sürəti 40 km/dən olmayan və ya texniki vəziyyətinə görə bu sürəti artıra bilməyən nəqliyyat vasitəsi sağ zolağın kənarında hərəkət etməlidir. O hal istisna olunur, nə zaman ki, ötmə, kənardan keçmə, sola dönmə və ya geri dönmənin qarşısında qruplaşma həyata keçirilir.
- Əgər verilən istiqamətdə hərəkət üçün bütün zolaqlar məşğuldurlarsa, eləcə də ötmə, kənardan keçmə, sola dönmə və ya geri dönmə zamanı bu qanunun 27-ci maddəsinin 5-ci hissəsinin tələblərini nəzərə almaqla sol tərəfinin hərəkət hissəsi ilə eyni səviyyədə yerləşən hərəkətə eyni istiqamətli tramvay keçidində icazə verilir. Bununla yanaşı, tramvayın hərəkəti maneə yaratmamalıdır. Əks istiqamətlə hərəkət edən tramvay keçidindən keçmək qadağandır.
- Əgər yolun hərəkət hissəsi nişanlama xətləri ilə zolaqlara bölünmüşdürsə, nəqliyyat vasitəsi nişanlanma zolaqlarında hərəkət edir. Nişanlamanın qırıq xətlərinə keçidə yalnız qruplaşma zamanı icazə verilir.
- Reversiv hərəkətli yola döndükdə sürücü nəqliyyat vasitəsini elə idarə etməlidir ki, yolun hərəkət hissəsinin kəsişməsindən çıxdıqda sağ kənar zolağını tutsun. Qruplaşma yalnız sürücünün verilən istiqamətdə digər zolaqlarda da hərəkətə icazə verildiyinə əmin olduğunda mümkündür.
- Yolun çiynində, səkidə və piyada cığırında (bu qanunun birinci və 43-cü maddənin 2-ci bəndi ilə nəzərdə tutulmuş hallardan başqa) nəqliyyat vasitəsinin hərəkəti qadağan edilir. Yol-istismar və kommunal avtomobillərin birbaşa yol çiyni, səki və ya piyada cığırı yaxınlığında yerləşən ticarət və ya digər müəssisə və obyektlərinə, yük daşıyan nəqliyyat vasitələrinin qısa yolu ilə yanaşmasına icazə verilir, əgər bunun üçün başqa imkan yoxdursa. Bununla belə, sürücü hərəkətin təhlükəsizliyini təmin etməlidir.
- Sürücü ondan irəlidə hərəkət edən nəqliyyat vasitəsi ilə məsafə saxlayır. Bu məsafə toqquşmanın qarşısının alınması imkanını verir. Hərəkətin təhlükəsizliyini təmin etmək üçün, eləcə də yan məsafənin saxlanılması vacibdir.
- Yaşayış olmayan məntəqədə hərəkət etdikdə sürəti 40 km/saatdan çox olmayan nəqliyyat vasitəsinin sürücüsü ondan irəlidə hərəkət edən nəqliyyat vasitələri ilə məsafə saxlamalıdır ki, maneəsiz şəkildə ilkin tutduğu zolağa yerini dəyişə bilsin. Əgər ki, sürücü ötməyə hazırlaşırsa, eləcə də intensiv hərəkət zamanı və mütəşəkkil nəqliyyat dəstəsində hərəkət edirsə, bu tələb qüvvədə olmur.

**Maddə 29. Hərəkət sürəti**

***Sürücü hərəkətin intensivliyini, nəqliyyat vasitəsinin, yükün xüsusiyyətlərini və vəziyyətini, yol və meteoroloji şərati, xüsusən hərəkət istiqamətində görmə şəraitini nəzərə almaqla, nəqliyyat vasitəsini müəyyən olunmuş sürət məhdudiyyətindən çox olmayan sürətlə sürməlidir. Sürücü hərəkət üçün təhlükə yarandığını gördükdə, nəqliyyat vasitəsinin sürətini tam dayanma həddinə qədər azaltmaq üçün mümkün olan tədbirləri görməlidir.***

- yaşayış məntəqələri daxilində nəqliyyat vasitələrinin saatda 60 kilometrdən çox olmayan sürətlə hərəkətinə icazə verilir.
- Abxaziya və Acarıstan Muxtar Respublikalarında, Tbilisi və Kutaisi şəhərlərində hərəkət sürəti (3.24 müvafiq nişanları quraşdırmaqla) yolun ayrı-ayrı sahələrində arta bilər, əgər ki, yol şəraitləri yüksək sürətli hərəkət imkanını verirsə.
- Yaşayış məntəqələrindən kənarda hərəkətə icazə verilir:
  - minik avtomobilləri və icazə verilmiş maksimum kütləsi 3,5 tondan artıq olmayan yük avtomobilləri yaşayış məntəqələrindən kənarda: avtomagistrallarda - saatda 110 kilometrdən çox olmayan sürətlə; başqa yollarda - saatda 90 kilometrdən çox olmayan sürətlə;
  - şəhərlərarası və xüsusilə kiçik avtobuslar və motosikletlər yaşayış məntəqələrindən kənarda bütün yollarda saatda 80 kilometrdən çox olmayan sürətlə; (15.06.2005. N1621)
  - digər avtobuslar, yedəyində qoşqu aparan minik avtomobilləri, icazə verilən maksimum kütləsi 3,5 tondan artıq olan yük avtomobilləri yaşayış məntəqələrindən kənarda:avtomagistrallarda - saatda 80 kilometrdən çox olmayan sürətlə; başqa yollarda - saatda 70 kilometrdən çox olmayan sürətlə; (15.06.2005. N1621)
  - banında adamlar daşıyan yük avtomobilləri - saatda 60 kilometrdən çox olmayan sürətlə;
  - təhlükəli, ağır çəkili və iri qabaritli yüklər daşıyan nəqliyyat vasitələri - daşıma şərtləri razılaşdırılarkən müəyyən edilmiş həddən çox olmayan sürətlə hərəkət etməlidirlər.

***Sürücüyə qadağan edilir:***

- nəqliyyat vasitəsini onun texniki xarakteristikası üzrə müəyyən edilmiş maksimum sürətdən artıq sürmək;
- Nəqliyyat vasitəsinə bərkidilmiş “Sürətin məhdudlaşdırılması” tanınma nişanında verilən sürətin həddini aşmaq;
- lüzumsuz olaraq həddindən az sürətlə hərəkət etməklə başqa nəqliyyat vasitələri üçün maneə yaratmaq;
- yol-nəqliyyat hadisəsinin qarşısını almaq üçün lazım olan hallar istisna edilməklə, nəqliyyat vasitəsini sərt tormozlamaq qadağandır.

# Mövzu # 15

## Ötmə və qarşılıqlı keçmə. Nəqliyyat vasitəsinin dayanması və durması

***Nəqliyyat vasitəsini ötmə, yəni ki, hərəkət etdiyi zolaqdan çıxaraq qarşıda hərəkət edən nəqliyyat vasitəsinin yanından keçmək. Qeyd edilən hərəkət çox mürəkkəbdir, əgər ki, sürücü ötmə üçün əks istiqamətdə hərəkət edən nəqliyyat axınları üçün aid edilən hərəkət zolağından istifadə edirsə. Məhz bunun üçün də o, qanunun tələblərini dəqiqliklə əməl etməyə məcburdur.***

**Maddə 30. Ötmə və qarşılıqlı keçmə**

Ötməyə başlamazdan əvvəl sürücü əmin olmalıdır ki:

- girmək istədiyi hərəkət zolağı ötmə üçün kifayət edəcək məsafədə boşdur və bu manevr ilə o, qarşıdan gələn və bu zolaqda gedən nəqliyyat vasitələri üçün maneə yaratmayacaq;
- eyni zolaqda arxasınca gələn nəqliyyat vasitəsi onu ötməyə başlamayıb, özündən qabaqda gedən nəqliyyat vasitəsi isə ötmə, sola dönmə, yerdəyişmə barədə siqnal vermir;
- Ötmənin sonunda sürücü ötdüyü nəqliyyat vasitələri üçün təhlükə və ya maneə yaratmadan əvvəl tutduğu hərəkət zolağına qayıtmalıdır.

Relssiz nəqliyyat vasitəsini yalnız sol tərəfdən ötməyə icazə verilir. Lakin sürücüsü sola dönmə siqnalı verən və manevrə başlayan nəqliyyat vasitəsini sağ tərəfdən ötmək lazımdır.
Hərəkət sürətini artırmaqla və ya başqa hərəkətlərlə ötən nəqliyyat vasitəsinin sürücüsünə maneçilik törətmək qadağandır.

Ötmənin sonunda (sağ tərəfdən ötməyə icazə verilən hallardan başqa) sürücü əvvəl tutduğu hərəkət zolağına qayıtmalıdır. Lakin eyni istiqamətdə hərəkət üçün iki və daha artıq zolaq olduqda, ötən sürücü əgər əvvəl tutduğu zolağa qayıdıb dərhal yenidən ötməyə başlamalı olacaqsa və onun arxasınca daha yüksək sürətlə gələn nəqliyyat vasitələri üçün maneə yaratmayacaqsa, sol zolaqda qala bilər.

***Ötmə qadağandır:***

- nizamlanan yolayrıclarında - əks istiqamətli hərəkət zolağına keçməklə və nizamlanmayan yolayrıclarında - baş yol olmayan yolla hərəkət etdikdə (hərəkətin dairəvi olduğu yolayrıclarında ötmə, yanqoşqusu olmayan ikitəkərli nəqliyyat vasitələrini ötmə və icazə verilmiş sağdan ötmə istisna edilməklə);
- piyada keçidlərində - piyadalar olduqda;
- dəmiryol keçidlərində və onlara 100 metrdən az qaldıqda;
- ötən və ya yanından keçən nəqliyyat vasitəsini;
- yoxuşun axırında və yolun məhdudiyyətli görünüşlü digər sahələrində - əks istiqamətli hərəkət zolağına çıxmaqla.

Yaşayış məntəqələrindən kənarda asta gedən və ya iriqabaritli nəqliyyat vasitəsini ötmək çətinləşdikdə, sürücü nəqliyyat vasitəsini mümkün qədər sağa çəkməli, lazım gəldikdə isə arxasında yığılmış nəqliyyat vasitələrini buraxmalıdır.
Qarşılıqlı keçmə çətinləşən hallarda - hansı sürücü tərəfdə maneə varsa, həmin sürücü yol verməlidir. 1.13 və 1.14 nişanları ilə işarələnmiş yerlərdə maneə olduqda, enişlə aşağı hərəkət edən nəqliyyat vasitəsinin sürücüsü yoxuşla yuxarı gedən nəqliyyat vasitəsinə yol verməlidir.

**Maddə 31. Nəqliyyat vasitələrinin dayanması və durması**

Nəqliyyat vasitələrinin yolun sağ tərəfində - yol çiyinində, yol çiyini olmadıqda isə yolun hərəkət hissəsinin kənarında bir cərgədə dayanmasına və durmasına icazə verilir**.** Yolun sol tərəfində dayanmağa və durmağa yaşayış məntəqələrində tramvay yolunun olması səbəbindən sağ tərəfdə dayanmaq mümkün olmadıqda və ya birtərəfli hərəkət yollarında (icazə verilən maksimum kütləsi 3,5 tondan çox olan yük avtomobillərinə birtərəfli hərəkət yollarının sol tərəfində dayanmağa yalnız yük götürmək və ya boşaltmaq üçün) icazə verilir.

Nəqliyyat vasitəsinin bir sırada yolun hərəkət hissəsinin kənarına paralel olaraq durmasına icazə verilir, yalnız nəqliyyat vasitələrinin başqa şəkildə durmağı şərtlərini yaradan yerdən başqa (hərəkət hissəsinin yerli genişləndirilməsi). Yolun hərəkət hissəsinə bitişik səkinin kənarında durmağa yalnız minik avtomobillərinə, motosikletlərə, mopedlərə və velosipedlərə bu şərtlə icazə

verilir ki, onlar piyadaların hərəkətinə mane olmasın. Səkidə nəqliyyat vasitəsinin dayanma/durma qaydalarını yerli özünüidarəetmə orqanı müəyyənləşdirir. (30.12.2008 N 957)

Yaşayış məntəqəsindən kənarda uzunmüddətli dincəlmə, gecələmə və istirahət üçün durmağa yalnız bu məqsədlə düzəldilmiş meydançalarda və ya yoldan kənarda icazə verilir.

***Dayanma qadağandır:***

- tramvay yollarında, habelə tramvay yollarının bilavasitə yaxınlığında, əgər bu, tramvayın hərəkətinə maneə yaradarsa;
- dəmiryol keçidlərində, tunellərdə, habelə estakadalarda, körpülərdə (əgər həmin istiqamətdə üçdən az hərəkət zolağı varsa) və onların altında;
- 1.1, 1.3 və 1.11 üfüqi nişanlanma xətləri ilə dayanmış nəqliyyat vasitəsi arasında məsafə 3 metrdən az olan yerlərdə;
- piyada keçidlərində və onlara 5 metrdən az yaxınlıqda;
- hərəkət hissəsində təhlükəli döngələrin və yolun uzununa profilinin qabarıq əyintili hissəsinin yaxınlığında - hər hansı bir istiqamətdə yolun görünmə sahəsi 100 metrdən az olduqda;
- 1.1-1.4 nişanlama xətti, yaxud ayırıcı zolağı olan üçtərəfli yolayrıclarındakı yan keçidin qarşı tərəfində dayanma halları istisna olmaqla, hərəkət hissələrinin kəsişməsində və kəsişən hərəkət hissəsinin kənarından 5 metrdən az yaxınlıqda;
- dayanacaq meydançasına, meydança olmadıqda isə ümumi istifadədə olan nəqliyyat vasitələrinin dayanacaq yerini işarə edən 5.12 və ya 5.13 yol nişanlarına 15 metrdən az yaxınlıqda;
- nəqliyyat vasitəsi svetofor siqnallarının, yol nişanlarının qarşısını tutmaqla başqa sürücülərin bunları görməsinə mane olduğu və ya başqa nəqliyyat vasitələrinin hərəkətini (girmə və ya çıxma) qeyri-mümkün etdiyi, yaxud piyadaların hərəkəti üçün maneə yaratdığı yerlərdə;

***Nəqliyyat vasitələrinin durması qadağandır:***

- dayanmanın qadağan edildiyi yerlərdə;
- yaşayış məntəqələrindən kənarda – 2.1 nişanı ilə qeyd edilən yolların hərəkət hissəsində dəmiryol keçidinin 50 metr yaxınlığında.

Dayanmanın qadağan edildiyi yerlərdə məcburi dayandıqda sürücü nəqliyyat vasitəsinin həmin yerlərdən aparılması üçün mümkün olan bütün tədbirləri görməlidir.

Nəqliyyat vasitəsi qapılarının açılması yol hərəkətinin digər iştirakçıları üçün maneə yaradarsa, onları açmaq qadağandır.

Nəqliyyat vasitəsinin öz-özünə hərəkətini və ya sürücü olmadıqda ondan istifadəni istisna edən zəruri tədbirləri gördükdən sonra sürücü öz yerini tərk edə və ya nəqliyyat vasitəsini qoyub gedə bilər.

# Mövzu # 16

# Yolayrıcılarının keçilməsi. Piyadaların keçidi və ümumi nəqliyyat vasitələrinin dayanacağı. Dəmiryol keçidində hərəkət. Avtomagistralda hərəkət. Yaşayış zonasında hərəkət. Ümumi nəqliyyat vasitələrinin üstünlüyü

***Nəqliyyat vasitələrinin hərəkətində ən çətin sahə avtomobil yollarının bir səviyyədə kəsişmə yerləri – yol ayrıclarıdır. Onlarda hərəkət svetoforun siqnalları və ya nizamlayıcı tərəfindən nizamlana bilər. Sönmüş svetoforların ümumiyyətlə olmadığı halda, yol ayrıcı nizamlanmır, müvafiq olaraq onları keçmək bir qədər mürəkkəbdir.***

**Maddə 32. Yolayrıcını keçmək**

Sağa və ya sola dönən sürücü dönəcəyi yolun hərəkət hissəsini keçməkdə olan piyadalara, habelə belə hərəkət hissəsini velosiped yolu ilə keçməkdə olan velosipedçilərə yol verməlidir.

Əgər yolayrıcında və ya hərəkət hissələrinin kəsişməsində tıxac yaranmışsa və bu sürücünü dayanmağa məcbur edərək digər nəqliyyat vasitələrinin hərəkəti üçün maneə yaradacaqsa, sürücünün belə yolayrıcına və ya kəsişmə yerlərinə girməsi qadağandır.

Hərəkət növbəliliyi svetoforun və ya nizamlayıcının siqnalları ilə müəyyən edilən yolayrıcı nizamlanan hesab edilir. Yanıb-sönən sarı siqnal olduqda, svetoforlar işləmədikdə və ya nizamlayıcı olmadıqda, yolayrıcı nizamlanmayan hesab edilir və sürücülər nizamlanmayan yolayrıcılarını keçmə qaydalarını və yolayrıcında quraşdırılmış üstünlük nişanlarını əsas tutaraq hərəkət etməlidirlər.

***Nizamlanan yolayrıcıları:***

- Relssiz nəqliyyat vasitəsinin sürücüsü svetoforun yaşıl işığında sola və ya geriyə dönərkən, qarşıdan düzünə və ya sağa gedən nəqliyyat vasitələrinə yol verməlidir. Tramvay sürücüləri də öz aralarında bu qaydanı əsas tutmalıdırlar;
- Svetoforun sarı və ya qırmızı siqnalı ilə eyni vaxtda əlavə bölməsində yandırılmış ox işarəsi istiqamətində hərəkət edən sürücü başqa istiqamətlərdən gələn nəqliyyat vasitələrinə yol verməlidir;
- Svetoforun və ya nizamlayıcının siqnalları eyni vaxtda həm tramvayın, həm də relssiz nəqliyyat vasitələrinin hərəkətinə icazə verirsə, tramvay, hərəkət istiqamətindən asılı olmayaraq, üstünlüyə malikdir. Lakin svetoforun qırmızı və ya sarı siqnalı ilə eyni vaxtda olan əlavə bölməsində yandırılmış ox işarəsi istiqamətində hərəkət edən tramvay başqa istiqamətlərdən gələn nəqliyyat vasitələrinə yol verməlidir.
- Svetoforun icazə siqnalı yanarkən yolayrıcına girmiş sürücü yolayrıcının çıxışında qoyulmuş svetoforun siqnalından asılı olmayaraq, nəzərdə tutulan istiqamətdə dayanmadan hərəkət etməlidir, bu zaman qalan nəqliyyat vasitələri ona maneə törətməməlidirlər. Lakin, əgər yolayrıcında sürücünün hərəkət etdiyi yolda qoyulmuş svetoforların qabağında stop-xətlər (5.33 nişanı) vardırsa, sürücü hər bir svetoforun siqnalını əsas tutmalıdır;
- Svetoforun icazə siqnalı yanarkən sürücü yolayrıcında hərəkəti başa çatdırmaqda olan nəqliyyat vasitələrinə və həmin istiqamətin hərəkət hissəsində keçidi başa çatdırmamış piyadalara yol verməlidir.

***Nizamlanmayan yolayrıclar***

- Eyni əhəmiyyətli olmayan yolların kəsişdiyi yolayrıcında, ikinci dərəcəli yolla hərəkət edən nəqliyyat vasitəsinin sürücüsü, baş yolla yolayrıcına yaxınlaşan nəqliyyat vasitələrinə, onların sonrakı hərəkət istiqamətindən asılı olmayaraq, yol verməlidir;
- Yolayrıcında baş yol istiqamətini dəyişirsə, baş yolla hərəkət edən sürücülər öz aralarında eyni əhəmiyyətli yolların kəsişdiyi yolayrıcını keçmək qaydalarını əsas tutmalıdırlar. İkinci dərəcəli yollarla hərəkət edən sürücülər də öz aralarında bu qaydaları əsas tutmalıdırlar ;
- Eyni əhəmiyyətli yolların kəsişdiyi yolayrıcında relssiz nəqliyyat vasitəsinin sürücüsü sağdan yaxınlaşan nəqliyyat vasitələrinə yol verməlidir. Tramvay sürücüləri də öz aralarında bu qaydanı əsas tutmalıdırlar. Belə yolayrıclarında tramvay, onun hərəkət istiqamətindən asılı olmayaraq, relssiz nəqliyyat vasitələri qarşısında üstünlüyə malikdir.

Relssiz nəqliyyat vasitəsinin sürücüsü sola və ya geriyə dönərkən eyni əhəmiyyətli yolda qarşı tərəfdən düzünə və ya sağa hərəkət edən nəqliyyat vasitələrinə yol verməlidir. Tramvay sürücüləri də öz aralarında bu qaydanı əsas tutmalıdırlar.

Əgər sürücü yolun örtüyünün olub-olmadığını təyin edə bilmirsə (sutkanın qaranlıq vaxtı, palçıq, qar və s. nəticəsində), üstünlük nişanları isə yoxdursa, o, belə hesab etməlidir ki, ikinci dərəcəli yoldadır.

**Maddə 33. Piyada keçidləri və ümumi istifadədə olan nəqliyyat vasitələrinin dayanması**

***Ümumi istifadədə olan nəqliyyat vasitəsinin sürücüsü yolu piyadaların nizamlanmayan keçidi ilə hərəkət hissəsində gedən piyadaya verməlidir.***

***Piyadaların nizamlanan keçidində svetoforun icazə verilən siqnalı qoşulduqda sürücü piyadaya verilən istiqamətdə hərəkət hissəsini keçməyi bitirməsinə imkan verir.***

- Əgər nəqliyyat vasitəsi nizamlanmayan piyada keçidinin qarşısında dayanmışdırsa və ya sürətini azaltmışdırsa, qonşu zolaqlarda hərəkət edən digər nəqliyyat vasitələrinin sürücüləri yalnız dayanmış nəqliyyat vasitəsinin qarşısında piyadaların olmadığını yəqin etdikdən sonra hərəkəti davam etdirə bilərlər.
- Əgər piyada keçidindən o biri tərəfdə tıxac yaranıbsa və bu, sürücünü piyada keçidində dayanmağa məcbur edəcəksə, onun piyada keçidinə girməsi qadağandır.
- Sürücü yaşayış məntəqələrində, piyada keçidlərindən kənarda ağ çəliklə işarə verən kor piyadalara yol verməlidir.
- Əgər ümumi istifadədə olan nəqliyyat vasitəsinə minmə və ya ondan düşmə yolun hərəkət hissəsində və ya orada yerləşən minik meydançasında aparılırsa, sürücü dayanacaqda duran ümumi istifadədə olan nəqliyyat vasitəsinə doğru gedən və ya ondan düşüb gedən sərnişinlərə yol verməlidir (qapılar tərəfdən).
- «Uşaqlar» tanınma nişanı olan dayanmış nəqliyyat vasitəsinə yaxınlaşarkən, sürücü sürəti azaltmalı, lazım gəldikdə dayanmalı və uşaqlara yol verməlidir..

**Maddə 34. Dəmiryol keçidlərində hərəkət**

Nəqliyyat vasitələrinin sürücüləri dəmir yollarını qatara (lokomotivə, drezinaya) yol verməklə, yalnız dəmiryol keçidlərində keçə bilərlər.

Sürücü dəmiryol keçidinə yaxınlaşdıqda yol nişanlarını, svetoforları, nişanlama xətlərini, şlaqbaumun vəziyyətini və keçid növbətçisinin göstərişlərini əsas tutmalı, yaxınlaşan qatarın (lokomotivin, drezinanın) olmadığını yəqin etməlidir.

***Dəmiryol keçidlərindən keçmək qadağandır:***

- svetoforun siqnalından asılı olmayaraq şlaqbaum bağlı olduqda və ya bağlanmağa başladıqda;
- svetoforun qadağan siqnalı yandıqda (şlaqbaumun vəziyyətindən və mövcudluğundan asılı olmayaraq);
- keçid növbətçisi qadağan siqnalı verdikdə (növbətçi əlindəki jezli, qırmızı fənəri və ya bayraqcığı başı üzərində tutaraq və ya qollarını yana açaraq sinəsi, yaxud kürəyi sürücüyə tərəf dayandıqda);
- keçiddən o tayda tıxac yarandıqda və bu, sürücünü keçiddə dayanmağa məcbur etdikdə;
- keçidə qatar (lokomotiv, drezina) yaxınlaşdıqda (görünmə həddində);

***Eləcə də qadağandır:***

- qarşıdan hərəkət zolağına girməklə, keçid qarşısında dayanmış nəqliyyat vasitələrinin yanından keçib getmək;
- şlaqbaumu özbaşına açmaq;
- qeyri-nəqliyyat vəziyyətində olan kənd təsərrüfatı, yol, inşaat və s. maşınları və mexanizmləri dəmiryol keçidindən keçirmək;
- dəmiryol stansiyası rəisinin icazəsi olmadan, sürəti saatda 8 kilometrdən aşağı olan nəqliyyat vasitələrinin, habelə traktora qoşulan yük kirşəsinin hərəkəti.

Keçiddən hərəkət qadağan olunan hallarda sürücü stop-xəttin, 2.5 nişanın və ya svetoforun yanında, bunlar olmazsa, ***şlaqbauma azı 5 metr qalmış***, şlaqbaum olmadıqda isə ***birinci relsə azı 10 metr qalmış*** dayanmalıdır.

Sürücü keçiddə məcburi dayandıqda, adamları dərhal nəqliyyat vasitəsindən düşürməli və keçidi boşaltmaq üçün tədbirlər görməlidir.

***Eləcə də sürücü məcburdur:***

- yaxınlaşan qatarı saxlamaq üçün maşinistə dayanma siqnalı verməyi imkan daxilində iki adama başa salıb, onları dəmiryol xətti boyunca 1000 metr məsafədə hər iki tərəfə (bir nəfər olduqda isə yolun daha pis görünən tərəfinə) göndərməlidir;
- nəqliyyat vasitəsinin yanında qalmalı və ümumi həyəcan siqnalları verməlidir;
- qatar görünən kimi, ona tərəf qaça-qaça dayanma siqnalı verməlidir.

Dayanma siqnalı qolun dairəvi hərəkət etdirilməsindən ibarətdir (gündüz parlaq rəngli parça, yaxud yaxşı görünən hər hansı əşya ilə, gecə məşəl və ya fənərlə). Ümumi həyəcan siqnalı bir neçə dəfə, bir uzun və üç qısa səs siqnalı verməkdən ibarətdir.

**Maddə 35. Avtomagistrallarda hərəkət**

**Avtomagistrallarda qadağandır:**

- piyadaların, mal-qaranın, at-araba nəqliyyatının, yük motorollerlərinin, atlıların, əl arabalarının, velosipedlərin, mopedlərin, traktorların, kənd təsərrüfatı maşınlarının və özügedən maşınların, texniki xarakteristikasına və ya vəziyyətinə görə, sürəti saatda 40 kilometrdən az olan digər nəqliyyat vasitələrinin hərəkəti;
- icazə verilən maksimum kütləsi 3,5 tondan artıq olan yük avtomobillərinin ikinci zolaqdan sonrakılarda hərəkəti;
- 5.15 və ya 6.11 nişanları ilə işarə edilmiş xüsusi dayanacaq meydançalarından kənarda dayanmaq və ya durmaq;
- geriyə dönmək və ayırıcı zolağın texnoloji kəsiklərinə girmək;
- geriyə hərəkət etmək;
- sürmə təlimi keçmək.

Sürücü avtomagistralın hərəkət hissəsində məcburi dayandıqda, nəqliyyat vasitəsini bu Qanunun 26-cı maddəsinin tələblərinə əməl etməli və onu bu məqsəd üçün nəzərdə tutulan zolağa (hərəkət hissəsinin qırağını göstərən xətdən sağdakı yol hissəsinə) çıxarmaq üçün tədbirlər görməlidir.

***Bu maddənin tələbləri 5.3 nişanı ilə işarə olunmuş yollara da şamil edilir .***

## Maddə 36. Yaşayış zonalarında hərəkət

Yaşayış zonası olan ərazidə piyadaların hərəkətinə həm səkilərdə, həm də yolun hərəkət hissəsində icazə verilir. ***Yaşayış zonasında piyadalara üstünlük verilir***, lakin onlar nəqliyyat vasitələrinin hərəkəti üçün əsassız maneə yaratmamalıdırlar. Yaşayış zonasında xüsusi olaraq ayrılmış, işarələrlə göstərilmiş, nişanlanmış yerlərdən kənarda saatda 20 kilometrdən artıq sürətlə hərəkət etmək, sürmə təlimi keçmək, mühərriki söndürmədən durmaq, habelə icazə verilən maksimum kütləsi 3,5 tondan çox olan yük avtomobillərinin durması qadağandır.

Sürücülər yaşayış zonasından çıxarkən, hərəkətin digər iştirakçılarına yol verməlidirlər.
Bu maddənin tələbləri həyət ərazilərinə də şamil edilir.

### Maddə 37. Ümumi nəqliyyat vasitələrinin üstünlüyü

Yolayrıcından kənarda, tramvay yollarının yolun hərəkət hissəsi ilə kəsişdiyi yerlərdə tramvay, onun depodan çıxması hallarından başqa, relssiz nəqliyyat vasitələrinə nisbətən üstünlüyə malikdir.

5.9, 5.10.1-5.10.3 nişanları ilə işarə edilmiş, ümumi istifadədə olan nəqliyyat vasitələri üçün nəzərdə tutulmuş zolağı olan yollarda hərəkət edən digər nəqliyyat vasitələrinin həmin zolaqda hərəkəti və dayanması qadağandır. Əgər bu zaman həmin zolaq qırıq-qırıq nişanlama xətti ilə qalan hərəkət hissəsindən ayrılmışdırsa, nəqliyyat vasitələri dönərkən bu zolağa keçə bilərlər. Həmçinin belə yerlərdə yola girərkən və hərəkət hissəsinin sağ kənarında sərnişinlərin minməsi və düşməsi üçün bu zolağa keçməyə icazə verilir, lakin bu, ümumi istifadədə olan nəqliyyat vasitələri üçün maneə yaratmamalıdır.

Yaşayış məntəqələrində sürücülər işarələnmiş dayanacaqdan hərəkətə başlayan trolleybuslara və avtobuslara yol verməlidirlər. Trolleybus və avtobus sürücüləri yalnız onlara yol verildiyinə əmin olduqdan sonra hərəkətə başlaya bilərlər.

# Mövzu # 17
# Nəqliyyat vasitəsinin sürücüsü tərəfindən səs siqnalları və xarici işıq cihazlarından istifadə edilməsi. Yedəyə alma. Sürmə təlimi. Sərnişin daşınması. Yük daşınması. At arabalarının sürülməsinə və mal-qaranın ötürülməsinə dair tələblər

***Sutkanın qaranlıq vaxtında məhdudiyyətli görünmə və qanunvericiliklə nəzərdə tutulan hallarda nəqliyyat vasitələrində xarici işıq cihazları qoşulur. Bu cihazlar oriyentirdirlər və yol hərəkət iştirakçıları onları əsas tuturlar ki, toqquşmanın qarşısını alsınlar. Onların nasaz olduğu halda nəqliyyat vasitəsinin növü və ölçüləri düzgün tanınmaya bilər. Bu isə qəzanın yaranmasına səbəb ola bilər. Məhz bunun üçün işıq cihazları hər zaman saz vəziyyətdə olmalı, eləcə də onların istifadəsi qaydasına düzgün əməl edilməlidir.***

### Maddə 38. Nəqliyyat vasitəsinin sürücüsü tərəfindən səs siqnalları və xarici işıq cihazlarından istifadə edilməsi

Sutkanın qaranlıq vaxtı və ya məhdudiyyətli görünmə şəraitində, habelə tunellərdə hərəkətdə olan nəqliyyat vasitələrində və qoşqularda işıq cihazları və işıq siqnalları aşağıdakı qaydada yandırılmalıdır::

- bütün nəqliyyat vasitələrində və mopeddə – faraların yaxın və ya uzaq işıqları;
- velosipedlərdə - faralar və ya fənərlər;
- at arabalarında - fənərlər (olduğu halda);
- qoşqularda və yedəyə alınan nəqliyyat vasitələrində - qabarit işıqları.

Uzaq işıq yaxın işığa::

- yaşayış məntəqələrində yol kifayət qədər işıqlandırıldıqda;
- sürücünün gözlərini qamaşdırmamaq məqsədi ilə qarşıdan gələn nəqliyyat vasitəsinə azı 150 metr qalmışsa;
- yol hərəkətinin digər iştirakçılarının gözlərini qamaşdıra bilən hər hansı başqa hallarda keçirilməlidir.

Gözü qamaşdıqda sürücü qəza işıq siqnalını qoşmalı və hərəkət zolağını dəyişmədən sürəti azaltmaqla nəqliyyat vasitəsini dayandırmalıdır.

Sutkanın qaranlıq vaxtı yolun işıqlandırılmayan sahəsində, habelə məhdudiyyətli görünmə şəraitində dayanarkən və durarkən nəqliyyat vasitəsində və avtoqatarda qabarit və ya dayanacaq işıqları yandırılmalıdır . Qatı duman şəraitində, güclü qar və yağış yağanda, yaxud buna uyğun digər şəraitdə, həmçinin faranın yaxın işıqları və ya duman faraları və dumana qarşı fənərlər yandırıla bilər.

Duman faralarından aşağıdakı hallarda istifadə edilə bilər:

- məhdudiyyətli görünmə şəraitində, eləcə də faraların yaxın və uzaq işığı ilə birlikdə;

- sutkanın qaranlıq vaxtı yolun işıqlandırılmamış sahələrində - faraların yaxın və uzaq işıqları ilə birlikdə;
- bu maddənin 5-ci hissəsində nəzərdə tutulmuş hallarda müvafiq nəqliyyat vasitələrində faranın yaxın işıqlarının əvəzinə.

***Sutkanın işıqlı vaxtında hərəkət edən nəqliyyat vasitəsini göstərmək məqsədilə aşağıdakı nəqliyyat vasitələrində faranın yaxın işıqları yandırılmalıdır***:

- mütəşəkkil nəqliyyat dəstəsində hərəkət edən nəqliyyat vasitələrində;
- uşaq dəstələrini daşıyan avtobus və mikroavtobuslarda;
- təhlükəli, ağır çəkili və iri qabaritli yük daşıyan nəqliyyat vasitələrində;
- digər nəqliyyat vasitələrini yedəyə alan nəqliyyat vasitələrində).

Projektor-faradan və axtarıcı-faradan yalnız yaşayış məntəqələrindən kənarda, qarşıdan nəqliyyat vasitələri gəlmədikdə istifadə etməyə icazə verilir. Yaşayış məntəqələrində belə faralardan yalnız operativ və xüsusi xidmət nəqliyyat vasitələrinin sürücüləri xidməti tapşırığı yerinə yetirərkən istifadə edə bilərlər.

Arxa duman fənərlərindən yalnız məhdudiyyətli görünmə şəraitində istifadə edilə bilər. Arxa duman fənərlərini stop-siqnallara qoşmaq qadağandır.

“Avtoqatar” tanınma nişanı avtoqatar hərəkət etdiyi, sutkanın qaranlıq vaxtı və ya məhdudiyyətli görünmə şəraitində isə, həm də dayandığı və ya durduğu müddətdə yanmalıdır.

Narıncı rəngli və ya sarı rəngli sayrışan işıq yolda təmir işlərini və ya məhsul yığımı işlərini həyata keçirən, eləcə də təhlükəli, iriölçülü və ya ağırçəkili yük daşıyan nəqliyyat vasitələrində qoşulur, bu yükün daşınma qaydaları nəzərə alındığı halda.

***Səs siqnallarından aşağıdakı hallarda istifadə oluna bilər::***

- yaşayış məntəqələrindən kənarda ötmə niyyəti haqqında başqa sürücüləri xəbərdar etmək üçün zəruri olan hallarda;
- yol-nəqliyyat hadisəsinin qarşısını almaq üçün.

Ötmə barədə xəbərdarlıq etmək üçün səs siqnalı əvəzinə (və ya onunla birlikdə) işıq siqnalı verilə bilər. Bu işıq siqnalı sutkanın işıqlı vaxtı - faraların işıqlarını qısamüddətli yandırıb-söndürməkdən, sutkanın qaranlıq vaxtı isə faraların yaxın işığını dəfələrlə uzaq işığa keçirməkdən ibarətdir.

**Maddə 39. Mexaniki nəqliyyat vasitəsinin yedəyə alınması**

Əgər ki, yedəyə alınan nəqliyyat vasitəsinin sükanı arxasında sürücü oturursa, sərt və ya elastiki birləşdirici hissə ilə yedəyə alma mümkündür. Yalnız düzxətli hərəkət zamanı sərt yedəyə alma konstruksiyası yedəyə alınan nəqliyyat vasitəsinin yedəyə alan nəqliyyatın traektoriyası ilə hərəkətini təmin etdiyi hal istisna olunur.

Yedəyə alma zamanı yedəyə alınan avtobusda, trolleybusda və yük avtomobilinin bort platformasında, qismi yüklü yedəyə alma zamanı –yedəyə alınan nəqliyyat vasitəsində, eləcə də yedəyə alanın kabinəsində sərnişin daşınması qadağandır.

Birləşdirici hissə sərt yedəyə almada nəqliyyat vasitələri arasında ən çoxu 4 metr, elastik yedəyə almada isə 4 metrdən 6 metrə qədər məsafə qalmasını təmin etməlidir.

***Aşağıdakı hallarda yedəyə alma qadağan edilir:***

- Sükan mexanizmi nasaz olan nəqliyyat vasitələrinin (yalnız qismi yüklü yedəyə almaya icazə verilir);
- Iki və ya daha artıq nəqliyyat vasitələrinin ;
- Nəqliyyat vasitəsinin nasaz tormoz sistemi ilə, əgər onun faktiki kütləsi yedəyə alan nəqliyyat vasitəsinin faktiki kütləsinin yarısından artıqdırsa. Belə bir nəqliyyat vasitəsinin yedəyə alınmasına yalnız sərt və ya elastiki birləşdirici hissə və ya qismən yüklənmə ilə icazə verilir;
- Motosikletlə, yan qoşqusu xaricində, eləcə də belə bir motosikletlə;
- buzlu yol şəraitində elastiki birləşdirici ilə.

**Maddə 40. Sürmə təlimi**

Nəqliyyat vasitələrinin idarə edilməsi üzrə ilkin təlim bağlı meydançalarda və ya avtodromlarda keçirilməlidir. Yalnız bu Qanunun 17-ci maddəsinin 2-ci bəndi ilə nəzərdə tutulan hallardan başqa.

Yollarda sürmə təliminə yalnız təlim verən şəxsin iştirakı ilə və nəqliyyat vasitəsini sürməyi öyrənən şəxsin onu idarə etməkdə ilkin vərdişi olduqda yol verilir.

***Sürmə təlimi verən şəxsin üstündə həmin kateqoriyalı nəqliyyat vasitəsini sürmə təlimi vermək hüququna dair sənəd və ya azı3 il sürücülük stajına malik olmasına, habelə müvafiq kateqoriyalı nəqliyyat vasitəsini idarə etmək hüququna dair vəsiqə olmalıdır.*** Yalnız bu Qanunun 17-ci maddəsinin 2-ci bəndi ilə nəzərdə tutulan hallardan başqa.

***Sürmə təlimi keçən şəxsin ən azı 16 yaşı, motosikli idarə etmək üçün*** isə ***ən azı 14 yaşı olmalıdır***.

Sürmə təlimi keçirilən mexaniki nəqliyyat vasitəsi «Təlim nəqliyyat vasitəsi» tanınma nişanı ilə işarələnməli və sürmə təlimi verən şəxs üçün arxanı göstərən güzgü və pedallar ilə təchiz olunmalıdır.

Siyahısı müəyyən edilmiş qaydada elan olunan yollarda sürmə təlimi qadağandır.

**Maddə 41. Adamların daşınması**

Adamları yük avtomobilinin banında "C" kateqoriyalı nəqliyyat vasitəsini idarə etmək hüququna dair vəsiqəsi və ya azı3 il sürücülük stajı olan sürücü daşımalıdır. Əgər daşınan şəxslərin sayı kabinada olanlarla birlikdə səkkizdən artıqdırsa, sürücünün "C" və "D" kateqoriyalı nəqliyyat vasitəsini idarə etmək hüququna dair vəsiqəsi və ya azı 3 il sürücülük stajı olmalıdır.

Yük avtomobillərinin bort platforması olan banında adamların daşınmasına icazə verilir, əgər o, bu qanunun tələblərinə uyğun olaraq təchiz olunmuşdur. Bununla belə, uşaqların daşınmasına yalnız xüsusi hallarda icazə verilir.

Yük avtomobilinin banında daşınan adamların sayı oturmaq üçün düzəldilən yerlərin sayından artıq olmamalıdır..

Yük avtomobilinin sürücüsü hərəkətə başlamazdan əvvəl minmək, düşmək və banda yerləşmək qaydası haqqında sərnişinlərə təlimat verməlidir. Yalnız sərnişinlərin təhlükəsiz daşınması üçün şəraitin təmin edildiyinə əmin olduqdan sonra hərəkətə başlamaq olar.

Adam daşımaq üçün avadanlıq qoyulmamış yük avtomobilinin bort platforması olan banında yalnız yükü müşayiət edən və ya onu almalı olan şəxslər, avtomobil bortun səviyyəsindən aşağıda yerləşən oturacaq yeri ilə təmin edilmiş olduqda, gedə bilərlər.

Avtobusda və ya furqon banlı yük avtomobilində qrupla uşaq daşındıqda onların yanında bir nəfər yaşlı müşayiətçi olmalıdır, bort platforması olan yük avtomobilinin bortunda daşındıqda - ən azı iki beləsi şəxs. Bu nəqliyyat vasitələrinin önündə və arxasında «Uşaqlar» tanınma nişanı olmalıdır.

Sürücü sərnişinləri yalnız nəqliyyat vasitəsi tam dayandıqdan sonra mindirməli və ya düşürməli, hərəkətə isə yalnız qapıları bağladıqdan sonra başlamalı və onları tam dayanana qədər açmamalıdır.

***Adamların daşınması qadağandır:***

- avtomobilin (bort platforması olan yük avtomobilinin banında və ya ban-furqonunda daşınmasından başqa), traktorun, digər özügedən maşınların kabinəsindən kənarda, yük qoşqusunda, qoşqu-yaylaqda, yük motosikleti banında və motosikletin konstruksiyasında oturmaq üçün nəzərdə tutulmayan yerlərdə;
- 12 yaşından kiçik uşaqları hesaba almadan, nəqliyyat vasitəsinin texniki xarakteristikasında nəzərdə tutulduğundan artıq sayda (nəqliyyat vasitəsinin faktik kütləsi istehsalçı müəssisənin müəyyən etdiyi icazə verilən maksimum kütlənin kəmiyyətindən artıq olmamalıdır) habelə, motosikletin arxa oturacağında, minik avtomobilinin qabaq oturacağında uşağı saxlayan xüsusi qurğu olmadıqda, 12 yaşınadək uşaqları həmin nəqliyyat vasitələrində daşımaq;

***12 yaşına qədər uşaqların motosikletin arxa oturacağında və ya minik avtomobilinin ön oturacağında daşınmasına yol verilmir (əgər avtomobilin uşağı tutmaq üçün xüsusi qurğusu yoxdursa).***

**Maddə 42. Yüklərin daşınması**

Avtomobil nəqliyyat vaitəsinin qabarit ölçüləri Gürcüstan qanunvericliyi ilə icazə verilən göstəricilərdən artıq olmamalı, aparıcı və ya aparıcı olmayan oxda maksimal yük 10 tondan (bir aparıcı oxlu nəqliyyat vasitəsindən başqa, hansının aparıcı oxunda maksimal yük 11,5 tondan artıq olmamalıdır) və ya tam kütləsi 44 ton, yaxud da daşınan yükün kütləsi istehsalçı tərəfindən verilən nəqliyyat vasitəsi üçün təyin edilən yük daşımadan artıq

olmamalıdır . Qabarit ölçüləri Gürcüstan qanunvericiliyi ilə icazə verilən göstəricilərdən və ya hər bir aparıcı və ya aparıcı olmayan oxda maksimum yük 10 tondan (bir aparıcı oxlu nəqliyyat vasitəsindən başqa, hansının aparıcı oxunda maksimal yük 11,5 tondan artıq olmamalıdır) və ya tam kütləsi 44 ton, yaxud da daşınan yükün kütləsi istehsalçı tərəfindən verilən nəqliyyat vasitəsi üçün təyin edilən yük daşımadan artıq olan nəqliyyat vasitəsi qeyd edilən ölçülərin lazımi şəkildə düzəlişindən sonra qeydiyyata alınacaqdır. Əgər nəqliyyat vasitəsinin qabarit ölçülərinin düzəlişi mümkün deyilsə, yaxud da yük parçalanmaya/bölünməyə tabe olmursa, o zaman onun hərəkətinə Gürcüstan Qanunvericiliyinə müvafiq olaraq müəyyənləşdirilmiş tövsiyənin verilməsindən sonra icazə verilir. (23.06.2006. N3395)

Sürücü hərəkətə başlamazdan öncə və hərəkət zamanı bu maddənin birinci bəndinə müvafiq olaraq yükün yerləşdirilməsi, bərkidilməsi və onun düşməsi və hərəkətə mane olmasının qarşısını almaq məqsədilə yükün kütləsini bölməlidir. (9.11.2005. N2022)

***Yüklərin daşınmasına icazə verilir, əgər :***

- ətrafı görməsini məhdudlaşdırmırsa;
- nəqliyyat vasitəsinin davamlılığını pozmaması və idarə olunmasını çətinləşdirmirsə;
- yükün xarici işıq siqnallarının və işıqqaytarıcıların, qeydiyyat və tanınma nişanlarının üstünü tutursa, habelə əl ilə verilən siqnalların qəbul edilməsinə mane olmursa;
- Səs salmırsa, toz qaldırmırsa, yolu və ətraf mühiti çirkləndirmirsə.

Yükün vəziyyəti və yerləşdirilməsi göstərilən tələblərə cavab vermədikdə, sürücü sadalanan daşıma qaydalarının pozulmasını aradan qaldırmaq üçün tədbirlər görməli və ya hərəkəti dayandırmalıdır.

***Yük qabaq və ya arxa tərəfdən nəqliyyat vasitəsinin qabaritindən - qabarit işığının xarici kənarından 1 metrdən çox və ya yan tərəfdən 0,4 metrdən çox qırağa çıxdıqda «İri qabaritli yük» tanınma nişanı ilə işarələnməlidir, sutkanın qaranlıq vaxtı və məhdud görünmə şəraitində isə, bundan başqa, qabaq tərəfdən ağ işıq fənəri və ya işıqqaytarıcı ilə arxa tərəfdən qırmızı işıq fənəri və ya işıqqaytarıcı ilə işarə olunmalıdır..***

Ağır çəkili və təhlükəli yüklərin, zərərsizləşdirilməmiş taranın daşınması, yüklə birlikdə və ya yüksüz qabarit parametrlərinin eni 2,5 metrdən, hündürlüyü yolun hərəkət hissəsinin səthindən 4 metrdən, uzunluğu bir qoşqulu avtoqatar üçün 20 metrdən, iki qoşqulu avtoqatar üçün 24 metrdən artıq olan, yaxud yükü nəqliyyat vasitəsinin qabaritinin arxa nöqtəsindən 2 metrdən çox kənara çıxan nəqliyyat vasitələrinin, iki və daha çox qoşqulu avtoqatarların hərəkəti bu ölçülərin lazımi şəkildə düzəldiyi halda və ya Gürcüstan Qanunvericiliyinə müvafiq olaraq müəyyən edilmiş tövsiyəyə uyğun olaraq həyata keçirilir. (25.12.2009 N 2474)

**Maddə 43. At arabalarının sürülməsinə və mal-qaranın ötürülməsinə dair tələblər**

Velosipedin, at arabalarının , yük və minik heyvanlarının idarə olunmasına ən azı 14 yaşından icazə verilir, mopedin idarə olunmasına isə - 16 yaşından.

Abxaziya və Acarıstan Muxtar Respublikalarında, Tbilisi və Kutaisi şəhərlərində bu maddənin birinci hissəsi ilə müəyyənləşdirilmiş yaş səddi azaldıla bilər, amma ən çox 2 il.

At arabalarının (kirşələrin), yük və minik heyvanlarının yalnız yolun sağ kənar zolağından mümkün qədər sağ tərəfdə bir cərgədə hərəkətlərinə icazə verilir. Piyadalar üçün maneə yaratmamaq şərtilə onların yol çiyni ilə də hərəkət etmələri mümkündür.

Ötməni asanlaşdırmaq üçün yük və minik heyvanları sürülərə, at arabaları (kirşələr) isə sayı 5-dən çox olmayan dəstələrə bölünməlidirlər, bu dəstə və sürülər arasındakı məsafə ən azı 80-100 metr olmalıdır.

***Velosiped və moped sürücülərinə qadağandır:***

- sükanı tutmadan hərəkət etmək;

- 7 yaşına qədər uşaqlardan başqa, möhkəm pillələrlə təchiz olunan əlavə oturacaqla sərnişin daşımaq;
- velosipedin və mopedin uzunu və ya eni üzrə qabaritlərindən 0,5 metrdən artıq kənara çıxan və ya velosipedi, mopedi idarə etməyə mane olan yük aparmaq;
- velosiped yolu olduğu halda onun yanındakı yolla hərəkət etmək;
- tramvay hərəkəti olan yollarda və həmin istiqamətdə hərəkət üçün birdən artıq zolağı olan yollarda sola və ya geriyə dönmək.
- velosiped və ya mopedlə birgə istismar üçün nəzərdə tutulan qoşqunun yedəyə alınması istisna olmaqla, velosipedləri və mopedləri, eləcə də velosipedlərlə və mopedlərlə yedəyə almaq.

Yolayrıcından kənarda yolun velosiped yolu ilə nizamlanmayan kəsişməsində velosiped və moped sürücüləri bu yolla hərəkət edən nəqliyyat vasitələrinə yol verməlidirlər.

Yola bitişik ərazidən və ya ikinci dərəcəli yoldan çıxan zaman görünmə məhdud olan yerdə at arabasının (kirşənin) sürücüsü heyvanı cilovundan tutaraq əsas yola çıxarmalıdır.

Mal-qaranı yolda sutkanın işıqlı vaxtı və nazarət etməklə ötürmək lazımdır. Mal-qara ötürənlər mal-qaranı yolun mümkün qədər sağ kənarı ilə ötürməlidirlər.

Mal-qara dəmiryol xətlərinin və yolun hərəkət hissəsinin üstündən keçirildikdə, sürü mal-qaranı ötürənlərin sayı nəzərə alınmaqla elə sayda dəstələrə bölünməlidir ki, mal-qaranın təhlükəsiz keçirilməsini təmin etmək mümkün olsun.

***At arabası nəqliyyatının (kirşəsinin) sürücüsünə, yük və minik heyvanlarını sürənlərə, mal-qaranı ötürənlərə:***

- mal-qaranı yolda nəzarətsiz qoymaq;;
- mal-qaranı dəmiryol xətlərinin və yolların üstündən xüsusi olaraq bu məqsəd üçün ayrılmış yerlərdən kənarda, habelə sutkanın qaranlıq vaxtında və məhdud görünmə şəraitində keçirmək (müxtəlif səviyyələrdə mal-qaranı ötürmə yerlərindən başqa);
- mal-qaranı asfalt və sement-beton örtüklü yollarla ötürmək.

## pozuntusu üçün məsuliyyət. Gürcüstanın İnzibati Xətalar Məcəlləsindən Çıxarış – Yol hərəkəti qaydalarının pozuntusu üçün Gürcüstan Qanunvericliyi ilə nəzərdə tutulan inzibati məsuliyyət

### Fəsil VI

### Yol hərəkətinin təhlükəsizliyinin təmin edilməsi sahəsində dövlət nəzarəti

**Maddə 44. Yol hərəkətinin təhlükəsizliyinin təmin edilməsi sahəsində dövlət nəzarəti**

Yol hərəkətinin təhlükəsizliyinin təmin edilməsi sahəsində dövlət nəzarətini Gürcüstan Daxili İşlər Nazirliyi və müvafiq orqanlar öz səlahiyyətləri çərçivəsində, Gürcüstan qanunvericiliyi ilə təyin edilən qayda əsasında həyata keçirilir.

### Fəsil VII

### Gürcüstanda yol hərəkətinin təhlükəsizliyinin təmin edilməsi haqqında qanun pozuntusu üçün məsuliyyət

**Maddə 45. Gürcüstanda yol hərəkətinin təhlükəsizliyinin təmin edilməsi haqqında qanun pozuntusu üçün məsuliyyət**

Gürcüstanda yol hərəkətinin təhlükəsizliyinin təmin edilməsi haqqında qanun pozuntusu təyin edilən qayda əsasında intizam, cinayət və inzibati məsuliyyətə səbəb olur.

# Gürcüstanın İnzibati Xətalar Məcəlləsindən Çıxarış .
# Yol hərəkəti qaydaları ilə əlaqədar inzibati xətalar

**Maddə 81. Tüstüsündə çirkləndirici maddələr tərkibinin təyin edilən normativlərdən artıq olduğu avtomobil nəqliyyat vasitələrinin və digər hərəkət vasitələrinin istismarı**

Vətəndaşlar tərəfindən tüstüsündə çirkləndirici maddələr tərkibinin təyin edilən normativlərdən artıq olduğu avtomobil nəqliyyat vasitələrinin və digər hərəkət vasitələrinin istismarı, eləcə də çalışdıqda onlar tərəfindən yaradılan səs-küyün səviyyəsi təyin edilən normativlərdən artıqdır, -

Xəbərdarlığa və ya əmək məvacibinin beş minimum məbləğində cəriməsinə səbəb olur.

Kazus

Patrul polisi və DİN "Diaqnostika" əməkdaşlarının birgə apardıqları tədbir zamanı QAZ – 3110 avtomobili müşahidə olundu. Xüsusi cihazla onun yoxlanışında təyin oldu ki, onun tüstüsündə çirkləndirici maddələrin tərkibi icazə verilən normadan bir neçə dəfə artıqdır.

Qeyd edilən hal 81-ci maddə ilə müəyyən edilmiş hüquq pozuntusunu təqdim edir. Maddədə birbaşa göstərilir ki, vətəndaşlar tərəfindən tüstüsündə çirkləndirici maddələr tərkibinin təyin edilən normativlərdən artıq olduğu avtomobil nəqliyyat vasitələrinin və digər hərəkət vasitələrinin istismarı, eləcə də çalışdıqda onlar tərəfindən yaradılan səs-küyün səviyyəsi təyin edilən normativlərdən artıq olduqda, xəbərdarlığa və ya əmək məvacibinin beş minimum məbləğində cəriməsinə səbəb olur. Tüstüdə çirkləndirici maddələr tərkib miqdarı, eləcə də də çalışdıqda onlar tərəfindən yaradılan səs-küyün səviyyəsi xüsusi dövlət normaları ilə təyin edilmişdir. Texniki cəhətdən təchiz olunan və müvafiq lisenziyaya malik, nəqliyyat vasitələri üzərində texniki nəzarəti həyata keçirən təşkilatlar (diaqnostik mərkəzlər) məhz bu normaları əsas tuturlar. Onların təchizatları və xidmətçi heyətin vasitəsilə patrul polisi tərəfindən xüsusi olaraq təşkil edilmiş tədbirlərdə bu cür pozuntular aşkar edilməli və bunlara patrul polisi əməkdaşı mövcud qaydalar əsasında inzibati qanun pozuntusu protokolunu tərtib etməlidir.

**Maddə 116. Nəqliyyat vasitəsini alkoqoldan, narkotik vasitələrdən, psixotrop maddələrdən və ya güclü təsir göstərən digər maddələrdən istifadə olunması nəticəsində sərxoş vəziyyətdə idarə edilməsi və ya belə bir vəziyyətdə olan şəxs üçün idarəyə verilməsi**

1. nəqliyyat vasitəsinin alkoqoldan sərxoş vəziyyətdə idarə olunmasına görə –

iki yüz lari miqdarında cərimə edilir.

2. nəqliyyat vasitəsini idarə etmək üçün bilə-bilə alkoqoldan sərxoş vəziyyətdə olan şəxsə verməyə görə, -

iki yüz əlli lari miqdarında cərimə edilir.

3. Bu maddənin birinci və 2-ci hissəsi ilə nəzərdə tutulan hüquq pozuntuları, nəqliyyat vasitəsinin istismarını həyata keçirən şəxsin nəqliyyat vasitəsini sürmək hüququ olmadığına və ya digər pozuntulara görə bu hüquqdan məhrum olduğuna görə, -

nəqliyyat vasitəsinin istismarını həyata keçirən şəxs və nəqliyyat vasitəsinin sahibi beş yüz lari miqdarında cərimə edilir.

4. Bu maddənin birinci və 2-ci hissəsi ilə nəzərdə tutulan hüquq pozuntuları, il ərzində təkrar törədildiyinə görə,

- nəqliyyat vasitəsinin idarə edilmə hüququndan 1 il müddətində məhrum edilir, əgər nəqliyyat vasitəsi sürücülük vəsiqəsi olmayan şəxsə verilmişsə, beş yüz lari miqdarında cərimə olunur.

$4^1$. Bu maddənin 3-cü hissəsi ilə nəzərdə tutulan hüquq pozuntuları, il ərzində təkrarən törədildiyinə görə,

- 700 lari miqdarında cərimə edilir və ya 90 günə qədər müddətlə inzibati həbsə alınır.

5. nəqliyyat vasitəsinin narkotikdən və ya psixotrop vasitədən sərxoş halda idarə edilməsi, yaxud da nəqliyyat vasitəsini idarə etmək üçün bilə-bilə belə vəziyyətdə olan şəxsə verməyə görə,

- nəqliyyat vasitəsinin idarə edilmə hüququndan 3 il müddətində məhrum edilir, Gürcüstan ərazisində olan xarici vətəndaş və ya vətəndaşlığı olmayan şəxs (Gürcüstan qanunları və Gürcüstan beynəlxalq müqavilələri və razılıqları əsasında immunitetlə faydalanan şəxsdən başqa) 500 lari miqdarında cərimə olunur.

6 Bu maddənin 5-ci hissəsi ilə nəzərdə tutulan hüquq pozuntuları, nəqliyyat vasitəsinin istismarını həyata keçirən şəxsin nəqliyyat vasitəsini idarə etmək hüququnun olmadığına və ya digər pozuntulara görə bu hüquqdan məhrum olduğuna görə,

- nəqliyyat vasitəsinin istismarını həyata keçirən şəxs və nəqliyyat vasitəsinin sahibi min lari miqdarında cərimə edilir.

7. Bu maddə ilə nəzərdə tutulan hüquq pozuntuları, hansıların nəticəsində nəqliyyat vasitəsi, yük, yol və ya digər yol qurğuları, eləcə də digər əmlak və ya insan bədəninin yüngül xəsarət aldığına görə,

- nəqliyyat vasitəsinin idarə edilmə hüququndan 3 il müddətində məhrum edilir, Gürcüstan ərazisində olan xarici vətəndaş və ya vətəndaşlığı olmayan şəxs (Gürcüstan qanunları və Gürcüstan beynəlxalq müqavilələri və razılıqları əsasında immunitetlə faydalanan şəxsdən başqa) min lari miqdarında cərimə olunur.

8. Bu maddənin 7-ci hissəsi ilə nəzərdə tutulan hüquq pozuntuları, nəqliyyat vasitəsinin istismarını həyata keçirən şəxsin nəqliyyat vasitəsini idarə etmək hüququ yoxdur və ya bu hüquqdan digər pozuntulara görə məhrum olur,

- min lari miqdarında cərimə olunur.

9. Bu maddənin 6-cı və 8-ci hissələri ilə nəzərdə tutulan hüquq pozuntuları, il ərzində təkrarən törədildiyinə görə,

- 1500 lari miqdarında cərimə olunur və ya 90 gün müddətində inzibati həbsə alınır.

Qeyd:

1. Yol hərəkəti iştirakçılarının təhlükəsizliyini təmin edən və yol hərəkəti qaydalarına əməl edilməsinə nəzarət edən polis narkotikdən və ya psixotrop maddədən sərxoş olmasına kifayət qədər əsas olan şəxsi nəqliyyat vasitəsini idarə etməkdən kənarlaşdırmalıdır və araşdırmaq məqsədilə Gürcüstan Daxili İşlər naziri tərəfindən bunun üçün səlahiyyətli şəxsə təqdim etməlidir. 28.04.2006. N2962 2006 ilin noyabrın 1-dən qüvvəyə minsin)

2. Yol hərəkəti iştirakçılarının təhlükəsizliyini təmin edən və yol hərəkəti qaydalarına riayət edən polis məcburdur: narkotikdən maddədən sərxoş olmasına kifayət qədər əsas olan şəxsi nəqliyyat vasitəsini idarə etməkdən kənarlaşdırmalıdır; əgər qaydanı pozan alkoqolun qəbulu faktını mübahisəli etmirsə və bunu protokola imza atmaqla təsdiq edirsə, o zaman yerində inzibati tənbeh tətbiq etməlidir, əks halda, onu yerindəcə yoxlamalıdır; əgər sürücü tərəfindən alkoqol qəbul etmə faktı təsdiq olunarsa, o zaman inzibati xəta protokolunu tərtib etməlidir və onda alkoqol sərxoşluğun nəticələri əks olunacaqdır.

3. Səlahiyyətli şəxs tərəfindən alkoqol, narkotik və psixotrop sərxoşluq faktlarının təyin edilməsi qaydası Gürcüstan Daxili İşlər naziri və Gürcüstan əmək, səhiyyə və sosial müdafiə nazirinin birgə fərmanı ilə müəyyənləşdirilir (28.04.2006. N2962)

4. Bu maddənin 3-cü, 4-cü, $4^1$, 6-cı və 8-ci hissələrlə nəzərdə tutulmuş hüquq pozuntularını törətdikdə şəxs sürücülük imtahanına cəriməni ödədikdən sonra buraxılır.

$4^1$. Bu maddənin 4-cü hissəsi ilə nəzərdə tutulan hüquq pozuntusu halında xüsusi şəraitlər müşahidə olunduqda işi araşdıran orqan nəqliyyat vasitəsinin idarə olunması hüququndan məhrum edilməni 500 lari miqdarında cərimə ilə əvəz edə bilər.

5. Bu maddənin 5-ci hissəsi ilə nəzərdə tutulan halda sürücülük hüququndan məhrum olunma müddəti keçdikdən sonra şəxsə sürücülük vəsiqəsi tibbi müəssisənin yoxlanışı əsasında qaytarılır, onunla narkomaniya xəstəliyinin olmaması faktı təsdiq olunur.

6. Bu maddənin 7-ci hissəsi ilə nəzərdə tutulan hüquq pozuntularını törətdikdə, xətanı törədən şəxs tərəfindən ziyanın könüllü ödənilməsi halında, əgər ki, zərərçəkən inzibati xəta işində qəbul edilən qərarı şikayətləndirmirsə, işi araşdıran orqan nəqliyyat vasitəsinin idarə olunması hüququndan məhrum edilməni 1000 lari miqdarında cərimə ilə əvəz edə bilər.

7.Cərimənin könüllü yerinə yetirilməsi üçün bu məcəllənin 290-cı maddəsinin birinci hissəsi ilə müəyyən edilmiş müddət keçdikdən sonra bu maddə ilə nəzərdə tutulmuş hüquq pozuntuları üçün şəxsə 500 lari miqdarında cərimə təsis edilir, 290-cı maddənin $1^1$ hissəsi ilə müəyyənləşdirilmiş müddətdə cərimə ödənilmədikdə isə, bu maddənin birinci, 2-ci, 5-ci və 7-ci hissələri ilə nəzərdə tutulmuş hallarda, cərimə nəqliyyat vasitəsini idarə etmək hüququndan 2 il müddətində məhrum etmə ilə əvəz olunur.

8. Cərimənin ödənilməsi və ya cərimənin nəqliyyat vasitəsini idarə etməkdən məhrum etmə ilə əvəz edilməsi şəxsi əlavə cərimə ödəməkdən azad etmir.

**Maddə 117. Alkoqoldan, narkotikdən və ya psixotrop maddədən sərxoşluğu təyin etmək üçün yoxlanışdan yayınmaq**

1. Nəqliyyat vasitəsini idarə etdikdə Gürcüstan qanunvericiliyi ilə təyin edilən qayda ilə alkoqoldan, narkotikdən və psixotropdan sərxoşluğu təyin etmək üçün yoxlanışdan yayınmaq.

nəqliyyat vasitəsini idarə etməkdən 3 il müddətinə məhrum edir, Gürcüstan ərazisində olan xarici vətəndaş və vətəndaşlığı olmayan şəxs (Gürcüstan qanunları və Gürcüstan beynəlxalq müqavilələri və razılıqları əsasında immunitetlə faydalanan şəxsdən başqa) 500 lari miqdarında cərimə edilir.

2.Bu maddənin 1-ci hissəsi ilə nəzərdə tutulan hüquq pozuntusu, nəqliyyat vasitəsini idarə etmək hüququ olmayan və ya başqa hüquq pozuntularına görə bu hüquqdan məhrum edilmiş şəxs,

- 700 lari miqdarında cərimə edilir.

3. Bu maddənin 1-ci hissəsi ilə nəzərdə tutulan hüquq pozuntusu, il ərzində təkrar törədilmişdir,

- 1000 lari miqdarında cərimə edilir və ya 90 günə qədər inzibati həbsə alınma təsis edilir.

Qeyd:

1. Cərimənin könüllü yerinə yetirilməsi üçün bu məcəllənin 290-cı maddəsinin birinci hissəsi ilə müəyyənləşdirilmiş müddət bitdikdən sonra bu maddə ilə nəzərdə tutulmuş hüquq pozuntuları üçün şəxsə 500 lari miqdarında cərimə təsis edilir, 290-cı maddənin $1^1$ hissəsi ilə müəyyənləşdirilmiş müddətdə cərimə ödənilmədikdə isə, bu maddənin $1^1$ hissəsi ilə müəyyən edilmiş müddətdə cərimənin ödənilmədiyi halda, cərimə nəqliyyat vasitəsini idarə etmək hüququndan 2 il müddətində məhrum etmə ilə əvəz olunur.

2. Cərimənin ödənilməsi və ya cərimənin nəqliyyat vasitəsini idarə etməkdən məhrum etmə ilə əvəz edilməsi şəxsi əlavə cərimə ödəməkdən azad etmir.

3 Bu maddənin 2-ci hissəsi ilə nəzərdə tutulan hüquq pozuntusunu törətdikdə, şəxs sürücülük imtahanına cəriməni ödədikdən sonra buraxılır.

**Kazus**

Melikişvili prospektində patrul “Mercedes” markalı avtomobili dayandırdı. Onun sürücüsü Qoşadzedə sərxoşluq əlamətləri aydın şəkildə müşahidə olunurdu. O, yoxlanış üçün sərxoşluq səviyyəsini təyin etmək üçün narkoloji dispanserə göndərildi, amma sürücü inadkarlıqla tibbi yoxlanışdan yayınırdı.

Qoşadzenin hərəkəti 117-ci maddəsində göstərilən inzibati hüquqi pozuntudur. Çünki o, narkoloji dispanserə gətirilməsinə baxmayaraq yoxlanışdan keçməyi rədd etdi. Bu halda patrul hüququ pozana müvafiq protokol tərtib edəcəkdir.

**Maddə 118. Təyin edilən qayda ilə yola yararlılıq nəqliyyat vasitəsinin məcburi dövri testini (imtahan) keçməmiş və ya idarə etmək üçün digər şəxsə verilmiş belə bir nəqliyyat vasitəsini idarə etmək**

1. Təyin edilən qayda ilə yola yararlılıq nəqliyyat vasitəsinin məcburi dövri testini (imtahan) keçməmiş və ya idarə etmək üçün digər şəxsə verilmiş belə bir nəqliyyat vasitəsini idarə etmək və ya sahibi və ya digər həqiqi ölçüdə sahibi tərəfindən nəqliyyat vasitəsini idarə etmək üçün digər şəxsə vermək,

- 10 lari miqdarında cərimə edilir.

2. Nəqliyyat vasitəsinin istismarını həyata keçirən hüquqi şəxs və ya özəl sahibkar tərəfindən təyin edilən qayda ilə yola yararlılıq nəqliyyat vasitəsinin məcburi dövri testini (imtahan) keçmədikdə istismara buraxılmasına görə,

- istismarı həyata keçirən hüquqi şəxs və ya özəl sahibkar 100 lari miqdarında cərimə edilir.

Qeyd:

„1. Cərimənin könüllü yerinə yetirilməsi üçün bu məcəllənin 290-cı maddəsinin birinci hissəsi ilə müəyyənləşdirilmiş müddət bitdikdən sonra bu maddənin birinci bəndi ilə nəzərdə tutulmuş hüquq pozuntuları üçün şəxsə 150 lari miqdarında cərimə təsis edilir, 290-cı maddənin $1^1$ hissəsi ilə müəyyənləşdirilmiş müddətdə cərimə ödənilmədikdə isə, cərimə nəqliyyat vasitəsini idarə etmək hüququndan 1 il müddətində məhrum etmə ilə əvəz olunur.

Cərimənin ödənilməsi və ya cərimənin nəqliyyat vasitəsini idarə etməkdən məhrum etmə ilə əvəz edilməsi şəxsi əlavə cərimə ödəməkdən azad etmir.

2. Cərimənin könüllü yerinə yetirilməsi üçün bu məcəllənin 290-cı maddəsinin birinci hissəsi ilə müəyyənləşdirilmiş müddət bitdikdən sonra bu maddənin 2-ci hissəsi ilə nəzərdə tutulmuş hüquq pozuntuları üçün şəxsə 500 lari miqdarında cərimə təsis edilir, 290-cı maddənin $1^1$ hissəsi ilə müəyyənləşdirilmiş müddətdə cərimə ödənilmədikdə isə, cərimə nəqliyyat vasitəsini idarə etmək hüququndan 2 il müddətində məhrum etmə ilə əvəz olunur.

Cərimənin ödənilməsi və ya cərimənin nəqliyyat vasitəsini idarə etməkdən məhrum etmə ilə əvəz edilməsi şəxsi əlavə cərimə ödəməkdən azad etmir.

Cərimənin məcburi ödənilməsi və ya cərimənin nəqliyyat vasitəsini idarə etmək hüququndan məhrum edilməsi ilə dəyişdirilməsi şəxsi əlavə cərimə ödəməkdən azad etmir.

Kazus

Sərnişin mikroavtobusunun sürücüsü döngədə sükanı idarə edə bilməyib yolun hərəkət hissəsindən çıxıb işıq dirəyi ilə toqquşdu. Hadisə nəticəsində heç kim xəsarət almadı. Ekspert nəticəsində məlum oldu ki, hadisə vaxtı sürət icazə verilən həddən artıq, tormozlama sistemi isə sıradan çıxmışdı. Avtomaşın illik icbari texniki baxışdan keçməmişdir.

Bu halda bir neçə hüquq pozuntusuna toxunuruq. Bunlar birbaşa illik məcburi texniki baxışın keçirilməməsidir, ekspertin nəticəsində məlum oldu ki, 125-ci maddənin III hissəsi - təyin edilən sürətin həddini keçməsi, hansının nəticəsində nəqliyyat vasitəsinin, yükün, yolun və ya digər yol qurğusunun, eləcə də digər əmlakın və ya insanın bədəninin yüngül xəsarət alması.

Öz məzmunu ilə hərəkət üçüncü hüquq pozuntusundan da ibarətdir: 119-II – nasaz tormozlama sistemi olan nəqliyyat vasitəsini idarə etmək. Bütün hüquq pozuntularını təsbih etmək lazımdır. Tənbehə gəldikdə isə, onu təyin etdikdə 36-cı maddənin tələbləri mütləq nəzərə alınacaqdır.

**Maddə $118^1$. Avtonəqliyyat vasitəsi ilə hərəkət etdikdə sürücü və ya sərnişin tərəfindən təhlükəsizlik kəmərindən istifadə etməmək**

Avtonəqliyyat vasitəsi ilə hərəkət etdikdə sürücü və ya onun yanında oturan sərnişin tərəfindən təhlükəsizlik kəmərindən istifadə etməməyə görə, –

Nəqliyyat vasitəsinin sürücüsü 40 lari miqdarında cərimə olunur.

Qeyd:

1. Bu maddə ilə nəzərdə tutulan məsuliyyət konstruksiyası təhlükəsizlik kəmərlərini nəzərə almayan avtonəqliyyat vasitəsinin sürücüsünə şamil edilmir.

2. Cərimənin könüllü yerinə yetirilməsi üçün bu məcəllənin 290-cı maddəsinin birinci hissəsi ilə müəyyənləşdirilmiş müddət bitdikdən sonra bu maddə ilə nəzərdə tutulmuş hüquq pozuntuları üçün şəxsə 150lari miqdarında cərimə təsis edilir, 290-cı maddənin $1^1$ hissəsi ilə müəyyənləşdirilmiş müddətdə cərimə ödənilmədikdə isə, cərimə nəqliyyat vasitəsini idarə etmək hüququndan 1 il müddətində məhrum etmə ilə əvəz olunur.

Cərimənin ödənilməsi və ya cərimənin nəqliyyat vasitəsini idarə etməkdən məhrum etmə ilə əvəz edilməsi şəxsi əlavə cərimə ödəməkdən azad etmir.

3. Cərimənin ödənilməsi və ya cərimənin nəqliyyat vasitəsini idarə etməkdən məhrum etmə ilə əvəz edilməsi şəxsi əlavə cərimə ödəməkdən azad etmir.

4. Əgər patrul polisi bu maddə ilə nəzərdə tutulmuş hüquq pozuntusu faktına hadisə yerində cərimə qəbzini yazmazsa və hüquq pozuntusunun bu faktı video-lentə və ya fotolentə alınarsa, o zaman bu maddə ilə nəzərdə tutulmuş cərimənin ödənilməsi nəqliyyat vasitəsinin sahibinə aid edilir. Cərimə qəbzi qeydiyyat yerinə əsasən nəqliyyat vasitəsinin sahibinə göndəriləcəkdir. Bu məcəllənin 290-cı maddəsinin birinci hissəsi ilə müəyyənləşdirilmiş müddətdə cərimə ödənilmədiyi halda maşın sahibinə bu maddə ilə nəzərdə tutulmuş müvafiq miqdarda cərimə təsis edilir. Cərimə təsis edildikdən 30 gün müddətində cərimə ödənilmədikdə nəqliyyat vasitəsinin realizasiyası cərimənin ödənilməsini təmin etmək məqsədilə Gürcüstan Qanunvericiliyi ilə təyin edilən qayda ilə həyata keçirilir.

(Bu qanun 2010-cu ilin dekabrın 1-dən qüvvədədir)

Kazus

Tbilisi-Bakursixe-Laqodexi avtomobil yolunda Patardzeuli kəndi yaxınlığında patrul tərəfindən BMW markalı avtomobil müşahidə olundu. Onun sürücüsü mobil telefondan istifadə edirdi. O, patrulun nəqliyyat vasitəsini saxlamaq haqqında tələbinə itaət etməyib hərəkəti sürətlə davam etdirirdi. Bir qədər sonra bu avtomobil qeyd edilən avtomobil yolunun 70-ci kilometrində saxlanıldı. Sürücü Aleksandre Roqava təhlükəsizlik kəmərlərini bağlamamışdı.

İlk dəfə Roqava 118-ci maddə ilə nəzərdə tutulmuş hüquq pozuntusunda aşkar edilmişdi, - nəqliyyat vasitəsini idarə edərkən mobil telefondan istifadə etmək, sonrakı xətanı isə nəqliyyat vasitəsini saxlamaq haqqında 123 maddənin I hissəsi ilə patrulun tələbinə itaət etmədikdə törətdi, sonra isə o, təyin edilən sürətin həddini keçdi. Bu isə müvafiq cihazda qeyd edildikdə 125-ci maddə ilə mütləq hüquq pozuntusu kimi hesab edilir və sonda, saxlandıqda məlum oldu ki, avtomagistralda hərəkət etdikdə onun təhlükəsizlik kəmərləri bərkidilməmişdi. Bütün yuxarıda sadalanan hüquq pozuntularının əlamətləri onun hərəkətlərində var, lakin tənbeh edildikdə digər hallar da nəzərə alınacaqdır.

**Maddə 118$^{2}$. Mexaniki nəqliyyat vasitəsini idarə etdikdə sürücü tərəfindən mobil kommunikasiya vasitəsindən faydalanmaq**

Mexaniki nəqliyyat vasitəsini idarə etdikdə sürücü tərəfindən mobil kommunikasiya vasitəsindən faydalanmaq , -

10 lari miqdarında cərimə edilir.

Qeyd:

1. Bu maddə ilə nəzərdə tutulmuş məsuliyyət “Yol hərəkətinin təhlükəsizliyi haqqında” Gürcüstan Qanununun 20-ci maddəsinin 9-cu bəndinin “a1” yarımmaddəsi ilə nəzərdə tutulmuş istisna hallarda hərəkət edən şəxsə şamil edilmir.

2. Cərimənin könüllü ödənilməsi üçün bu məcəllənin 290-cı maddəsinin birinci hissəsi ilə müəyyənləşdirilmiş müddət bitdikdən sonra bu maddə ilə nəzərdə tutulmuş hüquq pozuntuları üçün şəxsə 150 lari miqdarında cərimə təsis edilir, 290-cı maddənin $1^{1}$ hissəsi ilə müəyyənləşdirilmiş müddətdə cərimə ödənilmədikdə isə, cərimə nəqliyyat vasitəsini idarə etmək hüququndan 1 il müddətində məhrum etmə ilə əvəz olunur.

3. Cərimənin məcburi ödənilməsi və ya cərimənin mexaniki nəqliyyat vasitəsini idarə etmək hüququndan məhrum edilməsi ilə dəyişdirilməsi şəxsi əlavə cərimə ödəməkdən azad etmir.

4. Əgər patrul polisi bu maddə ilə nəzərdə tutulmuş hüquq pozuntusu faktına hadisə yerində cərimə qəbzini yazmazsa və hüquq pozuntusunun bu faktı video-lentə və ya fotolentə alınarsa, o zaman bu maddə ilə nəzərdə tutulmuş cərimənin ödənilməsi nəqliyyat vasitəsinin sahibinə aid edilir. Cərimə qəbzi qeydiyyat yerinə əsasən nəqliyyat vasitəsinin sahibinə göndəriləcəkdir. Bu məcəllənin 290-cı maddəsinin birinci hissəsi ilə müəyyənləşdirilmiş müddətdə cərimə ödənilmədiyi halda avtomobil sahibinə bu maddə ilə nəzərdə tutulmuş müvafiq miqdarda cərimə təsis edilir. Cərimə təsis edildikdən 30 gün müddətində cərimə ödənilmədikdə nəqliyyat vasitəsinin realizasiyası cərimənin ödənilməsini təmin etmək məqsədilə Gürcüstan Qanunvericiliyi ilə təyin edilən qayda ilə həyata keçirilir.

**Maddə 118$^{3}$. Motosikletlə hərəkət zamanı sürücü və ya sərnişin tərəfindən motodəbilqədən istifadə etməmək**

Motosikletlə hərəkət etdikdə sürücü və ya sərnişin tərəfindən motodəbilqədən istifadə etməmək,

- 10 lari miqdarında cərimə edilir.

**Qeyd:**

1. Cərimənin könüllü ödənilməsi üçün bu məcəllənin 290-cı maddəsinin birinci hissəsi ilə müəyyənləşdirilmiş müddət bitdikdən sonra bu maddə ilə nəzərdə tutulmuş hüquq pozuntuları üçün şəxsə 150 lari miqdarında cərimə təsis edilir, 290-cı maddənin $1^{1}$ hissəsi ilə müəyyənləşdirilmiş müddətdə cərimə ödənilmədikdə isə, cərimə nəqliyyat vasitəsini idarə etmək hüququndan 1 il müddətində məhrum etmə ilə əvəz olunur.

2. Cərimənin məcburi ödənilməsi və ya cərimənin nəqliyyat vasitəsini idarə etmək hüququndan məhrum edilməsi ilə dəyişdirilməsi şəxsi əlavə cərimə ödəməkdən azad etmir.

3. Əgər patrul polisi bu maddə ilə nəzərdə tutulmuş hüquq pozuntusu faktına hadisə yerində cərimə qəbzini yazmazsa və hüquq pozuntusunun bu faktı video-lentə və ya fotolentə alınarsa, o zaman bu maddə ilə nəzərdə tutulmuş cərimənin ödənilməsi nəqliyyat vasitəsinin sahibinə aid edilir. Cərimə qəbzi qeydiyyat yerinə əsasən nəqliyyat vasitəsinin sahibinə göndəriləcəkdir. Bu məcəllənin 290-cı maddəsinin birinci hissəsi ilə müəyyənləşdirilmiş müddətdə cərimə ödənilmədiyi halda avtomobil sahibinə bu maddə ilə nəzərdə tutulmuş müvafiq miqdarda cərimə təsis edilir. Cərimə təsis edildikdən 30 gün müddətində cərimə ödənilmədikdə nəqliyyat vasitəsinin realizasiyası cərimənin ödənilməsini təmin etmək məqsədilə Gürcüstan Qanunvericiliyi ilə təyin edilən qayda ilə həyata keçirilir.

**Maddə 119. Nəqliyyat vasitəsinin istismarı qaydalarının pozulması**

1. Şəxs tərəfindən nəqliyyat vasitəsinin idarə olunması, hansının yoxdur:

a) **sürücülük vəsiqəsi, sürücülük vəsiqəsindən məhrum edildikdə, - nəqliyyat vasitəsini idarə etmək üçün müvəqqəti icazə;**

b) **nəqliyyat vəsiqəsinin qeydiyyat sənədi –**

c) **10 lari miqdarında cərimə edilir.**

2. Nasaz tormozlama sistemi, sükananın düzələsi mexanizmi və ya qoşqu qurğusu olan, yaxud da sıradan çıxmış faralar, sutkanın qaranlıq vaxtında arxa qabaritli işılqarı, yaxud yağış və ya qar yağanda şüşə silgəci mexanizmi nasaz olan və ya mühərrikin qida sisteminin hermetikliyi pozulan nəqliyyat vasitəsini idarə etmək, –

15 lari miqdarında cərimə edilir.

3. Tüstüsündə təyin edilən normadan artıq olan çirkləndirici maddələrin tərkibi olan nəqliyyat vasitəsini idarə etmək,

30 lari miqdarında cərimə edilir.

4. Nəqliyyat vasitəsinin istismarını həyata keçirən hüquqi şəxs və ya özəl sahibkar tərəfindən bu maddənin 2-ci və 3-cü hissələri ilə nəzərdə tutulan texniki cəhətdən nasaz nəqliyyat vasitəsinin istismara buraxılmasına görə, -

- nəqliyyat vasitəsinin istismarını həyata keçirən hüquqi şəxs və ya özəl sahibkar 100 lari miqdarında cərimə edilir.

**5. Əldə düzəldilən (yanacaq çəni, mühərrik düzəldilmiş və ya təbii qaz sistemi quraşdırılıb və ya nəqliyyat vasitəsinin konstruksiyası başqa cürdür və yol hərəkətininn təhlükəsizliyinin təmin edilməsi tələblərinə və ya istehsalçı-zavod standartlarına uyğun deyil) nəqliyyat vasitəsinin idarə olunmasına görə,**

**- 100 lari miqdarında cərimə edilir.**

**6. İdarə etdiyi nəqliyyat vasitəsinə uyğun kateqoriyalı sürücülük vəsiqəsi olmayan şəxs tərəfindən nəqliyyat vasitəsinin idarə olunması, –**

200 lari miqdarında cərimə edilir**.**

7.Gürcüstan Daxili İşlər Nazirliyi patrul polisinin razılığı xaricində şüşələri tündləşdirilmiş nəqliyyat vasitəsinin idarə olunması,

- 50 lari miqdarında cərimə edilir.

**8. Bu maddə ilə nəzərdə tutulmuş hüquq pozuntuları, hansıların nəticəsində nəqliyyat vasitəsinin, yükün, yolun, yol və ya digər qurğuların, eləcə də digər əmlakın və ya insanın bədəninə yüngül xəsarət yetirmək, -**

**- 300 lari miqdarında cərimə edilir.**

Qeyd:

1. Bu məcəllənin 116-cı, 117-ci, 118-ci, $118^1$, $118^2$, 119-cu, 120-ci, 121-ci, $121^1$, 123-cü, 125-ci və $127^1$ maddələri ilə nəzərdə tutulmuş hüquq pozuntuları üzrə sürücülük vəsiqəsinin və ya nəqliyyat vasitəsinin qeydiyyat sənədlərinin olmadığı halda, hüququ pozanın işini araşdırana qədər nəqliyyat vasitəsindən müvəqqəti məhrum edilir və maşın xüsusi mühafizə olunan duracaqda yerləşdiriləcək; nəql edilmə və duracaqda saxlanma xərcləri hüququ pozana şamil edilir; nəqliyyat vasitəsi sahibinə nəqliyyat vasitəsinin qeydiyyat vəsiqəsini və ya etibarnaməni təqdim etdidkən sonra qaytarılacaqdır. Nəqliyyat vasitəsi ilə hərəkət etməyə icazə verilmir, əgər ki, onun elə bir texniki nasazlığı var ki, bu zaman nəqliyyat vasitəsinin istismarı qadağandır.

2. Çıxarılşmışdır

3. Bu məcəllədə qeyd edilən nəqliyyat vasitəsi olaraq bütün növ avtomobil, traktor və digər özügedən maşın, tramvay və trolleybus, eləcə də motosiklet və s. mühərriklə hərəkət edən mexaniki nəqliyyat vasitəsi (mopeddən başqa) hesab edilir.

4. Cərimənin könüllü ödənilməsi üçün bu məcəllənin 290-cı maddəsinin birinci hissəsi ilə müəyyənləşdirilmiş müddət bitdikdən sonra bu maddənin birinci, 2-ci, 3-cü, 4-cü, 5-ci və 7-ci hissələri ilə nəzərdə tutulmuş hüquq pozuntuları üçün şəxsə 150 lari miqdarında cərimə təsis edilir, 290-cı maddənin $1^1$ hissəsi ilə müəyyənləşdirilmiş müddətdə cərimə ödənilmədikdə isə, cərimə nəqliyyat vasitəsini idarə etmək hüququndan 1 il müddətində məhrum etmə ilə əvəz olunur.

5. Cərimənin könüllü ödənilməsi üçün bu məcəllənin 290-cı maddəsinin birinci hissəsi ilə müəyyənləşdirilmiş müddət bitdikdən sonra bu maddənin 6-cı və 8-ci hissələri ilə nəzərdə tutulmuş hüquq pozuntuları üçün şəxsə 150 lari miqdarında cərimə təsis edilir, 290-cı maddənin $1^1$ hissəsi ilə müəyyənləşdirilmiş müddətdə cərimə ödənilmədikdə isə, cərimə nəqliyyat vasitəsini idarə etmək hüququndan 1 il müddətində məhrum etmə ilə əvəz olunur.

6. Cərimənin məcburi ödənilməsi və ya cərimənin nəqliyyat vasitəsini idarə etmək hüququndan məhrum edilməsi ilə dəyişdirilməsi şəxsi əlavə cərimə ödəməkdən azad etmir.

7. Bu maddənin 7-ci hissəsi ilə nəzərdə tutulmuş məsuliyyət həmin şəxsə aid edilmir, hansının nəqliyyat vasitəsinin şüşələrinin tündləşdirilməsi Gürcüstan Daxili İşlər Nazirliyinin patrul polisinin razılığını tələb etmir.

**Kazus**

Kutaisidə Tabidze küçəsində patrul tərəfindən VAZ – 2109 avtomobili dayandırıldı. Onun sürücüsü Vaxtanq Qoquadzeni yoxladıqda məlum oldu ki, onun üzərində nəqliyyat vasitəsinin qeydiyyat sənədləri yoxdur.

Qeyd edilən hal 119-cu maddənin I hissəsinin "Q" bəndi ilə nəzərdə tutulmuş halın əlamətlərindən ibarətdir. Elə bu maddənin qeydinin I bəndinə əsasən iş araşdırılana qədər hüququ pozan şəxs müvəqqəti nəqliyyat vasitəsindən məhrum olunur və maşın xüsusi mühafizə olunan duracaqda yerləşdirilir; nəql edilmə (lazım gəldikdə, evakuatorla daşınma) və duracaqda saxlanma xərcləri hüququ pozana şamil edilir.

**Maddə $119^1$. Yol örtüyünün çirkləndirilməsi və zədələnməsi**

1. Yol örtüyünün çirkləndirilməsinə və zədələnməsinə səbəb olan tikinti və ya digər materialların, tullantıların yük yeri və ya qoşqu qurğusu nasaz olan nəqliyyat vasitələri ilə daşınmasına görə,

- 300 lari miqdarında cərimə edilir.

2. Eyni əməl, təkrar törədildiyinə görə, -

900 lari miqdarında cərimə olunur. (24.07.2006. N3500)

**Maddə 120. Nəqliyyat vasitələrində xüsusi ucadan danışan, işıqlandıran və səsli cihazların quraşdırılması qaydalarının pozulması və ya onun təyinatı xaricində istifadəsi**

1. Nəqliyyat vasitələrində xüsusi ucadan danışan, işıqlandıran və səsli cihazların Gürcüstan Daxili İşlər Nazirliyinin icazəsi xaricində quraşdırılması, yaxud da operativ və ya xüsusi xudmətin avtomobili üçün ayrılan rəngin qeyri-qanuni istifadəsinə görə, -

- 100 lari miqdarında cərimə olunur, eləcə də xüsusi cihaz müsadirə olunur.

2. Bu maddənin birinci hissəsində qeyd edilən xüsusi cihazın təyinatı xaricində istifadəsi və ya belə bir cihazla təchiz edilən nəqliyyat vasitəsinin maneəsiz buraxılma qaydalarının pozulmasına görə, -

- 30 lari miqdarında cərimə olunur.

3. Xüsusi siqnallar qoşulmuş və ya hansılar eskortu həyata keçirən və ya eskortu müşayiət edən nəqliyyat vasitələrinin hərəkətinə mane olmağa görə, -

nəqliyyat vasitəsini idarə etmək hüququndan 1 il müddətində məhrum edilir, Gürcüstan ərazisində olan xarici vətəndaş və ya vətəndaşlığı olmayan şəxs (Gürcüstan qanunları və Gürcüstan beynəlxalq müqavilələri və razılıqları əsasında immunitetlə faydalanan şəxsdən başqa) beş yüz lari miqdarında cərimə olunur.

4. Bu maddənin 2-ci və 3-cü hissələri ilə nəzərdə tutulmuş hüquq pozuntuları, hansıların nəticəsində nəqliyyat vasitəsinə, yola, yol qurğusuna və ya digər qurğularına, eləcə də digər əmlaka və ya insan bədəninə yüngül xəsarət yetirmək,

- nəqliyyat vasitəsini idarə etmək hüququndan 1 il müddətində məhrum edilir, Gürcüstan ərazisində olan xarici vətəndaş və ya vətəndaşlığı olmayan şəxs (Gürcüstan qanunları və Gürcüstan beynəlxalq müqavilələri və razılıqları əsasında immunitetlə faydalanan şəxsdən başqa) beş yüz lari miqdarında cərimə olunur.

Qeyd:

1. Gürcüstan Qanunvericiliyi ilə təyin edilən qaydaları pozmaqla xüsusi işıq cihazının nəqliyyat vasitəsində və ya onun salonunda yol hərəkətinin digər iştirakçıları üçün nəzərə çarpan yerdə (işlək vəziyyətdə ə ya bunsuz) qeyri-qanuni hesab ediləcək.

2. Xüsusi ucadan danışan, işıqverən və ya səsli cihazlar təyinatı xaricində istifadə olunmuş hesab olunurlar, əgər ki, bu cihazın istifadəsi operativ və ya xüsusi vasitənin təyinatından irəli gələrək tapşırığı yerinə yetirməklə əlaqədar deyil.

3. Bu maddənin 4-cü hissəsi ilə nəzərdə tutulan hüquq pozuntularını törətdikdə, hüququ pozan tərəfindən ziyanın könüllü ödənilməsi halında, əgər zərərçəkən inzibati xətalar işində qəbul edilən qərarı şikayətləndirməzsə, işə baxan orqan nəqliyyat vasitəsini idarə etmək hüququndan məhrum etməni 500 lari miqdarında cərimə ilə əvəz edə bilər.

4. Cərimənin könüllü ödənilməsi üçün bu məcəllənin 290-cı maddəsinin birinci hissəsi ilə müəyyənləşdirilmiş müddət bitdikdən sonra bu maddənin 3-cü və 4-cü hissələri ilə nəzərdə tutulmuş, eləcə də bu maddənin qeydinin 3-cü və 4-cü hissələri ilə hüquq pozuntuları üçün şəxsə 500 lari miqdarında cərimə təsis edilir, 290-cı maddənin $1^1$ hissəsi ilə müəyyənləşdirilmiş müddətdə cərimə ödənilmədikdə isə, cərimə nəqliyyat vasitəsini idarə etmək hüququndan 2 il müddətində məhrum etmə ilə əvəz olunur.

5. Cərimənin könüllü ödənilməsi üçün bu məcəllənin 290-cı maddəsinin birinci hissəsi ilə müəyyənləşdirilmiş müddət bitdikdən sonra bu maddənin 1-ci və 2-ci hissələri ilə nəzərdə tutulmuş hüquq pozuntuları üçün şəxsə 150 lari miqdarında cərimə təsis edilir, 290-cı maddənin $1^1$ hissəsi ilə müəyyənləşdirilmiş müddətdə cərimə ödənilmədikdə isə, cərimə nəqliyyat vasitəsini idarə etmək hüququndan 1 il müddətində məhrum etmə ilə əvəz olunur.

6. Cərimənin məcburi ödənilməsi və ya cərimənin nəqliyyat vasitəsini idarə etmək hüququndan məhrum edilməsi ilə dəyişdirilməsi şəxsi əlavə cərimə ödəməkdən azad etmir.

7. Əgər patrul polisi bu maddənin 2-ci, 3-cü və 4-cü hissələri ilə nəzərdə tutulmuş hüquq pozuntusu faktına hadisə yerində cərimə qəbzini yazmazsa və hüquq pozuntusunun bu faktı video-lentə və ya fotolentə alınarsa, o zaman bu maddə ilə nəzərdə tutulmuş cərimənin ödənilməsi nəqliyyat vasitəsinin sahibinə aid edilir. Cərimə qəbzi qeydiyyat yerinə əsasən nəqliyyat vasitəsinin sahibinə göndəriləcəkdir. Bu məcəllənin 290-cı maddəsinin birinci hissəsi ilə müəyyənləşdirilmiş müddətdə cərimə ödənilmədiyi halda maşın sahibinə bu maddə ilə nəzərdə tutulmuş müvafiq miqdarda cərimə təsis edilir. Cərimə təsis edildikdən 30 gün müddətində cərimə ödənilmədikdə nəqliyyat vasitəsinin realizasiyası cərimənin ödənilməsini təmin etmək məqsədilə Gürcüstan Qanunvericiliyi ilə təyin edilən qayda ilə həyata keçirilir.

**Maddə 121. Nəqliyyat vasitəsinin sürücülük hüququ olmayan və ya bu huquqdan başqa pozuntular üzündən məhrum edilən şəxs tərəfindən idarə olunması və ya nəqliyyat vasitəsini idarə etmək üçün həddi-büluğa çatmamışa və ya sürücülük hüququ olmayan şəxsə və ya bu huquqdan başqa pozuntular üzündən məhrum edilmiş şəxsə verilməsi (28.04.2006. N2962)**

1. Nəqliyyat vasitəsinin sürücülük hüququ olmayan və ya bu huquqdan başqa pozuntular üçün məhrum edilən şəxs tərəfindən idarə olunması –

Nəqliyyat vasitəsinin istismarını həyata keçirən şəxs 200 lari miqdarında cərimə edilir.

$1^1$. çıxarılmışdır (25.12.2009. N2456)

2. nəqliyyat vasitəsini idarə etmək üçün həddi-büluğa çatmamışa və ya sürücülük hüququ olmayan şəxsə və ya bu huquqdan başqa pozuntulara görə məhrum edilmiş şəxsə, –

Nəqliyyat vasitəsinin sahibi 200 lari miqdarında cərimə edilir.

2. Bu maddənin birinci və 2-ci hissələri ilə nəzərdə tutulmuş hüquq pozuntuları, nəticədə nəqliyyat vasitəsinə, yükə, yola və ya yol qurğularına, eləcə də əmlaka və ya insan bədəninə yüngül xəsarət yetirmək, -

400 lari miqdarında cərimə edilir.

3. Bu maddə ilə nəzərdə tutulmuş hüquq pozuntuları, il ərzində təkrar törədilmişdirsə, -

– 500 lari miqdarında cərimə edilir və ya 90 günlük inzibati məhkumluq təsis edilir. 25.12.2009. N2456)

**Qeyd:**

1. Cərimənin könüllü ödənilməsi üçün bu məcəllənin 290-cı maddəsinin birinci hissəsi ilə müəyyənləşdirilmiş müddət bitdikdən sonra bu maddə ilə nəzərdə tutulmuş hüquq pozuntuları üçün şəxsə 500 lari miqdarında cərimə təsis edilir, 290-cı maddənin $1^1$ hissəsi ilə müəyyənləşdirilmiş müddətdə cərimə ödənilmədikdə isə, cərimə nəqliyyat vasitəsini idarə etmək hüququndan 2 il müddətində məhrum etmə ilə əvəz olunur.

2. Bu maddə ilə nəzərdə tutulmuş hüquq pozuntularını törətdikdə, şəxsin nəqliyyat vasitəsini idarə etmək hüququ olmur və o, sürücülük hüququnu əldə etmək imtahanına öhdəsinə verilmiş cəriməni ödədikdən sonra buraxılır.

3. Cərimənin ödənilməsi və ya cərimənin nəqliyyat vasitəsini idarə etmək hüququndan məhrum edilməsi ilə dəyişdirilməsi şəxsi cərimə ödəməkdən azad etmir.

Kazus

Qoderdzi Kiğuradze sürücülük hüququ olmayan övladı Şalva Kiğuradzeyə qonşu kəndə getmək üçün şəxsi avtomobilini verdi. Şalva Kiğuradze patrul tərəfindən saxlanıldı.

Qeyd edilən halda Qoderdzi Kiğuradze 121-ci maddənin II hissəsi ilə nəzərdə tutulan hüquq pozuntusuna yol verib. Bu, ona qarşı tərtib olunan inzibati xətalar protokolunda qeyd edilir, amma nəzərimizdən o şərait yayınmamalıdır ki, əgər Şalva Kiğuradzenin inzibati xəta törətdiyi anda 16 yaşı yox idisə, o zaman 121-ci maddənin I hissəsinə müvafiq olaraq məsuliyyətə cəlb olunma məsələsi də qaldırılacaq.

Kazus

Vətəndaş Qiorqi Dzneladzenin ürək tutması ilə halı pisləşdi, təcili tibbi yardımla əlaqə yarada bilmədiyinə görə, Qiorqinin həyat yoldaşı qonşu Kaxa Qabiskoriyadan onların şəxsi avtomobilləri ilə xəstəni tibb müəssisəsinə çatdırmağı xahiş etdi. Kaxa Qiorqinin həyat yoldaşına açıqladı ki, onun sürücülük vəsiqəsi yoxdur, amma təkrar xahişə rədd cavabı verə bilmədi və sükan arxasına keçdi. Sürəti aşmasına görə avtomobil yolunun hissələrindən birində sükanı idarə edə bilməyib qarşılıqlı tərəfə keçdi və qarşıdan gələn mikroavtobusla toqquşdu. Hadisə nəticəsində hər iki nəqliyyat vasitələrinin sərnişinləri müxtəlif bədən xəsarəti aldılar.

Bu halda vəziyyət həqiqətən də mürəkkəbdir və əlbəttə ki, bur neçə hüquq pozuntularının əlamətləri göz önündədir: 121-ci maddənin I hissəsi ilə nəqliyyat vasitəsini sürücülük vəsiqəsi xaricində idarə etmək, sürət həddinin aşması və nəticədə yol nəqliyyat hadisəsi 125, III. Əgər yol-nəqliyyat hadisəsi nəticəsində sağlamlığa ağır xəsarət yetirilməsi qeyd edilirsə, o zaman cinayət əlamətləri də aşkardır və işi araşdıran orqan (vəzifəli şəxs) onu istintaq orqanına verməlidir.

**Maddə 121$^{1}$. Nəqliyyat vasitəsinin sürücülük vəsiqəsindən qeyri-qanuni şəkildə faydalanmaq**

Nəqliyyat vasitəsinin sürücüsü tərəfindən əvvəllər itirilmiş və ya zədələnmiş və onun əvəzinə verilmiş sürücülük vəsiqələri ilə eyni vaxtda faydalanmaq və ya şəxs tərəfindən əvəzinə sürücülük vəsiqəsi almaq məqsədilə sürücülük vəsiqəsinin itirilməsi, zədələnməsi və ya məhv edilməsi barədə səlahiyyəti orqan üçün yanlış informasiyanın verilməsi, -

150 lari miqdarında cərimə edilir.

Qeyd:

1. Cərimənin könüllü ödənilməsi üçün bu məcəllənin 290-cı maddəsinin birinci hissəsi ilə müəyyənləşdirilmiş müddət bitdikdən sonra bu maddə ilə nəzərdə tutulmuş hüquq pozuntuları üçün şəxsə 500 lari miqdarında cərimə təsis edilir, 290-cı maddənin 1$^{1}$ hissəsi ilə müəyyənləşdirilmiş müddətdə cərimə ödənilmədikdə isə, cərimə nəqliyyat vasitəsini idarə etmək hüququndan 2 il müddətində məhrum etmə ilə əvəz olunur.

2. Cərimənin ödənilməsi və ya cərimənin nəqliyyat vasitəsini idarə etmək hüququndan məhrum edilməsi ilə dəyişdirilməsi şəxsi cərimə ödəməkdən azad etmir.

**Maddə 122. Nəqliyyat vasitəsinin dövlət nömrə nişanı xaricində və ya nəqliyyat vasitəsinin qeydiyyatının təyin edilən qaydaların pozuntusu ilə idarə olunması**

1. Nəqliyyat vasitəsinin bilərəkdən dövlət nömrə nişanı xaricində, yaxud da başqa şəkildə dəyişdirilmiş dövlət nömrə nişanı ilə və ya nəqliyyat vasitəsinin ön şüşəsinə bərkidilmiş dövlət nömrə nişanı ilə idarə olunmasına görə, -

- 100 lari miqdarında cərimə olunur.

2. Nəqliyyat vasitəsinin təyin edilən qayda pozuntusu ilə idarə olunması, -

- 300 lari miqdarında cərimə olunur.

3. Nəqliyyat vasitəsinin bilərəkdən başqasının və ya maskalanmış dövlət nömrə nişanı ilə idarə olunması, -

500 lari miqdarında cərimə olunur.

Qeyd:

1. Bu maddənin birinci və 3-cü hissələri ilə nəzərdə tutulmuş hüquq pozuntuları törədildikdə (nəqliyyat vasitəsinin ön şüşəsinə bərkidilmiş dövlət nömrə nişanı ilə nəqliyyat vasitəsinin idarə olunmasından başqa, əgər ki, dövlət nömrə nişanının dəyişdirilməsi haqqında əsaslı şübhə yoxdursa), hüququ pozanın işinə baxılana qədər nəqliyyat vasitəsini idarə etməkdən müvəqqəti məhrum edilir və maşın xüsusi mühafizə olunan duracağa aparılır; nəql olunma və duracaqda saxlanma xərcləri hüququ pozana şamil edilir. Nəqliyyat vasitəsi sahibinə nəqliyyat vasitəsinin qeydiyyat vəsiqəsinin və ya etibarnamənin təqdim olunmasından sonra qaytarılacaqdır.

2. Bu maddənin 2-ci hissəsi ilə nəzərdə tutulmuş hüquq pozuntusu törədildikdə inzibati xəta protokolu tərtib edilir və hüququ pozana tərtib edilən nümunə arayışı verilir, onun təsiri müddətində nəqliyyat vasitəsinin sürücüsü nəqliyyat vasitəsini qeydiyyatdan keçirməlidir. Nəqliyyat vasitəsinin qeydiyyatdan keçirilmədiyi halda, nəqliyyat vasitəsinin istismarı qadağan edilir.

3. Bu maddənin 2-ci bəndində verilən arayış formasını və onun doldurulma qaydasını Gürcüstan Daxili İşlər naziri təsdiq edir.

„4. Cərimənin könüllü ödənilməsi üçün bu məcəllənin 290-cı maddəsinin birinci hissəsi ilə müəyyənləşdirilmiş müddət bitdikdən sonra bu maddə ilə nəzərdə tutulmuş hüquq pozuntuları üçün şəxsə 150 lari miqdarında cərimə təsis edilir, 290-cı

maddənin 1[1] hissəsi ilə müəyyənləşdirilmiş müddətdə cərimə ödənilmədikdə isə, cərimə nəqliyyat vasitəsini idarə etmək hüququndan 1 il müddətində məhrum etmə ilə əvəz olunur.

5. Cərimənin könüllü ödənilməsi üçün bu məcəllənin 290-cı maddəsinin birinci hissəsi ilə müəyyənləşdirilmiş müddət bitdikdən sonra bu maddənin 2-ci və 3-cü hissələri ilə nəzərdə tutulmuş hüquq pozuntuları üçün şəxsə 500 lari miqdarında cərimə təsis edilir, 290-cı maddənin 1[1] hissəsi ilə müəyyənləşdirilmiş müddətdə cərimə ödənilmədikdə isə, cərimə nəqliyyat vasitəsini idarə etmək hüququndan 2 il müddətində məhrum etmə ilə əvəz olunur.

6. Cərimənin məcburi ödənilməsi və ya cərimənin nəqliyyat vasitəsini idarə etmək hüququndan məhrum edilməsi ilə dəyişdirilməsi şəxsi cərimə ödəməkdən azad etmir.

7. Əgər patrul polisi bu maddənin 2-ci, 3-cü və 4-cü hissələri ilə nəzərdə tutulmuş hüquq pozuntusu faktına hadisə yerində cərimə qəbzini yazmazsa və hüquq pozuntusunun bu faktı video-lentə və ya fotolentə alınarsa, o zaman bu maddə ilə nəzərdə tutulmuş cərimənin ödənilməsi nəqliyyat vasitəsinin sahibinə aid edilir. Cərimə qəbzi qeydiyyat yerinə əsasən nəqliyyat vasitəsinin sahibinə göndəriləcəkdir. Bu məcəllənin 290-cı maddəsinin birinci hissəsi ilə müəyyənləşdirilmiş müddətdə cərimə ödənilmədiyi halda maşın sahibinə bu maddə ilə nəzərdə tutulmuş müvafiq miqdarda cərimə təsis edilir. Cərimə təsis edildikdən 30 gün müddətində cərimə ödənilmədikdə nəqliyyat vasitəsinin realizasiyası cərimənin ödənilməsini təmin etmək məqsədilə Gürcüstan Qanunvericiliyi ilə təyin edilən qayda ilə həyata keçirilir.

**Maddə 123. Yol-nəqliyyat hadisəsi yerini tərk etmək və ya nəqliyyat vasitəsinin dayandırılması haqqında polisin tələbini yerinə yetirməmək**

1. Nəqliyyat vasitəsinin saxlanılması haqqında yol hərəkəti iştirakçılarının təhlükəsizliyini təmin edən və yol hərəkəti qaydalarının mühafizəsinə nəzarət edən polisin tələbini yerinə yeirməmək, yaxud da yol-nəqliyyat hadisəsinin iştirakçısı olan sürücü tərəfindən hadisə yerini tərk etmək, -

300 lari miqdarında cərimə olunur və ya nəqliyyat vasitəsini 1 il müddətinə idarə etməkdən məhrum edilir.

2. Bu maddənin birinci hissəsi ilə nəzərdə tutulmuş hüquq pozuntular, bunların nəticəsində qəza halı yarandıqda və ya hərəkətə mane olunduqda, -

500 lari miqdarında cərimə edilir və ya 90 günə qədər müddətdə inzibati məhkum edilir və ya 2 ilə qədər müddətdə sürücülük hüququndan məhrum edilir. *(17.07.2009 N 1505)*

Qeyd:

1. Cərimənin könüllü ödənilməsi üçün bu məcəllənin 290-cı maddəsinin birinci hissəsi ilə müəyyənləşdirilmiş müddət bitdikdən sonra bu maddə ilə nəzərdə tutulmuş hüquq pozuntuları üçün şəxsə 500 lari miqdarında cərimə təsis edilir, 290-cı maddənin 1[1] hissəsi ilə müəyyənləşdirilmiş müddətdə cərimə ödənilmədikdə isə, cərimə nəqliyyat vasitəsini idarə etmək hüququndan 2 il müddətində məhrum etmə ilə əvəz olunur.*(22.7.007 N 5027)*

2. Cərimənin ödənilməsi və ya cərimənin nəqliyyat vasitəsini idarə etmək hüququndan məhrum edilməsi ilə dəyişdirilməsi şəxsi cərimə ödəməkdən azad etmir.

3. Əgər patrul polisi bu maddə ilə nəzərdə tutulmuş hüquq pozuntusu faktına hadisə yerində cərimə qəbzini yazmazsa və hüquq pozuntusunun bu faktı video-lentə və ya fotolentə alınarsa, o zaman bu maddə ilə nəzərdə tutulmuş cərimənin ödənilməsi nəqliyyat vasitəsinin sahibinə aid edilir. Cərimə qəbzi qeydiyyat yerinə əsasən nəqliyyat vasitəsinin sahibinə göndəriləcəkdir. Bu məcəllənin 290-cı maddəsinin birinci hissəsi ilə müəyyənləşdirilmiş müddətdə cərimə ödənilmədiyi halda maşın sahibinə bu maddə ilə nəzərdə tutulmuş müvafiq miqdarda cərimə təsis edilir. Cərimə təsis edildikdən 30 gün müddətində cərimə ödənilmədikdə nəqliyyat vasitəsinin realizasiyası cərimənin ödənilməsini təmin etmək məqsədilə Gürcüstan Qanunvericiliyi ilə təyin edilən qayda ilə həyata keçirilir. *(8.05.2007 N4707)*

4. Bu maddə ilə nəzərdə tutulmuş hüquq pozuntusu halında xüsusi mühitlər aşkar olunduqda, işi araşdıran orqan nəqliyyat vasitəsini idarə etmə hüququndan məhrum etməni 500 lari miqdarında cərimə ilə əvəz edə bilər.

**Maddə 125. Nəqliyyat vasitəsinin sürücüsü tərəfindən yol hərəkəti qaydarının pozulması (28.04.2006. N2962)**

1. Nəqliyyat vasitəsinin sürücüsü tərəfindən hərəkətin təyin edilən sürətinin 15 km/saatdan artıq sürətlə aşması, -

100 lari miqdarında cərimə edilir.

2. Bu maddənin birinci hissəsi ilə nəzərdə tutulmuş hüquq pozuntusu, şəhərdə yerli müntəzəm sərnişin daşınmasını həyata keçirən şəxs tərəfindən törədilməsi,-

Bir ay müddətinə sürücülük hüququndan məhrum edilir.

3. Bu maddənin birinci hissəsi ilə nəzərdə tutulmuş hüquq pozuntusu, Gürcüstanın beynəlxalq müqavilələr və razılaşmalarla təyin edilən beynəlxalq müntəzəm sərnişin daşınmasını həyata keçirən şəxs tərəfindən törədilməsi,-

300 lari miqdarında cərimə olunur.

4. Bu maddənin birinci hissəsi ilə nəzərdə tutulmuş hüquq pozuntusu, bunun nəticəsində qəza vəziyyəti yarandıqda və ya hərəkətə mane olunduqda, -

250 lari miqdarında cərimə olunur.

5. Bu maddənin birinci hissəsi ilə nəzərdə tutulmuş hüquq pozuntusu, bunun nəticəsində nəqliyyat vasitəsinə, yükə, yola və yol qurğusuna, eləcə də digər əmlaka və ya insan bədəninə yüngül xəsarət yetirildikdə, -

Nəqliyyat vasitəsini idarə etmək hüququndan1 il müdətinə məhrum olunur, Gürcüstan ərazisində olan xarici vətəndaş və ya vətəndaşlığı olmayan şəxs (Gürcüstan qanunları və Gürcüstan beynəlxalq müqavilələri və razılıqları əsasında immunitetlə faydalanan şəxsdən başqa) beş yüz lari miqdarında cərimə olunur.

6. Piyada keçidini keçdikdə, yolun hərəkət hissəsində nəqliyyat vasitələrinin düzülüşünün, yol nişanının və ya yolun hərəkət hissəsinin işarələnmə xətlərinin, yedəyə alınmanın, xarici işıq cihazları və ya səsli siqnalla faydalanmanın,

hərəkətə başlama və ya manevr etmənin, sürmə təliminin, yaşayış zonasında və ya avtomagistralda və eləcə də motosikletlə və ya digər nəqliyyat vasitəsi ilə qrupda hərəkətdə iştirak etmək şəhərdə və ya digər yaşayış məntəqəsində nəqliyyat vasitəsinin hərəkəti prioritetinin pozulması nəticəsində yol hərəkətinə mane olduğuna və ya hərəkətin təhlükəsizliyinə təhlükə yaratdığına görə, -

20 lari miqdarında cərimə olunur.

6[1]. nəqliyyat vasitələri ilə mütəşəkkil şəkildə yolu kəsmək və ya şəhərdə və ya digər yaşayış məntəqəsində dəstədə hərəkət etmək və nəticədə yolun hərəkət hissəsi tam tutulduğuna görə,

2 il müddətinə sürücülük hüququndan məhrum edilir. *(17.07.2009 N 1505)*

7. Nizamlayıcının və ya svetoforun qadağan nişanında keçid qaydalarına, üstünlük ("Yol ver", "dayanmadan hərəkət qadağandır") və ya qadağan ("giriş qadağandır", "hərəkət qadağandır") nişanının tələblərinə riayət etmək, qarşıdan gələn nəqliyyat axınını bölən ardıcıl ox xəttinin kəsişməsini, ötməni, yolayrıcını, dəmiryol keçidində keçmə qaydalarını pozmaq, keçid üstünlüyünə malik nəqliyyat vasitələri üçün maneə yaratmaq,

50 lari miqdarında cərimə edilir.

8. "Dayanmaq qadağandır" və "durmaq qadağandır" qadağan nişanının tələbinə əməl etməmək,– *(30.12.2008 N 956)*

10 lari miqdarında cərimə olunur.

8. Bu maddənin 6-cı, 7-ci və 8-ci hissələri ilə nəzərdə tutulmuş hüquq pozuntuları, bunların nəticəsində qəza vəziyyətinin yaranması və ya hərəkətə mane olunma, yaxud da qarşıdan gələn nəqliyyat axınını bölən ardıcıl ox xəttinin kəsişməsi nəticəsində yaranan tıxaca görə,

100 lari miqdarında cərimə edilir.

9. Bu maddənin 6-cı, 7-cı və 8-ci hissələri ilə nəzərdə tutulmuş hüquq pozuntuları, bunların nəticəsində nəqliyyat vasitəsinə, yükə, yola və ya yol qurğularına, eləcə də əmlaka və ya insan bədəninə yüngül xəsarət yetirilməsi,

250 lari miqdarında cərimə edilir.

Qeyd:

1. Tərk olunmuş nəqliyyat vasitəsi xüsusi mühafizə olunan duracağa keçirilir və ya nəqliyyat vasitələrinin təkərləri xüsusi vasitə ilə bloklaşdırılır, əgər ki, bu barədə qadağan nişanını qeyd müşaiyət edirsə; nəql olunma və duracaqda saxlanma xərcləri hüququ pozana həvalə olunur. Nəqliyyat vasitəsinin sahibinə qaytarılması nəql olunma və duracaqda saxlanma xərclərinin ödənilməsini təsdiq edən sənədin, nəqliyyat vasitəsinin qeydiyyat vəsiqəsinin və ya etibarnamə və şəxsiyyəti təsdiq edən sənədin təqdim olunmasından sonra geri qaytarılır. Əgər nəqliyyat vasitəsinin nəqli mümkün deyilsə, o zaman nəqliyyat vasitəsinin sürücüsünə təyin edildiyindən sonra hüququ pozan bu məcəllə ilə təyin edilən qayda əsasında cərimə şamil edilir.

2. Bu maddənin 5-ci hissəsi ilə nəzərdə tutulmuş hüquq pozuntuları törədildikdə, hüququ pozan tərəfindən ziyanın könüllü ödənildiyi halda, əgər zərərçəkən inzibati xəta işində qəbul edilən qərarı şikayətləndirməzsə, o zaman işi araşdıran orqan nəqliyyat vasitəsini idarə etmək hüququndan məhrum etməni 500 lari miqdarında cərimə ilə əvəz edə bilər.

2[1]. Bu maddənin 6[1] hissəsi ilə nəzərdə tutulmuş hüquq pozuntusu halında xüsusi hallar müşahidə olunduqda, işi araşdıran orqan nəqliyyat vasitəsini idarə etmək hüququndan məhrum etməni 500 lari miqdarında cərimə ilə əvəz edə bilər.

3. Cərimənin könüllü ödənilməsi üçün bu məcəllənin 290-cı maddəsinin birinci hissəsi ilə müəyyənləşdirilmiş müddət bitdikdən sonra bu maddənin birinci, 3-cü, 4-cü, 5-ci və 10-cu hissələri ilə nəzərdə tutulmuş hüquq pozuntuları üçün şəxsə 500 lari miqdarında cərimə təsis edilir, 290-cı maddənin 1[1] hissəsi ilə müəyyənləşdirilmiş müddətdə cərimə ödənilmədikdə isə, cərimə nəqliyyat vasitəsini idarə etmək hüququndan 2 il müddətində məhrum etmə ilə əvəz olunur.

4. Cərimənin könüllü ödənilməsi üçün bu məcəllənin 290-cı maddəsinin birinci hissəsi ilə müəyyənləşdirilmiş müddət bitdikdən sonra bu maddənin birinci, 6-cı, 7-cı,8-ci və 9-cu hissələri ilə nəzərdə tutulmuş hüquq pozuntuları üçün şəxsə 150 lari miqdarında cərimə təsis edilir, 290-cı maddənin 1[1] hissəsi ilə müəyyənləşdirilmiş müddətdə cərimə ödənilmədikdə isə, cərimə nəqliyyat vasitəsini idarə etmək hüququndan 1 il müddətində məhrum etmə ilə əvəz olunur.

4[1]. Bu maddənin 8-ci hissəsi ilə nəzərdə tutulan hallarda sahibin təyin olunmadığı halda, məsuliyyət avtonəqliyyat vasitəsinin sahibkarının üzərinə düşür. *(30.12.2008 N 956)*

4[2]. Bu maddənin 8-ci hissəsi ilə nəzərdə tutulmuş cərimənin könüllü ödənilməsi üçün yerli özünüidrəetmə orqanının xüsusi xidmətləri və ya onlar tərəfindən səlahiyyətli fiziki və ya hüquqi şəxs tərəfindən protokolun tərtib edilməsindən bu məcəllənin 290-cı maddəsinin birinci hissəsi ilə müəyyənləşdirilmiş müddət bitdikdən sonra bu maddənin birinci hissəsi ilə nəzərdə tutulmuş hüquq pozuntuları üçün şəxsə 150 lari miqdarında cərimə təsis edilir. Cərimə təsis edildikdən 30 gün müddətində cərimə ödənilmədikdə nəqliyyat vasitəsinin realizasiyası cərimənin ödənilməsinin təmin edilməsi məqsədilə, Gürcüstan Qanunvericiliyi ilə təyin edilən qayda əsasında həyata keçirilir. *(30.12.2008 N 956)*

5. Cərimənin ödənilməsi və ya cərimənin nəqliyyat vasitəsini idarə etmək hüququndan məhrum edilməsi ilə dəyişdirilməsi şəxsi cərimə ödəməkdən azad etmir.

6 Əgər patrul polisi bu maddə ilə nəzərdə tutulmuş hüquq pozuntusu faktına hadisə yerində cərimə qəbzini yazmazsa və hüquq pozuntusunun bu faktı video-lentə və ya fotolentə alınarsa, o zaman bu maddə ilə nəzərdə tutulmuş cərimənin ödənilməsi nəqliyyat vasitəsinin sahibinə aid edilir. Cərimə qəbzi qeydiyyat yerinə əsasən nəqliyyat vasitəsinin sahibinə göndəriləcəkdir. Bu məcəllənin 290-cı maddəsinin birinci hissəsi ilə müəyyənləşdirilmiş müddətdə cərimə ödənilmədiyi halda maşın sahibinə bu maddə ilə nəzərdə tutulmuş müvafiq miqdarda cərimə təsis edilir. Cərimə təsis edildikdən 30 gün müddətində cərimə ödənilmədikdə nəqliyyat vasitəsinin realizasiyası cərimənin ödənilməsini təmin etmək məqsədilə Gürcüstan Qanunvericiliyi ilə təyin edilən qayda ilə həyata keçirilir. *(8.05.2007 N4707)*

Kazus

Mercedes markalı avtomobilin sürücüsü Petre Kombaladze Rustaveli prospektində hərəkət etdikdə qarşıdan gələn nəqliyyat axınını bölən ox xəttini keçdi. Bunun nəticəsində əks istiqamətdə hərəkət edən Opelin sol qanadına ziyan vurdu. Kobaladze avtomaşınını dayandırmayıb sürəti artıraraq hərəkətini istiqaməti ilə davam etdirdi. Sonra o, patrul tərəfindən dayandırıldı.

Bu halda Kobaladze bir neçə hüquq pozuntusunu həyata keçirdi. 125-ci maddənin VII hissəsi ilə, yəni nəqliyyat axınını bölən ox xəttinin kəsişməsi, bunun nəticəsində nəqliyyat vasitəsinə yüngül xəsarət yetirildi, eləcə də 123-cü maddənin II yol-nəqliyyat hadisəsində iştirak edən sürücü tərəfindən hadisə yerini tərk etmək, hərəkətdə sürətin həddini aşması nişanələri də var. Amma bu əməli cinayətə aid etmək üçün onu texniki vasitə ilə (radar ilə) qeyd etmək lazımdır.

**Maddə $125^2$. Paytaxt ərazisində avtonəqliyyatın parklanma qaydalarının pozulması** *(8.06.2007 N4917)*

1. Paytaxt ərazisində parklanma yerində avtonəqliyyatın parklanması üçün özünüidarəetmə vahidi tərəfindən təyin edilən məbləğin ödənilməsi xaricində avtonəqliyyatın durması, -

10 lari miqdarında cərimənə səbəb olur, eləcə də həmin avtonəqliyyatın, hansı ki, parklanma yerində 12 saatdan artıq vaxt ərzində durur, yerli özünüidarəetmənin müvafiq orqanı və ya onun tərəfindən səlahiyyətli şəxs xüsusi mühafizə olunan duracaqda, əgər bunun haqqında qeydi parklanma nişanı müşayiət edirsə. Nəql edilmə və duracaqda saxlanma xərcləri cərimə ilə birlikdə hüququ pozan sürücüyə və ya avtonəqliyyatın sahibinə şamil edilir. (20.10.2009. N1812)

2. Çıxarılmışdır (20.10.2009. N1812)
3. Çıxarılmışdır (20.10.2009. N1812)
4. Çıxarılmışdır (20.10.2009. N1812)
5. Çıxarılmışdır (20.10.2009. N1812)
6. 6. Paytaxt ərazisində yerli özünüidarəetmə orqanı tərəfindən təyin edilən avtonəqliyyatın parklanma qaydalarının digər pozuntusu, -

10 lari miqdarında cərimə olunur, bununla belə yerli özünüidarəetmə orqanının müvafiq orqanı və ya onun tərəfindən səlahiyyətli şəxs nəqliyyatı xüsusi mühafizə olunan duracağa keçirir və ya onun təkərlərini xüsusi alətlə qapayır, əgər ki, bunun haqqında qeyd parklanma nişanını müşayiət edirsə. Xüsusi duracağa keçirmək olar, əgər ki, avtonəqliyyat yol hərəkətinə mane olursa və ya hərəkətin təhlükəsizliyinə təhlükə yaradırsa.

Nəql edilmə və duracaqda saxlanma xərcləri cərimə ilə birlikdə hüququ pozan sürücüyə və ya avtonəqliyyatın sahibinə şamil edilir. (20.10.2009. N1812)

Qeyd: *(30.12.2008 N 956)*

1. Əgər nəqliyyat vasitəsi xüsusi mühafizə olunan duracağa keçirildikdə, avtonəqliyyat vasitəsi sahibinə nəql olunma və duracaqda saxlanma xərclərinin ödənilməsini təsdiq edən sənədin, avtonəqliyyat vasitəsinin qeydiyyat vəsiqəsi və şəxsiyyəti təsdiq edən sənədin təqdimindən sonra qaytarılır.
2. Bu maddə ilə nəzərdə tutulmuş hallarda sahibin təyin olmadığı halda məsuliyyət avtonəqliyyat sahibinin üzərinə düşür.
3. Bu maddə ilə nəzərdə tutulmuş hallarda cərimənin könüllü ödənilməsi üçün bu məcəllənin 290-cı maddəsinin birinci hissəsi ilə müəyyənləşdirilmiş müddət bitdikdən sonra bu maddə ilə nəzərdə tutulmuş hüquq pozuntuları üçün şəxsə 150 lari miqdarında cərimə təsis edilir, 290-cı maddənin $1^1$ hissəsi ilə müəyyənləşdirilmiş müddətdə cərimə ödənilmədikdə isə, nəqliyyat vasitəsinin realizasiyası Gürcüstan Qanunvericiliyi ilə təyin edilən qaydada cərimənin ödənilməsini təmin etmək üçün həyata keçirilir.

**Maddə $125^3$. Özünüidarəedən şəhər – Batumi ərazisində avtonəqliyyatın parklanma qaydalarının pozulması**

1. Özünüidarəedən şəhər – Batumi ərazisində özünüidarəetmə vahidi tərəfindən təyin edilən parklanmanın təşkili qaydalarının pozulması,

- fiziki şəxs 100 lari miqdarında cərimə olunur, hüquqi şəxs isə - 200 lari miqdarında.

2. Bu maddənin birinci hissəsi ilə nəzərdə tutulan cərimə öhdəliyindən sonra iki gün ərzində hüquq pozuntusunun düzəlməməsi,

-fiziki şəxs 200 lari miqdarında cərimə olunur, hüquqi şəxs isə - 400 lari miqdarında.

3. Bu maddənin birinci və ikinci hissələri ilə nəzərdə tutulmuş cərimələrin könüllü ödənilməməsində, bu məcəllənin 290-cı maddəsinin birinci hissəsi ilə müəyyən edilmiş vaxt keçdikdən sonra şəxsə tam dəyərində cərimə təsis edilir.
4. Özünüidarəedən şəhər – Batumi ərazisində avtonəqliyyatın parklanması üçün parklanma yeri özünüidarəetmə vahidi tərəfindən təyin edilən məbləğin ödənilməsi xaricində nəqliyyat vasitəsinin durması,

- 10 lari miqdarında cərimə edilir.

5. Avtonəqliyyat vasitəsinin sahibi tərəfindən özünüidarəedən şəhər – Batumi ərazisində parklanma qaydalarının digər pozuntusu,

- 10 lari miqdarında cərimə olunur.

6. Bu maddənin 4-cü və 5-ci hissələri ilə nəzərdə tutulmuş cərimələrin könüllü şəkildə ödənilməməsində, bu məcəllənin 290-cı maddəsinin birinci hissəsi ilə müəyyən edilmiş vaxt bitdikdən sonra şəxsə 150 lari miqdarında cərimə təsis olunur. Cərimə təsis edildikdən 30 gün ərzində avtonəqliyyatın realizasiyası Gürcüstan Qanunvericiliyi ilə təyin edilən qaydada cərimənin ödənilməsini təmin etmək üçün həyata keçirilir.
6. Bu maddə ilə nəzərdə tutulmuş halda sahibi təyin olmadıqda məsuliyyət nəqliyyat vasitəsinin sahibinin üzərinə düşür.
7. Nəqliyyat vasitəsinin xüsusi mühafizə olunan duracağa keçirilməsində onun nəql olunması və duracaqda saxlanma xərcləri cərimə ilə birlikdə hüququ pozana şamil edilir və ya bu maddə ilə nəzərdə tutulmuş halda, - avtonəqliyyat vasitəsinin sahibinə. Əgər nəqliyyat vasitəsi xüsusi mühafizə olunan duracağa keçirildikdə, avtonəqliyyat vasitəsi sahibinə nəql olunma və duracaqda saxlanma xərclərinin ödənilməsini təsdiq edən sənədin,

avtonəqliyyat vasitəsinin qeydiyyat vəsiqəsi və şəxsiyyəti təsdiq edən sənədin təqdimindən sonra qaytarılır.

**Qeyd:**

1. Bu maddənin 2-ci hissəsinin məqsədləri üçün hüquq pozuntusu düzəlmiş hesab ediləcək, əgər şəxs həmin maddənin birinci hissəsi ilə nəzərdə tutulmuş parklanma qaydalarını pozmazsa. Hüquq pozuntusunun qaydaya salınmamasına görə cərimə öhdəliyindən sonra həmin əməlin şəxs tərəfindən davam etdirilməsi yeni hüquq pozuntusu kimi hesab ediləcək və ona qarşı yenidən hüquq pozuntusu işi aparılacaqdır.

2. Bu maddənin 4-cü və 5-ci hissələri ilə nəzərdə tutulmuş hüquq pozuntusu törədildikdə avtonəqliyyat vasitəsi xüsusi mühafizə olunan duracağa keçiriləcək və ya avtonəqliyyat vasitəsinin təkərləri xüsusi cihazlarla qapaldılacaqdır, əgər ki, bu, avtonəqliyyat vasitəsinin parklanma qaydaları ilə təyin olunmuşdur və bu barədə qeyd parklanma nişanını müşayiət edir. Xüsusi müdafiə olunan duracağa keçirilməyə icazə verilir, əgər ki, nəqliyyat vasitəsi yol hərəkətinə mane olur və ya hərəkətin təhlükəsizliyinə təhlükə yaradır.

**Maddə 127. Piyadalar və ya digər yol hərəkəti iştirakçıları tərəfindən hərəkət qaydalarının pozulması, eləcə də avtomobil yolu boyunca mal-qaranın otlama qaydalarının pozulması** ***(23.06.2005 N 1753)***

1. Piyada, velosipedçi, yük daşıyan və yoldan istifadə edən digər şəxs tərəfindən yol hərəkətinin nizamlanma siqnalına tabe olmamaq, yol nişanının və ya yolun hərəkət hissəsinin nişanlama tələblərinə etinasız yanaşmaq,

- 3 lari miqdarında cərimə edilir.

2. Dövlət əhəmiyyətli avtomobil yolu boyunca iribuynuzlu və ya xırda mal-qaranın otlama qaydalarının pozulması,

- 10 lari miqdarında cərimə edilir.

3. Bu maddə ilə nəzərdə tutulmuş hüquq pozuntuları, bunların nəticəsində nəqliyyat vasitəsinə, yükə, yola və ya yol qurğularına, eləcə də əmlaka və ya insan bədəninə yüngül xəsarət yetirilməsi,

- 100 lari miqdarında cərimə edilir.

**Maddə 127¹. Avtomobil nəqliyyatı ilə sərnişin daşınması, yük daşınması, avtostansiyanın işinin, yol nəqliyyat vəsiqəsi və onun istifadəsi qaydalarının pozulması**

1. Gürcüstan Qanunvericiliyi ilə təyin edilən avtomobil nəqliyyatı ilə sərnişin daşınması və yük daşınması (bu məcəllənin 129-1 maddəsi ilə nəzərdə tutulmuş hallardan başqa) qaydalarının pozulması, - 30 lari miqdarında cərimə edilir.

2. Gürcüstan beynəlxalq müqavilələri, razılaşmaları və ya konvensiyaları ilə təyin edilən avtomobil nəqliyyatı ilə sərnişinlərin və yük daşınması (bu məcəllənin 129-1 maddəsi ilə nəzərdə tutulmuş hallardan başqa) qaydalarının pozulması, -

Beş yüz lari miqdarında cərimə edilir.

3. Avtostansiyanın iş qaydalarının pozulması,

- 300 lari miqdarında cərimə edilir.

4. Avtomobil nəqliyyatında yol nəqliyyat vəsiqəsini və onun istifadəsi qaydalarının pozulması, –
100 lari miqdarında cərimə edilir .

Qeyd:

1. Sürücü məcburdur ki, yol hərəkəti iştirakçılarının təhlükəsizliyini təmin edən və ya yol hərəkəti qaydalarına əməl edilməsinə nəzarət edən polis tələb etdikdə, ona yol nəqliyyat vəsiqəsini təqdim etsin. Yol nəqliyyat vəsiqəsinin olmadığı halda inzibati xəta protokolu tərtib edilir.

„2. Cərimənin könüllü ödənilməsi üçün bu məcəllənin 290-cı maddəsinin birinci hissəsi ilə müəyyənləşdirilmiş müddət bitdikdən sonra bu maddənin birinci hissəsi ilə nəzərdə tutulmuş hüquq pozuntuları üçün şəxsə150 lari miqdarında cərimə təsis edilir, 290-cı maddənin 1¹ hissəsi ilə müəyyənləşdirilmiş müddətdə cərimə ödənilmədikdə isə, cərimə nəqliyyat vasitəsini idarə etmək hüququndan 1 il müddətində məhrum etmə ilə əvəz olunur.

2. Cərimənin könüllü ödənilməsi üçün bu məcəllənin 290-cı maddəsinin birinci hissəsi ilə müəyyənləşdirilmiş müddət bitdikdən sonra bu maddənin 2-ci və 3-cü hissələri ilə nəzərdə tutulmuş hüquq pozuntuları üçün şəxsə 500 lari miqdarında cərimə təsis edilir, 290-cı maddənin 1¹ hissəsi ilə müəyyənləşdirilmiş müddətdə cərimə ödənilmədikdə isə, cərimə nəqliyyat vasitəsini idarə etmək hüququndan 2 il müddətində məhrum etmə ilə əvəz olunur.

Cərimənin məcburi ödənilməsi və ya cərimənin nəqliyyat vasitəsini idarə etmək hüququndan məhrum edilməsi ilə dəyişdirilməsi şəxsi cərimə ödəməkdən azad etmir.

**Maddə 129¹. Yükqaldırıcının təyin edilən normasından yuxarı avtonəqliyyat vasitəsi ilə yük daşınması (1.12.2009. N2214)**

Ümumi istifadədə olan avtomobil yollarında aparıcı və ya aparıcı olmayan oxunda maksimum yüklənmə 10 tondan artıq olan (bir aparıcı oxlu avtonəqliyyat vasitəsi, hansının aparıcı oxunda maksimum yüklənmə 11,5 tondan artıq olmamalıdır) və ya tam kütləsi 44 ton və ya daşınası yükün kütləsi – istehsalçı tərəfindən avtonəqliyyat vasitəsi üçün təyin edilən yükqaldırma səddindən artıq olan hər növ avtonəqliyyat vasitələri ilə hərəkət, -

- Avtonəqliyyat vasitəsinin operatoru və ya avtonəqliyyat vasitəsinin sahibi hər artıq tona görə 500 lari miqdarında (natamam tona cərimə mütənasib şəkildə hesablanır) cərimə edilir.

Qeyd:

1. Bu maddənin qüvvəsi yükü parçalanma/hissələrə bölünməyə aid olmayan yükə şamil edilmir və onun hərəkətinə Gürcüstan Qanunvericiliyinə müvafiq olaraq müəyyənləşdirilmiş tövsiyə təqdim edildikdə icazə verilir.

2. Bu maddənin qüvvəsi Gürcüstan ərazisinə daxil olduqda dəniz limanındakı gömrükxanadan keçməklə hərəkət edən avtonəqliyyat vasitəsinə şamil edilmir, hansı ki, sonra vergilər orqanı tərəfindən təyin edilən marşrutla, dəniz limanının ərazisindən ən yaxın, 10 km radiusda yerləşən, Gürcüstan Vergilər Məcəlləsi ilə nəzərdə tutulan yoxlanış zonasına tərəf hərəkət edir.

3. Bu maddənin qüvvəsi bu maddə ilə nəzərdə tutulan Gürcüstan ərazisinə daxil olduqda gömrükxanadan keçməklə hərəkət edən nəqliyyat vasitələrinə (istehsalçı tərəfindən avtonəqliyyat vasitəsi üçün təyin edilən yükqaldırma səddindən artıq olan avtonəqliyyat vasitələrindən başqa) şamil edilmir, hansı ki, vergilər orqanının yerləşdiyi yerdən ən yaxın 25 km radiusda yerləşən dəmiryol stansiyasına - vergilər orqanı tərəfindən təyin edilən marşrutla Gürcüstan Vergilər Məcəlləsi ilə nəzərdə tutulan yoxlanış zonasına tərəf hərəkət edir.

4. Əgər Gürcüstan ərazisinə daxil olduqda (gömrükxananı keçməklə Gürcüstan ərazisini tərk etmədən başqa) aparıcı və ya aparıcı olmayan oxunda maksimum yüklənmə 10 tondan artıq olan (bir aparıcı oxlu avtonəqliyyat vasitəsi, hansının aparıcı oxunda maksimum yüklənmə 11,5 tondan artıq olmamalıdır) və ya tam kütləsi 44 ton və ya daşınası yükün kütləsi – istehsalçı tərəfindən avtonəqliyyat vasitəsi üçün təyin edilən yükqaldırma səddindən artıq olan avtonəqliyyat vasitəsinin sahibi öz xərci hesabına artıq yükün boşaldılması/parçalanma/hissələrə bölünməsini (Gürcüstan Daxili İşlər Nazirliyi və ya Maliyyə Nazirliyinin müvafiq xidmətinin səlahiyyətli şəxsi tərəfindən göstərilən mühafizə yerində), yükün mühafizəsini və sonra nəql olunmasını təmin edir .

**Maddə 134. Yol, dəmiryolu keçidi və ya yol qurğularına qulluq etmə qaydalarının pozulması**

Hərəkətin təhlükəsizliyini təyin etmək üçün yola, dəmiryolu keçidinə və ya digər yol qurğularına qulluq etmənin təyin edilən qaydalarının pozulması, yaxud da yolun ayrı-ayrı sahəsində hərəkətin vaxtında qadağan edilməsi və ya məhdudlaşdırılması üçün ölçülərin götürülməməsi, nə zaman ki, bu yoldan faydalanmaq hərəkətə təhlükə yaradır, eləcə də yolun, dəmiryolu keçidinin və ya digər yol qurğularının və ya yol hərəkətinin nizamlanmasının texniki vasitəsinin zədələnməsi və ya yol örtüyünün çirkləndirilməsi, yolun hərəkət hissəsinə, səkiyə və ya yol çiyninə tikinti materialı və ya digər materialları atmaq, çöl ticarətini təşkil etmək, mövcud nöqsanların qarşısının alınması haqqında yol polisi tərəfindən verilən yazılı göstərişlərin yerinə yetirilməməsi, -

İstehsalatın, müəssisənin, təşkilatın rəhbəri və ya digər məsuliyyətli şəxs və ya fiziki şəxs iyirmi beşdən otuz lariyə qədər cərimə edilir.

Ümumi faydada olan avtomobil yolu yanında digər təyinatlı yolun özbaşına birləşdirilməsi, yol oxundan 100 metr yaxınlıqda və ya küçə yaxınlığındakı ərazidə hər hansı bir obyektin icazəsiz tikintisi və ya obyektin tikintisinə bağlanmış razılıq şərtlərinin pozulması, plakatların, transparantların, afişaların, reklam lövhəciklərinin, qeyri-standart yol nişanlarının icazəsiz yerləşdirilməsi, yolun özbaşına qazılması və ya işlərin aparılmasında bağlanan razılaşma şərtlərinin yerinə yetirilməməsi, yaxud da müvafiq icazə xaricində yol-nəqliyyat hadisəsi nəticəsində xəsarət dəymiş nəqliyyat vasitəsini təmirə götürmək, -

- İstehsalatın, müəssisənin, təşkilatın rəhbəri və ya digər məsuliyyətli şəxs və ya fiziki şəxs qırx beşdən əlli lariyə qədər cərimə edilir.

Bu maddənin birinci və ikinci hissəsi ilə nəzərdə tutulmuş yol hərəkəti qaydalarının pozulması və bunların nəticəsində nəqliyyat vasitəsinə, yükə, yola və ya yol qurğularına, eləcə də əmlaka və ya insan bədəninə yüngül xəsarət yetirilməsi,

- 150 lariyə qədər miqdarda cərimə edilir.

## İstifadə olunan ədəbiyyat:


- Yol hərəkətinin təhlükəsizliyi haqqında Gürcüstan Qanunu